

Fəxrəddin
Cəfərov





# erməni vəhşiliyi

63.3(2A)
C 5

FƏXRƏDDİN CƏFƏROV

# ERMƏNİ VƏHŞİLİYİ

106310

M.S.Ordubadi adına
Naxçıvan Muxtar Respublika
KİTABXANASI

BAKI - 2009

**Bu gün dövlətimiz və xalqımız qarşısında azərbaycanlılara qarşı əsrlər boyu aparılan soyqırım siyasəti haqqında həqiqətləri bütün dünyaya yaymaq, beynəlxalq ictimai fikirdə ədalətin bərqərar olmasına nail olmaq, onun ağır nəticələrini aradan qaldırmaq və bir daha təkrar olunmaması üçün ciddi tədbirlər görmək vəzifəsi durur.**

Heydər ƏLİYEV
**Azərbaycan xalqının ümummilli lideri.**

**Elmi məsləhətçi:** İsmayıl HACIYEV
AMEA-nın həqiqi üzvü,
tarix elmləri doktoru, professor

**Rəyçi:** **Rəcəb RƏHİMLİ**
Siyasi elmlər namizədi

**Ön sözün müəllifləri**
**və redaktorlar:** **Məhərrəm CƏFƏRLİ**
Filologiya elmləri doktoru;
**Rafiq BABAYEV**
yazıçı

Nəşrinə məsul: **Əziz ƏLƏKBƏRLİ**
Filologiya elmləri namizədi

**Fəxrəddin Cəfərov. Erməni vəhşiliyi.** Bakı. "Nurlan". 2009. - 186 səh.

Monoqrafiyada XX yüzillikdə Naxçıvan, Ordubad, Şərur-Dərələyəz, Zəngəzur qəzalarında və Qərbi Azərbaycanda ermənilərin azərbaycanlılara qarşı törətdikləri qırğınlar, vəhşiliklərdən və ermənilərə qarşı vuruşan qırmızı taborçulardan və polis işçilərindən danışılır, erməni vəhşilikləri ilə bağlı arxiv sənədləri öz əksini tapır.
Monoqrafiya tədqiqatçılar və geniş oxucu kütləsi üçün nəzərdə tutulmuşdur.

C 0503020907 Qrifli nəşr
098-2009

© F.Cəfərov, 2009

# YANDI BAĞRIM, DÖNDÜ KÖZƏ...

İndi nisgildi, ağrıdı, sözlərimizin ən göynəklisi, ən kədərlisidi bu adlar. İndi bu adlarda göy kişnər, bulud ağlar.

Ömrün hansı çağındasa, əhvalın hansı məqamındasa Dədə Ələsgər "Yandı bağrım, döndü közə, amandı" - demişdi. O yanıqlı səs, yəqin ki, ulu Göycənin yaddaşındadır; o səs Vedini, Dərələyəzi, Zəngəzuru dolaşır, ürəyimizin Qərbi Azərbaycan boyda yarasını göynəm-göynəm göynədir - o səs söndürülmüş ocaqları, dağılmış yurd yerlərini dolaşır, yad dildə danışan yad adamları görür, yad adlar eşidir.

Görür ki, yanan indi yağı əlindəki min illik yurd yerlərimizin bağrıdı; yana-yana közə dönüb.

Görür ki, soyuq qış günlərində müsibətlərin, məşəqqətlərin ən çılpağı, ən yandırıcısı ilə üz-üzə qalan doğmalarımız Qərbi Azərbaycandan qovulanda onlara Dədə Ələsgərin sözü də qoşulmuşdu; sözlər də soyuğa düşdülər, şaxta o sözlərin də "gül üzünü" qarsaladı, onlar da dondular, onlara da güllə dəydi. Ala gözlərdən yaş süzüləndə sözlərin də "gözləri doldu". O gözü yaşlı sözlər elə hey bizləri çağırır.

Dədə Ələsgərin bu sözlərində puçurlanan göz yaşlarını qurutmağa aradan keçən uzun illərin zoru çatmayıb. Hər söz gözlərdən axıb selə dönən göz yaşıdırsa, qanı sızan dərdlərdən baş alıb gəlibsə, aldanışların, ağrıların, əzabların qanı çıxıbsa sözün üzünə, təkliyin, tənhalığın içində qovrulanda, hədələrin, işgəncələrin, ölümlərin soyuq sifətinə baxanda bu sözlər ulu yaradana dua kimi pıçıldanıbsa - inanma o göz yaşları quruya...

Tarix elmləri namizədi Fəxərddin Cəfərovun arxiv sənədlərinə əsaslanan bu kitabı ilə üz-üzə qaldıqca fikirləşirsən ki, bu sənədlərin üzü çox sərtdi, bu sənədlərin sözü yaman ötkəmdi, onların özü bütövlükdə dəhşətdi - iyirminci yüz il başlarbaşlamaz Azərbaycan türkünə qarşı müxtəlif yerlərdə ölçülüb-biçilmiş dəhşətlər...

İndi oxuyursan bu kitabı, nəyisə soruşmağa gücün, taqətin çatmır; bilirsən ki, bütün bunlar soruşmaq üçün deyil, bu sözlərin qabağında ancaq səssiz-səmirsiz baş əyə bilərsən, soydaş-

larımızın çəkdikləri o əzabların qarşısında boğazında düyünlənmiş qəhər yumruqlarını düyünləndirir.

"Ərzaq ehtiyacı - bu, aclıq və məhv olmanın çox yüngül izahıdır, bu insanların ölü heyvanları parçalayıb yeməsi, zibillikləri dağıtması, çürümüş yemək qalıqlarını yeməsi, heyvan kimi çəmənlikdə ot və kökləri ilə qidalanması vəziyyəti izah etmək üçün çox ədəbli sözdür və bu, 1918-ci ilin fevral ayından başlayıb" - bu cümlələr Azərbaycanın o dövrdə Ermənistandakı diplomatik nümayəndəsi M.Təkinskinin məktubundandır; bu vətənpərvər, cəfakeş diplomatın kitabda fransız, ingilis, erməni hökumətlərinə göndərilmiş onlarla məktub və teleqramları ilə tanış olduqca damarlarında qanın donur, erməni terrorunun tüğyan etdiyi bir vaxtda ömrü bahasına bu cür mərdlik, qeyrət, vətənpərvərlik göstərən milli diplomatiyamızın özünə və sözünə heyran qalırsan.

Bu kitab "Erməni vəhşiliyi" adlanır, ilk baxışdan onu da fikirləşirsən ki, köhnə, necə deyərlər, "çağırılmış bayatıdır"; amma kitabı oxuduqca hiss edirsən ki, onu başqa cür adlandırmaq da olmazdı.

Gorus kənd sakini Həsən İbrahimovun xatirəsi bu kitabda verilib; ermənilər əsir aldıqları Həsəni öldürməyə aparanda "gecə saat 11 olardı. Məni kənd içi ilə aparırdılar. Kəndin qırağında uca divarlı bir bağça var idi. Biz ora yaxınlaşanda boğuq səslər eşitdik: "Siz Allah, doğramayın, güllə ilə vurun". Demə, bu öldürülənlər Alışar kəndindən olan 5 nəfər cavan oğlan imiş. Bunlar məni də həmin yerə aparmaq, qılıncla doğramaq istəyirmişlər. Vəhşilik o həddə çatmışdı ki, ermənilər bizə güllə ilə olan ölümü də çox görür, qılıncla doğrayıb əzabımızdan həzz almağı üstün tuturdular".

Bu isə Cəbrayıl qəzasından 1920-ci ildə müəllim Hüseyn Axundzadənin teleqramındandır: "Qətlə yetirilmiş Zəngəzur müsəlmanlarının ah-nalələri dağlar, dərələr arasında qaldı, heç yerə çatmadı. Onların köməyinə heç kəs gəlmədi. Qadınların döşləri kəsilmiş, uşaqların başları kəsilmiş, qanlı bədənləri yerdə qalıb".

Düz 70 il sonra - Bakıda Yanvar qırğınında deyilən "hər gün Aşuradı, hər yer Kərbəla" sözlərini bu kitabı oxuduqca

min bir ağrı içində təkrar-təkrar yada salırsan.

İndi bu kitabın hər cümləsində minlərlə ömrün solmaz yarpaqları üstünə qanla yazılan yazıların şahidi olursan.

Abbasqulu bəy Şadlinskini, onun taborçularını ehtiramla xatırlayırsan. Qeyri - bərabər döyüşlərdə ayrılıqların üstündən keçib son nəfəsəcən vuruşan oğullarımızı yada salırsan.

Düşmənə qarşı döyüşlərdə nəsillərə örnək göstərən polis işçilərimizlə qürur duyursan.

Bu kitab onların barəsindədir. Böyük Vətən, solmaz Vətən sevgisi barəsində.

Hər bir azərbaycanlı dünyanın harasından baxsa, qəlbindəki Vətən sevgisi ilə o Böyük Vətəni görəcək. Unutmayacaq ki, o Vətənin bir parçası indi yaralı nəğmələr, sınıq misralar pıçıldayır. O çeşmələrdən gözəllər yığnağının ayağı hələlik kəsilib, ağır-ağır ellərimiz "qüdrətdən səngərli, qalalı dağlardan" hələlik ayrı düşüb.

Hərdən özümüzü unutqanlıqda, yaddaşsızlıqda qınayırıq. "Erməni vəhşiliyi" kitabını oxuduqca onu da fikirləşirsən ki, zaman sovet hökumətinin gəlişi ilə ermənilərin xeyrinə işlədi. 1905-1920-ci illərin qanlı hadisələrini xalqımız unutmadı; sovet dönəmində yad rejimin yabançı ideologiyası onu unutdurmağa yönəldildi...

*Dədə Ələsgər isə deyirdi:*
*İnsafdırmı, gülə həmdəm xar ola?!*
*Tülək tərlan ovlağında sar ola?!*
*O ovlaqlar öz tərlanlarını gözləyir...*

*M. CƏFƏRLİ,*
*filologiya elmləri doktoru, professor.*
*R.BABAYEV,*
*yazıçı.*

# MÜQƏDDİMƏ

Dünyada elə faciələr var ki, heç bir zamana və məkana sığışan deyil. Bunlar bütün xalqların, bütün zamanların faciəsidir. Öz mahiyyətinə görə, XX yüzilliyin əvvəllərindən başlayaraq 90-cı illərin əvvəllərinə kimi Azərbaycanın bir çox bölgələri ilə yanaşı Naxçıvan, Şərur-Dərələyəz, Ordubad və Zəngəzur qəzalarında ermənilərin azərbaycanlılara qarşı törətdikləri etnik təmizləmə, soyqırım tarixin ən qanlı səhifələrindəndir.

Erməni daşnakları İrəvan quberniyasında 211, Zəngəzurda 115, Qars əyalətində 92, İqdır və Eçmiədzin qəzalarında 60, Göycə quberniyasında 22, Sürməli qəzasında 96, Yeni Bəyaziddə 84, Şərurda 76, Vedibasarda 118, Dərələyəzdə 74 kəndi yerləyeksan etmiş, yandırmış və əhalisinin çoxunu qırmışlar. Daşnaklar həmin illərdə Qərbi Azərbaycanda qədim ata-baba yurdlarında yaşayan 565 min azərbaycanlını məhv etmişlər.[1]

1918-1920-ci illərdə təkcə Naxçıvan bölgəsində Andranik Ozanyan, Dro, Nijde, Gippon, Doluxanov kimi erməni daşnakları tərəfindən yerli əhaliyə qarşı vəhşiliklər törədilmiş, təkcə Gilançay və Əlincəçay hövzəsində 80-dən artıq kənd viran qoyulmuş, əhalisi isə amansızlıqla qətlə yetirilmişdir.

Ərzurumda nəşr olunan "Kaf dağı" adlı qəzet Türkiyə qaynaqlarına əsaslanaraq məlumat vermişdir ki, 1918-1921-ci illərdə Naxçıvan bölgəsində ermənilər tərəfindən 73.727 nəfər azərbaycanlı ən vəhşi formalarda öldürülmüşdür. Təsadüfi deyildir ki, 1921-ci ildə Naxçıvan bölgəsinin əhalisinin sayı azalaraq 72 minə enmişdir.2.

Kitabın "Abbasqulu bəy Şadlinski və silahdaşları" başlıqlı ikinci bölməsində 1918-1921-ci illərdə erməni daşnaklarına qarşı qırmızı taborun komandiri A.Şadlinskinin rəhbərliyi ilə vuruşan oğlan və qızlarımızın həyat və fəaliyyətindən bəhs edən oçerklər verilmişdir.

Müxtəlif zəngin arxiv sənədlərindən, dövrü mətbuat materiallarından və qırmızı taborçuların xatirələrindən istifadə edilə-

---

1. "Naxçıvan", İctimai-siyasi, ədəbi-bədii elmi-publisistik jurnal. Nax. 2001. səh. 41.

2. Yenə orada. səh. 42.

rək maraqlı, geniş oxucu kütləsinə məlum olmayan və yaxud çox az məlum olan tarixi faktlarla zəngin oçerklər hazırlanmışdır.

Naxçıvan MR Dövlət arxivində 1918-1921-ci illərdə İrəvan quberniyasında, istərsə də Naxçıvan, Şərur-Dərələyəz və Ordubad bölgələrində baş vermiş qırmızı partizan hərəkatına dair və Abbasqulu bəy Şadlinskinin komandirlik etdiyi "Qırmızı tabor"un mərd döyüşçülərinin mühafizə edilən şəxsi işləri, taborun 200-dən çox döyüşçüsünə Naxçıvan MSSR-in "Qırmızı partizan"ı adı verilməsi haqda təmizlik seçki komissiyasının 1930-1934-cü illərə dair iclas protokolları, qəbul etdikləri qərarlar və digər arxiv sənədlərinə rast gəlirik. Bunlar əsasən "Qırmızı tabor" döyüşçülərinin erməni daşnaklarına qarşı döyüşlərdə göstərdikləri igidlik və şücaətləri, həmçinin qırmızı partizanlardan 19 nəfərinin "Qırmızı bayraq" ordeni ilə təltif olunması ilə bağlı sənədlərdir.

Ermənilərə qarşı igidlik göstərən bir çox qırmızı partizanın həyat və fəaliyyəti barədə qısa bioqrafik oçerk yazmağı lazım bildik.

Oxuculara təqdim olunan bu yeni kitabda daşnaklara qarşı 1918-20-ci illərdə mərdliklə vuruşub, Naxçıvanın "qırmızı partizanı" adına layiq görülmüş polis işçiləri - B.Rəsulov, M.Səfərov, N.Məmmədov, Ə.Məmmədov, T.Qənbərov, S.Abbasov, Y.Məmmədov, H.Mirzəxanov, G.Məmmədov, İ.Bağırov və başqaları haqqında oçerklər, ensiklopedik məlumatlar verilmişdir.

Tarix və xalq onları unutmur. Onların adları Naxçıvan polisinin şərəf salnaməsinə qızılı xətlərlə yazılmışdır.

Bunu yazmaqda əsas məqsəd babaların, ataların oğuz yurdunda apardığı rəşadətli mübarizəni işıqlandırmaq, nəcib işin əhəmiyyətini gənc nəslə çatdırmaqdan ibarətdir. Tarix bizdən uzaqlaşdıqca, babalarımızın keçmiş olduğu şanlı qəhrəmanlıq yolu, onların vətənpərvərlik ruhu gələcək nəsillər üçün örnək məktəbi kimi yaşamalıdır.

Kitabın üçüncü bölməsi erməni vəhşilikləri ilə bağlı arxiv sənədlərini əhatə edir. Bu bölmədə xüsusi ilə Gürcüstan, Ermənistan, Azərbaycan və Naxçıvan MR Dövlət arxivlərindən toplanmış sənədlərin, yəni erməni daşnaklarının İrəvan quberniyasında, Naxçıvan, Şərur-Dərələyəz, Ordubad və Zəngəzur qəzalarındakı vəhşilikləri, törətdikləri qarət və soyqırımla bağlı sənədlərin surətləri oxuculara olduğu kimi çatdırılmışdır.

## XX ƏSRDƏ ERMƏNİLƏRİN AZƏRBAYCANLILARA QARŞI SOYQIRIMI

Ümummilli liderimiz H.Əliyev cənablarının "XX əsrdə ermənilərin azərbaycanlılara qarşı soyqırımı" haqqında 1998-ci il 26 mart tarixli fərmanı bütün zamanlar üçün müstəsna əhəmiyyət daşıyan mühüm dövlət sənədidir.

Əsasən ermənilərin İrəvan quberniyasında, Naxçıvan, Şərur-Dərələyəz və Ordubad qəzalarında törətdikləri etnik təmizləmə, soyqırım və vəhşiliklər Azərbaycan tarixinin öyrənilməmiş səhifələrindən biri kimi hazırda ciddi maraq doğurur və geniş tədqiq olunmağa möhtacdır.

Məhz bu baxımdan xalqımızın bütün təbəqələri ulu öndərimizin fərmanını çox böyük tarixi siyasi əhəmiyyəti olan sənəd kimi qiymətləndirir. Bu sənəd dövlətimizin başçısının yurdumuzun tarixinə, xalqımızın tarixinə son dərəcə bağlılığına bir daha sübutdur.

Deyilən Azərbaycan torpaqlarının türksüzləşdirilib erməniləşdirilməsi məqsədilə XIX əsrdə, istərsə də XX əsrdə ermənilərin sözlə ifadə edilə bilməyəcək qədər çox ağır cinayətkar aksiyalarına dair Azərbaycan və eləcə də Naxçıvan Muxtar Respublika dövlət arxivlərində çoxlu sənədlər aşkar edilərək üzə çıxarılmışdır və olduğu kimi yazılaraq xalqımıza çatdırılır.

Sənədlərdən aydın olur ki, Azərbaycan torpaqlarından azərbaycanlıların çıxarılması və burada ermənilərin yerləşdirilməsinə XX əsrin əvvəllərindən deyil, məhz XIX əsrin əvvəllərindən başlanmışdır. Məsələn, 1813-1828-ci illərdə Gülüstan (12 oktyabr 1813-cü il) və Türkmənçay (10 fevral 1828-ci il) müqavilələri əsasında azərbaycanlıların xeyli hissəsi İrəvan xanlığından qovuldu və onların yerinə 10 min nəfər erməni (bunların 2551 nəfəri Naxçıvan əyalətində - F.C.) yerləşdirildi. 1828-1830-cu illərdə Güney Qafqaza İrandan 40 min nəfər, Türkiyədən isə 84 min 600 nəfər erməni köçürülüb gətirilmişdir. [1]

---

1. A. Paşayev "Açılmamış sənədlərin izi ilə", Bakı 2001, səh. 157

Köçürülüb gətirilən ermənilər üçün heç bir hazırlıq işi görülmədiyindən, onlar rus kazakları vasitəsi ilə yaylaqda olan azərbaycanlıların evinə zor gücünə doldurulur. O biri tərəfdən isə aranda qalan müsəlmanların evləri zorla alınıb ermənilərə verilirdi. Evsiz - eşiksiz qalan azərbaycan türklərinə qarşı vəhşiliklər belə başlandı.

Ermənilərin Azərbaycanda və istərsə də Naxçıvan qəzasında yerləşdirilməsi rus imperiyası və eləcə də erməni mafiyasının gələcək 1905-1907 və 1918-1920-ci illərin soyqırımı, azərbaycan xalqının öz yurdlarından qovulması və kəndlərimizin yandırılıb dağıdılması ilə bağlı siyasətin ilk mərhələsi idi.

Araşdırılan arxiv sənədlərindən məlum olur ki, Naxçıvan qəzasında 1828-ci ildə 2185 nəfər erməni və qeyri - millətlər olduğu halda 1897-ci ildə ümumi əhalinin 136536 nəfərdən 90397 nəfəri azərbaycanlı 44604 nəfəri erməni və 1535 nəfəri qeyri - millətlərdən olmuşdur.[1]

Ermənilərin Qafqazda məskunlaşması onların "Böyük Ermənistan" imperiyası yaratmaq arzularını daha da artırdı. Bu məqsədlə də azərbaycanlıları doğma Göyçə mahalından, Dərələyəz, Qəmərli, Zəngibasar və sair mahallardan sıxışdırıb çıxardılar. Ermənilərin çirkin əməllərindən istifadə edən Çar Rusiyası 1905-1907-ci illər inqilabı dövründə imperiyanın bir sıra yerlərində olduğu kimi Zaqafqaziyada da milli qırğın törətməyə başladı. Ərazi iddiasında olan ermənilərə arxa durub onları azərbaycanlılara qarşı çevirdilər.

1905-1906-cı illərdə ilk erməni müsəlman toqquşması Bakıda baş vermişdir. Bakıdan sonra 1905-ci ilin may-iyun aylarında hadisələr İrəvan, Naxçıvan, Ordubad, Cəbrayıl və Füzulini də əhatə etdi.

1905-ci iln may ayından başlayaraq Naxçıvan qəzasında ermənilərin azərbaycanlılara qarşı qırğınları başladı.

19 may 1905-ci il tarixdə Ordubad qəzasının Tivi kəndində ermənilərlə müsəlmanlar arasında baş vermiş münaqişə ilə əlaqədar Ordubad rus hərbi hissəsinin komandiri kapitan Prixnya Peterburq Ali Baş Ştabının ünvanına göndərdiyi 20 may

---

1. Nax. MRDA f. 32, s.1, iş 22, v.1-7

1905-ci il tarixli teleqramda yazırdı: "Tivi kəndində xalqlar arasında baş verən hərc - mərcliklə əlaqədar kömək məqsədilə oraya 33 nəfər zabit göndərildi."[1]

Məlum olur ki, bu hərbi hissə sən demə oradakı müsəlmanları qırmaq və öz yurdlarından qovmaq üçün ermənilərə kömək məqsədilə göndərilmişdir.

17 iyun 1905-ci ildə Naxçıvan qəzasının Zeynəddin kəndində ermənilərlə müsəlmanlar arasında baş vermiş münaqişə ilə əlaqədar Naxçıvanda yerləşən Qafqaz atıcı batalyonunun komandiri 18 iyunda Baş Ştaba göndərdiyi raportunda yazır: "Ermənilərlə müsəlmanlar arsında baş vermiş münaqişələrin aradan qaldırılmasında vətəndaş hakimiyyətinə kömək etmək məqsədilə, mənə həvalə edilmiş Naxçıvan şəhərində yerləşən batalyon 17 iyun tarixdə axşam 8-də silah işlətməyə məcbur olub, nəticədə Zeynəddin kəndinin 20-dən çox müsəlman sakini öldürülmüşdür..."[2]

Həmçinin başqa bir raportda həmin ilin iyul ayının 5-də Nors kəndində ermənilərlə müsəlmanlar arasında olan münaqişədə rus kazaklarının ora göndərilməsi nəticəsində dağlarda gizlənib ermənilərdən özlərini müdafiə edən Nors kəndinin sakinlərindən 4 nəfərinin öldürüldüyü və 11 nəfərin yaralandığı haqda məlumat verilirdi.[3]

Bunu unutmayaq ki, göndərilən raportlarda bir nəfər də olsun ermənilərdən öldürüldüyü qeyd olunmur. Deməli rus kazakları ermənilərə kömək məqsədilə göndərilmiş, ermənilərlə birləşib müsəlmanları qırmışlar.

Ermənilərin Naxçıvanda törətdikləri qırğınlar Ordubad, Cəhri, Şıxmahmud, Kültəpə, Əliabad, Çeşməbasar, Tivi, Tumbul və onlarla başqa yaşayış yerlərini də əhatə etdi. Kazakların köməyindən istifadə edən ermənilər 1905-ci ilin noyabrın 26-da Naxçıvan şəhərindəki müsəlman bazarını tamam qarət etdikdən sonra od vurmuşlar. Yanğın nəticəsində bazarda 85 dükan, 75 anbar və başqa tikililər yanıb məhv olmuşdur.[4]

---

1. MDHTA f. 400, siy.5, iş 4, v. 416
2. Yenə orada v. 793
3. Yenə orada v. 817
4. Nax MRDA f. 26 m, s. 1, iş 25, v. 78-84

Sənədlərdən məlum olur ki, 1905-1907-ci illərdə Naxçıvan, Şərur-Dərələyəz və Ordubad bölgələrində rus imperiyası və Tiflis daşnak şurası rəhbərlərinin himayəsi ilə yerli erməni daşnakları tərəfindən böyük qırğınlar törədilmişdir.

Təxminən iki ilə qədər davam edən qanlı toqquşmalar nəticəsində Azərbaycanın şəhər və kəndlərinə böyük zərər dəymiş, 300-dən çox müsəlman kəndi dağıdılmış, yandırılmış və əhalisi qılıncdan keçirilmişdir.

Araşdırılan arxiv sənədlərindən məlum olur ki, Naxçıvan ölkəsinə ermənilərin təcavüzü XX əsrin əvvəllərindən başlayaraq 90-cı illərin əvvəllərinə kimi bir neçə dəfə olmuşdur.

Xüsusilə 1918-1920-ci illərdə ermənilərin Naxçıvan, Şərur-Dərələyəz və Ordubad bölgələrinə təcavüzü və bu qəzalarda törətdikləri ağır cinayətləri daha dəhşətli idi. Müsəlmanların qılıncdan keçirilməsi, evlərə doldurularaq yandırılması, kəndlərin talan edilməsi, müsəlmanların öz yurdlarından didərgin düşmələri, mühasirədə olmaları barədə artıq əlimizdə çoxlu faktlar vardır.

Erməni daşnaqları əsrin əvvəllərində özlərinin qanlı ideyalarını həyata keçirərkən dünyanın müxtəlif yerlərindən muzdla tutulmuş könüllü ordu yaratmış və ondan istifadə etmişdir.

1905-1907-ci illərdə olduğu kimi ermənilər hələ 1917-ci ilin dekabr ayının axırlarından başlayaraq İrəvan quberniyasında və Naxçıvan qəzasında soyqırıma başlamışdılar.

1918-ci ilin yanvarın 17-də Naxçıvan qəzasının Əznəbürd kəndində ermənilər tərəfindən həmin kənddə yaşayan 22 nəfər müsəlman qadın və kişi qətlə yetirilmişlər. Ümumiyyətlə, 1918-ci ilin əvvəllərindən başlayaraq Tiflis daşnak şurasından Naxçıvana göndərilmiş Xorazyan başda olmaqla yerli daşnak erməniləri həm şəhərdə, həm də Naxçıvan qəzasının bir çox kəndlərində müsəlman əhalisinə basqınlar etmiş, neçə-neçə günahsız insanları qətlə yetirmişlər.

1918-ci ilin martın 18-21-nə kimi ermənilər Əlincəçay boyunca Bənəniyar, Qızılca, Saltax, Noraşen, Xoşkeşin və sair kəndlərə hücumlar edərək, kəndləri yandırmış, qarət etmiş, əhalisini vəhşiliklə qətlə yetirmiş, canlarını qurtaranlar isə öz ocaqlarını tərk edərək qonşu kəndlərə, Naxçıvan şəhərinə qaçmışlar.

Ermənilər tərəfindən törədilən qanlı cinayətlərin aradan

qaldırılması üçün 15 mart 1918-c il tarixdə Maku sərdarı Murtuzaqulu xan müsəlmanlarla ermənilər arasında sülh bağlanılması üçün erməni Milli Komitəsinin adına və Cəfərqulu xan Naxçıvanskinin adına məktub göndərir. Məktubda göstərir ki, sülh bağlanmasa günahkar tərəf qoşun bölüyü tərəfindən atəşə tutulub məhv ediləcək.

Lakin erməni daşnaqları başda Y. Xaraziyan olmaqla (erməni Milli Komitəsinin sədri-F. C.) bu məktubu heç də saya almayaraq Naxçıvan bölgəsinin bir çox kəndlərində yerli erməniləri müsəlmanlara qarşı qanlı cinayətlərə qaldırırlar. Naxçıvan qəzasının Qaraxanbəyli kənd erməniləri 31 mart 1918-ci ildə azərbaycanlılara atəş açmağa başlayırlar. Bu vuruşmada müsəlmanlar 25 nəfər tələfat verir və döyüş meydanından meyitləri çıxarda bilmirlər.

Aprelin 3-də müsəlman Milli Komitəsinin sədri Mirzə Nəsrulla Əmirov erməni Milli Komitəsinə müraciət edərək meyitlərin verilməsini tələb edir və 6 meyit ermənilərdən alınır. Gətirilən meyitlər ermənilər tərəfindən tanınmaz hala salınmış, yandırılmış, hətta Məşədi Rəhim Babayevin başını kəsmişlər. Şəhid olanlar Hacı Məhəmməd Quluzadə, İbrahim Xəlil Hacızadə, Kərbəlai Abdulla Nehrəmli, Kərbəlai Əli Sənəm oğlu, Muxtar Hacı Bəyzadə və başqaları idi.[1]

Sənədlərdən aydın olur ki, 1918-ci ilin əvvəllərindən başlayaraq 1920-ci ilin iyul ayına kimi Andranik Ozanyanın, Nıjdenin, Dronun, Kibbonun, Doluxanovun və başqalarının başçılıq etdiyi erməni quldur dəstələri tərəfindən təkcə İrəvan quberniyasında 200-dən artıq və Naxçıvan, Şərur-Dərələyəz və Ordubad qəzasında 50-dən artıq müsəlman kəndlərinə basqınlar etmiş, dağıdılmış, yandırılmış, kənd əhalisinin çoxu öldürülmüş, canlarını qurtaranlar isə öz yurdlarından didərgin düşmüşlər.[2]

18 iyun 1918-ci ildə Naxçıvan ikinci mahalın polis komissarı Məşədi Hüseyn Salmanova polis məmuru Məşədi Abbas Zalov tərəfindən yazılmış məktubda Nurs və Qarababa erməniləri tərəfindən Nurs kəndinin sakinlərindən Şəkərəli Məşədi

---

1. M.B.Əliyev. Qanlı günlərimiz Bakı 1993. səh. 23.
2. Nax MRDA f. 314. s.5a. iş 74. v.103-105

Əmir oğlunun, Şahbuzdan Səfər Məmmədqulu oğlunun, Hüseynəli Heydər oğlunun, Bahar Əsgər qızının və Məhərrəm İmamqulu oğlunun tutulub Qarababa kəndinə aparılmaları haqda məlumat verilməklə, göstərilirdi ki, ermənilər Kolanı və Gəcəzur kəndlərindən at və ulax oğurlayıb aparmış, 14 nəfər müsəlmanı öldürmüşlər.

Ermənilərin bu cinayətləri ilə bağlı Naxçıvan qəza Milli Komitəsi həmin gün, yəni 18 iyunda keçirdiyi yığıncaqda Milli Komitənin sədri Məmmədquluxan Diyarbəkirin təklifi ilə erməni milli komitəsindən əsir aparılmış müsəlmanların azad edilməsi və müsəlmanları öldürən erməni cinayətkarlarının tutulub müsəlman milli komitəsinə təhvil verilməsi haqda ultimatum məktubu göndərilməsini qərara alır.

Həmçinin yığıncaqda qəza və şəhərdə ermənilər tərəfindən törədilən cinayətlərin qarşısının alınması və asayişin bərpa edilməsinə dair qəza və şəhər polis idarələrinə lazımi əmrlər verilir.[1]

Xüsusilə Naxçıvan qəzasına soxulan Andranik Ozanyanın başçılıq etdiyi erməni quldur dəstələri Naxçıvandan başlayaraq Zəngəzur və Şuşayadək olan ərazini ələ keçirməyə çalışırdı.

Andranikin ilk təcavüzü Naxçıvan qəzasının Araz çayı kənarında yerləşən Yaycı və Aşağı Aza kəndlərinə olmuşdur. Ermənilər Yaycı kəndində 4000 nəfərdən çox müsəlman əhalisini qırmışlar. Yaycı hadisələri ilə bağlı Nehrəm kənd əhli Tağı Nağdəliyev 14 iyun 1918-ci ildə Naxçıvan Milli Komitəsinin sədri Mirzə Nəsrulla Əmirovun adına göndərdiyi məktubunda yazırdı: "Məlum edirəm ki, Andranikin dəstəsi İrandan Araz körpüsündən keçərək Yaycı kəndinə girmiş, həmin kəndin əhalisini qılıncdan keçirərək kəndi tarımar etmişdir. Camaldın və Ərəzin kəvşəninə isə erməni qoşunları dolubdur. Lazımi sərəncam verməkdən ötəri xəbər edirəm ki, Nehrəm kəndi qorxu içərisindədir."[2]

18 iyul 1918-ci il tarixdə Tiflis sosial-demokrat bolşeviklər partiyasının orqanı olan "Borba" (mübarizə) qəzetində "Andranik haradadır" başlığı altında gedən yazıda göstərilir: Bu

---

1. M.B.Əliyev. "Qanlı günlərimiz. 1993, səh. 58
2. Əliyev M.B. Qanlı günlərimiz. Azərnəşr, Bakı 1993. səh. 56.

yaxınlarda Culfadan gəlmiş Amerika xəstəxanasının iş icraçısı O.Arutunyan təsadüfən Andranikin yanında olmuşdur. Onun dedikləri: "İyunun əvvəllərində Andranik öz dəstəsilə 800 əsgər, 4 top, 6 pulemyot və hərbi sursatla Yerevandan yola düşmüş və 21 iyunda 2 saatlıq yüngül döyüşdən sonra Culfaya girmişdir. Növbəti gün o, döyüşsüz olaraq fars (İran) Culfasının yolunda olan körpünü almışdır.

Bundan sonra Andranik Xoya hərəkət etmişdir. Yol boyu o, bir tatar (azərbaycan) kəndi yanında böyük türk hissəsi ilə qarşılaşmış, ona qalib gələrək 4 zabit, 200 əsgər əsir götürmüş, 2 top, 3 pulemyot qənimət götürərək qaçqınları təqib etmişdir.

24 iyunda o, Xoyu əhatə etmiş və türk qarnizonuna təslim olmağı təklif etmişdir. Türklərin lazımi sayda topu və pulemyotu olmadığına görə onlar təslim oldular. Andranik Xoyun bir hissəsini və yüksəklikləri tutdu.

Andranik Xoya girən kimi məlum oldu ki, o, türklər (türklərin hərbi hissəsi - F.C.) tərəfindən mühasirəyə alınıb. Aydın oldu ki, türklər 12000 əsgərlə Xoya hərəkət edir.

Andranik özününkülərə əmr etdi ki, tez geri çəkilib Culfa şosesini tutsunlar. Geri çəkilən zaman Andranik döyüşə girişdi, 125 əsgər və atını itirdi.

Culfa yaxınlığında Yaycı tatar (müsəlman) kəndində Andranik 100 rus əsgərini azad etdi. Yaycılılardan 3 top, 4 pulemyot və 4 milyon güllə (patron) qənimət götürdü.

O, Arutunyanın dediyinə görə Andranik 10-12 gün bundan əvvəl öz dəstəsilə Bakıya getmək qərarına gəlmişdir..." [1]

17 avqust 1918-ci il tarixdə "Borba" qəzeti yazırdı: "...Yaycı kəndi darmadağın edilib, əhalisi qılıncdan keçirilmişdir." [2]

"Borba" qəzetində "Andranik" başlığı ilə olan yazıda isə (17 avqust 1918-ci il-F. C.) göstərilirdi ki, Ordubaddan gəlmiş şəxs (adı, soyadı göstərilmir-F. C.) erməni diplomatik missiyası yanında məlumat bürosuna aşağıdakıları bildirdi: "İyunun əvvəllərində Araz vadisində Andranikin dəstəsi peyda oldu. O, ingilislərlə birləşmək üçün Culfaya girdi. Yaycı kəndi onun dəs-

---

1. "Borba" qəzeti 18 iyul 1918-ci il, № 120
2. "Borba" qəzeti 17 avqust 1918-ci il, № 145

təsini buraxmaq istəmirdi və Yaycı kəndi darmadağın edildi. Bundan sonra Andranik Çənnəb kəndində və dağlarda yerləşdi. İyunun axırında məlumat alındı ki, türklər Naxçıvana hücum etdilər. Andranikin dəstəsi onlarla (türklərlə-F. C.) döyüşə girişdi. On iki günlük döyüşdən sonra Andranik Əbrəqunus kəndinə çəkildi, lakin orada da dayana bilmədi... Mən bura gələrkən bir neçə gün bundan əvvəl Andranikin türklərlə döyüşünün şahidi oldum. Döyüş Aza kəndinin ətrafında gedirdi. Nəticəsinin nə olduğunu bilmədim."[1]

Yaycı kənd sakini V. Hüseynov xatirələrində yazır: "Xalqımıza qarşı ermənilər tərəfindən 1918-ci ildə törədilən soyqırımı bizim kəndimizdən, o cümlədən bizim ailəmizdən də yan keçməmişdir. Həmin vaxt sübh tezdən kəndimizə hücum edən erməni yaraqlıları gecənin qaranlığında qarşılarına nə çıxırdısa vurub dağıdır, qocalar və uşaqları xəncərdən keçirir, başlarını kəsirdilər.

Həmin gecə yüzlərlə ağbirçək anaların saçları qana bulandı, igid oğulların başı diri-diri kəsildi, gözləri çıxarıldı, dilsiz körpələrin bədəni güllələrlə deşik-deşik edildi. Gözləri qızmış, insan qanı içməkdən doymayan erməni daşnaqları mənim anamı, dörd qardaşımı, iki bacımı vəhşicəsinə öldürərək Araz çayına tökdülər. Bəli, ermənilərin törətdikləri belə vəhşilikləri saymaqla qurtarmaz."[2]

T.Nağdəliyev məktubda göstərdiyi kimi bir neçə gündən sonra Andranikin qoşunu Çeşməbasar kəndindən Naxçıvan qəzasının ən çox əhaliyə malik olan Nehrəm kəndini mühasirəyə alır. Lakin nehrəmlilər Hacı Mehdi və Kərbəlai Muxtar Cəfərzadənin başçılığı ilə qanlı döyüşə girərək erməni qoşunlarını kəndə buraxmamış, 3-günlük döyüşdən sonra Andranikin qoşunu xeyli tələfat verərək geri çəkilmiş və Naxçıvan şəhərinin şimalında hərbi düşərgə qurmuşdur.

Andranikin Nehrəmə hücumu haqqında Nehrəm taborunun iştirakçısı və qırmızı partizan Heydərqulu Həsənov öz xatirələrində yazırdı: "Andranikin qoşunları ilə əsas döyüş İmamzada tərəfdə gedirdi. Andranik cəhd edirdi ki, Nehrəm

---

1. "Borba" qəzeti 17 avqust 1918-ci il, № 145

2. "Naxçıvan", İctimai-siyasi, ədəbi-bədii elmi-publisistik jurnal, №5. Nax.2001. səh.125-126.

kəndinin kənarından keçib Təzəkənddə toplaşan 300 nəfərlik daşnaq silahlı dəstəsi ilə birləşsin. Lakin nehrəmlilər buna imkan vermirdi. Yaxşı silahlanmış dəstələrimizin tabor komandanı Kərbəlai Muxtar əlində mauzer, kəhər atın belində məhəllələri gəzir, əhalini döyüşə qaldırır, atəş nöqtələrinə patron, çörək, su çatdırırdı." [1]

Qəza daxili işlər polis komissarı Məhəmmədəli xan Naxçıvanski və şəhər polis komissarı Abbasqulu bəy Tahirov Andranikin Güznütdən

Naxçıvana gəlmə xəbərini eşitdikdə 28 iyun 1918-ci il tarixdə Naxçıvan qəza Milli Komitəsinə gələrək verilən məlumatı komitəyə bildirdilər. Həmin gün Milli Komitənin keçirdiyi yığıncaqda Andranikin Naxçıvan şəhərinə yürüşünə dair məsələ müzakirə edərək bütün polis məmurlarına, həmçinin polis komissarlığı nəzdində təşkil olunmuş qırmızı qvardiya dəstələrinə göstəriş verildi ki, şəhərin müdafiəsi üçün səngərlər qurulsun və müdafiə üçün lazımi tədbirlər görülsün.

Naxçıvan şəhərinə yürüş edən Andranikin quldur dəstələri Əlincəçay boyunca olan müsəlman kəndlərinə hücum edərək əhalini demək olar ki, tamamilə qıraraq, kəndləri yandırmışdır. Xüsusilə 1918-ci ilin iyun ayının axırlarında Xanağa kəndinə hücum edən erməni qoşunları kənd əhalisini bütövlüklə qılıncdan keçirmişlər. Kənd əhalisindən canlarını qurtaran 2 nəfəri iyul ayının 1-də Naxçıvana gələrək qəza polis komissarı Məmmədəli xan Naxçıvanskiyə bu faciə haqda verdiyi məlumatlarında göstərirdilər ki, Andranikin quldur dəstələri kəndimizə hücum edərək kənd sakinlərini qırmış, əhalinin qismən hissəsi dağlara qaçaraq öz canlarını xilas etmişdilər.

Bu faciə ilə bağlı Məmmədəli xan Naxçıvanski Şahtaxtında yerləşən Türkiyənin IX alay komandiri Xəlil bəyə telefon edərək bildirdi ki, Naxçıvan şəhərində bütün polis məmurları, o cümlədən yerli müdafiə dəstələri qurulmuş səngərlərdə müdafiə xəttində dururlar.

Naxçıvan şəhərini mühasirədə saxlayan Andranik şəhər əhalisinin təslim olmasını və silahların yığılıb verilməsini tələb

---

1. Nax. MRDA f. 582, s. 1, iş 40, v. 114.

etmişdir. 1918-ci il iyulun 2-də Andranikin Naxçıvan şəhər əhalisinə təslim olması barədə ultimatumu erməni Milli Komitəsinin sədri Xarazyan tərəfindən Naxçıvan Milli Komitəsinə təqdim edilmiş və 24 saat möhlət verilmişdir. Lakin şəhər əhalisi ermənilərə təslim olmayacaqlarını və son nəfərə qədər vuruşacaqlarını bildirmişlər.

Andranik Türk hərbi ekspedisiyası tərəfindən izləndiyindən Kəlbəli Xan Cəfərqulu xan oğlu Naxçıvanski şəhər əhalisinə göstəriş verir ki, hər bir ehtimala qarşı döyüşə hazır olsunlar.

Andranik artıq başa düşür ki, şəhər əhalisi nə təslim olacaq, nə də silahı yerə qoyacaqdır. Yaxın günlərdə nə isə olacağı gözlənilir. Əhalinin hərəkətlərindən şübhələnən Andranik iyun ayının 18-də gecəyarı şəhərə hücum əmri verir. İlk döyüş "Cıdırlı bağ" tərəfdən başlayır. Hərbi əməliyyat sahəsi Şərur şose yolundan Naxçıvan çayının sağ tərəfi, indiki Xətai (Sovetabad) kəndini əhatə edir.

Hərbi müdafiə əməliyyatına Tiflis Yunker məktəbini qurtaran Kalbalı xan Naxçıvanski komandanlıq edirdi. Demək olar ki, bütün şəhər əhalisi ayağa qalxmışdır. Hərbi komandan Kalbalı xan döyüşü bağlarda aparır, bağlar müdafiə xətti-səngər sayılırdı.

106310

Döyüşlərin qızğın bir vaxtında, 5 iyul 1918-ci il gündüz saat 14 radələrində duzdağ təpələrindən Andranikin kazarmalarına toplardan atəş açılarkən və top mərmisinin ikincisi qərargahın yaxınlığına düşəndə Andranik demişdir ki, bu türk mərmisidir.

Andranik türklərin artıq Naxçıvana daxil olduğunu gördükdə əmr verir ki, müharibə dayandırılsın, kazarmalar yandırılıb tərk edilsin.

Doğrudan da, Andraniki izləyən IX və XI Türk hərbi ekspedisiyası Xok-Maku yolu ilə gəlib Ərəblər kəndinə və oradan da Şahtaxtı ərazisindən Araz çayını keçib Naxçıvana istiqamət alır və duzdağ təpələrindən Andranikin kazarmalarını toplarla atəşə tutmuşdur.

Türkiyənin IX-XI ordusunun Naxçıvana gəlişi ilə əlaqədar Andranik öz quldur dəstəsi ilə 1918-ci il iyul ayının 7-də Naxçıvan şəhərindən Sirab-Qahab yolu ilə Zəngəzur qəzasına çəkilmişdir. 7 iyul 1918-ci ildə türk ordusunun IX hərbi ekspe-



M.S.Ordubadi adına
Naxçıvan Muxtar Respublika
KİTABXANASI

disiyası şimal və qərb tərəfdən Andranikin qoşunlarının üzərinə hücum edərək Əliabad və Şıxmahmud kəndlərini ermənilərdən təmizləyir 8 iyulda şəhərə daxil olur. Türklərin Naxçıvana gəlməsi böyük bayram kimi qeyd olunur.

Türk ordusunun köməyilə Naxçıvan qəzasının, həmçinin İrəvan quberniyasının müsəlman kəndlərinə erməni daşnaq qoşunlarının hücumlarının qarşısını almaq üçün yerli milli ordu hissələrinin yaradılması sahəsində əməli işlərə başlandı. Naxçıvan qəzasında 18 yaşından 20 yaşa qədər cavanların orduya cəlb edilməsi işi Naxçıvan milli komitəsinin sədri Mirzə Nəsrulla Əmirov ilə polis rəisi Məhəmməd Əli xan Naxçıvanskiyə tapşırıldı. Təkcə Naxçıvan qəzasının Nehrəm, Qaraçuq və Bulqan kəndlərindən 200-ə qədər yerli əsgər toplanaraq orduya cəlb edilmişdir.

Andranikin qoşunları Naxçıvandan qaçarkən Sirab, Qahab və Kərimqludizə kəndlərinin əhalisini qırmış, canlarını qurtaranlar isə öz yurdlarından qaçaraq xilas olmuşlar.

Andranikin qoşunları Sirab kəndinə istiqamət aldığı vaxt Sirab kəndi ətrafında çoxlu qaçqın toplaşmışdı. Bunlar kəndin özündən, habelə uzaq və ətraf kəndlərdən gələnlər idilər... On beş mindən artıq erməni qulduru silahsız, müdafiəsiz adamların üzərinə hücuma keçdi. Bir gün ərzində 10 mindən artıq günahsız adam qılıncdan keçirildi. Əgər bu qırğın vaxtı Duzdağ tərəfdən açılan top səslərini Andranik eşitməsəydi, orada bir nəfər də sağ qalmayacaqdı. Andranik türklərin Naxçıvana gəlməsindən duyuq düşüb öz atlıları ilə birlikdə qaçmağa üz tutdu.

Bəlkə də tarix heç vaxt ermənilər tərəfindən törədilmiş belə bir vəhşiliyin şahidi olmamışdı. Bu, ermənilərin azərbaycanlılara qarşı sözün əsil mənasında soyqırımı idi. 20 gün ərzində kənd içərisində və "Yoldaşı" düzənliyində bir-birinin üstünə qalanmış meyitləri daşıyıb qurtarmaq mümkün olmurdu. Bu mənzərəyə baxan hər bir kəs dəhşətə gəlirdi.[1]

Qırmızı partizan Məmmədəli Mehdiyev xatirələrində yazır: "Mənim yaşadığım Uzunoba kəndi (Babək rayonu) 1918-ci ildə daşnaq təhlükəsi altında idi. Kənd köçəndən 1-2 gün sonra

---

1. "Şərq qapsı" qəzeti 31 mart 2001-ci il.

daşnaqlar kəndə tökülüşür, adam tapmayıb bütün kəndi yandırırlar... Sonra Andranikin quldur dəstələri Naxçıvanın Qoşadizə, Şəkərabad, Qahab, Zeynəddin, Sirab, Qara-qala və sair kəndlərinə hücum edib əhalini qıraraq kəndləri talan edir, evləri yandırırlar. Əlacsız qalan kənd əhalisi Sirab dağına pənah gətirir. Ora toplaşmış 460 nəfər kişi, qadın, uşaq daşnaqlar tərəfindən öldürülür. Əhalinin bir hissəsini məscidə toplayıb məscidi yandırmaq fikrində olarkən vəziyyət dəyişir, (türklərin Naxçıvana gəlişi ilə əlaqədar-F. C.) geri çəkilməli olurlar."[2]

Andranikin quldur dəstəsi daşnakların ağalıq etdiyi Zəngəzur mahalına çəkilmək üçün Ordubad qəzasının dağ kəndlərinə-Tivi, Bist, Parağa, Nəsirvaz, Der və s. kəndlərə toplaşır, "Qapıcıq" adlanan yerdən qaçmağa tələsirdilər.

Tivi kəndində qərar tutan Andranik, onun daşnak qoşununa böyük tələfat vermiş qaçaq Suleymanın erməni dostu olan əbrəqunuslu daşnak Hayrikin vasitəsilə Suleymanı və onun dostlarını qonaqlığa dəvət edir.

Hayrik kəndin qabaqcıllarını, o cümlədən Suleymanı yanına çağırıb dilə tutmuş və biz sizinlə həmişəlik dost olacağıq deyə Suleymanı aldatmışdır.

Hayrikin tökdüyü dilə və sözlərinə inanan Suleyman başına 16 nəfər toplayaraq kəndə getmişdir. Suleymana və həmin 16 nəfərə kəndin Narzan suyu qırağında keçən gün verdiyi sözü (barışıq- F.C.) bir daha təkrar etdikdən sonra onları hiylə ilə Suleymanın yaşadığı evə gətirmişlər. Onlar

Suleymanın otağında yatdıqdan sonra Hayrik öz quldur dəstəsinə işarə vermiş silahsız olan Suleymanı və onun yoldaşlarını vəhşicəsinə öldürmüşlər. Daşnak quldurları Suleymanın evini və öldürülənləri yandırmışlar.[2]

Suleymanla birlikdə öldürülənlər Məmmədalı İsmayılov (Suleymanın qardaşı -F.C.), Məmmədxan Pirimov, Adıgözəl Cəfərov, Dünyamalı Sultanəliyev, Məhəmməd Allahverdiyev, Ələsgər Hüseynov, Təhməz Əliqulu oğlu, Həsən Əliyev, Məşədi Əli və başqaları idi.[3]

---

1. Nax. MRDA. f.582. s.1. iş.43. v.32-34.
2. Nax. MRDA. f.582. s.1. iş 48. v.147-153
3. Yenə orada. iş.43. v.32-34.

Andranikin dəstəsi Naxçıvan və onun ətraf kəndlərində törətdikləri vəhşiliklərdən sonra 1918-ci il sentyabrın 4-də Sisyana, noyabrın 22-də Gorusa gəlir və orada məskən salır. Bu vaxtdan Zəngəzurun, bütün Qarabağın qara günləri başlayır.

Burada belə bir diqqətçəkən məsələni də qeyd etmək lazım gəlir ki, Azərbaycan hökuməti də düşdüyü ağır vəziyyətə görə Andranikin tüğyanının qarşısını almaq, onun Şərurdan tutmuş Cavanşir qəzasına, Qarabağa qədər böyük ərazidə törətmiş olduğu vəhşiliklərə, quldurluqlara, cəlladlığa son qoymaq üçün bütöv sistemli tədbirlər görə bilməmişdi. Buna görə də qəzalardan, kəndlərdən, ayrı-ayrı adamlardan dalbadal dərdlə, məşəqqətlə dolu göz yaşları ilə yazılmış teleqramlar, məktublar, məlumatlar Azərbaycana gəlməkdə davam edirdi.

Erməni daşnakları 1918-ci ilin axırlarında bir neçə dəfə Şərur bölgəsinə hücum edərək çoxlu qırğınlar törətmişlər.

19 dekabr 1918-ci ildə erməni daşnaqları Şərur bölgəsinə hücum edirlər. Ermənilərin qarşısını almaq üçün Bəhrəm xan Naxçıvanskinin komandanlıq etdiyi Naxçıvan taboru Dəmirçi tərəfdən hücum edib, külli miqdarda hərbi sursat, top, ərzaq və bir pulemyot qənimət almış, 25-30 nəfərə kimi erməni əsgərini həlak etmişlər. Ermənilər tab gətirməyərək geri çəkilmişlər.[1]

Naxçıvana erməni hücumlarını səciyyələndirən Azərbaycan Respublikası Xarici İşlər Nazirliyi qeyd edirdi: "1905-ci il hadisələri daha böyük miqyasda və tamamilə yeni şəraitdə təkrar olunur. Əgər çar rejimi zamanı millətlərarası ədavət bizim ucqarları Rusiyanı bürümüş inqilabi hərəkatdan uzaqlaşdırmaq istəyən bürokratiyanın əli ilə yaradılırdısa, 1918-ci ildəki toqquşmaya bizdə rus hökumətinin ləğvi və rus qoşunlarının ərazimizdən getməsi səbəb olmuşdur.

Ruslardan qalmış silahı və hər cür sursatı ələ keçirmiş ermənilər müsəlmanları türklərə rəğbət bəsləməkdə və silahlı qiyam hazırlamaqda ittiham edərək var qüvvələri ilə onların üzərinə hücuma keçdilər."[2]

---

1. Yenə orada. f. 314. s.5a. iş 74. v. 42
2. AR SPİHDA. f.277. s.2. iş.58. v.15.

Türk hərbi ordusunun 1918-ci ilin noyabr ayına kimi Naxçıvanda olması müvəqqəti olaraq ermənilərin Naxçıvan qəzasına olan basqınlarını dayandırır. Araz-Türk respublikasının təzəcə yarandığı bir dövrdə, 1918-ci ilin noyabr ayında ingilis-amerikan qoşunları İstanbula, yunanlar isə Anadoluya soxulduqları üçün Türkiyədə istiqlaliyyət uğrunda müharibə başlandığından türk qoşunları Qafqazdan, eləcə də Naxçıvan ərazisindən çəkilir.

Türk qoşunlarının getməsindən az sonra ermənilər polkovnik Doluxanovun başçılığı ilə güclü silahlı dəstə gətirirlər. Polkovnik Doluxanov Ermənistana gələn kimi quberniya müsəlmanlarına müraciət edərək bildirir ki, müsəlmanlarla dostluq münasibətləri quracaqlar.

Doluxanovun bu vədlərinə inanan Vedibasar rayonunun müsəlman əhalisi onu öz dəstəsi ilə Dəvəli kəndinə buraxır. Doluxanovun dəstəsində olan Artus adlı bir şəxs hərbi hissələrlə Vedibasar rayonunun Səid-Kətanlu, Xaraba-Kətanlu, Qadılı, Yuxarı Qrabağlar, Dəhnəz, Ağasibəyli, Səhrablı kəndinin müsəlmanlarını qırır, vəhşicəsinə kəsib doğrayırlar. Ermənilərin törətdikləri bu qırğının dəhşətini yazıya sığışdırmaq mümkün deyil. Meydanlarda sərilən ölülərin, qocaların, qadınların, uşaqların meyitlərinə hörmətsizlik edərək qarınlarını deşirlər, gözlərini çıxarırlar və yandırırlar. Bundan başqa bu kənddə sığınacaq tapan yüzlərlə qaçqını da kəsib doğramışdılar.[1]

Erməni quldur dəstələrinin hücumları müdafiəsiz dinc kəndliləri qırmaq məqsədi güdən fasiləsiz müharibə xarakteri almışdır. Cəfərqulu xan Naxçıvanski ermənilərin bu təcavüzləri haqda yazırdı: "Türklər getdilər, yenə bizdə müsəlman kəndlərinin məhv edilməsi, heç bir günahı olmayan müsəlman qadın və uşaqlarının döyülməsi və öldürülməsi qanlı səhnələri təkrar olunmağa başladı. Yenə də İrəvan quberniyasında ermənilər tərəfindən qəddar ölümə məhkum edilmiş on minlərlə müsəlmanın ürək parçalayan qışqırıq və naləlari göyə yüksəldi."[2]

Ordubad milli komitəsinin sədri Hidayət Seyidzadə 22 dekabr 1918-ci ildə Azərbaycan Nazirlər Şurasının sədrinə gön-

---

1. Nax MR DA f. 314. s.5 a. iş 71. v. 1-4
2. Yenə orada. v. 2-3

dərdiyi məlumat vərəqəsində yazırdı: Türklərin Qafqazdan gedişindən sonra bizim vəziyyətimiz əvvəlkindən də pis oldu. Tiflis və Gəncəyə gedən yollar bağlandı, şəhərin ərzaqla təmin olunması dayandırıldı, məhz buna görə də 500 nəfərdən ibarət dəstəmizi ləğv etdik, yalnız bir rotanı saxladıq. Çatışmamazlıq bizim təşkilatımızı, ümumiyyətlə əsaslı şəkildə zəiflətdi, biz kimə tabe olduğumuzu, kimdən göstəriş alacağımızı bilmədik. Naxçıvan qəzasında və Şərurda müsəlmanlar belə vəziyyətə düşdülər, bəs buna görə də biz bir müsəlman hökuməti Araz hökümətini yaratmağı qərara aldıq. Əslində bu hökümət Naxçıvan və Şərur müsəlmanları tərəfindən yaradılmışdır və bizə də bura daxil olmaq təklif olunmuşdur. Biz də Gəncədən xəbərlərin kəsilməsini, həmçinin Araz hökümətinin də eyni istiqamətdə hərəkət etməsini nəzərə alaraq, öz razılığımızı bildirdik. Araz hökuməti yenicə yaranıb. Onun hansı formaya düşəcəyi məlum deyil. Son vaxtlar ermənilər yenə də Zəngəzur qəzasına, bizə yəni Şərura və İrəvan qəzası müsəlmanlarına qarşı düşmənçiliyə başlayıblar. Onlar bizim kəndlərimizə basqınlar edir, camaatı kütləvi şəkildə qarət edir və qırırlar. Zəngəzur qəzasında 20-ə qədər kəndin əhalisi öz doğma yerlərini tərk edib İrana, Qarabağa və bizə qaçmaqla xilas olublar. Ermənilər çalışırlar ki, Ararat dövləti Türkiyə sərhədlərindən başlayaraq, Şuşaya qədər gəlib çatsın. Həmin yerlərdə isə bir nəfər də olsun müsəlman türkü yaşamasın.

... Andranik dəstəsilə Zəngəzur tərəfdən hücuma hazırlaşır. Belə ağır gündə bizim vəziyyətimiz barədə düşünməyinizi, bizim üçün hərəkət planı tərtib etməyinizi xahiş edirik. Xahiş edirik ki, kimlə vuruşduğumuz bizə izah edilsin: rəsmi düşmənlə yoxsa quldur dəstəsilə .[1]

Ermənilərin bu təcavüzü ilə bağlı İrəvan quberniyasının Vedibasar və Melistan müsəlmanlarının müvəkkili Məhərrəm Əliyev 29 yanvar 1919-cu ildə Azərbaycan Respublikası Nazirlər Şurasının sədri Fətəli xan Xoyskiyə göndərdiyi məktubunda yazırdı: "...Yanvar ayının 26-27-də polkovnik Doluxanovun başçılığı ilə ermənilərin "Vanslar" və "Sasunlar" ad-

---

1. Nax. MRDA. f.314. s.5. iş.72. v.9-11

landırdıqları silahlı dəstələri Vedibasar rayonunun Qaraxaç, Qadılı, Seyid Kətanlu, Yuxarı Qarabağlar, Ağasibəyli, Dəhnəz və Sahablı kəndlərinə hücum edərək zəbt edirlər. Ermənilər bu kəndlərdə müsəlmanları qırmamışdan qabaq bir neçə yüz ərli qadınları və qızları əsir alırlar.

Bu qadınların azad olunması üçün müsəlmanlar İrəvana nümayəndə göndərirlər. Ermənistan hökuməti bu qadınları azad edib öz yerlərinə qaytarmağa söz verir, lakin verdiyi sözə əməl etmir."[1]

Məhərrəm Əliyev məktubunun axırında Azərbaycan hökumətindən qadınların azad olunması, müsəlman kəndlərinə dəyən ziyanın ödənilməsi

üçün Ermənistan hökuməti qarşısında yubanmadan məsələ qaldırılmasını xahiş etmişdir.

Erməni genosidindən xilas olan qaçqınlar böyük bir axınla Ermənistandan Araz-Türk Respublikasına gəlirlər. 1919-cu ilin yanvarında onların sayı 100 min nəfərə çatmışdır. Ermənistan ərazisində 200-dən çox müsəlman kəndini dağıdıb müsəlmanları qılıncdan keçirən, yandıran ermənilərin zorakılıq hərəkətləri azərbaycanlıları öz yurdlarını atıb getməyə məcbur etmişdir.

Ermənilərin törətdikləri bu cinayətlər az imiş kimi rus zabit Doluxanovun komandanlıq etdiyi erməni qoşunları 1919-cu ilin yanvar ayının axırlarında Ermənistandan Şərur qəzasına hücum edirlər. Ermənilərin Şərur tərəfə hərəkəti Araz-Türk Respublikasının hökumətinə çatan kimi hökumət tərəfindən sərəncam verilir ki, erməni qoşunlarının qabağı alınsın, həmçinin Şərur qəzasının "Qurd Qapısı" adlanan yerə erməni qoşunlarının qabağını kəsmək üçün Kalbalı xan Naxçıvanskinin başçılığı ilə yerli müdafiə dəstələri göndərilir.

Çox böyük qan tökülən döyüşlərdən sonra Baş-Noraşendən yuxarıda Zeyvə kəndində erməni daşnakları məğlub olaraq geri çəkilirlər. Bu məğlubiyyətlərə baxmayaraq sənədlərdə göstərilir ki, ermənilər 1919-cu ilin yanvar-mart aylarında Naxçıvan, Şərur və Ordubad qəzalarına müxtəlif istiqamətlərdə hücumlar etmiş və böyük qırğınlar törətmişlər.

---

1. Nax. MRDA. f.314. s.5. iş.71. v. 4

Ermənilərin bu təcavüzləri ilə bağlı Azərbaycan DR-in Naxçıvandakı müvəkkili Səməd bəy Cəmilinski 20 mart 1919-cu ildə Azərbaycan Xarici İşlər Nazirliyinə göndərdiyi teleqramında yazırdı: "...Martın 19-da ermənilərin nizami qoşunları bizim üzərimizə üç tərəfdən çox güclü hücuma başlamışlar. Birincisi Böyük Vedi, ikincisi Tivi kəndi və üçüncüsü Ordubad tərəfdən. Xahiş edirəm bu barədə vəziyyəti bizim hökumətimizə çatdırasınız."[1]

Azərbaycanın Ermənistandakı nümayəndəsi Məhəmmədəli xan Təkinski 16 may 1919-cu ildə Azərbaycan DR-nın baş nazirinə göndərdiyi teleqramında yazır: "Mayın 2-də Naxçıvana erməni polkları hücum edib. Ona görə də Ermənistana təzyiq göstərmək lazımdır. Bizim polklarımızın dərhal Ermənistan sərhəddində yerləşdirilmələrini məqsədəuyğun hesab edirəm. Naxçıvan rayonunun əhalisi müqavimət göstərməyə hazırdır. Lakin İngiltərənin Ermənistanın lehinə olaraq hadisələrə qarışmasından ehtiyat edir. Mayın 2-də Devi Yerevandan Naxçıvana yola düşüb. Dilicanda natamam tərkibli 4-cü alay dayanıb. Diplomatik nümayəndə Təkinski."[2]

Naxçıvanı bitərəf zona elan edib Ermənistanın hakimiyyətinə vermək məqsədilə Naxçıvana gələn ingilis imperialistləri öz hərbi hissələrini Noraşen, Şahtaxtı, Naxçıvan, Culfa dəmiryol stansiyasında və Şərur-Dərələyəz şose yolunda yerləşdirmişlər. 1919-cu ilin may ayının 5-də Naxçıvan şəhərinə gələn ingilis generalı Devi Naxçıvan və Şərur qəzalarında yaşayan müsəlmanları yığıb mitinq keçirir və bildirir ki, müsəlmanlar Ermənistan hökumətinin rəhbərliyinə tabe olmalıdırlar.[3]

General E. Devinin irəli sürdüyü bu təklifin hərtərəfli təhlilindən sonra şəhərin nüfuzlu adamlarından Hacı Həsənli mitinqdə çıxış edib demişdir: "Mən şəhər əhalisi adından deyirəm, biz daşnak hakimiyyətini qəbul etməyib ona tabe olmayacağıq."[4]

---

1. Nax. MRDA. f.314. s.5a. iş.71. v. 68
2. Yenə orada. iş 74, v. 154
1. Nax. MRDA. f.314. s.5a. iş 74, v. 154
2. Yenə orada.

Naxçıvan ölkəsində baş verən bu hadisələrlə bağlı Azərbaycan Xarici İşlər Nazirliyi Azərbaycanın Ermənistandakı səlahiyyətli nümayəndəsi M. Təkinskiyə 17 iyun 1919-cu ildə göndərdiyi teleqramında yazırdı: "Naxçıvan, Şərur, Vedibasar, Şahtaxtı və Ordubad rayonlarında mövcud vəziyyət barədə təcili xəbər verin. Culfa kimin əlindədir?"[1]

Məlumdur ki, bu dövrdə Azərbaycan hökuməti Naxçıvana heç bir sahədə köməklik edə bilməzdi. Çünki yollar bağlanmış, əlaqələr kəsilmişdir. 21 iyun 1919-cu ildə M.Təkinski Azərbaycan XİN-ə cavab teleqramında yazırdı: "Naxçıvan, Şərur, Vedibasar, Şahtaxtı rayonları erməni qoşunları (ingilislərin köməyi ilə-F.C.) tərəfindən zəbt edilmiş və orada Ermənistan hökuməti yaradılmışdır. Naxçıvanın milli şurası məndən xahiş edir ki, ittifaq komandanlığına çatdırım ki, ingilis generalları Devi, Xatisovun vədlərinə baxmayaraq Ermənistan hökuməti burada yaşayan müsəlmanları talan edir, axtarış aparırlar, əllərinə nə keçir, silah, mebel, dirək, taxta və başqa şeyləri daşıyıb aparırlar. Naxçıvan milli şurası xahiş edir ki, ittifaq komandanlığı bu qanunsuz hərəkətləri dayandırsın. Culfa da ermənilərin əlindədir. Siz Naxçıvan milli şurasının xahişini yerinə yetirməyi mümkün hesab edirsinizmi? Ordubadlılar hələ erməniləri Ordubada buraxmamışlar..."[2]

İngilislərin Naxçıvanda yaratdıqları ingilis-daşnak hərbi hökuməti əhalinin milli mənliyini təhqir edir, bir çox demokratik fikirli adamları, hərbi rəisləri həbs edərək Aleksandropola, (indiki Leninakan-F.C.) və Sevana sürgünə göndərmiş və bir çoxunu mühakiməsiz cəzalandırmışlar.

Azərbaycanın xarici işlər naziri Mir Yusif Cəfərovun 8 iyul 1919-cu ildə Ermənistanda Azərbaycanın səlahiyyətli nümayəndəsi M.Təkinskiyə göndərdiyi teleqram bunu bir daha sübut edir. Həmin teleqramda yazılır: "Şərur-Naxçıvan tərəfdə ermənilər repressiyaya başlamış və kütləvi surətdə həbslər etmişlər. Heç bir təqsiri olmayan görkəmli şəxslərdən Mirzəlibəy Bəktaşovu, Əli Səbri Qasımovu, Hüseynağa Novruzovu,

-----------------------

1. Nax. MRDA. f.314. s.5a. iş 74, v. 170
2. Nax. MRDA. f.314. s.5a. iş 74, v. 172.

Cəfər bəy İrəvanskini, Teymurhəsən Kazımovu həbs edərək Naxçıvandan Aleksandropola aparmışlar. Hər iki xalqın mənafeyi naminə xahiş edirik günahsız şəxslərin azad olunması haqda tədbirlər görəsiniz..."[1]

Ermənilərin Vedibisar, Şərur-Dərələyəz, Naxçıvan və Ordubad bölgələrində törətdikləri qanlı cinayətlərlə bağlı bu bölgələr üzrə "müsəlman yerlilər cəmiyyətinin" keçirdikləri iclasın rəyasət heyəti tərəfindən Azərbaycan Parlamentinə 16 iyul 1919-cu il tarixdə göndərdikləri məktubda yazırdılar: "Vedibasar, Şərur, Naxçıvan, Ordubad rayonlarının əhalisinin böyük hissəsini müsəlmanlar təşkil edir. Qeyri-müsəlman əhalisinin sayı cüzidir. Bu rayonlarla Ermənistan Respublikası arasında sərhəd kimi Şirazlı müəyyən edilib. Ölkədə kənar qüvvələrin qarışmasına səbəb olacaq heç bir qanunsuzluq olmayıb.

Ermənilərin fitnələrinə uyaraq, bizə məlum olmayan səbəblərdən ingilis komandanlığı bu rayonları bizə qarşı düşmənçilik münasibəti bəsləyən və qarşışılarına bizləri tamamilə məhv etmək məqsədi qoyan ermənilərə verdi. Bu hal bizim hüquqlarımızın və fiziki varlığımızın tamamilə pozulması və heçə sayılması aktıdır, ədalət prinsiplərinə və xalqların öz müqəddəratını təyin etmə şuarına ziddir.

Bu rayonların ermənilərə verilməsi faktı kim tərəfindən olursa - olsun ermənilərin müsəlmanlara olan münasibətinə şərik olduğunu göstərir.

Bu rayonların əhalisinin xahişini və müsəlman Milli Şurasının müsəlmanların soyqırımına olan etirazını nəzərə alaraq, Vedibasar, Şərur, Naxçıvan, Ordubad rayonlarının müsəlmanlarının birliyi erməni banditlərinin bu rayonlara soxulmasına qəti etirazını bildirir və oradan çıxmasını tələb edir.

Biz həddindən artıq inanırıq ki, ingilis komandanlığı buna yol verməyəcək və hüququmuzu özümüzə qaytaracaq. Vedibasar, Şərur, Naxçıvan və Ordubad rayonları müsəlman yerlilərinin heyəti [2].

İngilis-erməni təcavüzkarlarının etdikləri bu cinayətlərinə

---------------------

1. Nax. MRDA. f.314. s5a. iş.74. v. 186-187.
2. Nax MRDA f. 314, s.5 a. iş 71. v. 20-21

qarşı 1919-ci ilin iyul ayının ortalarında Naxçıvan şəhərində və Şərur qəzasında üsyan qaldırılır. Üsyan, demək olar ki, bütün Naxçıvan qəzasını bürüyür.

İngilislərin Naxçıvanda yaratdığı, qubernator Varşamyan başda olmaqla daşnak hərbi hökuməti qovulur. Naxçıvan və Şərurda duran qarnizonlar pərakəndə surətdə Naxçıvan ölkəsini tərk edib qaçır.

1919-cu ilin axırlarından başlayaraq 1920-ci ilin iyul ayına kimi ermənilər Şərur-Dərələyəz, Naxçıvan və Ordubad bölgələrinin, demək olar ki, əksər kəndlərinə hücum etmiş, yandırmış, Azərbaycan əhalisinin xeyli hissəsini qıraraq məhv etmiş, əhalinin bir qismi isə ermənilərə qarşı vuruşaraq, qüvvələr bərabər olmadığı üçün öz yurdlarını, ocaqlarını tərk etməli olmuşdur.

Ermənilərin hiyləsi ilə İrəvan quberniyasından qaçqın düşmüş bəzi kənd sakinləri öz kəndlərinə qayıtdıqdan sonra ermənilər tərəfindən qılıncdan keçirilərək məhv edilmişlər.

Ordubadın qəza rəisi Tahirov Naxçıvan general-qubernatoruna 6 yanvar 1920-ci ildə vurduğu teleqramda yazırdı: "Üç gün bundan əvvəl Korçevan kəndində ermənilər 100 nəfərdən çox müsəlmanı bir yerə yığıb, qadın və uşaqları vəhşicəsinə qətlə yetirmişlər."[1]

Arxivdə araşdırdığımız bir çox sənəd bunu bir daha sübut edir. Məsələn, Abasqulu bəy Şadlinski tərəfindən Böyük Vedidən 7 yanvar 1920-ci ildə vurulan teleqrama nəzər yetirək. Teleqramda yazılır: "Texmaqan kənd sakinləri ermənilərin müqaviləsinə inanaraq öz yurdlarına köçdülər. Ancaq ermənilərin orada yerləşən nizami qoşun hissələri tərəfindən onlar kəsilib doğrandılar. Məlumat üçün bu vəziyyəti sizə çatdırıram". [2]

Vedibasar təşkilatının komandanı Hacı Təhmasib Şadlinskinin Naxçıvan qəzasının hərbi komandanı (naziri - F.C.) Kəlbalı xan Naxçıvanskiyə 9 yanvar 1920-ci il tarixdə Böyük Vedidən göndərdiyi teleqramda yazılır: "Bu gün dördüncü gündür ki, erməni gözətçiləri çöldə otarılan malqaraya hər gün atəş

---

1. Nax MRDA f. 314, s.5 a. iş. 72. v.16.
2. Nax. MRDA. f.314. s.5a. iş.72. v.18.

açırlar, eyni zamanda Böyük Vedi tərəfdə yoldan keçən və gözə görünən adamları atəşə tuturlar. Bu vəziyyəti çatdırmaqla xahiş edirəm ki, məsləhət verəsiniz biz nə edək və eyni zamanda sizdən asılı nə varsa hüququnuzla sərəncam verəsiniz."[1]

1920-ci ilin mart ayının 21-də 10 min nəfərdən ibarət olan erməni daşnakları Ordubad qəzasının Düylün, Vənənd, Vələər, Xanağa, Beksar, Ağrı, Dizə, Unus, Əylis, Kilit, Anabad, Gənzə və s. kəndlərinə hücum edərək yandırmış, qarət edib əhalinin çox hissəsini qırmış və Ordubad şəhərini mühasirə etmişlər. Ordubad ətrafında gedən döyüşlərdə ermənilər tərəfindən çox itkilər olmuşdur, lakin ermənilər şəhərə girə bilməmişdir.[2]

Azərbaycan Respublikasının İrandakı diplomatik nümayənəsi 10 aprel 1920-ci il tarixdə Azərbaycan Respublikası Xarici İşlər Nazirinə göndərdiyi məruzə xarakterli məktubunda yazır: "Bu ilin mart ayının 20-dən başlayaraq Naxçıvan və İranın ayrı-ayrı yerlərindən erməni hərbi hissələrinin Naxçıvan və Ordubad rayonlarına hazırlanmış hücumları haqda teleqramlar alıram.

Bu teleqramda bildirilir ki, İran erməniləri də bu hücumlarda iştirak edirlər.

Əsas dağıntıları artileriya törədir. Yerli əhali müqavimət göstərir, amma təcili kömək diləyir.

Bundan başqa bu rayonlarda qaçqınlar aclıqdan əzab çəkirlər. İran ermənilərinin bu məsələdə iştirakı, eləcə də İran ərazisində qaçqınlar üçün ərzağın alınması üçün mən İran hökuməti qarşısında məsələ qaldırmışam, lazımi tədbirlər görsünlər, onlar da öz növbələrində yaxşı mənada lazımi əmrlər veriblər.

Eyni vaxtda ermənilərin bu rayonlara hücumları barədə Tehrana gələn ingilis, amerikan və fransız nümayəndələrinə də xəbər vermişlər.

Bunları izah edərək Xarici İşlər Nazirliyindən bu rayonun əhalisini bu fövqaladə vəziyyətdən çıxartmaq üçün lazımi tədbirlər görməyi xahiş edirəm.

---

1. Nax. MRDA. f.314. s.5a. iş.72. v.17.
2. "Borba" qəzeti, 15 aprel 1920-ci il, №-83

Əlavə olaraq 49, 50, 52, 60 və 70 №-li teleqramların surətini də təqdim edirəm.

İrandakı Azərbaycan Respublikası Diplomatik Nümayəndəsi-(imza)".1.

1918-1920-ci illərdə erməni daşnaqları Şərurda 76, Vedibasarda 118, Dərələyəzdə 74 kəndi, Əlincəçay və Gilançay boyunca 80-dən artıq kəndi yerlə yeksan etmiş, yandırmış və əhalisinin çoxunu qırmışdır. 2.

Ərzurumda nəşr olunan "Kaf dağı" adlı qəzet Türkiyə qaynaqlarına əsaslanaraq məlumat vermişdir ki. 1918-1921-ci illərdə Naxçıvan bölgəsində ermənilər tərəfindən 73.727 nəfər azərbaycanlı ən vəhşi formada öldürülmüşdür.3.

1918-1920-ci illərdə ermənilərin Naxçıvan, Şərur-Dərələyəz və Ordubad bölgələrinə hücumları müdafiəsiz dinc əhalini qırmaq məqsədi güdən fasiləsiz müharibə xarakteri almışdır.

Çoxsaylı tarixi sənədlər şahidlik edir ki, 1905-1907, 1918-1920-ci illər Qafqazda öz tarixi etnik ərazilərində etnik təmizləmə və soyqırımı siyasətinə məruz qalan milyonlarla azərbaycanlı kütləvi surətdə qətlə yetirilmiş, dədə-baba torpaqlarından deportasiya olunmuşdur.

Təəssüf ki, 1988-ci ildən başlayan əsassız Dağlıq Qarabağ münaqişəsi, Azərbaycan ərazilərində meydan sulayan erməni irticası və bu irticanın qurbanı olan günahsız Azərbaycan əhalisinin acı iztirabları keçmiş SSRİ rəhbərliyinin və sivil dünyanın biganə sükutu ilə qarşılandı. Belə vəziyyətdən ruhlanan və istifadə edən ermənilər azərbaycanlılara qarşı soyqırım siyasətini və bir-birinin ardınca misli görülməmiş tarixi cinayətlərini həyata keçirməyə müvəffəq oldular.

XX əsrin 80-ci illərinin axırlarında, yəni 1988-ci ildə Azərbaycan xalqına qarşı genosidin yeni dövrü başlandı. Yaxşı planlaşdırılmış, amansız və cinayətkar tədbir həyata keçirilmişdir. Erməni ekstremistlərinin azğın quldur dəstələri Ermə-

---

1. Nax. MRDA. f.314. siy.5a. iş.71. vər.105-106.

2. "Naxçıvan", İctimai-siyasi, ədəbi-bədii, elmi-publisistik jurnal. № 5. Nax. 2001. səh.41.

3. Yenə orada. səh. 42.

nistanda yaşayan 200 min nəfərdən çox azərbaycanlını tarixi torpaqlarından qovdu. Sovet ordusu əsgərlərinin köməyi ilə həyata keçirilən bu əməliyyatda 300-dən artıq azərbaycanlı həlak oldu. Təkcə Ermənistanın Quqark rayonunun Gözəldərə kəndində 21 azərbaycanlını, o cümlədən 6 qadın, 3 uşağı ermənilər öldürmüşlər. 1988-ci ilin dekabrında demək olar ki, Ermənistanda yaşayan bütün Azərbaycan türkləri evdən-eşikdən didərgin salınmış, var-yoxdan çıxarılmışdır.

XX əsrin 90-cı illərində onlar üçün yaradılmış şəraitdən istifadə edən Ermənistan hakimiyyət dairələri Azərbaycana, o cümlədən Naxçıvana qarşı öz ərazi iddialarını artıq müharibə yolu ilə genişləndirmək qərarına gəldilər. Qaynar nöqtələrdən biri də Naxçıvan oldu. 1990-cı il yanvar ayının 19-dan 20-nə keçən gecə Sovet qoşunlarının Bakıya hücumundan 8 saat əvvəl Sovet qoşun birləşmələri ilə birlikdə erməni silahlı dəstələri Naxçıvan MR Şərur rayonunun Sədərək kəndinə hücum etmiş, qan tökülmüş və bir çox tikinti obyektləri dağıdılmışdır.

20 yanvar 1990-cı il tarixli "Şərq Qapısı" qəzetində dərc olunmuş məlumatda yazılır: "...Artıq 2 gündür ki, xəyanətkar və təcavüzkar ermənilər Naxçıvan müstəqil respublikasının Sədərək kəndini aramsız olaraq raket, top atəşinə tuturlar. Doğma torpağımızı qorumağa qalxan oğullarımız düşmən hücumlarını dəf edirlər. Ermənilər Sədərək şərab zavodunu, mebel sexini, yeni qəsəbəni və digər obyektləri dağıtmışdır. Dünən günün 2-ci yarısından sonra müdafiəçilərimiz erməniləri geri oturtmuşdur. Doğma torpaq uğrunda vuruşlarda həlak olanlar və yaralananlar vardır. Aramsız döyüşlər davam edir."[1]

1990-cı ilin yanvar ayında Şərur rayonunun Kərki kəndi erməni quldurları tərəfindən işğal edildi. Kərki kəndinin 130 azərbaycanlı ailəsi öz yurdlarından didərgin düşərək Şərur rayonunda sığınacaq tapmışdır. Kənddəki evlər, əkin sahələri, məişət xidməti obyektləri erməni təcavüzkarlarının əlinə keçmişdir. (Hal-hazırda həmin kənd ermənilərin əlindədir -F.C.)

Ümumiyyətlə, 1990-1993-cü illərdə ermənilər Sədərək üzərinə 14 dəfə ağır texnika ilə hücum etmişdilər. Sədərək 1990-

--------------------

1. "Şərq qapısı" qəzeti. 20 yanvar 1990-cı il

1993-cü illərdə erməni hücumlarına məruz qaldığı günlərdə Naxçıvanın, Şərurun, Ordubadın, Culfanın, Şahbuzun, Babəkin mərd oğulları Sədərəyin müdafiəsində böyük qəhrəmanlıq göstərmiş, Sədərək əhalisini təklənməyə qoymamışdır.

1990-1993-cü illərdə Sədərək müdafiəsində 104 nəfər şəhid olmuş, 489 nəfər yaralanmışdır. Sədərəkdə 500-ə yaxın yaşayış evi, inzibati idarə binaları dağıntılara məruz qalmışdır.

Ümummilli liderimiz Heydər Əliyevin 1998-ci ilin mart ayının 26-da "Azərbaycanlıların soyqırımı haqqında" fərmanı onun doğma xalqı qarşısında, günahsız yerə öldürülənlərin ruhu önündə ən böyük xidmətlərindən biridir. Bu, torpaqlarımızın işğalı, xalqımızın günahsız yerə qırılması, yaşayış məntəqələrimizin, kənd və şəhərlərimizin viran edilməsi proseslərinə tarixdə ilk dəfə siyasi qiymət verməkdir. Ümummilli liderimiz Heydər Əliyevin "31 mart azərbaycanlıların soyqırımı günü" münasibətilə Azərbaycan xalqına müraciətində deyilir: "Soyqırım Azərbaycan xalqına böyük siyasi, maddi və mənəvi zərbələr vurmuşdur. Bütövlükdə XX əsr ərzində 2 milyona yaxın azərbaycanlı deportasiya və soyqırımı siyasətinin ağır nəticələrini öz üzərlərində hiss etmişdir... Bu hadisələri, onların dərslərini unutmağa bizim haqqımız yoxdur. Tarixi yaddaşsızlıq və unutqanlıq xalqımıza baha başa gəlir. Azərbaycanlılara qarşı törədilən bu ağır cinayətləri unutmamaq, böyüyən nəsli bədxah qüvvələrə və onların məkrli niyyətlərinə qarşı ayıq-sayıqlıq ruhunda tərbiyə etmək mühüm vəzifədir."

Bəli, ümummilli liderimiz Heydər Əliyevin qeyd etdiyi kimi, XX əsrdə ermənilərin azərbaycanlılara qarşı törətdikləri soyqırımını xalqımız heç vaxt unutmamalıdır. Ermənilərin XX əsrdə törətdikləri bütün cinayətlər alimlərimiz, tarixçilərimiz və ziyalılarımız tərəfindən olduğu kimi yazılmalı və müxtəlif dillərdə çap olunaraq dünya xalqlarına ermənilərin bu iyrənc cinayətləri çatdırılmalıdır.

## QƏRBİ AZƏRBAYCANDA ERMƏNİLƏRİN AZƏRBAYCANLILARA QARŞI SOYQIRIMI

XX əsrin əvvəllərindən başlayaraq istər İravan quberniyasında, istərsə də Naxçıvan, Şərur-Dərələyəz və Ordubad qəzalarında daşnak ermənilərі tərəfindən baş vermiş qanlı soyqırım siyasətinə dair Naxçıvan MR Dövlət Arxivində yüzlərlə arxiv sənədlərinə rast gəlirik. Bu sənədlər xüsusi ilə Qərbi Azərbaycanda, həmçinin Naxçıvan bölgəsində ermənilərin azərbaycanlılara qarşı etdikləri vəhşiliklər, qırğınlar, dağıntılar, yurdlarından qovulan azərbaycanlıların aclıq və xəstəlikdən məhv olmalarına dair o dövrün qanlı sənədləridir. Buna görə də o dövrün hadisələrini həmin sənədlərin dili ilə oxucularımıza olduğu kimi çatdırmaq istəyirik.

* * *

Birinci dünya müharibəsində başqa xalqlar kimi Zaqafqaziya xalqları da böyük iztirablara məruz qaldılar. Cəbhə arxası olan Ermənistanın, Gürcüstanın və Naxçıvan diyarının əhalisi daha əzablı günlər yaşayırdı. İrəvan quberniyasının ağır müharibə iztirablarını görən cəbhəarxası bölgələrdən biri də Vedi və Vedibasar (Vedi çayı tutan yerlər) idi. Bu kəndlərdən cəbhəyə çoxlu işçi və daşıyıcı qüvvələr: at, qatır, mal-qara, araba, həm də azuqə toplanırdı.

Rusiyanın inqilabçı fəhlə və kəndliləri imperialist (I-ci dünya müharibəsinin) müharibəsinin törətdiyi ağır tələfatlara, məşəqqətlərə, çar mütləqiyyətinin müsibətlərinə dözməyib 1917-ci ilin fevral ayında çar hakimiyyətini, həmin ilin oktyabr ayında isə Rusiyanın burjua monarxiyasını devirdilər. Bu xəbər ildırım sürəti ilə dünyaya yayıldı.

Baş verən inqilabi dəyişikliklər sayəsində yaranan siyasi mühit kənd əhalisinə, onun qabaqcıl, açıq fikirli adamlarına güclü təsir göstərirdi. Abbasqulu bəy Şadlinsiki, Seyfulla Süleymanov, Ağa Şadlinski, Əziz Süleymanov, Bilas Şadlinski və başqaları məhz həmin adamlardan idi.

Abbasqulu Şadlinski (1886-1930) və onun həmfikirləri çarizm quruluşunun yıxılması uğrunda fəhlə və kəndlilərin açıq silahlı üsyanları dövründə yaşamışlar.

Başqa yerlərdə olduğu kimi Vedibasar kəndində də hərcmərcliyə, xarici işğalçılara, daxili talançılara qarşı Abbasqulu Şadlinski başda olmaqla müqavimət hərakatı genişlənir. Ermənistanda "Daşnaksütün" milliyətçi partiyasının müsibətli siyasətindən xəbərdar olan Vedibasar kəndliləri Abbasqulu bəy Şadlinskinin ətrafında sıx birləşir və oyuncaq daşnak hakimiyyətinə tabe olmurlar.

Onu da qeyd etmək istəyirəm ki, köçürmələr nəticəsində ermənilərin Qafqazda məskunlaşması onların "Böyük Ermənistan" imperiyasını yaratmaq arzularını daha da artırırdı. Məhz bu məqsədlə də azərbaycanlıları doğma Göycə mahalından, Dərələyəz, Qəmərli, Zəngibasar, Vedibasar və sair mahallardan sıxışdırıb çıxarırdılar, qırırdılar.

Bu hadisələrlə bağlı İrəvan quberniyası müsəlman əhalisi nümayəndələrinin Azərbaycan Nazirlər Şurasının sədri Fətəli xan Xoyskiyə 1918-ci ilin iyun ayında müraciətində deyilirdi: "1917-ci ilin dekabr ayından 1918-ci ilin iyun ayına kimi erməni hərbi hissələri Göycə mahalının və Yeni Bəyazit qəzasının dinc müsəlman əhalisinə qarşı hücuma keçmişlər. Məqsəd Göycə gölünün şərq və şimal hissəsini burada yaşayan müsəlmanlardan təmizləməkdir. Hal-hazırda 60 min əhalisi olan 22 kənd dağıdılmış, yandırılmış, əhalisi isə qırılmışdır. Artıq Göycə mahalında müsəlman qalmayıb.

Yeni Bəyazit qəzasında isə 84 müsəlman kəndi dağıdılmışdır. Onlardan Daşkənd, Qoşa Bulaq, Sarı Yaqub, Baş Sorca, Soğanqulu-Ağalı, Ağkilsə, Zod, Böyük Qaraqoyunlu, Qulu-Acılı, Zərzibil, Çay-Əhmədli, İnək-Dağ, Qara İmam, Qərib Qaya, Kəsəmən, Baş Kənd, Kiçik Məzrə, Böyük Məzrə, Şiş Qaya, Baş Hacı və sair göstərmək olar".[1]

Naxçıvana soxulan Andranik Ozanyanın başçılıq etdiyi erməni daşnakları Naxçıvandan başlayaraq Zəngəzur və Şuşayadək olan əraziləri ələ keçirməyə çalışırdı.

Bir çox arxiv sənədləri Andranikin dəstəsinin "Naxçıvan yürüşü" zamanı yol boyu və bölgələrdə törətdikləri qırğınları, zorakılıq və vəhşilikləri təsdiqləyir. Yeni Bəyazitdən olan Va-

------------------

1. Nax. MRDA. f. 314, s. 5, iş .74. vər. 196.

ran adlı bir erməni azərbaycanlılara qarşı etdiyi zülm barədə belə danışırdı: "Mən Basarkeçərdə heç nəyə məhəl qoymadan türk əhalisini məhv etdim. Lakin bəzən gülləyə heyifim gəlirdi. Bu işlər üçün ən doğru üsul döyüşdən sonra salamat qalanları quyuya doldurmaq və üstündən ağır daş tökməkdir. Mən belə də etdim, bütün kişiləri, qadınları və uşaqları quyuya doldurub üstündən ağır daşlar töküb, axırlarına çıxdım". [1]

Ermənilərin vəhşilikləri barədə o zamanki mətbuat orqanları yazırdı: "Andranikin quldur dəstəsi çoxlu türk kəndlərini dağıtdılar. Təkcə Yaycı kəndində 2500 nəfər öldürüldü və Araz çayında boğduruldu".[2]

Daha bir yazıda oxuyuruq: "20-25 iyun 1918-ci ildə ermənilər Culfada Araz çayı üzərindəki körpünü yandırdılar. Ordubadda 2 min azərbaycanlını öldürdülər".[3]

Naxçıvanda məğlub olan Andranik qoşunu ilə birlikdə Qapıcıq aşırımından (Ordubad) Sisyana çəkilir. Orada da andranikçilər azərbaycanlıları qılıncdan keçirir, əhalini didərgin salırlar.

Oradan İrəvana hərəkət edən Andranik 1919-cu ilin yayında yolüstü Ermənistanın Qaraxaç kəndində dayanır. Əhali onu duz-çörəklə qarşılayır, erməni əsgərlər evlərə paylanır, böyük məclis qurulur, kabab çəkilir, şərab içilir. Məclisdə aşıq Cəlilə təklif edilir ki, Andranik paşanı vəsf etsin. Aşıq sazını döşünə basıb belə oxuyur:

*Vedinin dağları batıbdır yasa,*
*Andranik istəyir oranı basa,*
*Bir namə yazmışam o xan Abbasa, (yəqin ki, Abbasqulu bəy Şadlinski nəzərdə tutulur-F. C)*
*Durmayıb gəlsin bizim imdada.*

Bunu eşidən sərxoş andranikçilər aşıq Cəlili yerə yıxıb dilini boğazından çıxarıb, iztirabla öldürmüşdülər.

Andranik Ozanyan Vedi mühafizəsinin başçısı Abbasqulu bəyə çatdırır ki, Vedililər təslim olub silahı təhvil versinlər.

---

1. "Naxçıvan", ictimai-siyasi, ədəbi-bədii elmi-publisistik jurnalı. Nax. 2001-ci il. № 5, səh. 106
2. Yenə orada. səh. 62.
3. Yenə orada.

Abbasqulu bəy cavab verir ki, mən Andranik adında paşa eşitməmişəm. Davamız davadır. Elçi qayıdıb Abbasqulu bəyin cavabını Andranikə çatdırır. Andranik bu sözləri eşidən kimi əmr edir ki, Qaraxaç kəndinin əhalisinə divan tutulsun.

Qaraxaç faciəsini öz gözləri ilə görmüş Həmzə Mirzəyev (qaraxaçlı) bu hadisəni belə təsvir edirdi: "Qadınları, uşaqları məsçidə doldurub, od vurub yandırdılar, mən qaçıb su quyusunda gizləndim. Cavanları sıraya düzüb güllələdilər, qocalara fiziki divan tutdular. Orda-burda, tək-tək gizlənənlər və mən canımızı qurtarmaq üçün Şərura qaçdıq".[1]

1918-ci ilin dekabr ayında Dərələyəz daşnak qoşunu Yaponun (Giponun) komandası altında Şərur qəzasının Yaycı kəndinə basqın etdi. Lakin kəndin cəngavər oğulları erməni daşnaklarının qarşısına alırlar, məğlub olan ermənilər Xaçik kəndinə çəkilməli olurlar.

Bir gün sonra Yaycının intiqamını almaq üçün Azərbaycanın Əmovi kəndinə hücum edirlər. Kənd xəyanətlə alınır, silahlı gənclər dəstə ilə güllələnir, qılıncla boynu vurulur. Kəndin nüfuzlu adamı olan Mir Sadıx ağanın ailəsinə qanlı divan tutulur. Anaların gözü qarşısında uşaqlar tonqala atılaraq külə döndərilir. Canlarını qurtaranlar Şərura qaçırlar.

1918-ci ildə olduğu kimi 1919-1920-ci illərdə də erməni daşnakları İrəvan quberniyasının Vedibasar, Qəmərli, Böyük Bəyazit, Sürməlik və

Şərur-Dərələyəz qəzalarının bir çox müsəlman kəndlərinə hücumlar edərək, müsəlman əhalisinin çoxunu qırmışlar. Lakin Vedililər həmişə ermənilərə qarşı mərdliklə vuruşmuşlar.

1919-cu ilin bir çox arxiv sənədlərinə nəzər yetirək.

İrəvandan 10 iyul 1919-cu ildə Azərbaycanın Ermənistandakı diplomatik nümayəndəsi Məmmədəli xan Təkinski tərəfindən Azərbaycan Xarici İşlər Nazirinə vurulan teleqramda göstərilirdi: "Bu gün mən öyrəndim ki, erməni hərbi qüvvələri Böyük Vedi, Çinyənkənd, Gilivan, Qaşlı və başqa kəndləri atəşə tutmuşlar. Adı çəkilən kəndlərin əhalisi qaça bilmişdi. Böyük-Vedi və mühasirədə olan kənd sakinləri qadın və uşaqlarla əhatə olun

---

1. Nax. MRDA. f. 574, s. 2, iş. 117, vər. 1-5.

salar da mərdliklə müqavimət göstərirlər. Döyüşlər davam edir.

*Səlahiyyətli Nümayəndə M. Təkinski".*[1]

Doğrudan da, A.Şadlinskinin rəhbərlik etdiyi "Vedi taboru" ermənilərin hücumlarının qarşısını alaraq döyüşlərdə ermənilərə böyük itkilər vermişlər.

Bunu təsdiq edən sənəd 2 iyul 1919-cu ildə Azərbaycanın Ermənistandakı səlahiyyətli nümayəndəsi M.Təkinskinin Azərbaycan Xarici İşlər Nazirinə İrandan vurduğu teleqramdır. Həmin teleqramda yazılır: "Böyük Vedi erməni ordusunun hücumunu dəf edib və onları dəmir yoluna qədər geri çəkilməyə məcbur edib. Ermənistana çoxlu yaralı erməni gətirilir. 200-dən çox ölü erməni əsgəri var. Yaralı və ölü zabitlər isə 10 nəfərdi. Deyilənə görə müsəlmanlar ermənilərdən 2 top, 8 pulemyot alıblar. Yeni hücum üçün ordu səfərbər edilir. Ermənilər çox məyusdular. Ermənilər öz uğursuzluqlarını türk əsgərlərinin olması ilə izah edirlər. İngilis missiyası da buna inanır. Lakin kəndlərdə bir dənə belə türk əsgəri yoxdur, bu ermənilərin fərziyələridir. İngilis hərbi nümayəndəsinin bu gün mənə təqdim etdiyi bəyanatda tərəfkeşlik duyulur.

*Səlahiyyətli Nümayəndə Təkinski".*[2]

Böyük Vedidə ermənilərin hücumları və törətdikləri qanlı cinayətlərlə bağlı Azərbaycan Demokratik Respublikasının Xarici İşlər Nazirliyi tərəfindən 12 iyul 1918-ci il tarixdə Ermənistanın Azərbaycandakı diplomatik nümayəndəsinə rəsmi bəyanat təqdim edilmişdir. Diplomatik nümayəndə həmin bəyanatı Ermənistan hökumətinə göndərmişdir.

Ermənistan hökumətinin Azərbaycandakı diplomatik nümayəndəsi həmin bəyanatla bağlı 18 iyul 1918-ci il tarixdə belə bir cavab göndərmişdir: "Sizin Böyük Vedidə baş verən hadisələrə dair 12 iyul tarixli 2047 №-li etiraz məktubunuzu aldım və öz hökumətimə göndərdim. Bu barədə öz tərəfimdən bildirmək istəyirəm ki, deyəsən Azərbaycan hökuməti bu hadisələr barədə düz məlumatlandırılmayıb. Bu hadisələr sözsüz

---

1. Nax MRDA. f. 314. s.5a. iş.74. vər. 191.
2. Yenə orada. vər. 192.

ki, Ermənistan ərazisində, onun vətəndaşları ilə baş verib və Azərbaycan buna qarışa bilməz, amma buna baxmayaraq bu hadisənin baş vermə səbəblərini sizə açıqlamaq istəyirəm.

1 iyul tarixində Böyük Vedi və Dəvəli kəndi yaxınlığında 9 əsgər və 12 erməni kəndlisi müsəlmanlar tərəfindən qətlə yetirilmişdir. Bu haqda xəbər tutan Ermənistan hökuməti hadisə yerinə dəstə göndərdi ki, günahkarlar və öldürülmüş əsgərlərdən götürülmüş silahlar qaytarılsın. Dəstə həmin yerə çatıb dincəlmək üçün düşərgə qurur, dəstənin rəisi isə represiya törətmək istəmədiyinə görə bu məsələni araşdırmaq üçün danışıqlara başlayır.

Bu danışıqlar zamanı dəstə kəndlilər tərəfindən (müsəlman kəndlilərinin erməni dəstələrini atəşə tutduğunu göstərir - F. C) atəşə məruz qalmış, nəticədə 3 zabit, 30 əsgər öldürülmüş, 7 zabit, 120 əsgər isə yaralanmışdır. Bundan sonra hökumət bura cəza dəstəsi göndərmək qərarına gəldi.

Cənab Nazir, yəqin ki, bu kədərli rəsmi məlumatdan Siz anladınız ki, mənim hökumətim başqa vətəndaşlar tərəfindən onun vətəndaşları və əsgərlərinin qanı axıdılsa da sülhsevər fikirlərini dəyişməmiş, mübahisəli məsələləri həmişə qan tökmədən həll etməyə çalışmışdır. Bununla yanaşı böyük vedililər naməlum mənbələrdən silahlanaraq günahkarları və əsgərlərdən götürülmüş silahı qaytarmaqdan imtina edərək Ermənistan hərbi hissəsinə atəş açmışdılar.

Cənab Nazir, Siz razılaşmaya bilməzsiniz ki, Sizin "öz müqəddaratını həll edən millət", kəndlərin müdafiəsiz sakinlərinə qarşı "cəza ekspedisiyası" kimi sözləriniz səhv məlumat və anlaşılmazlığın nəticəsidir. Siz bir nazir və vətəndaş kimi kəndli və əsgərlərin öldürülməsini adi cinayət hesab edə bilməzsiniz. O vaxt ki, bu cinayəti bu "müdafiəsiz əhali" təşkil edib, hansı ki, bir atəş ilə daimi ordunun 200-dən çox əsgər və zabitini qətlə yetirmək üçün pulemyot da gizlədib saxlayıb, bu yerdə "müdafiəsiz əhaliyə qarşı fəaliyyətdən danışmaq düz olmazdı və hökumətin günahkarları cəzalandırmaq hüququ danılmazdır.

Cənab Nazir, bu kədərli faktları şifrə ilə Sizə bildirməkdə məqsədim odur ki, Böyük Vedidə baş verən hadisənin görünməyən mənbədən silahlanmış və səfərbər edilmiş dövlət

canilərinin cəzalandırılmasından başqa bir şey deyil, hansılar ki, Ermənistan Respublikasının dövlət əsaslarını sarsıtmaq üçün sistematik olaraq hərbi hissələrə hücumlar təşkil edirlər.

Bu izahatdan sonra Sizin narazılığınızın Ermənistan respublikasının daxili işlərinə qarışmaqdan başqa öz tərkibinə görə də qəbul olunmazdır, çünki Sizin etiraz etdiyiniz hadisə barədə yetərincə məlumatınız yoxdur.

Sizin Ermənistan ordusunun ümumiyyətlə müsəlmanlara qarşı bütün fəaliyyətlərinin qarşısının alınması xahişinizə gəldikdə isə onu deyə bilərəm ki, nə mənim hökumətim, nə də onun ordusu ümumiyyətlə müsəlmanlara qarşı heç bir fəaliyyət keçirməyiblər. Ermənistan hökuməti azərbaycanlıları qarət edən 2 erməni əsgərini güllələməkdən çəkinmədi, o, müsəlman nümayəndələrini dövlət qulluğuna çağırır və dairələri bütünlüklə onlara həvalə edir. Hökumət sübut etmək istəyir ki, bütün vətəndaşlarına eyni cür münasibət bəsləyir. Bu xalqların mehribançılıqla yaşaması planlarına uyğun olmayan üçüncü şəxslər bizim və sizin mətbuatda çirkin və yalan məlumatlar yayaraq millətlərimizin bir-birinə nifrət etməsi üçün əllərindən gələni əsirgəmirlər.

*Ermənistan Respublikası diplomatik nümayəndəsi*
*T. Bekzadyan".*[1]

Diplomatik nümayəndənin müavini Vəkilov tərəfindən 12 iyul 1919-cu il tarixdə vurulmuş teleqramda yazılırdı: "Bakı. Xarici İşlər Nazirinə. Dünən Naxçıvana gələn kuryer məlumat verdi: Naxçıvandakı erməni hərbi hissələrində cəmisi 400 nəfər əsgər və kiçik ölçülü toplar, Noraşendə 500 nəfər və 2 top var, 3 zirehli qatar, biri Şahtaxtı stansiyasında, ikincisi Qəmərlidə, oradakı qatar Vedi-Basarı atəşə tutur, üçüncüsü isə Dəvəli stansiyasında dayanıb. Dəhnə keçidində ermənilər səngərlər qazırlar. Naxçıvan müsəlmanları üsyana çağırış gözləyirlər. Qəzada Ermənistan hökumətinin hakimiyyəti yoxdur və qəbul olunmur.

*Diplomatik Nümayəndə müavini Vəkilov".*[2]

---

1. Nax. MRDA. f. 314, s. 5a, iş. 74, vər. 200-203
2. Yenə orada. vər. 204

Vedi-Basar rayonunun bir çox kəndlərində, (Qaraxaç, Qadalı, Şahablı və sair) erməni daşnaklarının təcavüzləri xüsusilə ağırdır, özlərini Sasun və Vanlı adlandıran erməni quldur dəstələrinin bu bölgənin müsəlman kəndlərinə hücumları nəticəsində əsir götürdükləri 300-ə qədər qadın və qızlar (1918-ci ilin dekabrından 1919-cu ilin ortalarına kimi) vəhşicəsinə məhv edildilər.[1]

Azərbaycanlılara qarşı ermənilər tərəfindən edilən bu vəhşiliklər haqda vedibasarlılar tərəfindən həm Azərbaycana, Ermənistanda Azərbaycanın diplomatik nümayəndəliyinə, Maku xanı Əli xana və həmçinin Naxçıvanın hərbi müdafiə komandanı Kəlbalı xana məlumat verilmişdir.

İrəvan quberniyasında yaşayan azərbaycanlıların şikayətləri ilə bağlı İngilislərin İrəvandakı Dövlət Hərbi Nümayəndəliyi İrəvan xanı Məhəmməd xana 1919-cu ilin iyulunda göndərdiyi məktubunda yazırdı: "Əlahəzrətlər! Diqqətinizə çatdırmaq istəyirəm ki, 5 iyul tarixdə (1919-cu il - F. C.) məni Əli xan Makinski ziyarət etdi və Böyük-Vedi sakinlərinin Ermənistan ordusunun müsəlman kəndlərində törətdikləri qanunsuzluqlardan bəhs edən şikayətnaməsini təqdim etdi. Bunların həqiqətə uyğun olmadığına toxunmadan Siz Əlahəzrətlərdən Ermənistanın daxili işlərinə qarışmamağı və İngilis missiyasına nümayəndə göndərməməyinizi xahiş edirəm. Yerli müsəlmanların öz nümayəndələri var, əgər Ermənistan hökumətinə qarşı narazılıqları olsa onların vasitəsi ilə şikayətlərini göndərə bilərlər. Mən anlaya bilmirəm ki, Azərbaycan Diplomatik Nümayəndəsi bu halda nə məqsədlə istifadə oluna bilər. Sizə dərin hörmətimi qəbul edin.

*Polkovnik : /imza /.*[2]

16 iyul 1919-cu il tarixdə Azərbaycanın Ermənistandakı Diplomatik Nümayəndəsi M. X. Təkinski Azərbaycan Xarici İşlər nazirliyinə vurduğu teleqramda isə belə yazırdı: "Bakı. Xarici İşlər Nazirinə. Xatisov hesab edir ki, Böyük-Vedidə baş verən hadisələr Ermənistanın daxili işidir, Azərbaycan heç vaxt Vedi-Basara iddia yürütməyib və bir neçə kəndin müstəqillik əldə etməsi mümkün deyil. Xatisov şəxsən böyük-vedi-

---

1. Nax. MRDA. f. 314, s. 5a, iş. 74, vər. 197-199.
2. Nax. MRDA. f.314. s.5a. iş.74. vər. 208.

lilərin Azərbaycana köçürülməsinə etiraz etmir, Siz də razısınızsa o bu məsələni Nazirlər Şurasına çıxartsın. Mən Sizdən 2-3 günlük hərbi əməliyyatları dayandırmağı xahiş edəcəyimi söz vermişəm. Xatisov söz verdi ki, hərbi əməliyyatların 2-3 günlük dayandırılması strateji planlara mane olmayacaq.

*Diplomatik Nümayəndə Təkinski".*[1]

Ermənistanın Azərbaycandakı diplomatik nümayəndəsi Bekzadyanın Böyük-Vedidə baş vermiş hadisələrlə bağlı yazdığı etiraz məktubu ilə əlaqədar Məmmədəli xan Təkinski Ermənistan Xarici İşlər Nazirinə 31 iyul 1919-cu il tarixdə göndərdiyi məktubunda yazırdı: "Azərbaycan Respublikası Xarici İşlər Nazirinin 12 iyul tarixli 2047 №-li etirazına Ermənistan Diplomatik Nümayəndəsi Bekzadyanın cavabının məzmunu məni Sizə öz cavabımı bildirməyə məcbur edir.

Cənab Diplomatik Nümayəndə Bekzadyan Böyük-Vedidə baş verən hadisənin səbəblərini açıqlayır və buna əminlik verir. Onun verdiyi məlumatdan Ermənistan hökumətinin Böyük-Vediyə nə vaxt dəstə göndərməsi, bu dəstənin böyük-vedililər tərəfindən tüfəng və pulemyotlardan atəşə tutulmaqları, bu dəstənin cəza dəstəsindən fərqini, cəza dəstəsinin göndərilmə tarixi və bunlarla yanaşı artileriya ilə atəşə tutulan başqa kəndlərin bu məsələyə nə aidiyyətləri olduğun cənab Bekzadyan göstərmir, buna görə də mən tam açıq cavab verə bilmirəm. Amma Diplomatik Nümayəndə yoldaş Bekzadyanın izahatına və Azərbaycan Repablikası Nümayəndəliyinin bu məsələ haqda düzgün məlumatlandırılmaması haqdakı əminliklərinə baxmayaraq, mən bildirmək istəyirəm ki, ermənistan hərbi hissələri 2 iyul saat 4-də Böyük-Vediyə yaxınlaşdılar, danışıqlar zamanı ilk atəş erməni hərbi hissələri tərəfindən açılmış və bu güllə ilə Böyük-Vedinin 2 nümayəndəsi Zeynalabdin Şıxəli oğlu və Nəsrulla bəy Bəşir oğlu qətlə yetirilmişdir, böyük-vedililər öz nümayəndələrinin öldürülməsindən sonra cavab atəşi açdılar, nəticədə döyüş axşama qədər davam etmişdir. Kəndlilərin pulemyotu olmayıb.

---

1. Nax. MRDA. f.314. s.5a. iş.74. vər. 210.

Böyük-Vedi kəndlilərinə qarşı döyüşdə artileriya və piyada alay hissələri iştirak edirdilər. Axşam erməni hərbi hissələri geri çəkilməyə məcbur oldular.

Buna görə də Diplomatik nümayəndə Bekzadyanın böyük-vedililərin naməlum mənbədən pulemyot ilə silahlandıqları haqdakı bəyanatına cavab olaraq deyə bilərəm ki, onlar nəinki pulemyot, hətta dəftərxananı da qoymuşdular.

Böyük-vedililərin nə üçün Ermənistan ilə mübarizə aparmaq qərarına gəldikləri sualına cavab olaraq 300-dən çox məhv edilmiş kəndi, 20 mindən çox öldürülmüş kişi, qadın və uşağı qeyd ediblər, bu baş verənlər və onların nümayəndələrinin öldürülməsi böyük-vedililəri onsuz da məhv edilmiş kənd və qətlə yetirilənlərin taleyini böləcəklərinə əmin etmişdir.

Böyük-vedililərin fikirlərinin yanlış olduğu haqda mübaisə etmək olar, hansı ki, onlardan asılı olmayan səbəblərdən irəli gəlmişdir, bunu Ermənistan hökumətinin əsaslarını sarsıtmaq cəhdi kimi dəyərləndirmək olmaz.

Ermənistanda müsəlman vətəndaşlarına qarşı törədilən zorakılıqlar və qətllər bütün müsəlman kəndlərini böyük-vedililərin fikrini dəstəkləməyə və Ermənistandan başqa istənilən dövlətə birləşməyə hazır olduqlarını, yaxud da sülh konfiransı bitənə kimi onların üzərində istənilən bir hökumət qurmağa razılıqlarını bildirirlər.

Mənə hər gün müsəlmanlar tərəfindən qətllər, milis paltarı geyinmiş ermənilərin gecə hücumları, İrəvan şəhəri küçələrində Zəngibasar, Vedibasar, Kərnibasar və digər rayonlarda baş verən qarətlər haqda şifahi və yazılı şikayətlər gəlir. Ermənilər müsəlmanların ağacların kəsir, onların bağ və bostanların tuturlar.

Böyük-Vedidə baş verən döyüşlərdən sonra bir ay müddətində bir sıra kəndlərin qaçmış sakinləri ermənilərin onların məhsulun necə apardıqlarına və hansısa səbəbə görə apara bilmədikləri məhsulu yandırmaqlarına gözlərində yaş ilə baxırdılar, hansı ki Şıxlar kəndində baş vermişdi.

Əzgibir, Mankus, Milli Dərəsi və başqa kəndlərin sakinləri şikayət edirlər ki, Ermənistan hökuməti onları xəyanətkarlar kimi kəndlərdən qovur. Digər kəndlərin sakinlərinə uzun müddətli xahişlərdən sonra evlərinə qayıtmağa icazə verilib. Qa-

yıdan müsəlmanları ermənilər qarət edib qətlə yetirməyə başladılar və onlar qalan cüzi əmlaklarını atıb qaçırdılar. İndi bu bədbəxt müsəlmanlar məndən onları Azərbaycana köçürərək ölümdən xilas etməyi xahiş edirlər.

Bir çox müsəlman kəndlərinin torpaqlarını Ermənistan hökuməti ermənilərə icarəyə verib. Bu torpaqlar içində Ermənistan Parlamentinin müsəlman üzvünün torpaqları da var. Düzdür, indi Ermənistan hökuməti bu müqavilələri ləğv edib, amma bundan torpaq sahiblərinin vəziyyəti yaxşılaşmadı, çünki bir çox hallarda icarədar torpağı qaytarmadı. Məndə müsəlmanların Ermənistandakı vəziyyətini sübut edən bir çox yazılı şikayətnamələr var.

Cənab Diplomatik Nümayəndə Bekzadyan Azərbaycan Respublikası Xarici İşlər Nazirini əmin etdi ki, Ermənistan Respublikasının ağ və qara dərili vətəndaşları yoxdur, Ermənistan hökuməti hətta tatarlara qarət etmək məqsədi ilə hücum edən iki erməni əsgərini cəzalandırmaqdan belə çəkinmədi. Mən bilirəm ki, Ermənistan hökuməti ölüm haqda qərar qəbul etməyib.

Diplomatik Nümayəndə cənab Bekzadyan bu hadisənin Ermənistan vətəndaşları ilə baş verdiyinə görə Azərbaycanın bu işə qarışmağa heç bir haqqı olmadığını və Azərbaycan Xarici İşlər Nazirinin etirazının anlaşılmazlıq nəticəsi olduğunu bildirməzdən əvvəl Böyük-Vedi və ətraf rayonlarda hakimiyyətin heç olmasa kölgəsini yaratsınlar. Amma əgər Ermənistan Respublikası heç vaxt öz hakimiyyətini Böyük-Vedidə yaymayıbsa, onda Ermənistan respublikası hökumətinin böyük-vedililəri Ermənistana xəyanət etmiş kənd kimi cəzalandırmaq üçün dəstə göndərməsini dövlət tədbiri kimi qiymətləndirmək olmaz. Əksinə hadisələrin gedişi göstərir ki, bu sadəcə silah gücünə bu ərazini Ermənistanın tərkibinə qatmaq üçün bir akt idi.

Əgər Ermənistan hökuməti müsəlmanlar və ermənilər arasında dostluq əlaqələri yaratmaq, Ermənistanda müsəlmanlar üçün hüquqi vəziyyət yaratmaq istəyirsə onda mənim göstərdiyim müsəlmanlar üzərində törədilən bütün zorakılıq hallarını araşdırmaq üçün müttəfiq dövlətlərdən ibarət bitərəf komissiya yaratsın və günahkarları cəzalandırsın.

Əlahəzrətlər, Sizə olan dərin hörmətimi qəbul edin.

*Ermənistan respublikası hökumətində Azərbaycan Respublikası Diplomatik Nümayəndəsi M. Xan Təkinski - /imza/".*[1]

6 avqust 1919-cu il tarixdə isə Ermənistan Respublikası Xarici İşlər Nazirliyi tərəfindən Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinə belə bir cavab məktubu gəlir: "Sizin Diplomatik Nümayəndəniz Xan Təkinski bizim diplomatik nümayəndəmiz Bekzadyanın 31 iyul tarixində baş verən Böyük-Vedi hadisələri haqda verdiyi izahatına cavab olaraq mənə bəyanat göndərib, amma bu bəyanatın sizin dövlət tərəfindən, yoxsa özü tərəfindən təqdim olunması bilinmir. Bu bəyanatda qeyd olunan məlumatlar həqiqətə uyğun olmadığına görə öz ümə borc bilirəm ki, Azərbaycandakı Diplomatik Nümayəndəmizin əli ilə Sizin hökumətə öz cavabımı təqdim edim.

Mənə elə gəlir ki, əgər cənab Təkinski təqdim etdiyi bəyanatdakı məlumatları daha dəqiqliklə yoxlasaydı bu bəyanatı göndərməyin mənası qalmazdı.

Ermənistan hökuməti öz rəsmi məlumatında Böyük-Vedidə baş verənlər haqda geniş izahat vermişdi. Mən ancaq onu deyə bilərəm ki, cənab Təkinskinin Ermənistan hərbi hissələri tərəfindən Böyük-Vedi nümayəndələri Zeynalabdin Şıxəli oğlu və Nəsrulla bəy Bəşir oğlunun qətlə yetirilməsi, hansı ki, sakinlərin atəş açmasına təkan olmuşdur, həqiqətə uyğun deyil. Hər iki nümayəndə nəinki öldürülməyib, hətta indiyə kimi Qəmərlidədirlər, böyük-vedililərin erməni hərbi hissələrinə açdıqları gözlənilməz atəşdən sonra Ermənistan hökuməti onları ora keçirib.

Təkinskinin Böyük-Vedinin Ermənistan hökumətinin olduğunu deməzdən əvvəl orada hakimiyyətin heç olmazsa kölgəsini yaratmaq haqda dediklərinə gəldikdə isə onu deyim ki, bu ərazi İngiltərə komandanlığı ilə razılaşmaya əsasən Ermənistan hökumətinə verilib və əhali bu haqda məlumatlandırılıb. Ermənistan vətəndaşı olmaq istəməyən şəxslər isə vaxtında onun sərhədlərini tərk etməli idilər. Əgər Ermənistan hökuməti indiyə qədər böyük-vedililərə qarşı heç bir qəti tədbir görməyibsə bu hökumətin məsələni sülh yolu ilə həll etmək istəyini bir daha sübut edir. Ancaq böyük-vedililərin açıq qiyamı və onların Ermə-

---

1. Nax. MRDA. f.314. siy.5a. iş.74. vər. 215-220.

nistan hökumətinin hakimiyyətini qəbul etməmələri sonuncunu hərbi qüvvəyə əl atmağa məcbur etdi.

Bundan başqa bizim diplomatik nümayəndəmizin böyük-vedililərin naməlum mənbələrdən pulemyot ilə silahlanmasına gətirdiyi izahat məni çox təəssüfləndirdi. Ermənistan hökuməti böyük-vedililərin kənarda olan türk agentləri tərəfindən silahlandırılmaqları haqda dəqiq sənədlərə malikdir, hansılar ki süni olaraq müsəlman əhalisini Ermənistan hökumətinə qarşı qaldırırlar, onlar olmazdan öncə müsəlman əhalisi bir çox ermənistan kəndlərində olduğu kimi sakit və mədəni həyat sürürdü.

Ermənistan hökuməti bütün dediklərini sübut etmək üçün lazımi sənədləri təqdim etməyə hazırdı. Böyük-vedililərin ən xırda fikirləri haqda belə məlumatı olmayan cənab Təkinski də bunu bilməmiş deyil. Cənab Təkinskinin böyük-vedililəri pulemyot ilə Ermənistanın özünün silahlandırması haqdakı fikri isə anlaşılmazdır.

Mən onu qeyd etmək istəyirəm ki, cənab Təkinskinin Ermənistanda yaşayan müsəlmanların vəziyyətinin acınacaqlı olması haqda dedikləri faktlara əsaslanmır və sadəcə ümumi ittiham xarakteri daşıyır. Ermənistan hökuməti isə Qafqazdakı Fransız Missiyasının müsəlman əhalisi arasında apardığı sorğuların nəticəsini təqdim edə bilər, hansı ki, cənab Təkinskinin dediklərinin əksini sübut edir, Diplomatik Nümayəndəmiz Bekzadyanın dediyi kimi Ermənistan hökuməti üçün ağ və qara dərili vətəndaş yoxdur.

Bütün sorğu müddətində sakinlər tərəfindən ermənistan hərbi hissələri tərəfindən narahatçılığın törədilməsi barədə heç bir şikayət olmadı, cənab Təkinski də bilir ki, Ermənistan hökumətinin əhaliyə Azərbaycana köçmək təklifini irəli sürəndə əhali buna soyuq münasibət bəslədi. Əgər əhalinin Ermənistandakı vəziyyəti doğrudan da cənab Təkinskinin dediyi kimi acınacaqlı olsaydı buna hər bir imkanı olan əhali çoxdan Ermənistanı tərk etmişdi. Ermənistan müsəlman vətəndaşlarından bu cür xahiş almayıb.

Bundan sonra cənab Təkinskinin dediyinin əksinə olaraq bir çox müsəlman qaçqınları Ermənistan hökuməti tərəfindən doğma kəndlərinə qaytarılıb.

Cənab Təkinskinin müsəlmanların Ermənistandakı çətin vəziyyətini araşdırmaq üçün müttəfiq dövlətlərdən ibarət komissiyanın təşkil olunmasına dair təklifinə gəldikdə isə onu deyə bilərəm ki, Ermənistan hökuməti son hadisələrin yaranma səbəblərinin əsl xarakterindən xəbərdar olduğuna görə bu komissiyanın yaradılmasını artıq hesab edir.

Məsələyə dair geniş açıqlamadan sonra Ermənistan hökuməti təəssüflə bildirir ki, cənab Təkinskinin bu cür mülahizələri Ermənistana qarşı çıxışların yaranmasına və daxildəki sabit vəziyyətin pozulmasına səbəb olmuşdur.

Bunları Sizin hökumətinizin nəzərinə çatdıraraq cənab Təkinskinin hərəkətinə öz etirazımı bildirirəm və bunun cavabsız qalmayacağına ümid edirəm.

Bu bəyanat Şərur-Naxçıvan hadisələrini araşdıran Ali Birlik Komandanlığı nümayəndələri tərəfindən də qəbul edilib və Ermənistan hökuməti bu haqda məlumatlandırılıb.

Buna əlavə olaraq Sizin diqqətinizə onu da çatdırmaq istəyirəm ki, Cənab Təkinskinin bu cür hərəkətləri bu çətin vaxtda Azərbaycan və Ermənistan Respublikaları arasındakı dostluq, yaxşı qonşu əlaqələrinin pozulmasına gətirib çıxara bilərdi, hansının ki, yaradılmasını Ermənistan hökuməti həmişə arzu edib və çalışıb.

*Xarici İşlər Naziri - /imza/.*

*Baş katib - /imza/* ".[1]

1919-cu ilin sentyabr ayında Azərbaycan Respublikası Xarici İşlər Nazirliyi tərəfindən M.X.Təkinskiyə göndərilən məktubda ondan xarici dövlət nümayəndələrinə göndərmək üçün İrəvan quberniyası və Qars vilayətində müsəlmanlara dəymiş zərəri, o cümlədən zərərçəkənlərin adı, familiyası və atasının adı, öldürülməsi, yaralanması, əsir alınmış kişi və qadınların adlı siyahısı, dağıdılmış və yandırılmış kəndlərin, bağların, aparılmış heyvanların və s. siyahısını hesablamaq üçün statistik məlumat toplamağı xahiş olunurdu.

9 sentyabr 1919-cu ildə M.X.Təkinski Azərbaycan Respub-

---

1. Nax. MRDA. f.314. s.5a. iş.74. vər.221-226.

likası Himayəçilik Nazirliyinin ünvanına göndərdiyi məruzə xarakterli məktubunda yazırdı: "Ermənistanın müsəlman əhalisinə köməyin təşkil olunması zamanı yerli vəziyyəti nəzərə alaraq burada diqqət təkcə qaçqınlara yox, ümumiyyətlə kasıb, ac və xəstə əhaliyə yönəldilməli idi.

Müsəlmanların Ermənistandakı siyasi vəziyyəti elədir ki, qaçqınların çox hissəsi şəhərdən kənarda Şərur, Naxçıvan və Sürməlidədir, hansılarla ki, əlaqə mümkün deyil. Ölkənin daxilində isə ancaq İrəvan şəhərində və müsəlman kəndlərinin təhlükəsiz yerlərində yerləşən müsəlman qaçqınlarının bir hissəsi qalıb. Bununla yanaşı 1918-ci ilin yazında baş verən qanlı hadisələrdən sonra kəndlərini tərk edən sakinlər 2-3 dəfə öz evlərinə qayıtmağa cəhd ediblər, bunun nəticəsində təmiz müflisləşmiş və indi onların vəziyyətləri qaçqınlardan daha pisdir. Onlar evlərin, torpaqların, əmlakların, mal-qaraların itiriblər. Onu da əlavə etmək lazımdır ki, bu ilin məhsulundan cüzi sayda insan istifadə edə bilmişdi, çünki türk erməniləri tərəfindən zəbt edilən torpaqlar ermənistan hökuməti tərəfindən icarəyə verilmişdir.

Son günlərin hadisələri müsəlmanların vəziyyətini daha faciəli etdi, öz yerlərinə qayıdan 50-60 kənd yenidən dağıdıldı, sakinlər isə olan qalan əmlakın, çörəklərin anbarlarda qoyaraq qonşu müsəlman kəndlərinə qaçdılar, bununla talan olunmuş kəndlərin onsuz da çətin vəziyyəti daha dözülməz oldu.

Bunları nəzərə alaraq kömək tədbirləri tətbiq edərkən təkcə qaçqınları yox, ümumiyyətlə zərər çəkənləri və ehtiyacı olanları nəzərdə tutmaq lazımdır. Buna əsasən xərclərin cədvəlini təsis edərkən təkcə öz yerlərini tərk edən əhali yox, həm də qaçqın həyatı keçirib indi isə öz evlərinə qayıdan əhali də nəzərə alınsın.

Əvvəl də qeyd edildiyi kimi qaçqınların əsas hissəsi cəbhə bölgələri yaxınlığında səfərbər edilib, Yenibayazet, Eçmiədzin və İrəvan qəzalarından 150 minə qədər müsəlman köçüb. İndi sərhəddə çox az əhali qalıb, onların sayı da gündən-günə azalır. Yeni-bayazet rayonunda müsəlman heç qalmayıb, ona görə ki, yazda evlərinə qayıdan kəndlilər yenidən talan edildilər, onların taleyi haqda heç bir xəbər yoxdur, qırıq-qırıq gələn şaiyələrə əsasən onlar görünməmiş vəhşilik və zorakılığa məruz qalıblar,

ancaq gölün şərq tərəfində yerləşən rayon toxunulmaz qalmışdı.

İrəvan qəzasında hökumətə tabe ərazilərdə 25 min, İçmiədzində 25 min, Sürməlidə isə 15 min müsəlman var. İrəvan qəzasında cəmi 13 min qaçqın və yerli əhali yaşayır; Aleksandropol qəzasında həmişə müsəlman az olub və onların vəziyyəti müəyyən dərəcədə yaxşıdır. Qars vilayətinə gəldikdə isə ora haqda dəqiq məlumat yoxdur, ancaq o məlumdur ki, orda yaşayan müsəlmanların vəziyyəti Ermənistanın bölgələrindəki müsəlmanların vəziyyətindən xeyli yaxşıdır.

Beləliklə ehtiyacı olan müsəlmanların qeydə alınması zamanı indi ancaq kömək İrəvan quberniyasında aparılacaq. Sonuncu üçün əhalinin sayı maksimum 80 min, minimum isə 70 min nəzərdə tutulacaq.

Müsəlman əhalisinin vəziyyəti dəhşətlidir: onun nə ehtiyatı, nə çörəyi, nə toxumu, nə kənd təsərrüfatı alətləri, çox halda isə evi yoxdur. Onlar ən hüquqsuz faciəvi vəziyyətdən üzülüb və çarəsizdir. Daimi qayıtmalar zamanı adamlar mal-qarasını, ev əşyalarını və pul ehtiyyatlarını itirib. Nəticədə müsəlmanların çoxunun əkini yoxdur, çünki yuxarıda qeyd etdiyim kimi bir çoxlarının torpağı olsa da ondan istifadə edə bilmir (tutulub və icarəyə verilib). İndiyə kimi bir çox müsəlman kəndlərində sahiblər ac, evsiz qaldığı halda ermənilər türklərin evində yerləşib, əkinlər və bağlardan istifadə edirlər. Ehtiyac milliyətindən asılı olmayaraq hamıya təsir edir, amma ermənilərdən fərqli olaraq müsəlmanlara heç bir kömək göstərilməyib.

Məsəl üçün İrəvan şəhərində müsəlmanlar uzunmüddətli aclığa məruz qalaraq, yavaş-yavaş qırılır. Bu onunla izah olunur ki, şəhərə əsasən əhalinin işləyə bilməyən hissəsi yığılıb, qadınlar, uşaqlar və qocalar. Uşaqlar əsasən yetim, qadınlar isə duldular.

Maddi köməkləri olmadıqlarına görə onlara düşən ərzaq payından da istifadə edə bilmirlər, çünki çox bahadır: funtu 4 rubl 50 qəpik. Əhali bu paydan istifadə edə bilmədiyinə görə talonları kənar şəxslərə satırlar, özləri isə atılmış tərəvəz, meyvə və ot ilə qidalanırlar. Nişastalı və yağlı yemək ilə qidalana bilməyən əhali getdikcə xarablaşır və qırılır. Ölüm halları həm də tibbi yardım olmadığına görə də çoxalır. Aclıq çətinliyindən başqa payız və qışda əhali soyuq dəhşətini çəkir,

çünki əhali çılpaq və evsizdir.

Yuxarıda qeyd edildiyi kimi müsəlman kəndləri bütünlüklə təsərrüfat və qida çatışmamazlığındadır. Əgər indi əhali aclıqdan qırılırsa, payızda, qışda və yazda dəhşət başlayır.

Yuxarıda izah olunanlara əsaslanaraq müsəlman əhalisinə ərzaq, toxum, tibbi yardım, yetimlər üçün sığınacaq, qocalar və qadınlar üçün xeyriyyə müəssisələrinin yaradılması şəklində aparılmalıdır.

Bundan başqa qış yaxınlaşdığına görə işləyə bilən amma evsiz və çılpaq əhali üçün də tədbir görmək lazımdır.

Yeyəcək köməyinə əhalinin çox hissəsi, yəni 40-45 min nəfərinin ehtiyacı var. Əgər hesab etsək ki, bir nəfərə ayda 20 funt un tələb olunur, onda bunun üçün cəmisi 20-23 min funt buğda lazımdır. Əhalini 10 ay, yəni gələn məhsul yığımına qədər saxlamaq lazımdır. Bu 40-45 min ac əhali üçün 20-23 min funt buğda gərəkdir.

Gələcəkdə onların sayı arta bilər, çünki evlərindən gedən əhali geri qayıdacaq, amma mən bilərəkdən bu məsələni qırağa qoyuram. Bundan başqa əhalinin heç olmazsa bir hissəsini toxum materialı ilə də təmin etmək yerinə düşərdi, bu kəndliləri gələcəkdə aclıq qorxusundan xilas edə bilərdi. Toxuma ehtiyacı olan ailələrin sayı 8 min olacaq. Bundan başqa nəzərə alsaq ki, hər ailəyə ən azı bir xalvar lazım olacaq, onda ümumi tələb 240 min pud buğda edəcək.

Tibbi yardıma gəldikdə isə bu məsələ müzakirə edilən şəxslərin fikrinə görə 1) İrəvanda 40-50 nəfərlik uşaq evi, 2) qocalar və qadınlar üçün xeyriyyə müəssisəsi açılmalı, bir ambulatoriya və uşaqlar üçün bir həkim tələb olunur. Əslində şəxsi xəstaxana tikilsəydi yaxşı olardı, amma evə ehtiyac olduğuna görə bu çox çətin və bahadır, buna görə də şəhər xəstəxanasında müəyyən sayda çarpayının saxlanması əlverişlidir. Köməyin sxeminin qurulmasına gəldikdə isə onu demək olar ki, Azərbaycanda təsis edilən və göndərilən plan burada, İrəvanda tədbiq edilə bilməz. Bu göstəriş başqa vəziyyət üçün nəzərdə tutulub və bütün əlavələri üçün hökumət aparatının istifadəsini tələb edir. Plana görə bütün qaçqın müəssisələri Azərbaycan ərazisində fəaliyyət göstərən rəhbərliyin bir hissəsidir. Təbii ki, Ermənistan müsəl-

manlarına kömək ictimai-hökumət hakimiyyəti xarakteri daşıya bilməz. Mən hələ işin geniş görülməsinə mane olan maddi çətinliyi demirəm. Bunun nəticəsi kimi bu köməyin tətbiqi məsələsi asanlaşır: böyük kəndlərdə üzvlərin sayları artır, komitələr hər 20 evdən bir nümayəndə hesabı ilə təşkil olunurlar. Kənd komitəsinin vəzifələri kənddə ehtiyacı olanların siyahılarının tərtib edilməsi və ərzaq paylarının paylanmasından ibarətdir. Siyahıların və ərzaq paylanmasının düzgün aparılmasını yerində yoxlamaq üçün İrəvan şəhəri və Sürməli rayonu üçün hərəsinə bir nəfər, İçmiədzin qəzasına isə 2 nəfər olmaq şərti ilə 4 nəfərdən ibarət yoxlayıcılar ştatı yaradılır.

Bu il avqust ayının ikinci yarısında İçmiədzin, Yenibayazet və Sürməli qəzalarında 50-dən çox kəndin dağıdılması müsəlmanların vəziyyətini daha da pisləşdirdi: yenidən qaçanlar bütünlüklə hər şeylərin itirdilər. Bu kütlənin əsas hissəsi İrəvan şəhəri yaxınlığında Zəngibasar rayonunda səfərbər olublar. Bir çox qaçqının yeri haqda məlumat almaq olmadı. Son məlumata görə Talın rayonundan 500 nəfər Arpa çayın keçiblər, Yenibayazet qəzasından sağ qalan qaçqınlar isə Yelizavetpol quberniyasından Qazax rayonuna keçiblər. Zəngibasarda səfərbər olan qaçqınlara mən ixtiyarımda olan ərzaq ehtiyatından təcili yardım göstərmişəm.

İşimizi yaranan siyasi vəziyyət də çətinləşdirir. Hələlik qəza bölgələrin gəzmək üçün heç bir imkan yoxdur. Maddi çatışmamazlığı da işimizə mane olur. İndiyə kimi hərəyə 10 pud şərti ilə 500 pud ərzaq yardımı edilib. Ərzaq payın gündən günə azaltmalı oluruq, çünki ehtiyac artır ehtiyat üçün isə heç nə gəlmir. Ərzaq ehtiyacı - bu aclıq və məhv olmanın çox yüngül izahıdır, bu insanların ölü heyvanları parçalayıb yeməsi, zibillikləri dağıtması, çürümüş yemək qalıqlarını yeməsi, heyvan kimi çəmənlikdə ot və köklər ilə qidalanması vəziyyəti izah etmək üçün çox ədəbli sözdür və bu, 1918-ci ilin fevral ayından başlayıb.

Bunları siz Əlahəzrətlərə çatdıraraq xahiş edirəm ki, minlərlə müsəlman qaçqınlarının həyatını xilas etmək üçün heç olmazsa 20 vaqon buğda və ya un göndərəsiniz, 2) pul vəsaiti tələb olunur, çünki aparılan xərcləri çıxmaq şərti ilə xahiş etdiyim 75 min rubldan az pul qalıb, 3) Ermənistanda Himayə Naziri müvəkkili

vəzifəsinin təsdiqlənməsi, pul və maddi xərclərin aparılması haqda təlimat, 4) Himayə Nazirliyinin təxmini ştatı və xəstəxana, qocalar evi, sığınacaq kimi müəssisələrin xərc cədvəli.

*Müvəkkil Təkinski.*
*9 sentyabr 1919-cu il. İrəvan şəhəri".*[1]

Artıq 1919-cu ilin son iki ayı ərzində Eçmiədzin qəzasında 62, Sürməli qəzasında 39 kənd, İrəvan qəzasında isə Zəngibasardan başqa bütün müsəlman kəndləri darmadığın edilmişdi. [2]

Eçmiədzin qəzası xüsusi ilə ağır zərər çəkmiş, burada bir kənd belə salamat qalmamışdı. Sürməli qəzasında isə ermənilər cəmi 3 kəndə- Dizə, Cənnətabad və Kərimbəyli kəndinə toxunmamışdılar. Bütün bu talanlarda erməni ordusu yerli erməni əhalisi ilə birlikdə fəaliyyət göstərirdi.

1919-cu ilin payızında Eçmiədzin, Sürməli, Yeni Bəyazid qəzalarında azərbaycanlıların vəziyyəti daha da ağırlaşdı. Dekabr ayında Sosun polku bu əraziyə hücum edərək əhalidən Ermənistan hökumətinə tabe olmalarını, əllərində olan silahları təhvil vermələrini tələb etdi. Ermənilərin silahları təhvil verəcəkləri təqdirdə həyatları və mülkləri erməni ordusu tərəfindən qorunacağı barədə vədlərinə inanan müsəlman əhalisi bütün silahları təhvil verdikdən sonra ermənilər müsəlman kəndlərinə hücumlar edərək xüsusi qəddarlıqla azərbaycanlıları qırdılar. Bu cinayətlər haqda Azərbaycan hökuməti Ermənistana etiraz notası göndərsə də bir nəticə vermədi.

1919-cu ilin 27 dekabrında Azərbaycan Respublikası Xarici İşlər Naziri F.X.Xoyski Ermənistan Respublikası Xarici İşlər Nazirliyinə göndərdiyi teleqramda yazırdı: "Ermənistan hökumətinin dekabr ayının 21-də Zəngibasar rayonunun müsəlmanlarına qarşı hərbi əməliyyata başlayaraq Qarabazar kəndini dağıtdıqları və talan etdikləri, dekabırın 22-də bu halın Uluxanlı kəndində təkrar olunduğu döyüşlərin Çobankərə və Qaraqışlaq kəndlərində getdiyi Ermənistan hökumətinin 1919-cu il noyabırın 23-də əldə olunmuş razılığı kobud surətdə pozduğunun sübutudur".

Eçmiədzin və Sürməli qəzalarında 101-dən çox kənd ermənilər tərəfindən dağıdıldıqdan sonra Zəngibasar böyük təhlükə

---

1.Nax MRDA. f. 314, s. 5a, iş. 74, vər. 193-200.
2. Yenə orada. iş. 71. vər.16-18.

altında qalmışdı. 1919-cu il iyulun 19-da ermənilər Zəngibasarı işğal etdikdən sonra əhalinin bir hissəsini öldürmüş, 1500-ə yaxın uşaq və qadını suda boğmuşdular. [1]

Ermənilər bu rayonda Ağcaqışlaq, Ağhəmzəli, Arbat, Aşağı Keçili, Aşağı Qulubəyli, Böyük Çobankərə, Qaraqışlaq, Qulucan, Dəmirçi, Zəngilər, Zəhmət, Yengicə, Yuxarı Qulubəyli, Yuxarı Çarbax, Göy Gümbət, Rəhimabad, Rəncbər, Sarıcalar, Seyidkənd, Sarvanlar, Xorraşlı, Şorlu və başqa kəndlərdə qırğınlar törətmiş, əhalisini yurd-yuvalarından qovmuşdular. Bu kəndlərin əhalisi İrana, Türkiyəyə və Azərbaycanın müxtəlif bölgələrinə, o cümlədən Naxçıvana pənah gətirmişdilər.

Ümumiyyətlə, 1918-1920-ci illərdə ermənilər bundan sonra İrəvan quberniyasının Eçmədzin qəzasına daxil olan Zəngibasar rayonunda 60-dan çox kəndi məhv etmişdilər.

Sənədlərdə 1919-cu ilin təkcə iki ayı ərzində İrəvan quberniyasının Eçmədzin qəzasından 62 kənd, onlardan: Hacılar, Molladursun, Tors, Ağca-qala, Aralıx, Yuxarı Ağca-qala, Kərim-arx, Kiçik kənd, Qoşa Bulaq, Zeynəl Bulağı, Zeyvə, Qulu bəy, Səfiabad, Kolanlı, Qəmərli, Yuxarı Qarxun, Aşağı Qarxun, Talin, Qaracalar, Pir-Tikan, Urmudlu, Naçravan, Molla Bədəl, Quzuvənd, Canfidə, İqdəli və s. [2]

Sürməlik qəzasından 39 kənd, onlardan: Yaycı, Oba, Əxməmməd, Qasımcan, Sarı çoban, Sürməli, Qaraqoyunlu, Hüseyn kəndi, Səfərqulu, Xaraba Əlican, Cənnətabad, Həsənxan, Oğuzlu, Qızıl Zakir, Dərə kənd və sair. İrəvan qəzasında isə Zəngəzur qəzasını çıxmaq şərti ilə bütün müsəlman kəndləri erməni silahlı dəstələri tərəfindən dağıdılmış, yandırılmış və əhalinin xeyli hissəsi vəhşicəsinə öldürülmüşdü.

Yurd-yuvalarından didərgin düşmüş azərbaycanlı əhali arasında xəstəlik geniş yayılmışdı. 1919-cu ildə təkcə İrəvanda 19 min nəfər azərbaycanlı səpməyatalaq xəstəliyinə tutulmuş, Talin nahiyyəsinin 8 kəndində 12.237 nəfər əhalinin 9940 nəfəri acından və cürbəcür xəstəliklərdən tələf olmuşdu.[3]

---

1. Nax. MR DA. f. 314, siy. 5, iş. 71, vər. 16-18.
2. Yenə orada. vər. 17-18.
3. A.Mustafayev. "XX əsrdə Qərbi Azərbaycan ərazisində azərbaycanlıların deportasiyası və Naxçıvan" dissertasiyası.2005. səh.69-71

Azərbaycan hökuməti Ermənistan ilə bütün mübahisəli məsələlərin sülh yolu ilə həll edilməsi üçün bütün vasitələrə əl atırdı. Azərbaycan hökumətinin səyləri nəticəsində 1919-cu il dekabr ayının 14-də mübahisəli məsələlərin həlli üçün Bakıda Azərbaycan-Ermənistan konfransı öz işinə başladı. Lakin Ermənistan tərəfindən qeyri-konstruktiv mövqe danışıqların nəticəsiz qurtarmasına səbəb oldu. Ermənilərin müsəlmanlara qarşı qırğınları isə yenə də davam edirdi.

1919-cu ilin dekabrından başlayaraq 1920-ci ilin dekabr ayına kimi erməni daşnak qoşunları İrəvan quberniyasında, Şərur-Dərələyəz, Naxçıvan, Ordubad bölgələrinin, demək olar ki, əksər müsəlman kəndlərinə basqın etmiş, yandırmış, silahsız azərbaycan əhalisinin xeyli hissəsini vəhşicəsinə qıraraq məhv etmişlər. Əhalinin bir qismi isə öz yurdlarını, ocaqlarını tərk etmək məcburiyyətində qalmışlar.

Ermənilərin hiyləsi ilə İrəvan quberniyasında qaçqın düşmüş müsəlman sakinləri öz kəndlərinə qayıtdıqdan sonra ermənilər tərəfindən qılıncdan keçirilərək məhv edilmişdi.

Bu sənəd bunu bir daha sübut edir. 7 yanvar 1920-ci il tarixdə Vedi özünümüdafiə dəstəsinin komandiri Abbasqulu bəy Şadlinski Böyük Vedidən Naxçıvanda yaranan General qubernator ordusuna belə bir teleqram göndərir: "Toxmaqdan kənd sakinlərindən 37 nəfər ermənilərin müqaviləsinə inanaraq öz yurdlarına köçdülər. Ancaq orada yerləşən ermənilərin nizami qoşun hissələri tərəfindən kəsilib doğrandılar. Məlumat üçün bu vəziyyəti Sizə çatdırıram. A. Şadlinski".[1]

Teleqramdan bir neçə gün sonra özünümüdafiə dəstəsinin komandiri Abbasqulu bəy Şadlinskinin Musa Səttar oğlunun rəhbərlik etdiyi dəstə tərəfindən əsir götürülmüş ermənidən aldığı məlumatdan aydın olur ki, üç gündən sonra Vedi ərazisinə üç istiqamətdə: Ağdağ, Çanaxçı və Şırazlı tərəfdən hücum olacaqdır. Musa Səttar oğlunu Naxçıvana, Naxçıvan Araz-Türk Respublikasının müdafiə komandanı (naziri) Kəlbalı xan Naxçıvanskinin yanına lazımi köməklik və göstəriş verməsi üçün göndərir.

---

1. Nax. MR DA. f. 314, siy.5a, iş. 18, vər. 74.



Musa Səttar oğlu

Musa Səttar oğlu Kəlbalı xan Naxçıvanski ilə görüşüb Abbasqulu bəy Şadlinskinin Vedibasar və eləcə də İrəvan quberniyasında daşnak ermənilərin törətdikləri vəhşiliklər haqda məlumatını çatdırmaqla bərabər, yaxın günlərdə Vediyə üç tərəfdən olacaq ermənilərin güclü hücumu haqda məlumat verir.

Vedi özünümüdafiə dəstəsinin üzvü, Qırmızı tabor çu Bəylər Cəlilov xatirələrində yazır: Xalqımızın igid oğlu Abbasqulu bəy Şadlinski Vedibasarın mərd oğullarından silahlı dəstə təşkil edərək onlara rəhbərlik edib, iki il daşnak erməni quldurlarının Vediyə olan basqınlarını dəf etdi, işğalçılara qarşı vuruşdu. Bu vaxt onun dəstəsində Musa Səttar oğlu, Həbib və Əkbər Yetim Əli oğlu, Abbas Əjdər oğlu, İslam Şadlinski, Seyfulla Süleymanov, Şəmdin Mahmudbəyov və başqa görkəmli şəxslər var idi.

1920-ci ilin iyun ayında daşnaklar yenidən çox böyük qüvvə ilə 40-50 km-lik cəbhə xətti ilə Vediyə hücum etdilər. Bizdə hərbi sursat az idi. Şiddətli döyüşlərdən sonra daşnakların ağır həmləsinə tab gətirə bilməyib Vedibasar əhalisi, 10 minlərlə ailə İrana keçməli oldu .[1]

1920-ci ilin mart ayından başlayaraq erməni daşnak qoşunları Vedi, Cüvə və Yaycıdan başlamış Ordubadadək ərazini işğal edib Zəngəzur və Dağlıq Qarabağı Ermənistana birləşdirmək üçün intensiv surətdə hərbi hazırlıq işləri aparırdılar. Bu vaxt sərhəd sahələrə 6630 nəfər piyada, 1130 nəfər süvari, 66 pulemyot və 26 top toplamışdılar. Dro, Nijde, Gippon (Yapon) və başqa daşnak liderləri Zəngəzurun müdafiəsinə böyük əhəmiyyət verirdilər. [2]

---------------------

1. Nax. MRDA. f.582. siy.1. iş.48. vər. 242-244.
2. Vedibasar qəzeti, 15-30 iyun. 2006-cı il.

1920-ci ilin əvvəllərindən iyun ayına kimi erməni daşnak qoşunları Böyük-Vediyə dəfələrlə hücum etsələr də Vedi taborunun komandiri Abbasqulu bəy başda olmaqla yüzlərlə igid vedililər erməni daşnak qoşunlarını Vediyə buraxmamışlar.

Böyük-Vedidə çox ciddi müqavimətə rast gələn daşnak qoşunlarının komandanlığı 1920-ci il iyun ayının axırlarında Vediyə qarşı daha güclü qoşun göndərir. Sayca çox olan və güclü silahlanmış erməni qoşunlarına qarşı vuruşmaq qeyri-mümkün olduğundan A. Şadlinskinin başçılığı ilə tabor və Vedi əhalisi kəndi tərk edib İrana keçir. Çünki bu vaxt Şərur və Naxçıvan qəzalarından da əhalinin çoxu İrana keçmişdir.

A.Şadlinskinin başçılıq etdiyi tabor və mühacirlər kütləsi İranın Ərəblər kəndinə keçməkdə çox əziyyət çəkirdi. Ərəblərin valisi Bəbir xan və sərkərdə Mir Abdullanın dəstəsi Sarı su adlanan sahədə düşərgə salan mühacirlərin (Vedi taborunun döyüşçülərinin-F.C.) silahlarını əllərindən almaq istəyir, lakin bacara bilmirlər. Elə gün olmur ki, silahlı toqquşmalar baş verməsin, belə toqquşmaların birində Vedidən Bəhram Kəlaş oğlu öldürülür.

Aclıq və naratlıq taborun yerini dəyişmək zərurətini doğurdu. Ərəblərdən hərəkət edən mühacirlər Oruc Məmməd , Məriyəmlər , Şahbulağı, Qaraziyadın kəndlərindən keçib 1920-ci il avqust ayının ortalarında Cors mahalının Qəmişkan kəndinin ayağında dayanır. Kəndin quldur dəstələri mühacirlərə basqın edir. Taborun keşikçi dəstəsi quldurları atəşlə qarşılayır. Mühacirlər həyəcan içində ayağa qalxıb Qəmişkan kəndini almağa məcbur olurlar.

Taborun keşikçi - kəşfiyyatçı dəstəsinə A.Şadlinskinin oğlanları İsfəndiyar, İsgəndər, cəsur döyüşçülərdən Fərəməz Mahmudbəy (Vedili), İbrahim Fərzəliyev (Çəmənkəndli), Balo Vəkilov (Civəli), Miryusif Seyidov (Danzikli) və başqaları rəhbərlik edirdi. Taborda 6 ədəd pulemyot, çoxlu rus silahı, patron, əl qumbaraları və s. odlu silah var idi.[1]

Taborçulardan Bəylər Cəlilov öz xatirələrində yazır: Biz Şahtaxtı körpüsündən keçərək İranın Ərəblər kəndinin ətrafında Sarı su çayı boyunca köç düşdük. Abbasqulu bəy mü-

---

1. Nax. MRDA. f.582. s.1. iş.47. vər.11-12.

vəqqəti sığınacaq istədi ki, əhali orada yaşasın, silahlı qüvvə isə qayıdıb daşnaklarla vuruşsun.[1]

1920-ci il sentyabrın əvvəllərində mühacir axını Cənubi Azərbaycanın iqtisadi-mədəni mərkəzlərindən olan Xoy şəhərinin Salmas darvazasında dayanır. Ondan bir neçə gün sonra tabor da Xoy şəhərinə yaxınlaşır. Şəhər valisi Nəbo xan və onun yavəri İsmayıl ağa taborun şəhərə daxil olmasına icazə vermir.

Bir neçə gündən sonra valinin nümayəndəsi tabor komandanı Abbasqulu bəyin düşərgəsinə gəlib silahların Xoyun kazak komandanlığına təhvil verilməsini tələb edir və bildirir ki, bu tələbi qəbul etsə, ona yüksək rütbə verəcəkdir. O, valinin nümayəndəsinə deyir ki, biz tezliklə vətənə qayıdacağıq. Orada silah bizə yenə də lazım olacaqdır.

Bundan qəzəblənən vali taboru hərbi polis gücünə tərksilah etmək qərarına gəlir. Şadlinskinin əmri ilə tabor Qəzənfər dağının ətəyində, Köşk saray adlanan yerdə səngərlər qazıb döyüşə hazır vəziyyətdə dayanır. Tərksilah baş tutmur.[2]

1920-ci il sentyabr ayının 25-də Naxçıvanda Abbasqulu bəy Şadlinskinin Naxçıvana çağırılması barədə məsələ müzakirə edilir və onu Naxçıvana dəvət etmək üçün Seyfulla Süleymanovu və Məmməd Rəhimovu İrana göndərirlər.

Qırmızı tabor un döyüşçüsü, partizan Bilas Şadlinski öz xatirələrində yazır: Sentyabr ayının axırları idi. Hər yerə xəbər yayıldı ki, Naxçıvandan nümayəndələr gəlib. Naxçıvan İnqilab Komitəsi adından Abbasqulu bəyə məktub göndəriblər. Onu öz dəstəsi ilə Naxçıvana dəvət etmişlər. Gələn nümayəndələrin biri Böyük Vedi kəndindən olan Seyfulla Süleymanov və Naxçıvan partizan hərəkatının fəal üzvü Məmməd Rəhimov idi. Mərənd vilayətində ayrı-ayrı kənd və qəsəbələrdə yerləşdirilmiş qaçqın əhalinin qabaqcılları dərhal Mərənd şəhərinə toplaşdılar. Abbasqulu bəy müraciətlə: hamınız 2-3 gün müddətinə tam hazır olun, birlikdə Naxçıvana yola düşüb məslək qardaşlarımız ilə birləşək .

İzdihama toplaşan mübarizlər bir səslə Biz hazırıq - deyə se-

---

1. Nax. MRDA. f.582. s.1. iş.48. vər.241-243.
2. Nax. MRDA. f.582. s.1. iş.47. vər.241.

vinclə izdihamdan ayrılaraq yaşadığımız yerlərə qayıtdıq. Mən də Hecovana, öz yaşadığım kəndə gedib yol tədarükü işinə başladım.[1]

A. Şadlinskinin partizan dəstəsi iki gündən sonra Mərənd şəhərindən Culfaya yola düşür. Naxçıvan qəzasının Araz çayı sahilindəki sərhəd postunda Naxçıvanın fövqalədə komissarı və başqaları A.Şadlinskinin dəstəsini hörmətlə qarşılayırlar. A. Şadlinskinin dəstəsi Naxçıvana gəlir.

Naxçıvan İnqilab Komitəsinin qərarı ilə dəstəyə "Qırmızı tabor" adı verilir və Abbasqulu bəy Şadlinski taborun komandiri təyin edilir.

"Qırmızı tabor"un qarşısında belə bir vəzifə qoyulur ki, Əznəbürd-Qarabağlar dağ ətəkləri ilə hərəkət edib, Bağırsaqdərə-Sədərək arasında mövqe tutsun. Bu əməliyyat planı noyabır ayı ərzində bütünlüklə həyata keçirilir, nəticədə Şahtaxtı, Xok kəndlərində 1200 erməni əsgər və zabiti əsir alınır, çoxlu hərbi qənimət ələ keçirilir. Şərur qəzası bütünlüklə azad edilir və dekabırın 2-də orda qəza inqilab komitəsi təşkil olunur.

1921-ci il iyunun 16-da isə Dərələyəzdə Abbasqulu bəyin komandanlığı ilə "Qırmızı tabor" əks hücuma keçib düşməni tutduğu mövqelərdən çıxarır və kəndi azad edirlər. 1921-ci il iyulun axırlarında Dərələyəz əməliyyatı bütünlüklə başa çatır. Daşnak qoşunlarının qalıqları Zəngəzura çəkilir.

Daşnak tör-töküntüləri tamamilə məhv edilir. Canlarını qurtaranlar baş götürüb qaçırlar. "Qırmızı tabor"un döyüşçüləri, eləcə də Vedibasar əhalisi dinc təsərrüfat quruculuğu işinə keçirlər.

Beləliklə, 1918-1920-ci illərdə indiki Qərbi Azərbaycan ərazisində yaşayan 575 min nəfər azərbaycanlının 565 mini qırıldı və ya doğma torpaqlarından qovuldu. Onlardan yalnız 1922-ci ildə cəmi 60 min nəfər öz doğma yurdlarına qayıda bildi.[2].

Çoxsaylı tarixi sənədlər şahidlik edir ki, 1905-1907, 1918-1920-ci illər Qafqazda öz tarixi ərazilərində etnik təmizləmə soyqırımı siyasətinə məruz qalan yüz minlərlə azərbaycanlı kütləvi surətdə qətlə yetirilmiş, dədə-baba torpaqlarından deportasiya olmuşlar.

---

1. Nax. MRDA. f.574. s.1. iş.20. vər.1-3.
2. "Şərq qapısı" qəzeti 27 may 1990-cı il. № 114.

# 1918-1920-Cİ İLLƏRDƏ ZƏNGƏZUR QƏZASINDA ERMƏNİLƏRİN AZƏRBAYCANLILARA QARŞI SOYQIRIMI

1918-1920-ci illərdə erməni vəhşiliklərindən ən çox ziyan görmüş Azərbaycan bölgələrindən biri də Zəngəzur qəzası olmuşdur. Bu müddət ərzində erməni quldur dəstələrinin həmin qəzanın müsəlman əhalisinə qarşı güc işlətmək siyasəti bir an da olsun belə kəsilmir, hərdən səngisə də, sonra daha yeni qəddarlıqlarla təkrar olunurdu.

Azərbaycan Respublikası Dövlət Tarix Arxivində və Naxçıvan MR Dövlət Arxivində mühafizə olunan işlərdəki məktublar, teleqramlar, məlumatlar və komissiyanın istintaq protokollarında bunlar öz əksini tapıb.

1918-ci ilin iyun-iyul aylarında Naxçıvan və Ordubad qəzalarında qanlı cinayətlər törətmiş Andranik, türklər Naxçıvana gələndən sonra quldur dəstəsi ilə Zəngəzur qəzasına qaçır. Andranik Ozanyan öz ətrafında nizami qoşun və erməni quldur dəstələrini cəmləşdirərək Zəngəzur qəzasında 1918-ci ildə, yayın axırları və payızın əvvəllərindən başlayaraq baş vermiş bütün qanlı cinayətlərə bilavasitə rəhbərlik etmişdir.

Öz hərbi dəstələri ilə Zəngəzura gələn Andranik açıq şəkildə həmin bölgələri Ermənistana birləşdirmək məqsədi daşıdığını bildirmişdir. Dəstəsində 500-ə qədər adamı vardısa burada tez bir zamanda yerli ermənilər hesabına dəstənin sayı xeyli artır.[1]

Andranikin hərbi hissələrinin Zəngəzurun müsəlman əhalisinə qarşı törətdikləri vəhşiliklər göstərilən bütün səylərə baxmayaraq 1919-cu ilin martınadək davam etdi və bu müddətdə belə əməliyyatların coğrafiyası daha da genişlənərək Həkəridən Araza, Minkənddən Bazarçaya və Naxçıvan qəzasının sərhədlərinə uzanan ərazini bürüdü.

İstintaq materialları və şahidlərin ifadələri əsasında tərtib olunmuş protokollardan aydın olur ki, ermənilərin Zəngəzur qəzasında 1918-1920-ci illərdə törətdikləri vəhşiliklər planlaşdırılmış soyqırımdır. Həmin sənədlərdə Azərbaycan qızlarının

---

1. ARSPİHDA. f. 276. siy. 2. iş. 57. vər. 57.

və kişilərinin başına gələn müsibətlərdən danışılır. Neçə-neçə insanların döşləri kəsilmiş, kürəklərinin arasına at nalı mıxlanmış, yandırılmış, süngü ilə deşik-deşik edilmiş və qılıncla doğranmışdır.

1918-ci ilin yazında və payızında Zəngəzur qəzasının kəndlərində 4501 nəfər kişi, qadın və uşaq öldürülmüş, 599 nəfər yaralanmışdır. Sağ qalan əhali zorla yurd-yuvalarından didərgin salınmışdır.[1]

Həmin hadisələrin şahidi olmuş Müsəlmanlar kəndinin kəndxudası Məhəmməd Abbas oğlu verdiyi ifadəsində yazır: "1918-ci il payızın sonlarında Domi, Qaradağlar, Tağ, Tuğ, Çanaxçı, Soqnak, Daşaltı kəndlərinin ermənilərindən ibarət olan silahlı dəstə 170 evdən ibarət Müsəlmanlar kəndini qəflətən mühasirəyə alaraq, əhalisini atəşə tutmuşlar. Əhali vəlvələ içərisində canlarını qurtarmaq üçün öz evlərini və əmlaklarını qoyub, qaçıb. Ermənilər kəndə soxularaq malikanələri yandırıb, kəndlilərin əmlaklarını və mal-qarasını aparıb, sakinlərini öldürüblər. 32 nəfər öldürülüb, 18 nəfər yaralanıb və 50 ev yandırılıb".[2]

Burcalar kəndinin sakini Salman Allahverdi oğlu verdiyi ifadədə yazır: "1918-ci ilin payızında Şaqodin və Şıxauz kəndlərindən silahlı erməni dəstəsi qəflətən 17 evdən ibarət müsəlman Burcalar-Dərzili kəndinə hücum edərək kəndi atəşə tutub. Əhali öz evini və əmlakını qoyub, canlarını qurtarmaq üçün qaçıb. Kəndə soxulan ermənilər evləri yandırıb, kəndlilərin mal-qarasını aparmaqla 21 nəfər müsəlmanı öldürüb".[3]

Arxiv sənədləri göstərir ki, Zəngəzur qəzasında 115 müsəlman kəndi dağıdılmışdır. Həmin kəndlərdə 3257 kişi, 2276 qadın, 2196 uşaq öldürülmüş, 1060 kişi, 794 qadın, 485 uşaq yaralanmışdır. Bütün qəza üzrə 10. 068 nəfər müsəlman əhalisi öldürülmüş və şikəst edilmişdir.

Gorus kənd sakini Həsən Hüseyn oğlu İbrahimov xatirələrində yazır: "Rusiyada çar hökuməti devrilən vaxt mən Bakida

---

1. A. Mustafayev. "XX əsrdə Qərbi Azərbaycan ərazisindən Azərbaycanlıların deportasiyası və Naxçıvan". 2005, səh. 73.

2. Azərbaycan bölgələrində erməni sorunu (1918-1920), Ankara 2001, səh. 573, 574.

3. Nax. MR DA. f. 314. siy. 5a. iş. 18. vər. 42-46.

fəhlə işləyirdim. Gecələr xəlvətə düşdükcə müsəlmanları öldürüb salırdılar neft quyularına. O vaxt 50-60 fəhlə bir mənzildə yaşayırdı. Gecə yatıb, səhər dururduq ki, bir və ya iki fəhlə yoldaşımız yoxdur. İşi belə gördükdə 4 nəfər kəndlimiz gəldik vağzala bilet almağa. Nə zülümünən bilet aldıq. Yolda nə qədər əziyyət çəkdik, daşnaklar pulumuzu əlimizdən aldılar. Birtəhər evimizə gəldik. Sisyanda və Zəngəzurda müsəlman kəndləri çox idi. Ancaq gediş-gəliş kəsilmişdi. Durlus, Qaragilə, Pul, Şəki, Şunar, Məliklər, Darabası, Şam kəndlərini Nijdenin qoşunları dağıtdı. Bizim kəndlərin bir tərəfi Naxçıvana açıqdır. 5 para kənddir: Şıxlar, Dəstəkar, Alışkar, Püsən və Murxuz.

1918-ci ildə dağlara o qədər qar yağdı ki, qar əlindən tərpəşmək mümkün olmadı.

Daşnaklar qarın çoxluğundan istifadə edərək Şıxlar kəndinə öz nümayəndələrini göndərdilər ki, təslim olaq və silahlarımızı yığaq verək, əgər təslim olmasaq müharibə başlayacaq. Ağsaqqallar başqa çarə tapmayıb 50-60 silah yığıb təhvil verdilər, təslim olduq.

Andranikin də bu tərəflərə gəlişi ilə onsuz da qara günlərimiz lap çətinləşdi. Horadiz, Ərəfsə, Çomartlı, Urud, Ağudu, Vağadı kəndlərini dağıtdılar.

1919-cu ilin mart ayında daşnaklar məni də tutdular. Poruçik əsgərlərə əmr etdi ki, bunu aparın tez rahatlayın, gəlin. Əsgərlər şaşqalarını sivirdilər. Gecə saat 11 olardı. Məni kənd içi ilə aparırdılar. Kəndin qırağında uca divarlı bir bağça var idi. Biz ora yaxınlaşanda boğuq səslər eşitdik: "Siz Allah, doğramayın, güllə ilə vurun". Demə, bu öldürülənlər Alışar kəndindən olan 5 nəfər cavan oğlan imiş. Bunlar məni də həmin yerə aparmaq, qılıncla doğramaq istəyirmişlər. Vəhşilik o həddə çatmışdı ki, ermənilər bizə güllə ilə olan ölümü də çox görür, qılıncla doğrayıb əzabımızdan həzz almağı üstün tuturdular.

Mən birdən qaçdım. Qaçıb qurtarmağa heç ümidim yox idi. Fikrim bu idi ki, doğramasınlar, arxadan güllə ilə vursunlar.

Onlar silaha əl atana kimi qaçıb girdim söyüdlüyə, sağ qalmağım da, azad olmağım da bir möcüzə idi".[1]

---

1. Nax. MR DA. f.582. siy.1. iş.40. v.123-132.

1918-1920-ci illərdə erməni daşnaklarının Zəngəzur qəzasının Vaqudi, Aqudi, Küllü, Fərəcan, Tonyal, Qocamusaklı, Əliqulu-Uşağı, Almalı, Müsəlmanlar, Burcalı-Dərzili, Şurnux, Şansuz, Solmaz, Məzrə, Eyvazlı, Şahverdilər və s. müsəlman kəndlərində törətdikləri vəhşiliklər haqqında çoxlu sənədlər vardır.

23 noyabr 1919-cu il tarixdə Azərbaycan və Ermənistan hökumətlərinin razılığına əsasən öz ordularını Zəngəzurdan geri çəkməli idilər. Azərbaycan öz qoşunlarını Zəngəzurdan geri çağırsa da Ermənistan hökuməti nəinki bunu etmədi, əksinə ordakı ordularını hərbi sursatla gücləndirərək, qəzanı azərbaycanlı əhalidən təmizləməyə başlamışdır.

Azərbaycan hökuməti Ermənistan tərəfinin razılığı pozduğu haqda 1920-ci il yanvarın 17-də Müttəfiqlərin Ali Komissarı polkovnik Haskelə etiraz məktubu göndərsə də, heç bir nəticə olmadı.[2]

1919-cu ilin axırlarında ermənilərin Zəngəzur qəzasının müsəlman əhalisinə qarşı hücumları yenidən şiddətləndi. Buna səbəb ingilislərin Naxçıvanı "bitərəf zona" elan etdikdən sonra Ermənistandan Zəngəzura Naxçıvan ərazisindən böyük həcmdə nizami qoşun göndərməsi olmuşdur.

1919-cu il 2 aprel tarixdə Zəngəzur və Sisyan erməniləri Gorusda ümumi qurultay çağıraraq bu ərazilərdən bütün azərbaycanlıları silah gücünə çıxarmaq haqqında qərar qəbul etdilər.[3] Bu barədə Azərbaycanın Ermənistandakı səlahiyyətli nümayəndəsi Məhəmməd Əli xan Təkinski 1919-cu ilin 2 iyulunda Azərbaycan Parlamentinin sədrinə və Xarici İşlər Nazirinə göndərdiyi teleqramda məlumat vermişdir.

Azərbaycan Respublikasının Xarici İşlər Naziri Miryusif Cəfərov Təkinskinin bu teleqramı ilə bağlı iyulun 4-də, Bakı şəhərində yerləşən İngilis qüvvələrinin Ali Baş Komandanına müraciət edərək təcavüzün qarşısının alınması üçün onu Ermənistan hökumətinə təsir göstərməyə çağırırdı. General qubernator Sultanov Azərbaycan hökumətinə dəfələrlə teleqram göndərərək ermənilərə qarşı real kömək istəmişdir.

---

1. AR DA. f. 897, siy. 1. iş. 31. vər. 12.
2. Yenə orada. f. 970. siy. 1. iş. 62. vər. 62.

İngilislər Ermənistanı daha açıq şəkildə müdafiə etməyə başlamışdır. 5 iyul 1919-cu il tarixdə polkovnik V.Haskel Paris sülh konfransının qərarı ilə Ermənistana ali komissar təyin edilmiş və Ermənistan hökuməti nümayəndələri ilə görüşündə o, "Ermənistanı və harada yaşamasından asılı olmayaraq bütün erməniləri qoruyacağam" deyə söz vermişdir. Avqust ayında daşnak parlamentində çıxış edən V.Haskel ermənilərin ərazi iddialarını müdafiə, Azərbaycanı isə şərtləri pozmaqda ittiham etmişdir.[1]

Ermənistan hökumətinin Zəngəzur qəzasına göndərdiyi təcavüzkar qoşun hissələri haqqında Azərbaycanın Ermənistandakı səlahiyyətli səfiri Məhəmməd xan Təkinski 2 iyul 1919-cu ildə Azərbaycan parlamentinin sədrinə və xarici işlər nazirliyinin ünvanına göndərdiyi teleqramda yazırdı: "Alınmış məlumata görə Ermənistan Naxçıvan rayonundan Zəngəzura qoşun hissələri göndərir. İndiyədək 700 nəfər və çox sayda patron göndərilib. Xahiş edirəm məlumatı yerində yoxlayın. İndi aydın olur ki, Ermənistan Denikinin Azərbaycana hücum etdiyini öyrənərək, bizə hücum etməyə hazırlaşıb. Zənnimcə Ermənistanın bu niyyətləri barəsində Sizə Gürcüstan məlumat verəcək.

Diplomatik nümayəndə M. Ə. Təkinski".[2]

Bu teleqramı Azərbaycan Respublikasının Xarici İşlər Naziri alan kimi nazir Miryusif Cəfərov 4 iyul 1919-cu ildə Bakı şəhərində yerləşən Böyük Britaniya qüvvələrinin Ali Baş Komandanına belə bir məzmunda məktub göndərir: "Xarici İşlər Nazirliyinin Naxçıvan rayonundan aldığı məlumatlara görə, erməni hökuməti qoşunlarının bir hissəsini Zəngəzura keçirdir. İndiyədək 700 əsgər və çoxlu sayda patron keçirilib. Buna görə də ayrı-ayrı toqquşmalar baş vermişdir. Bu toqquşmalarda həm erməni əhalisi, həm də erməni nizami qüvvələri iştirak edib.[3]

Azərbaycan hökuməti öz siyasətində həmişə dostluq münasibətləri saxlamağa və qonşu xalqlarla dostluq münasibətləri saxlamaq üçün yaranmış bütün münaqişəni sülh yolu ilə həll etməyə üstünlük vermişdir. Bu günə kimi Azərbaycan hökuməti

---

1. Nax. MR DA. f. 314, siy. 5a. iş. 71. vər. 40.
2. Yenə orada. iş. 72. vər. 98.
3. Yenə orada. iş. 71, vər. 42.

buna nail ola bilmişdir. Azərbaycan hökuməti ümidvardır ki, Britaniya Komandanlığı təcavüzlərin qarşısının alınması üçün Ermənistan hökumətinə lazımi məsləhət verəcək. Əgər Ermənistan hökuməti fəal silahlı çıxışlarından əl çəkməzsə, Azərbaycanla-Ermənistan arasında kəskin münaqişə baş verəcək.

*Xarici İşlər Naziri: (imza) M. Cəfərov".*[1]

12 iyul 1919-cu il tarixdə Azərbaycan Respublikası Xarici İşlər Naziri M.Y.Cəfərov Ermənistan Respublikasının Diplomatik nümayəndəsinə göndərdiyi etiraz bəyanatında isə belə yazırdı: "Azərbaycan hökumətinin rəsmi və şəxsi məlumatından göründüyü kimi erməni qoşunları artileriya ilə Böyük-Vedi, Çimən-Kəndi, Qalavaş, Qəzalı, eləcə də ətraf müsəlman kəndlərini mühasirəyə alaraq atəşə tutub.

Azərbaycan Dövləti müstəqil Azərbaycan elân olunandan bəri öz siyasətində bütün qonşu millətlərlə yaranan münaqişələrdə, əsasən də əsrlərlə bir yerdə yaşayan və rus rəhbərliyi tərəfindən sıxışdırılan müstəqillik əldə edən xalqlar arasında mübahisəli ərazilərin sərhədlənməsi məsələlərini sülh yolu ilə həll etməyə üstünlük verib.

Qafqaz xalqlarının müstəqilliyi məsələsində Azərbaycan hökuməti həmişə ədalətin tərəfində olub, çünki düşünüb ki, sərhədlərin daha dəqiq çəkilməsi zamanı yaranan problemləri sülh yolu ilə, qan tökmədən, bütün tərəfləri qane edəcək arbitraj vasitəsi və ya Sülh Konfranslarında həll etmək olar.

Təəssüf ki Ermənistan hökuməti Azərbaycan hökumətinin bu xəttini dəstəkləmir və yerli əhalinin heç bir günahı olmadan onlara qarşı cəza ekspedisiyaları göndərir, hansı ki, bununla bütün əhalinin istəyini pozmaq istəyir.

Bu cür göndərişlər erməni və müsəlman əhalisi arasında qonşuluq münasibətləri poza bilən narazılıqlar və arzuolunmaz nəticələr yaratmaya bilməzdi.

Bütün baş verənlərin və verəcəklərin məsuliyyətini Ermənistan hökümətinin üzərinə qoyaraq erməni qoşunlarının adı çəkilən kəndlərinmüsəlman əhalisinə qarşı fəaliyyətlərinə qəti etira-

---

1. Nax. MRDA. f.314. siy. 5a. iş.74. vər. 192.

zımı bildirirəm və erməni qoşunlarının ümumiyyətlə müsəlmanlara qarşı, əsasən də Vedibasar və Milistan rayonlarının müsəlmanlarına qarşı fəaliyyətini dərhal dayandırmaq üçün hökumətinizin qəti tədbirlər görməsi üçün əlinizdən gələni etməyi Sizdən xahiş edirəm.

*Xarici İşlər Naziri.*
*Dəftərxana müdiri.*

12 iyul 1919-cu il. Bu bəyannamənin surəti məlumat üçün göndərilsin:

1. 2049 №-si ilə Bakıdakı İngilis qüvvələri Komandanına.

2.Diplomatik nümayəndələrə:

a) 2050 №-si ilə Gürcüstan.

b) 2051- №-si ilə Ermənistan".[1]

Azərbaycan Respublikasının Gürcüstan Respublikasındakı Diplomatik nümayəndəsinin müavini 30 oktyabr 1919-cu il tarixdə Azərbaycan Xarici İşlər Nazirinə belə bir məktub göndərir:

"Oktyabrın 28-də Böyük Britaniya hökumətinin nümayəndəsi cənab Uordlopp məni yanına dəvət etdi və Zəngəzurda qanlı toqquşmalar ola biləcəyinə dair məlumat aldığını bildirdi.

O, hökumətə çatdırmağımı xahiş etdi ki, Sülh Konfransının Zaqafqaziya Respublikaları barəsində məsələnin həllinin astanasında sakitliyin pozulması bizim əleyhimizə ən arzuolunmaz şəkildə hesaba alınacaq.

Mən cənab Uordloppun nəzərinə çatdırdım ki, hökumətimizin aldığı məlumatlara görə Ermənistan hökuməti üsyan təşkil etmək üçün Zəngəzura əsgərlər, pulemyotlar və digər hərbi sursatlar göndərir. Bu haqda öyrənən hökumətimiz orada baş verə biləcək toqquşmaların qarşısını almaq üçün tədbirlər görməli idi.

Həmçinin mən əmin olduğumu bildirdim ki, hökumətimizin gördüyü tədbirlər nəticəsində sakitlik pozulmayacaq.

Bunları nəzərinizə çatdıraraq xahiş edirəm Uordloppa bildirmək üçün məni Zəngəzurdakı vəziyyət haqqında məlumatlandırasınız. Bu məsələ barəsində az məlumatım olduğundan, Zəngəzurda yaranmış münasibətləri tam aydın təsəvvür edə bil-

---

1. Azərbaycan bölgələrində erməni sorunu. (1918-1920). Ankara 2001. səh. 550-551.

mədim".[1]

Bu yazışmalara baxmayaraq Britaniya Komandanlığı heç bir köməklik göstərmir, üstəlik erməni quldurlarını müdafiə edir.

Zəngəzurda ermənilərin vəhşilikləri ilə bağlı Azərbaycan Respublikasının Cənub-Qərbi Azərbaycanın General-Qubernatoru 10 yanvar 1920-ci ildə Sülh Konfirensiyasının Sədri Əlahəzrət Amerika polkovniki cənab Şelliyə göndərdiyi məktubda yazırdı: "Bu surətə əlavə olunan Ordubad mahalı rəisinin məlumatından görünür ki, Zəngəzur mahalının erməniləri yenə də onların arasında və ya qonşuluqlarında yaşayan köməksiz müsəlmanları məhv etmək işləri üzrə öz vəhşiliklərini davam etdirirlər.

Bu qeyri-insani münasibətlərin və qırğın nəticəsində həmin dağıdılmış kəndlərin qaçqınları Naxçıvan rayonuna gedirlər. Onlar gördükləri bütün qırğınları və digər vəhşilikləri danışaraq ümumi atmosferi gərginləşdirir və yerli müsəlmanları həyəcanlandırırlar.

Bu məlumata həmçinin Zəngəzur mahalının komissarının ultimatumunun surətini də əlavə edirəm. Xahiş edirəm Əlahəzrət Haskelin qarşısında ermənilərin deyilən vəhşi hərəkətlərinə qarşı tədbirlər görülsün. Əks halda bu hərəkətlər həm bizim, həm də onlar üçün faciəli nəticə verərək, hər iki millətin daimi düşmənçiliyinə səbəb olar.

*Cənub-Qərbi Azərbaycanın general-qubernatoru: /imza/.*
*Dəftərxana rəisi D. Mamedov*".[2]

Erməni millətçilərinin azərbaycanlılara qarşı Zəngəzur qəzasındakı vəhşilikləri 1920-ci ilin əvvəllərində özünün kulminasiya nöqtəsinə çatır.

Təkcə 1920-ci ilin yanvarın 19-dan 25-nə kimi Zəngəzur qəzasında ermənilər tərəfindən 51 müsəlman kəndi yandırılıb dağıdılmışdır. Bunlar Əliqulu-Uşağı, Məlik-Əhmədli, Balakəsənli, Şahverdilər, Eyvazlar, Kök-qala, Məzrə, Novlu, Şamsuz, Kürtkalağ, Ain, Mistan, Çildir, Zor, Saldaş, Seytas, Dağbaşı,

---

1. Azərbaycan bölgələrində erməni sorunu. (1918-1920). Ankara 2001. səh. 592-593.

2. Nax. MR DA. f. 314, siy.5a. iş. 12. vər. 5.

Artiz, Talacih, Toroslu, Usublu, Veysəlli və başqa kəndlər idi.[1]

Azərbaycan Respublikası Xarici İşlər Naziri 22 yanvar 1920-ci ildə Ermənistan Respublikası Xarici İşlər Nazirliyinə göndərdiyi məktubunda yazırdı:

"Hökumətimiz tərəfindən mənə məlumat çatıb ki, yanvarın 19-da erməni hökumətinin qoşunları Zəngəzurdan Şuşa qəzası istiqamətində hücum əməliyyatları aparıblar. 9 kənd dağıdılıb.

Bu hadisələrə qəti etirazımı bildirirəm və sizi məlum edirəm ki, Azərbaycan və Ermənistan hökumətləri tərəfindən 28 noyabr 1919-cu il tarixli sülh müqaviləsi bağlandıqdan sonra və son vaxtlaradək Zəngəzur qəzasında erməni ordusu tərəfindən 40 kənd dağıdılıb.

Bir daha Ermənistan Respublikası hökumətinin bu cür hərəkətlərin qətiyyətlə qınayırıq və Ermənistan ordusunun bu cür aqressiv hərəkətlərinin dayandırılmasını tələb edirik. Dinc müsəlman əhaliyə qarşı hərbi əməliyyatlar dayandırılmazsa hökumətim öz vətəndaşlarını qorumaq üçün qəti addımlar atacaq. Bu zaman baş verə biləcək hadisələrin məsuliyyətini Ermənistan hökuməti daşıyacaq.

*Azərbaycan Respublikasının Xarici İşlər Naziri".*[2]

Zəngəzurda, Naxçıvanda, Ordubadda və İrəvan quberniyasının azərbaycanlılar yaşayan kəndlərində etdikləri vəhşilikdən usanmayan Andranik öz quldur dəstəsi ilə Qarabağda Cavanşir, Cəbrayıl, Şuşa qəzalarında da öz vəhşiliklərini davam etdirmişdir. Xüsusi ilə Cavanşir qəzasının erməni kəndləri əhatəsində olan Dəmirlər, İtcan-Herrəvənd,

Sarşktar, Umudlu, Qaralar, Şichavənd, Bürc, Çıraxlı, Hacı Qaravənd kəndləri erməni quldurlarının hücumlarına daha çox məruz qalmışdır.

Buna görə də qəzalardan, kəndlərdən, ayrı-ayrı adamlardan dalbadal dərdlə, məşəqqətlə dolu göz yaşları ilə yazılmış teleqramlar, məktublar, məlumatlar Azərbaycana gəlməkdə davam edirdi.

Gəlin teleqramlardan bir neçəsi ilə tanış olaq.

---

1. Azərbaycan bölgələrində erməni sorunu. (1918-1920). Ankara 2001. səh. 87-88.
2. Nax. MR DA. f. 314. siy. 5. iş. 72. vər. 37-38.

## TELEQRAM

**Cəbrayıldan Bakıya, Parlamentin sədrinə.21.01.1920. №240/107.**

Zəngəzur qəzası 4-cü gündür ki, erməni quldur dəstələrinin nizami qoşunları ilə birlikdə artileriya və pulemyot atəşinə məruz qalıb. Cəbhə xətti Qubadlıdan Xocavəndə 50 km uzunluğundadır. Qurbanlar çoxdur. Əhali vahimə içərisində qaçır. Xahiş edirəm çoxlu miqdarda qoşun və güllə göndərmək haqqında təcili tədbirlər görəsiniz. Bədbəxt əhali adından sizdən xahiş edirəm ki, kağız üzərindəki etirazlarınızı bir kənara qoyub fəal hərəkətə keçəsiniz. Azərbaycanın ən gözəl guşəsini məhv olmaqdan xilas edin. Zəngəzurdan sonra növbədə Qarabağdır. Bu itkilərə görə Azərbaycan xalqı qarşısında Siz cavabdehsiniz.

*Parlamentin üzvü Cəlil Sultanov.*[1]

## TELEQRAM

**Cəbrayıldan Bakıya, Parlamentə. 22. 01.1920. № 151.**

19 səhər. Zəngəzur kəndinin erməni hissələri bütün cəbhə boyunca Mchaqandan Qaladərəsinə kimi top və pulemyotlarla müsəlmanlara atəş açıb. 6 kənd məhv edilib, 9-u yanır. Ermənilər qadın uşaq demədən müsəlmanları amansızcasına qətlə yetirir. Müsəlmanların onlara qarşı çıxmağa qüvvələri yoxdur və ancaq mülklərini ermənilərə qoyub qaçmaqla canlarını qurtarırlar.

Bu hadisə haqqında hökumət qəti tədbirlər görməlidir.

*Cəbrayıl kənd məktəbinin müdiri Axundov.*[2]

## TELEQRAM

Cəbrayıldan Bakıya, Parlamentə. 23. 01. 1920. № 160.

Birbaşa müraciətdən üzr istəyirəm. 19 yanvar tezdən Xocakənddən Qaladərəsi boyunca hücuma keçiblər. Onların artileriya və pulemyotları ilə Fərcan, Qonyal, Qocamusaxlı və Əliqulu-Uşağı kəndləri məhv edilib. 8 kənd yanır. Tüstü bulud kimidir. Mən Zəngəzura 300 silahlı adam göndərdim. Lakin bu dəryada bir damçıdır. Xahiş edirəm qəti tədbirlər görün, bizim qüvvələrlə onları saxlamaq mümkün deyil.

*Cəbrayıl qəza 3-cü sahənin pristavı.*[3]

---

1. Nax. MRDA. f.314. siy.5. iş.72. vər.20.
2. Nax. MRDA. f.314. siy.5. iş.72. vər.21.
3. Yenə orada. vər. 24.

## TELEQRAM

**Bakıya, Parlamentin sədrinə. 23. 01. 1920. № 177.**

Bu gecə qaza rəisi ilə birlikdə Cəbrayıla gəlmişəm.. Zəngəzurdan gəlmiş, açıq havada on minlərlə qadın və uşaq qaçqın gördüm. Zəngəzur qəzası Yerevandan gəlmiş, özü ilə 10 top gətirmiş nizami qoşunlar tərəfindən məhv edilib. Vuruşan ermənilərin sayı 10 mindən artıqdır. Erməni meyitlərinin içərisində ingilis əsgərlərinin meyitləri tapılıb. Top və pulemyotlarını Xocaqan və Zadux arasındakı bütün təpələrdə yerləşdirib. Axara çayının sağ tərəfindəki bütün 3-cü sahəni məhv ediblər. Bu gün isə Zəngəzur rayonunun 4-cü sahəsini mühasirəyə alaraq, onları məhv edirlər. Hökumət yoxdur, müqavimət göstərmək və döyüşmək üçün vəsait yoxdur. Əhali artıq hökumətdən ümidini kəsərək, kömək üçün bütün Azərbaycan xalqına müraciət edir. Aldığımız məlumata görə sabah Cəbrayıla Zəngəzur tərəfdən hücum başlayacaq. Məqsəd Qarabağ erməniləri ilə birləşib, Naxçıvanı ayırmaq və Naxçıvanla Qarabağı məhv etməkdir. Qarabağın dağlıq bölgəsində üsyan hazırlanır. Hakimiyyətin hərəktsizliyi Qarabağın və Zəngəzurun məhv olmasına səbəb oldu. Kağız üzərindəki etirazlara, xain Xatisovun əməllərinə, Azərbaycan vətəndaşı olan 200.000-dən artıq müsəlmanı qətlə yetirən ermənilərin əməllərinə son qoyulmalıdır.

Şuşa, Qarabağ, Cəbrayıl qəzalarını qurtarmaq üçün qəti tədbirlər görməyinizi xahiş edirəm. Hər dəqiqə qiymətlidir, yavaş hərəkət etmək cinayətdir və xalq qarşısında xəyanətdir. Hərbi nazirin olması vacibdir.

*Parlamentin üzvü Cəlil Sultanov.*[1]

## TELEQRAM

**Cəbrayıldan Bakıya, Parlamentə.**

Qətlə yetirilmiş Zəngəzur müsəlmanlarının ah-nalələri dağlar, dərələr arasnıda qaldı, heç yerə çatmadı. Onların köməyinə heç kim gəlmədi. Qadınların döşləri kəsilib, uşaqların başları kəsilmiş, qanlı bədənləri yerdə qalmışdır. Ermənilərin əlinə

---

1. Nax. MR DA. f. 314, siy.5. iş 72. vər. 33-34.

düşən gözəl qızlar zorlanıb. Zəngəzur kəndində müqavimət göstərmək üçün çox az kişi var, kənardan da kömək gəlməsinə heç bir ümüd yoxdur. Erməni qüvvələrinin sayı 10 mindən çoxdur və daimi Ararat tərəfdən yeni qüvvələr gəlir. Onların 10-dan çox topu və 60-a yaxın pulemyotu var. Topların səsi Cəbrayıla kimi gəlib çatır. On minlərlə qaçqın Cəbrayıl qəzasında məskunlaşıb. Dördüncü gündür ki, hökumətdən heç bir kömək gəlmir. Müsəlmanlıq bundadırmı? Azərbaycandakı bütün müsəlmanlara müraciət edirik və vəhşicəsinə öldürülmüş uşaqlara dərindən kədərləndiyimizi bildiririk. Onların ruhu rahatlıq tapsa da sizə müraciət edərək: "Kömək edin, kömək edin" deyirlər. Ermənilər Zəngəzuru dağıtdıqdan sonra öz qüvvələrin Cəbrayıla, Şuşaya, Cavanşirə doğru yönəltməyi planlaşdırırlar. Beləliklə onlar bu qəzaların erməniləri ilə birləşərək bizi Naxçıvandan ayıracaqlar. Əgər hökumət qəti tədbirlər görməsə müsəlmanların işi bitdi.

*Müəllim Hüseyn Axundzadə və*
*3-cü Cəbrayıl qəzasının əhalisi.*[2]

TELEQRAM

**Cəbrayıldan Bakıya, Parlamentin sədrinə. 24.01.1920. № 184.**

Əvvəlki teleqramlara əlavə olaraq Zəngəzurdakı hərbi əməliyyatlar barədə yenidən məlumat verirəm. Ermənilər Cəbrayıl qəzasının sərhəddində Əkərə çayı boyunca toplanırlar. Ermənilərin qüvvələri saysız-hesabsızdır.

*Parlamentin üzvü Cəlil Sultanov.*[2]

Ermənilərin Zəngəzur qəzasında törətdikləri vəhşilikləri haqda F. X. Xoyski Ermənistanın Xarici İşlər Nazirinə 26 fevral 1920-ci il tarixdə göndərdiyi məktubda yazırdı: "Sizin 1029 №-li məktubunuza cavab olaraq bildirəm ki, hökumətimiz 23 noyabr razılaşmasına tamamilə riayət edir və heç bir hücum əməliyyatı həyata keçirmək fikrində deyil. Mən sizə bildirmişdim ki, 23 noyabr sazişi imzalanandan dərhal sonra Ermənistan qoşunları tərəfindən Zəngəzur qəzasında 40-a yaxın mü-

-----

1. Nax. MR DA. f. 314, siy.5. iş 72. vər 31-32.
2. Nax. MRDA. f.314. siy.5. iş.74. vər. 34.

səlman kəndi dağıdılmışdır. 19 yanvarda isə Ermənistan hökumətinin ordusu silahlı quldur dəstələri ilə birlikdə Şuşa qəzası istiqamətində hücuma keçərək qarşılarına çıxan bütün müsəlman kəndlərini dağıdıblar. Kəndlərin dağıdılmasının qarşısını almaq, on minlərlə insanın həyatını və əmlakını xilas etmək, 23 noyabr sazişinə riayət olunmasını təmin etmək məqsədi ilə hökumətimiz azsaylı dəstəni göndərib və erməni qoşunlarının planlarının həyata keçirilməsinin qarşısını alıb. № 1258.

*Xarici İşlər Naziri (imza) Xoyski"*[1]

1920-ci ilin təkcə yanvar ayında Ermənilər tərəfindən Zəngəzur qəzasında baş vermiş hadisələr və məhv edilmiş kəndlərin adları göstərilməklə bu siyahıya nəzər yetirək:

1. Yanvarın 5-də ermənilər Müsəlmanlar və Almalı kəndlərinə hücum ediblər. Yanvarın 6-da Tuğtaqusalu kəndinin erməniləri Cəbrayıl rayonunun Qarazlı kəndinə hücum etmək məqsədi ilə Ağca-Kənddə toplaşıblar. Yerli erməniləri üsyana qaldırmaq üçün Yerevandan Dağlıq Qarabağ kəndlərinə eşelonlar gəlib (Qarabağ general-qubernatorunun teleqramı, 8 yanvar, № 8).

2. Yanvarın 5-də, səhər Susalıx, Tağ, Tava-kənd, Xazabyurd kəndinin erməniləri Əliyanlı kəndini mühasirəyə alıblar. Yerli əhali tərəfindən əsir alınmış erməni deyib ki, onların dəstəsi 600 nəfərdən ibarətdir. Tevak adında Susalıxlı bir şəxsin təşəbbüsü ilə onlar Əliyanlını ələ keçirmək istəyirlər. Bir müsəlman ölüb, biri yaralıdır. Ayın 6-da həmin dəstə yenidən Əliyanlıya hücum edib (Qarabağ general-qubernatorunun teleqramı, 8 yanvar, № 9).

3. Yanvarın əvvəlində Uqnakji kəndinin erməniləri müsəlman Saldaş kəndinə hücum ediblər, kəndin sakini Ağaman Əhmədəli oğlu öldürülüb (Qarabağ general-qubernatorunun teleqramı, 10 yanvar, № 253).

4. Yanvarın 3-də Xinzirak, Muğancur, Qeru kəndlərindən mal-qaranı qaçırtmaq məqsədi ilə müsəlman Əli-Qulu kəndinə hücum ediblər (Qarabağ general-qubernatorunun məlumatı, 15 yanvar, № 62).

---

1. Azərbaycan bölgələrində erməni sorunu (1918-1920). Ankara. 2001. səh. 671.

5. Əli-Qulu uşağı, Şurnux, Şansuz, Solmaz, Məzrə, Eyvazlı, Şahverdilər kəndləri ermənilər tərəfindən tamamilə dağıdılıb (Sakinlərin teleqramı, 20 yanvar).

6. Yanvarın 19-da Zəngəzurdakı erməni qoşunları Həmiləqan və Dondarlıdan Qaladərəsinə kimi müsəlman kəndlərini mühasirəyə alıblar, yollarına çıxan hər şeyi artileriya ilə dağıdıblar (Qarabağ general-qubernatorunun teleqramı, 20 yanvar, № 822).

7. Zəngəzur erməniləri böyük nizami qüvvələrlə, artileriya və pulemyotlarla müsəlman Əliqulu-Uşağı kəndini dağıdıblar.

8. Yanvarın 20-də erməni nizami qoşunları qəflətən artileriya, pulemyotlarla müsəlman kəndlərinə hücum edib, əhalini qarət edib, öldürüblər, Xocaqan və Qaladərəsi arasındakı bütün kəndləri məhv ediblər. Misli görünməmiş vəhşiliklər, çoxlu sayda yeni qaçqın var (Komissiyanın sədri Vəlibəyovun Parlamentin sədrinə teleqramı, 21 yanvar, № 137).

9. Yanvarın 19, səhər ermənilər mütəşəkkil şəkildə Xocaqandan Qaladərəsinə kimi artileriya və pulemyotlarla hücum ediblər. Faracan, Qonyal, Qocamusaxlı və Əliqulu-Uşağı kəndləri məhv edilib, 8 kənd yanır (Zəngəzur qəzasının 3-cü sahənin pristavı Camalbəyovun teleqramı, 21 yanvar, № 140).

10. Zəngəzur qəzası 4-cü gündür ki, erməni nizami qoşunlarının artileriya atəşinə məruz qalıb. Cəbhə xətti Qubadlıdan Xocaqana doğru 50 verst uzanıb. Qurbanlar çoxdur. Əhali təlaş içərisində qaçır. (Parlamentin üzvü Cəlil Sultanovun teleqramı, 21 yanvar, № 240).

11. Nizami qoşunlar tərəfindən Əliqulu, Eyvazlı, Şomauz, Şurnura,Məzrə, Novra, Qurovlu kəndləri tamamilə dağıdılıb (Sakinlərin teleqramı, 21 yanvar, № 823).

12. Zəngəzur erməniləri Gorus və Katarak zavodu arasında Versələr, Əliqulu-Uşağı, Şurnuxa, Şemauz, Seyt an, Məzrə, Eyvazlı, Şahverdilər, Mosma kəndlərini istila ediblər. Növbədə Əliyanlı, Mazmakan və Müsəlmanlar kəndləridir (Qarabağ general-qubernatorunun teleqramı, 21 yanvar, № 100).

13. Zəngəzurun 26 kəndi ermənilər tərəfindən işğal olunub (Qarabağ general-qubernatorunun məlumatı, 21 yanvar, № 835).

14. Firibcan, Alı, Şaravlı kəndləri ermənilər tərəfindən

yandırılıb və dağıdılıb. Çoxlu ölü və yaralı var (polis müfəttişi Mirzəcamalovun teleqramı).

15. Ermənilər Xodusaqan kəndinə hücum ediblər (Qarabağ general-qubernatorunun teleqramı, 22 yanvar, № 27).

16. Yanvarın 21-də Zəngəzur qəzasının 3-cü Dordanlı sahəsi sayı 10.000-dən çox olan erməni qoşunları tərəfindən məhv edilib (Qarabağ general qubernatorunun teleqramı, 22 yanvar, № 24).

17. Yanvarın 21-də ermənilər tərəfindən Zəngəzur qəza rəisinin iqamətgahı olan Dondarlı kəndi işğal edilib (Qarabağ general-qubernatorunun teleqramı, 22 yanvar, № 24).

18. Bir neçə min nəfərdən ibarət erməni nizami qoşunları üç növ silahdan istifadə edərək, 9-cu Gəncə qəzasının Şişkaya, Sadadağac və Hacı Qərib kəndlərini mühasirəyə alıblar. Çoxlu sayda insan həlak olub, bəziləri qaçaraq canlarını qurtarıblar, 30 nəfər soyuqdan ölüb (Gəncə general-qubernatorunun məlumatı, 5 fevral, № 8).[1]

Fövqəladə təhqiqat komissiyasının məruzəsindən aydın olur ki, Zəngəzur qəzasında 1918-1920-ci illərdə 115 müsəlman kəndi ermənilər tərəfindən dağıdılaraq yer üzərindən silinib. Dağıdılmış bütün kəndlərin adları sadalanır.

Məruzədə göstərilən 115 kənd ermənilər tərəfindən yandırılmış, əmlakı oğurlanıb aparılmış, ərazisi ermənilər tərəfindən zəbt olunmuşdur. Bu kəndlər məhv edilərkən o qədər haqsızlıqlar, vəhşiliklər törədilmişdir ki, onları ayrı-ayrı kəndlər üzrə göstərməyə imkan yoxdur. Ermənilərin dinc azərbaycanlı əhaliyə qarşı törətdiyi vəhşiliklər haqqında təhqiqat komissiyasının aktlarında, onlarla əlavələrdə kifayət qədər məlumat var.

Yuxarıda göstərilən 115 kənd üzrə 3257 kişi, 2276 qadın və 2196 uşaq öldürülmüş, 1060 kişi, 794 qadın və 485 uşaq yaralanmışdır. Tam olmayan məlumata görə, təkcə Zəngəzur qəzasında komissiyanın məruzəsi hazırlanana qədər 10.068 azərbaycanlı öldürülmüş və şikəst edilmişdir.[2]

--------------------

1. A. Paşayev "Açılmamış səhifələrin izi ilə". Bakı 2001. səh.
2. Nax. MR DA. f. 314, siy. 5, iş. 72, vər. 42-46.

# ABBASQULU BƏY ŞADLİNSKİ VƏ ONUN SİLAHDAŞLARI



Abbasqulu bəy Şadlinski

Abbasqulu bəy Xanbaba oğlu Şadlinskinin adı xalqımızın mərd oğulları sırasında böyük hörmətlə çəkilir.

Abbasqulu bəy Şadlinski 1886-cı ildə İrəvan quberniyasının Böyük Vedi kəndində anadan olmuşdur. İlk təhsilini həmin kənddə ikisinifli rus-tatar məktəbində almışdır. Onda mütərəqqi fikirlərin genişlənməsində İrəvan quberniyası müəllimlər seminariyasını bitirib Böyük Vedi rus-tatar məktəbinə müəllim göndərilmiş Əli Əzim oğlu İbrahimovun böyük təsiri olmuşdur.[1]

Çar hakimiyyətinin devrilməsindən sonra vəziyyət daha da pisləşir. Bu dövrdə Ermənistanın və eləcə də Naxçıvanın kəndlərində özbaşınalıq, zorakılıq hökm sürürdü. Yerli hakimlər və ayrı-ayrı quldur dəstələri xalqı incidir, soyub talayırdılar. Vedibasar, Şərur və Zəngibasar kəndlərində yaranmış bu qarışıqlığı aradan qaldırmaq, daşnak quldurlarının törətdikləri milli qırğına yol verməmək üçün Abbasqulu bəy Şadlinski cəsur, mütərəqqi fikirli adamları öz ətrafına toplayır.

1918-ci ilin payızında ermənilərin xəyanəti nəticəsində milli ədavət yenidən qızışdırılır, daşnak hökuməti Böyük Vedi üzərinə hərbi qüvvə yeridir. Bu zaman Abbasqulu bəy Vedi müdafiəsinin başında durur.

Böyük Vedidə çox ciddi müqavimətə rast gələn daşnak qoşunlarının komandanlığı 1920-ci il iyun ayının axırlarında Vediyə qarşı daha güclü qoşun göndərir. Çox zəif silahlanan dəstə ilə təcrübəli nizami qoşunlara qarşı vuruşmaq qeyri-mümkün olduğundan A.Şadlinskinin başçılığı ilə tabor və Vedi əhalisi kəndi tərk edib İrana keçir. Çünki bu vaxt Şərur və Nax-

---

1. Nax. MRDA. f.574. siy.1. iş.20. vər.1-3.

çıvan qəzalarından da əhalinin çoxu İrana keçmişdi.

Taborçulardan Bəylər Cəlilov öz xatirələrində yazır: "Biz Şahtaxtı körpüsündən keçərək İranın Ərəblər kəndinin ətrafında "Sarı su" çayı boyunca köç düşdük. Abbasqulu bəy müvəqqəti sığınacaq istədi ki, əhali orada yaşasın, silahlı qüvvə isə qayıdıb daşnaklarla vuruşsun".[1]

1921-ci il sentyabrın əvvəllərində mühacir axını Cənubi Azərbaycanın iqtisadi-mədəni mərkəzlərindən olan Xoy şəhərinin Salmas darvazasında dayanır. Ondan bir neçə gün sonra tabor da Xoy şəhərinə yaxınlaşır. Şəhər valisi Nəbo xan və onun yavəri İsmayıl ağa taborun şəhərə daxil olmasına icazə vermir.

Bir neçə gündən sonra valinin nümayəndəsi tabor komandanı Abbasqulu bəyin düşərgəsinə gəlib silahların Xoyun kazak komandanlığına təhvil verilməsini tələb edir və bildirir ki, bu tələbi qəbul etsə ona yüksək rütbə verəcəkdir. O, valinin nümayəndəsinə deyir ki, biz tezliklə vətənə, Naxçıvana qayıdacağıq. Orada silah bizə yenə də lazım olacaqdır.

Bundan qəzəblənən vali taboru hərbi polis gücünə tərkisilah etmək qərarına gəlir. Şadlinskinin əmri ilə tabor "Qəzənfər dağı"nın ətəyində, "Köşk saray" adlanan yerdə səngərlər qazıb döyüşə hazır vəziyyətdə dayanır. Tərksilah baş tutmur. [2]

1920-ci il sentyabr ayında Abbasqulu bəyi Naxçıvana dəvət etmək üçün Seyfulla Süleymanov və Məmməd Rəhimov İrana göndərilir.[3]

A. Şadlinskinin partizan dəstəsi iki gündən sonra Mərənd şəhərindən Culfaya yola düşür. Naxçıvan qəzasının Araz çayı sahilindəki sərhəd postunda A.Şadlinskinin dəstəsini hörmətlə qarşılayırlar. A.Şadlinskinin dəstəsi Naxçıvana gəlir. Naxçıvan İnqilab Komitəsinin qərarı ilə dəstəyə "Qırmızı tabor" adı verilir və Abbasqulu bəy Şadlinski taborun komandiri təyin olunur.

1920-ci il oktyabr ayının axırlarında "Qırmızı tabor"un əməliyyatları nəticəsində Şahtaxtı, Xok kəndlərində 1200 erməni əsgər və zabiti əsir alınır, çoxlu hərbi qənimət ələ keçirilir.

-----------------------

1. Nax. MRDA. f.582. siy.1. iş.48. vər.241-243.
2. Yenə orada. vər.241.
3. Nax. MRDA. (Keçmiş partiya arxivi). f.1. siy.2. iş.95. vər.12.

Şərur qəzası bütünlüklə azad edilir və dekabrın 2-də orada qəza inqilab komitəsi təşkil olunur.[1]

1921-ci il iyunun 16-da isə Dərələyəzdə Abbasqulu bəyin komandanlığı ilə "Qırmızı tabor" əks-hücuma keçib düşməni tutduğu mövqelərdən çıxarır və kənd azad edilir. 1921-ci il iyulun axırlarında Dərələyəz əməliyyatı bütünlüklə başa çatır. Daşnak qoşunlarının qalıqları Zəngəzura çəkilir.

1921-ci ilin axırlarında "Qırmızı tabor"un komandiri və sıravi döyüşçüləri, o cümlədən A. Şadlinski də dinc təsərrüfat quruculuğu işinə keçirlər. Abbasqulu bəy Ararat sement zavoduna direktor göndərilir. Abbasqulu bəy burada da özünü bacarıqlı təşkilatçı kimi göstərir.

1930-cu ilin yazında ayrı-ayrı yerlərdə, o cümlədən Vedi rayonunda kolxoz quruluşuna qarşı üsyanlar baş verir. Abbasqulu bəy Şadlinski oraya göndərilir. Abbasqulu bəyə qarşı sui-qəsd təşkil edilir və onu öldürürlər.



Abbasqulu bəy Şadlinskinin cənazəsi

Abbasqulu bəyin və onun silahdaşı, sədaqətli dostu Xəlil Mehdi oğlu Pənahovun öldürülməsi kənd adamlarını bərk qəzəbləndirir.

Abbasqulu bəy və Xəlil Mehdi oğlu Böyük Vedi kəndindəki orta məktəbin həyətində dəfn olunurlar.

---

1. Ə.Əliyev. Vedinin "Dəmir axını". Bakı. 1984. səh.15.



*Xəlil Mehdi oğlunun cənazə*

## Rzaqulu Abdullayev



Ağır günlər idi, getsin gəlməsin. Yaxşı yadımdadır - daşnaklar kəndimizə hücum etmişdilər. Balaca kənddə 180 nəfərin meyidinin bir gündə basdırılması heç də asan dərd deyildi. Bəli, mənim də başım müsibətlər çəkdi. Axıslıdan (Ermənistan SSR) Azərbaycana getdim. Uzun müddət Şamxor rayonunda kəndləri gəzdim. Nəhayət, Hacı kənd ətrafında partizanlara rast gəldim. Dəstənin 150 nəfərə qədər üzvü var idi. Elə buradaca yaxın günlərdə Ermənistana qayıdacağımızı, Abbasqulu bəy Şadlinskinin komandanlıq etdiyi dəstə ilə birləşəcəyimizi öyrəndik. Çox keçmədən biz Çimkənd ətrafında Abbasqulu bəyin dəstəsi ilə birləşdik.

Rzaqulu Abdullayev söhbətin bu yerinə çatanda bir qədər sakitləşdi. Adama elə gəlirdi ki, öz üzərindən ağır bir yükü qaldırıb yerə qoydu.

Bizi kəşfiyyata göndərirdilər. Biz Çanaxçı kəndinə gəlməli, orada daşnakların silahlı qüvvələrinin yerləşdiyi sahəni müəyyənləşdirməli idik. Biz 50 nəfər idik. Danzik kəndindən bir qədər aralı daşnaklar bizi atəşə tutdular. Burada qolumdan yaralandım. Gözümü açdım ki, İrəvanda kiçik bir otaqdayam. Yoldaşlarımdan üç nəfər də burada idi. Onlar da yaralanmışdılar. Bizi sadə üsulla müalicə edirdilər. Üç həftədən sonra artıq öz hissəmizdə idik. Abbasqulu bəyin komandanlıq etdiyi "Qırmızı tabor" Naxçıvan mahalını daşnaklardan təmizlədi. Naxçıvan mahalında biz Çeşməbasar altında, Kotam və Kilit kəndləri ətrafında qanlı vuruşmalarda iştirak etdik. 1923-cü ilədək orduda qaldım. Sonra oradan birbaşa Naxçıvana gəldim. İndiki Qaraxanbəyli kəndi mənim çox xoşuma gəldi. Burada qalmağı qərara aldım. Bunlar Rzaqulunun xatirələrindən idi.

1896-cı ildə İrəvan qəzasının Axıslı kəndində anadan olan Rzaqulu Məmmədhənifə oğlu Abdullayev Naxçıvanda, eləcə də Ermənistanda daşnaklara qarşı vuruşmalarda yaxından iştirak etmişdir.

1931-ci ildə məktəbi bitirib Naxçıvana qayıdır. Sonrakı 7 il ərzində Qaraçuğ, Bulqan və Yarımca kəndlərindəki kolxozlarda sədr işləmişdir. Sonra Naxçıvan MTS-də çalışmağa başlayır.

İkinci Dünya müharibəsi başlayanda R.Abdullayev Naxçıvan mətbəəsində işləyirdi. 1942-ci ilin noyabr ayında ordu sıralarına getməyinə icazə verildi. 1945-ci ilin axırlarına qədər orduda qaldı. Müharibə illərində Qafqazdan Brandenburq darvazasına qədər ağır döyüş yolu keçmişdir. Ordudan qayıtdıqdan sonra o, yenə Qaraxanbəyli kəndinə gələrək buradakı kolxozda müxtəlif vəzifələrdə işləmişdir.

Naxçıvan MSSR-in MİK nəzdində olan qırmızı qvardiya və qırmızı partizan işlərinin mərkəzi komissiyası R.Abdullayevin təqdim etdiyi sənədləri nəzərdən keçirərək 25 iyun 1934-cü ildə ona Naxçıvan MSSR-in "Qırmızı partizan" adı verilmişdir.[1]

Rzaqulu Abdullayev 1985-ci ildə vəfat etmişdir.

---

1. Nax. MRDA. f.575. siy.2. iş.31. vər.1-5.

## Abbasov Əkbər



Naxçıvanın qabaqcıl şəxslərindən biri də Əkbər Abbas oğlu Abbasovdur. O, 1897-ci ildə Naxçıvan şəhərində yoxsul kəndli ailəsində anadan olmuşdur. Əkbər Abbasov uşaq ikən yoxsulluq, iqtisadi çətinlik içərisində yaşamışdır. Bu səbəblər Əkbər Abbasovu təhsildən uzaqlaşdırmış və o, 1916-cı ildən Culfa-Təbriz dəmir yolunda fəhləlik etməyə başlamışdır.

1919-cu il Versal müqaviləsinin müddəasına uyğun olaraq, Naxçıvan, Şərur və Dərələyəz bitərəf zona elan edilir, amerikalı komissarın idarəçiliyinə verilir. Bu münasibətlə general Tomson, Devi daşnak hökumətinin başçısı Xatisov ingilis və daşnak qoşunlarının müşaiyəti ilə Naxçıvana gəlir. Birinci növbədə Məmmədrza bəy Allahverdiyevin başçılıq etdiyi xalq dəstəsi üsyankarlıqla öz qüvvəsini nümayiş etdirib öz narazılığını bildirir. Bu üsyankar dəstəyə daxil olan gənclərdən biri də Əkbər Abbasov idi. Bu dəstə 1918-ci ildən 1920-ci ilə kimi silahı yerə qoymayıb, Naxçıvan ölkəsinə basqın edən təcavüzkarlara qarşı vuruşur.

Naxçıvan hökuməti tərəfindən xüsusi tapşırıqla Təbrizə göndərilən Əkbər Abbasov mühacirlər arasında geniş iş aparır. Bu işdən xəbərdar olan şah xəfiyyəsi idarəsinin kazak dəstəsi tərəfindən Əkbər Abbasov 1921-ci ilin mart ayında həbs edilir. O bir qədər həbsdə saxlanıldıqdan sonra ictimaiyyətin təkidi ilə həbsdən azad edilir.

Ə.Abbasov həbsdən çıxdıqdan sonra mühacirlərin vətənə qayıtması uğrunda mübarizəsini davam edir. Bu vaxt Təbriz, Gilan və başqa yerdə gedən inqilabi hərakatlar mühacirlərin vətənə qayıtmasına çox kömək etdi. Tapşırığı müvəffəqiyyətlə yerinə yetirən Əkbər Abbasov 1922-ci ildə Naxçıvana qayıdır.

1920-21-ci illərdə Əkbər Abbasovun döyüş fəaliyyəti 13 yanvar 1935-ci il tarixdə "Ədəbiyyat" qəzetində geniş işıqlandırılmışdır.[1]

Əkbər Abbasov xaricdən qayıtdıqdan sonra 1922-1924-cü illərdə Naxçıvan MSSR Maarif Komissarlığında işlər müdiri vəzifəsində işləyir.

Həmkarlar ittifaqı işləri üzrə müəyyən biliyə malik olan Əkbər Abbasov 1924-1925-ci ildə ticarət müvəkkili seçilir.

Təşkilat və təsərrüfatçılıq iş təcrübəsinə malik olan Əkbər Abbasov 1937-ci ilin axırlarında şəhər kommunal təsərrüfatı trestinə müdir göndərilir və orada uzun müddət işləyib öz bacarığını göstərir. Əkbər Abbasov 1953-cü ildən 1962-ci ilə kimi kommunal sənaye işçiləri həmkarlar ittifaqı yerli komitəsinin sədri işləyir.

Naxçıvan MSSR MİK nəzdində olan qırmızı qvardiya və qırmızı partizan işlərinə baxan komissiya Əkbər Abbasovun təqdim etdiyi sənədləri nəzərdən keçirərək 15 iyun 1934-cü ildə ona Naxçıvan MSSR "Qırmızı partizan"ı adı vermişdir.[2]

1962-ci ildən respublika əhəmiyyətli fərdi təqaüdçü Əkbər Abbasov 1967-ci ildə, 70 yaşında vəfat etmişdir.

## Allahverdiyev Səməd Baxşəli oğlu



1899-cu ildə Naxçıvan şəhərində yoxsul bir ailədə doğulmuş Səməd kiçik yaşlarından əməyi sevmişdir. O, 1907-ci ildə şəhərdəki rus-tatar (Azərbaycan) məktəbinə daxil olmuşdur. Özünün yazdığından məlum olur ki, yoxsul atasına kömək etmək məqsədi ilə məktəbin 4-cü bölməsindən çıxaraq işləməyə başlayır.

Birinci Dünya müharibəsi illərində həbs edilib İrəvan quberniya həbsxanasına salınmış dəmiryol fəhlələrindən Məşədi Əhməd Əzimov,

---

1. "Ədəbiyyat" qəzeti, 13 yanvar 1935-ci il, № 2.
2. Nax. MRDA. f.574. siy.2. iş.9/32. vər.4-5.

Mirzəli bəy Bektaşi, Mirbağır Mirheydərzadə, H.M.Bağırov və başqaları azadlıq alıb Naxçıvana qayıtdıqda şəhər gəncləri arasında xeyli canlanma əmələ gəlir, "Fəhlə klubu" açılır. Klubun Əziz Şərif, Mirbağır Mirheydərzadə və Mahmud Çəkərzadədən ibarət mütərəqqi bürosu seçilir. "Fəhlə klubu"-na ilk üzv yazılanlardan Ələsgər Qasımovu, Səməd Allahverdiyevi, Həsən Səfərlini və başqalarını göstərmək olar. Səməd həmçinin tərcümeyi-halında qeyd edir ki, "Naxçıvanda fəhlə-əsgər vəkilləri şurası icraiyyə komitəsinin üzvü idim". Doğrudan da belə bir icraiyyə komitəsi Əziz Şərif tərəfindən yaradılmışdır, komitənin 40 üzvü və 45 qırmızı qvardiyaçısı var idi.[1] Lakin "klubun və komitənin fəaliyyəti uzun müddət davam etmir. 1918-ci ilin yanvarından milli ədavət törədilir, ölkəyə müdaxiləçilərin, Andranikin başçılığı ilə daşnak qoşunları soxulur. Həmin ilin axırı, 1919-cu ilin yaz aylarında general Tomsonun başçılığı ilə ingilis daşnak təcavüzkarları Naxçıvanı işğal edir.

İşğalçılar Naxçıvan ölkəsini Azərbaycandan ayırıb daşnak Ermənistanının tərkibinə qatmağa, amerikalı komissarın başçılığı altında "bitərəf zona" elan etməyə çalışırdılar. Naxçıvanın vətənpərvər gəncləri üsyan qaldırıb təcavüzkar qoşunları ölkədən çıxarır.

1920-ci il iyunun ortalarında Mirheydərzadə Mirbağır, demokrat Məmməd (Rəhimov) və başqaları da başda olmaqla xalq drujinası yaranır. Drujinada Səməd Allahverdiyev, Yusif Salayev, Həsən Əliyev, Ələsgər Qasımov və başqaları şəhəri (əhalinin çoxu İrana qaçmışdı) müdafiə edib daşnak qoşunlarının hücumunu əks-hücumla qarşılamaq üçün hazırlıq aparırdı.

Naxçıvan, Şahbuz, Şərurun daşnaklardan azad edilməsində fəal iştirak edir. O, daşnaklarla vuruşmada yaralanmış və sağaldıqdan sonra yenidən mübarizəni davam etdirmişdi.

"Qırmızı tabor"dan tərxis olunduqdan sonra Səməd Allahverdiyev 1921-ci ilin yazında Naxçıvanda təşkil olunan ölkə Komsomol komitəsinə təşkilat şöbəsinin müdiri seçilir.[2]

S.Allahverdiyev müxtəlif rəhbər vəzifələrdə çalışmış, ikinci

---

1. Yenə orada. siy.1. iş.10. vər.12-13.
2. Nax. MRDA. f.314. siy.5. iş.22. vər.1-2; f.574. siy.2. iş.12. vər.7.

Dünya müharibəsinin iştirakçısı olmuşdur.

O, ömrünün sonunadək Naxçıvan şəhərində yaşamış və 1977-ci ildə vəfat etmişdir.

## Babayev Qurban



O mübarizə apararkən yaxşı başa düşürdü ki, onun mübarizəsi xalqın azad olması üçündür.

Babayev Qurban Salman oğlu 1892-ci ildə Ermənistanın Vedibasar rayonunun Xalsa kəndində anadan olmuşdur. O gənclik dövrünü Vedibasarda keçirmişdir.

Həmin dövrdə daşnak generalı Andranik müsəlman əhalisinin başına olmazın müsibətlər gətirirdi. Həmin dövrdə daha Vedibasarda yaşamağın mümkün olmadığını görən Qurban Babayev ailəsi ilə birlikdə Naxçıvan şəhərinə gəlir. Naxçıvanda da vəziyyət yaxşı deyildi. Naxçıvan torpağı müdaxiləçilərin və daşnakların ayağı altında tapdalanırdı.

Naxçıvanda mövcud olan müdafiə dəstələri və A.Şadlinskinin rəhbərlik etdiyi "Vedi taboru" birləşdirilərək "Qırmızı tabor" yaradılır. Qurban Babayev də həmin tabora daxil olur. O, "Qırmızı tabor"un tərkibində Şərur-Dərələyəz, Ordubad və Naxçıvanın daşnaklardan təmizlənməsində fəal iştirak etmiş, Dərələyəzdə ayağından yaralanmışdır.

Qırmızı tabordan tərxis olunandan sonra Qurban Babayev Naxçıvan milis orqanlarında işə girərək ömrünün axırına qədər həmin orqanda çalışmışdır. Naxçıvan MSSR Mərkəzi İcraiyyə Komitəsi nəzdində Qırmızı qvardiya və qırmızı partizan işlərinə baxan Mərkəzi komissiyası Babayev Qurban Salman oğlunun təqdim etdiyi sənədləri nəzərdən keçirərək 1934-cü il 15 iyun tarixli 2№ li protokolla ona Naxçıvan MSSR-in Qırmızı partizanı adı verilmişdir.[1]

---

1. Nax. MRDA. f.574. siy.2. iş.22. vər.2-3

Q.Babayev dəfələrlə hökumət mükafatlarına layiq görülmüşdür. O, 1978-ci ildə Naxçıvan şəhərində vəfat etmişdir.

## Bağırov Həbib



Naxçıvanın erməni daşnaklarından təmizlənməsində çarpışan mərd mübarizlərin həyatından danışarkən Bağırov Həbib Əli oğlunun adını çəkməmək olmaz.

H.Bağırov 1893-cü il may ayının 13-də Şərur qəzasının Kərki kəndində yoxsul kəndli ailəsində anadan olub, ağır ailə həyatı keçirmişdir.

1920-ci ildə bir çox həmyerliləri kimi erməni quldurlarına qarşı mübarizə aparanların ön sırasında Bağırov Həbib Əli oğlunu da görmək olardı.

O, gənc yaşlarından xalqın azad olması uğrunda silaha sarılaraq Abbasqulu bəy Şadlinskinin taborunda və həmyerlisi İbrahim Fərzəliyevin rotasında daşnak hakimiyyəti əleyhinə mübarizə aparmışdır.

1920-ci ilin noyabr ayında Şahtaxtı, Qıvraq, Qarabağlar və Əznəbürd istiqamətində dayanan daşnak qoşunlarına qarşı hərbi əməliyyat başlanır. "Qırmızı tabor" şosse yolu, Xok, Əznəbürd, Qarabağlar dağ yolu istiqamətində hərəkət edərək daşnak qoşunlarını Qaratəpə, Dəhnə, Bağırsaq dərəsindən qovur. Əməliyyatın fəal iştirakçılarından biri də Həbib Bağırov idi.

Onun daşnaklara qarşı keçirdiyi mübarizə yolu bununla bitmir. O, eyni zamanda Şərur, Dərələyəz, Mehri və Qarçivanın daşnaklardan təmizlənməsində iştirak etmişdir.

Naxçıvan MR Dövlət Arxivində olan qırmızı qvardiya və qırmızı partizan fondunda saxlanılan sənədlərin birində yazılmışdır: "Həbib Bağırovun üzv olduğu 4-cü rota Şərur qəzasının Zeyvə kənd qəbristanlığından hücuma keçib, Şəhriyar dəmir yolu körpüsünün tutulması və Sədərək kəndinin azad edilməsində cəsurluq göstərdiyinə görə rota komandiri

tərəfindən təşəkkür almışdır".[1]

Daşnakları Dərələyəzdən qovduqdan sonra düşmən qüvvələri Qafan-Mehri və Qaraçivan istiqamətlərində toplanır. İndi başlıca məsələ Araz kənarlarını möhkəmləndirib, daşnak qalıqlarının xaricə qaçmasına yol verməmək idi. Bu tapşırığı yerinə yetirmək üçün başqa hissələr kimi Həbib Bağırovun üzv olduğu 4-cü rota Qarçivan istiqamətinə göndərilir. Burada qızğın döyüşlər gedir, düşmənin qüvvəsi sarsılır.

Başqa bir sənəddə yazılmışdır: "1920-ci ilin noyabrında Qarçivan və Mehrinin azad edilməsində, daşnak qoşunları ilə döyüşlərdə hərbi sursatın hissəyə çatdırılmasında, Ordubad dağında gizlədilmiş 4 yeşik patronun dağdan yendirilib gətirilməsində qoçaqlıq göstərdiyindən Həbib Bağırov döyüş yoldaşı Əli Əhmədovla birlikdə pulla mükafatlandırılmışdır".[2]

Ölkədə sakitlik yarandıqdan sonra 1921-ci ilin axırlarında partizan dəstələri tərxis edilir. Dinc təsərrüfat quruculuğu başlanır. Həbib Bağırov qırmızı tabordan tərxis olunduqdan sonra doğma kəndi olan Kərki kəndinə qayıdır.

Qırmızı qvardiya və qırmızı partizan işlərinin mərkəzi komissiyası Bağırov Həbib Əi oğlunun təqdim etdiyi bütün sənədləri nəzərdən keçirərək 7 iyul 1934-cü il tarixdə, 15 №-li protokolla ona Naxçıvan MSSR-in qırmızı partizanı adını vermişdir.[3] Həbib Bağırov 1976-cı ildə vəfat etmişdir.

## Əliyev Nəcəf

Nəcəf Əli oğlu Əliyev 1896-cı ildə Araz çayının sol sahilində yerləşən Sədərək kəndində anadan olub. O, atası ilə birlikdə Kaxanovun və Savva Marozovun Arazdəyən təsərrüfatında fəhləlik etmişdir.

Nəcəf bir gün eşitdi ki, qırmızı partizan dəstələri yaradılır. O, Şadlinskinin başçılıq etdiyi "Qırmızı tabor"a üzv yazılır. Taborun igid döyüşçülərindən biri olur. Şərur və Dərələyəz qəzalarında daşnak tör-töküntülərinə qarşı vuruşur. Çox keçmədən onu "Qır-

---

1. Nax. MRDA. f.574. siy.2. arx.16. vər.4.
2. Nax. MRDA. f.574. siy.2. arx.16. vər.5.
3. Yenə orada. vər.4-5



mızı tabor"un 2-ci rotasına bölmə komandiri vəzifəsinə irəli çəkdilər.

"Qırmızı tabor"un komandiri A. Şadlinski tərəfindən Nəcəf Əliyevə verilmiş 132 №-li vəsiqədə yazılmışdır: "Yoldaş Nəcəf Əliyev həqiqətən 21 oktyabr 1920-ci ildən 12 noyabr 1921-ci ilə kimi "Qırmızı tabor"un 2-ci rotasının komandiri vəzifəsində çalışmışdır".[1]

Nəcəf Əliyevin rotası Dərələyəz, Şərur, Meğri, Qarçıvan rayonlarının daşnaklardan azad edilməsində fəal iştirak etmişdir.

Qırmızı qvardiya və qırmızı partizan işlərinin mərkəzi komissiyası 1934-cü ildə Nəcəf Əliyevə Naxçıvan MSSR-in qırmızı partizanı adı verilməsini təsdiq etmişdir.[2]

Nəcəf Əliyev 1967-ci ildə vəfat etmişdir.

## Əliyev Hüseyn



Qırmızı partizanlardan biri də Hüseyn Salman oğlu Əliyevdir.

Hüseyn Əliyev 1894-cü ildə Naxçıvan şəhərində anadan olmuşdur. O, ilk təhsilini Naxçıvan şəhər mədrəsəsində almış, sonralar 1907-ci ildən 1911-ci ilə qədər "Məktəbi tərbiyyə"də oxumuşdur. Ağır ailə vəziyyəti imkan vermədiyindən 18 yaşlı Hüseyn Hacı Hüseynəli Qurbanovun gön-tumac emalatxanasında qardaşları Kərbəlayı Oruc və Kərbəlayı Əli ilə birlikdə fəhləlik etməyə məcbur olur.

1919-cu ilin yazında general Tomsonun və polkovnik Varşam-

---

1. Nax. MRDA. f.574. siy.2. iş.47. vər.3.
2. Yenə orada. vər.4-5.

yanın komandası altında ingilis-daşnak qoşunları Şərur və Naxçıvan torpaqlarına yeridilir. Bu zaman bir qrup mütərəqqi adam həbs edilib Aleksandrapol, Sevan və başqa həbsxanalara göndərilir. Təcavüzkarların özbaşınalığına qarşı əhali arasında ixtişaşlar baş verir. Şəhərin ətrafında "Qarağac altı" adlanan yerdə "özünü müdafiə" təşkilatı yaradılır. Bu qrup 50 nəfərdən ibarət olub, partizan müharibəsi yolu ilə mübarizə aparmağı qərara alır.

"Qarağac altı" drujinasının fəaliyyəti getdikcə genişlənir. Drujinaya Hüseyn Əliyev başçılıq edirdi. Onlar and içərək söz verirlər ki, ingilis- daşnak təcavüzkarları ölkədən qovulanadək partizan müharibəsindən əl çəkib silahı yerə qoymayacaqlar.

Naxçıvan və Şərur əhalisi arasında aparılan təşkilat və təbliğat işləri nəticəsində 1919-cu ilin iyun ayında üsyan qaldırılır, bir gecədə təcavüzkarlar ölkədən qovulur, külli miqdarda silah və başqa hərbi sursat ambarları ələ keçirilir.

Qırmızı qvardiya və qırmızı partizan təmizlik komissiyası H. Əliyevin təqdim etdiyi sənədləri nəzərdən keçirərək 31 may 1934-cü il tarixdə 5 №-li protokolla 1934-cü ildən ona Nax. MSSR qırmızı partizanı adını vermişdir.[1]

1954-cü ildə fərdi təqaüdə çıxan Hüseyn Əliyev 1981-ci ildə Naxçıvan şəhərində vəfat etmişdir.

### Əhmədov Əli



1900-cu ildə Naxçıvan (Babək) rayonunun Zeynəddin kəndində yoxsul bir ailədə dünyaya göz açmış Əli Məmməd oğlu Əhmədov çox çətin bir həyat yolu keçmişdir. Ata-anasının vəfatından sonra Əli böyük qardaşı Əhmədin himayəsində böyümüşdür.

1918-ci ilin əvvəllərində Naxçıvan qəzasında daxili asayiş tamamilə pozulur. Ermənilər Naxçıvana soxulmağa çalışır. Buna qarşı Naxçıvan qəzasının kəndlərindən bir çoxunda

---

1. Nax. MRDA. f.574. siy.2. iş.53. vər.3.

özünümüdafiə dəstələri, qırmızı partizan dəstələri yaradılır.

Əli Əhmədov həmin dəstələrdən birinə (Məmmədrza bəy Allahverdiyevin rəhbərlik etdiyi özünümüdafiə dəstəsinə - F.C.) qoşulur.

1920-ci ilin payızında Əli Əhmədov "Qırmızı tabor"un tərkibində, M.Allahverdiyevin rəhbərlik etdiyi dəstədə Naxçıvan, Şərur, Dərələyəz, Ordubad, Meğri, Cəhri, Qarçivan cəbhələrində gedən döyüşlərdə cəsarətlə vuruşdu. "Birəlli" adlanan yerdə daşnaklar möhkəm istehkam yaratmışdılar. Komandanlıq tərəfindən xüsusi tapşırıq alan Əli Əhmədov həmin istehkamın dağıdılmasında və 14 nəfər düşmən əsgərinin tərksilah edilib lazımi yerə gətirilməsində fədakarlıq göstərmişdi.

Meğri və Qarçivan istiqamətlərində gedən vuruşmalarda əsil hünər və rəşadət göstərdiyinə görə ona 4 min manat pul mükafatı verilmişdir.[1]

1921-ci ilin axırlarından Qırmızı taborun döyüşçüləri dinc quruculuq işlərinə keçirlər. Lakin Əli Əhmədov silahı yerə qoymur.

O, 1923-1924-cü illərdə Nehrəm Dəstə sərhəd gözətçisi, 1924-cü ildən 1933-cü ilə kimi Naxçıvan rayon milis şöbəsində milis işçisi olmuşdur. Ona 1934-cü ildə Naxçıvan MSSR qırmızı partizanı adı verilmişdir.[2]

1968-ci ildə təqaüdə çıxan Əli Əhmədov 1982-ci ildə vəfat etmişdir.

## Əliyev Yusif



Əliyev Yusif Əli oğlu 1893-cü ildə Sədərək kəndində, yoxsul kəndli ailəsində anadan olmuşdur. Yusif Əliyev cəsur komandir Abbasqulu bəy Şadlinskinin rəhbərliyi altında Meğri, Zəngəzur, Dərələyəzdə daşnaklar əleyhinə amansız mübarizə aparanlar sırasında olmuşdur.

Qırmızı qvardiya və qırmızı partizan işləri üzrə mərkəzi komissiyası 1 iyul 1934-cü ildə Əliyev Yusif Əli oğlunun

---

1. Nax. MRDA. f.574. siy.2. iş.43. vər.5.
2. Nax. MRDA. f.574. siy.2. iş.43. vər. 3-4

qırmızı partizan olması haqqındakı məsələyə baxaraq ona qırmızı partizan adı verilməsini təsdiq etmişdir.[1]

Yusif Əliyev 1944-cü ildə Sədərək kəndində vəfat etmişdir.

## Əliyev Qafar



1898-ci ildə Sədərəkdə yoxsul kəndli ailəsində anadan olmuş Qafar Əli oğlu Əliyev də "Qırmızı tabor"un döyüşçüsü olmuşdur.

Rota komandiri İbrahim Fərzəliyevin və "Qırmızı tabor"un komandiri A.Şadlinskinin qısa bir vaxtda rəğbətini qazanan, Şərur-Dərələyəz qəzasının dağ keçid yollarına yaxşı bələd olan Qafar Əliyev İbrahim Fərzəliyevin rotasında takım (vzvod) komandiri təyin edilir.[2]

Şərur-Dərələyəz qəzasının daşnaklardan azad edilməsində Qafar Əliyevin də rolu çox böyük olmuşdur.

Döyüş rəşadətinə görə "Qırmızı tabor"un 19 nəfər igidinə "Qırmızı bayraq" ordeni verilir. Təltif olunanların içərisində Qafar Əliyev də var idi.[3]

Qırmızı qvardiya və qırmızı partizan işlərinin mərkəzi komissiyası Qafar Əli oğlu Əliyevin təqdim etdiyi sənədləri nəzərdən keçirmiş 1 iyul 1934-cü ildə ona Naxçıvan MSSR qırmızı partizanı adı verilmişdir.[4]

Qafar Əliyev 1966-cı ildə vəfat etmişdir.

---

1. Nax. MRDA. f.574. siy.2. iş.52. vər.3-4
2. Nax. MRDA. f.574. siy.2. iş.50. vər.3-4.
3. Nax. MRDA. f.574. siy.2. iş.50. vər.1-4.
4. Yenə orada. vər.4.

## Əliyarov Abbasqulu



Abbasqulu Qurban oğlu Əliyarov Culfa rayonunun Yaycı kəndində yoxsul kəndli ailəsində anadan olub. Abbasqulu kiçik yaşlarından valideynlərini itirmişdir. O, əvvəlcə özündən kiçik qardaşı Müzəffər ilə kənddə günəmuzd işlərdə çalışmış, sonralar Culfa-Təbriz dəmir yolunda fəhlə işləmişdir. O zamankı hadisələr Cənubi Azərbaycandakı xalq hərakatı, Dünya müharibəsinin başlanması ilə əlaqədar olaraq ümumxalq narazılıqları və çarizmə qarşı başlanan milli azadlıq mübarizəsi 20 yaşlı gənc Abbasquluya dərin təsir edir. 1915-ci ildə imperialist müharibəsinə qarşı dəmir yol fəhlələri arasında həyəcanlar, tətillər, qiyamlar qalxır. Baş verən çıxışların birinə, Podqur dəmir yol stansiyasında çilingər Məşədi Əhməd Əzimov başçılıq edirdi. 1916-cı ilin noyabr ayındakı çıxışlarda fəal iştirak edənlərdən biri də Abbasqulu Əliyarov olur. Bu tətildə fəal rol oynayan Parağa kənd sakini Məşədi Əhməd və Məşədi Hüseynəli Əzim oğlu (qardaşlar) həbs edilib İrəvan quberniya həbsxanasına göndərilir. Fəhlələrdən Abbasqulu Əliyarov, Bağır Salahov, Cabbar Kərimov və bir çoxları işdən çıxarılır.

Çar mütləqiyyəti yıxılır.

Abbasqulu Əliyarov 1920-1921-ci illərdə erməni daşnaklarının Naxçıvan bölgəsindən təmizlənməsində fəal iştirak etmiş, Arazdəyən-Qəmərli cəbhəsində vuruşmuşdur.

25 iyun 1934-cü ildə Naxçıvan Qırmızı Partizan Təmizlik Komissiyası tərəfindən ona qırmızı partizan adı verilməsi üçün Məmməd Fərzəliyev və Əkbər Abbasov tərəfindən verilmiş zəmanətdə yazılmışdır: "Biz aşağıda imza edən sabiq partizanlar Abbasqulu Əliyarova ona görə zamin oluruq ki, o, həqiqətən çərkəvi qırmızı partizan sifəti ilə 1917-ci ildən 1921-ci ilə kimi dəmir yol dəstəsində, eyni zamanda Çənnəb və

Ordubad cəbhələrində fəal iştirak etmiş və ən yaxşı qırmızı partizanlardan biri olmuşdur".[1]

7 iyul 1934-cü ildə protokol № 15 ilə Abbasqulu Əliyarova Naxçıvan MSSR-in qırmızı partizanı adı verilmişdir.[2]

Abbasqulu Əliyarov 1940-cı ildə vəfat etmişdir.

## Fərzəliyev İbrahim



İbrahim Qurbanəli oğlu Fərzəliyev sabiq İrəvan qəzasının Çəmən kəndində yoxsul kəndli ailəsində anadan olmuşdur. Ağır ailə həyatı keçirmişdir.

Keçən ağır günlərin izləri aradan qaldırılmamış 1914-cü ildə qanlı-qadalı imperialist müharibəsi başlayır. Müharibənin yaxın arxası olan İrəvan qəzası kəndləri, Vedibasar, Zəngibasar ağır günlər keçirirdi.

Hələ müharibə qurtarmamış çar hökuməti yıxılır, ölkənin hər yerində, eyni zamanda ucqarlarda hərc-mərclik başlayır. Ermənistan daşnak hökuməti daxili asayişi bərpa etmək əvəzinə, milli ədavəti yenidən qızışdırır. Zəngibasarda və Vedibasarda, bir sözlə İrəvan qəzasındakı Azərbaycan kəndlərinə daşnak təcavüzkarlığı başlayır.

Vedibasar, Cığın dərəsi kəndlərinin azərbaycanlı əhalisi özlərini müdafiə etmək üçün Böyük-Vedi kəndinə toplaşır. 1918-ci ilin yaz aylarından başlayaraq Böyük-Vedi kəndi daşnak qoşunları tərəfindən mühasirəyə alınır. Müdafiənin başında Abbasqulu bəy Şadlinski durur. Kəndin qəhrəman müdafiəçilərindən, Abbasqulu bəyin igid əsgərlərindən biri də 21 yaşlı İbrahim Fərzəliyev idi.

1920-ci il iyun ayının axırlarında daşnak qoşunları güclü bir qüvvə ilə Vediyə hücuma keçir və mühasirəni daha da sıxlaşdırır. Üstün qüvvələrə tab gətirə bilməyən əhali Abbasqulu bə

1. Nax. MRDA. f.574. siy.2. iş.36. vər.2-3
2. Yenə orada. vər.4-5.

yin başçılığı altında mütəşəkkil şəkildə kəndi tərk edərək Şərura çəkilir. Çox keçmir ki, Şərur qəzası da daşnak qoşunları tərəfindən işğal edilir. Vedi əhalisi Abbasqulu bəy başda olmaqla qonşu İran torpaqlarına keçir, lakin silahlı dəstə saxlanılır. Deməк olar ki, mühacirlikdə hərbi-partizan vəziyyəti davam etdirilir.

Abbasqulu bəyin dəstəsinin tərkibində İbrahim Fərzəliyev 1920-ci ilin sentyabr ayında Naxçıvana gəlir, burada həmin dəstəyə "Qırmızı tabor" adı verilir. "Qırmızı tabor"a Abbasqulu bəy Şadlinski komandir, 23 yaşlı İbrahim Fərzəliyev isə bölük komandiri təyin edilir.

Taborun qarşısında duran başlıca məsələlərdən biri Şəruru daşnak qoşunlarından təmizləmək idi.

Şərur dekabr ayının 2-də daşnaklardan təmizlənir, "Qırmızı tabor"a Dərələyəz cəbhəsi tapşırılır.

"Qırmızıtabor"un bölükləri Zəncirli, Yelpin, Çanaxçı, Cüvə-Danzik məntəqələri istiqamətində Dərələyəzdən hücuma keçən daşnak qoşunlarının müqavimətini sındırıb geri qayıtmalı idi.

Bu istiqamətdə hərbi-strateji nöqteyi-nəzərdən Danzik ən əlverişli məntəqə sayılırdı. Danzik daşnak qoşunlarının dayandığı Arpa kəndi ilə üz-üzə dururdu. Digər tərəfdən bu kənd Şərura gedən yolun üzərində dayanırdı.

Hərbi strateji nöqteyi-nəzərdən çox əhəmiyyətli sayılan bu məntəqənin müdafiəsi İbrahim Fərzəliyevin bölüyünə tapşırılır. Düşmənin hücum məntəqələrinin öyrənilməsi və əks-hücum məsələsini İbrahim Fərzəliyev və onun komandirlik etdiyi hissə öz üzərinə götürür.

Burada Yaponun komandasında Arpa kəndində 200, Civədə 400 nişançı, 100 süvari, Aşağı Çanaxçıda 100 nəfər piyada, ümumiyyətlə dəstədə 1700 nəfər əsgər və 2 top var idi.[1]

Danzik-Çanaxçı istiqamətində duran Qırmızı tabor da 450-500-dən artıq adam yox idi. Lakin burada mənəvi üstünlük var idi.

Martın əvvəllərində (1921-ci il) gözlənildiyi kimi Yapon geniş miqyasda hücuma keçir. Düşmənin hücum hədəfi İbrahim Fərzəliyevin müdafiə etdiyi Danzik yaşayış məntəqəsi idi. Düşmənin hücumu əks hücumla qarşılanır. Bu vuruşmada

---

1. Nax. MRDA. f.582. siy.1. iş.24. vər.168.

Ələkbər Sadıqov, Qasım Hüseynov, Nəcəf Əliyev, Zeynalabdın Həsənov, Qafar Qədimov (Sədərək), Əli Əhmədov (Zeynəddin), İsmayıl Məmmədov, İsmayıl Hacı Bayramqulu oğlu (Yaycı), Cəlal Məmmədov (Kərimbəyli), Ələsgər Kərimov (Hortun) xüsusilə fərqlənirlər.

1923-1924-cü illərdə Əbrəqunus və Şahbuz rayonlarında milis rəisi kimi məsul vəzifədə çalışan İbrahim Fərzəliyevin xidmətləri nəzərə alınaraq "Naqan" markalı tapança bağışlanmış və fəxri fərmanla təltif edilmişdir.

Naxçıvan MSSR-in Mərkəzi İcraiyyə Komitəsi nəzdnində olan qırmızı partizan və qırmızı qvardiya işləri üzrə mərkəzi komissiyası İbrahim Fərzəliyevin təqdim etdiyi sənədləri nəzərdən keçirərək 23 oktyabr 1934-cü il tarixdə protokol № 16 ilə ona Naxçıvan MSSR-in "Qırmızı partizan"ı adı verilməsini təsdiq etmişdir.[1]

O, 1965-ci ildə vəfat etmişdir.

## Fərzəliyev Məmməd



Məmməd Fərzəli oğlu Fərzəliyev 1879-cu ildə Naxçıvan qəzasının Ordubad nahiyəsində, Bist kəndində yoxsul kəndli ailəsində anadan olmuşdur. Burada əhalinin güzəranı çox çətin keçirdi.

Bu ağır sıxıntılı həyatdan qaçan gənc Məmməd Fərzəliyev 1895-ci ildə Bakı şəhərinə gedib dəmir yolunda işə girir. Bu zaman Bakıya iki tərəfdən, Dərbənd və Tiflisdən dəmir yolu xətti çəkilirdi.

M.Fərzəliyev 7-8 il fəhləlik edir, sonra usta köməkçisi olur. Zaqafqaziyada dəmir yolunun Tiflis, İrəvan, Naxçıvan, Culfa istiqamətində Təbrizə tərəf uzanması ilə əlaqədar olaraq 1907-ci ildə Bakıdan Naxçıvana çoxlu dəmiryolçu gətirilir, o cüm-

---

1. Nax. MRDA. f.574. siy.2. iş.94. vər.4-5

lədən Məmməd Fərzəliyev, onun dostu Məşədi Əhməd Əzimov və başqaları da bura gəlirlər.

Birinci dünya müharibəsinin başlanması ilə əlaqədar Culfa-Təbriz yoluna daha artıq əhəmiyyət verilir. Buna görə oraya çoxlu ixtisaslı dəmiryolçu göndərilir. Göndərilənlər arasında Məşədi Əhməd Əzimov, Məmməd Fərzəliyev, Abbasqulu Əliyarov, Məşədi Hüseyn Əli oğlu, Cabbar Kərimov və başqaları da var idi.

Hərbi vəziyyət şəraitində işləməyə məcbur edilən dəmir yol fəhlələri arasında narazılıq artır. Belə narazılıq əlamətiləri ölkənin hər tərəfində olduğu kimi, Culfa dəmir yolunun Polqur adlanan stansiyasında da baş verir. Fəhlələr işdən imtina edib, müharibənin əleyhinə çıxırlar. Fəhlə çıxışlarına Məşədi Əhməd Əzimov başçılıq edir. M.Fərzəliyev də çıxışın fəal iştirakçılarından olur.Podqur çıxışı polis gücünə yatırılır. Fəhlələrin başçılarından Məşədi Əhməd Əzimov və Məşədi Hüseyn Əli oğlu 1916-cı ilin noyabr ayında həbs edilirlər. Qalan fəhlələr, o cümlədən Məmməd Fərzəliyev, Kərim Əliyarov və başqaları işi tərk edib öz doğma kəndlərinə qayıdırlar.

1918-ci ilin fevral-mart aylarında daxili asayiş tamamilə pozulur. Ermənistanın daşnak qoşunları Naxçıvana soxulmağa çalışır. Buna qarşı müqavimət dəstələri, daha doğrusu, hər bir kənddə özünümüdafiə qüvvələri təşkil olunur. Sisyandan, Zəngəzurdan silahlı daşnaklar Ordubadın dağ kəndlərinə basqınlar edirlər. 1918-ci ilin iyul ayının əvvəllərində Naxçıvan ərazisinə xarici hərbi müdaxilələr başlanır. Naxçıvan, Ordubad və Culfa nahiyələrinin Azərbaycan kəndləri talanır, əhalisi dərbədər düşür, o cümlədən Tivi kəndinin əhalisi də kəndi tərk etməyə məcbur olur".

Müdaxiləçi qoşunlar çəkiləndən sonra qaçqın əhali yenidən kəndə qayıdır. Lakin kəndin iqtisadi həyatı pozulur, əhali, demək olar ki, dilənçi vəziyyətinə düşür.

1919-cu ilin payızında Naxçıvan ingilis-amerikan imperialistlərinin əlinə keçir. Varşamyan hərbi qubernator təyin edilir.

Təcavüzkarlara qarşı ümumi narazılıq artır.

Əsas çətinlik bundan ibarət idi ki, Naxçıvan xarici aləmdən ayrılmış "cəzirə" kimi idi. Zəngəzur bütünlüklə Ermənistan daşnaklarının əlində idi. Bakıdan yanacaq və başqa zəruri

şeylər gətirmək mümkün deyildi. Vaqon və lokomotivləri təmir etmək çətin idi. Mazut, neft əvəzinə odundan istifadə edilirdi. Bu illərdə M.Fərzəliyev əsl qəhrəmanlıqlar göstərir.

Sonralar rəhbər vəzifələrdə çalışan Məmməd Fərzəliyev bir neçə çağırış Naxçıvan MSSR Ali Sovetinin deputatı olmuşdur. Bundan başqa Məmməd Fərzəliyev "Qırmızı bayraq", "Qırmızı Əmək Bayrağı" ordenləri və başqa medallarla təltif edilmişdir.

Qırmızı partizan və qırmızı qvardiya işlərinə baxan Mərkəzi komissiyası Məmməd Fərzəliyevin təqdim etdiyi sənədləri nəzərdən keçirərək 13 iyun 1934-cü il tarixdə ona Nax. MSSR-in qırmızı partizanı adı verilmişdir.[1]

Məmməd Fərzəliyev 1967-ci ildə, ömrünün 88-ci ilində vəfat etmişdir.

## Fətullayev Əli



Milli istiqlal uğrunda öz qüvvəsini əsirgəmədən çalışan mərd mübarizlərdən biri də Əli Cabbar oğlu Fətullayev olmuşdur.

Əli Cabbar oğlu Fətullayev 1900-cu ildə Naxçıvan rayonunun (İndiki Babək) Təzəkənd kəndində yoxsul kəndli ailəsində dünyaya göz açmışdır.

Kiçik yaşlarından ağır yoxsulluq hiss edən Əli bu çətinliyə qarşı mübarizə yolları düşünür, lakin heç bir çıxış yolu tapa bilmir. Özünü oda, közə vurub kiçik yaşlı bacı-qardaşlarını dolandırmaqda atasına kömək edir. O, hər bir çətin işə dözür, kənddə və dəmir yolunda fəhlə işləyirdi.

Çar mütləqiyyəti yıxılanda Əlinin 17 yaşı tamam olur. Naxçıvan dəmir yolçuları ailəsində yaşayan Əli qocaman dəmiryolçu, siyasi hadisələri dərk edən Məmməd Fətullayev, Məşədi Əhməd Əzimov, Məmməd Rəhimov və başqaları ilə tanış olur, baş verənlərlə yaxından maraqlanır və onlara qoşulur.

---

1. Nax. MRDA. f.574. siy.2. iş.93. vər.3

Yerlərdə müvəqqəti hökumət orqanları ilə bir zamanda fəhlə-əsgər vəkilləri şurası yaranmağa başlayır. Naxçıvan şəhərində Əziz Şərifovun başçılığı altında yerli fəhlələrdən və yoxsul muzdurlardan ibarət Şuralar yaradılır və onun qırmızı qvardiyası təşkil olunur. Ə. Fətullayev Şuranın tərkibinə seçilir.

Yerli gənclərdən batalyon düzəldilir, Əli Fətullayev Şərurun daşnaklardan təmizlənməsi əməliyyatında fəal iştirak edir. Şərurun daşnaklardan təmizlənməsi əməliyyatlarında fəal iştirakına görə Əli Fətullayev polk komandiri tərəfindən fəxri fərmanla təltif edilir.

Əli Fətullayev öz üzərində ciddi çalışır, savad kurslarında oxuyur. 1926-cı ildə isə o, Bakıda ikiillik partiya-sovet məktəbinə daxil olur. Buranı müvəffəqiyyətlə bitirəndən sonra ölkə partiya komitəsi tərəfindən irəli çəkilir və 1929-1930-cu illərdə Naxçıvan Rayon Partiya Komitəsinin katibi işləyir.

Əli Fətullayev 1930-1932-ci illərdə Naxçıvan Rayon İcraiyyə Komitəsinin sədri, 1932-1934-cü illərdə isə Naxçıvan MSSR Mərkəzi İcraiyyə Komitəsinin sədr müavini və sədri kimi vəzifələrdə çalışmışdır.

Naxçıvan MSSR Mərkəzi İcraiyyə Komitəsi nəzdində olan qırmızı partizan və qırmızı qvardiya işləri üzrə mərkəzi komissiya Əli Cabbar oğlu Fətullayevin təqdim etdiyi sənədləri nəzərdən keçirərək 28 iyun 1934-cü ildə 13 №-li protokolla Naxçıvan MSSR-in qırmızı partizanı adı verilmişdir.[1]

Əli Fətullayev cəmi 37 il yaşayıb, lakin onun mübarizə və narahatlıqla dolu qısa ömrü çox ibrətamiz olub.

## Hüseynov Cabbar

Mərd mübarizlərdən biri də Hüseynov Cabbar Ramazan oğludur.

Hüseynov Cabbar Ramazan oğlu 1901-ci ildə Ermənistanın Qəmərli rayonunun Novruzlu kəndində yoxsul kəndli ailəsində anadan olmuşdur. Bir sıra hadisələrin şahidi olmuş C.Hüseynov maraqlı bir ömür yaşamışdır.

------------------------

1. Nax. MRDA. f.574. siy.2. iş.110. vər.3-4



Naxçıvanda vəziyyət həddindən artıq ağır idi. Erməni daşnakları hər tərəfdən hücuma keçmişdilər. Odur ki, Hüseynov Cabbar Ramazan oğlu ilk gündən erməni daşnaklarına qarşı təşkil olunmuş qırmızı tabora üzv yazılır. O, Abbasqulu bəy Şadlinskinin taborunda İbrahim Fərzəliyev, Qasım Hüseynov, Hüseyn Əliyevlə birlikdə Naxçıvan, Şərur, Zəngəzur və s. bölgələrin erməni quldurlarından təmizlənməsində fəal iştirak edənlərdən biri olmuş, dəfələrlə düşmənlə əlbəyaxa vuruşda qalib çıxmışdır.

A. Şadlinskinin taboru hər yerdə düşmənə sarsıdıcı zərbələr endirdi. 1921-ci ildə qırmızı tabor öz işini şərəflə yerinə yetirir, "Qırmızı tabor"un döyüşçüləri bir-bir tərxis olunurlar. Cabbar Hüseynov da həmin tərxis olunanlar arasında idi. Qırmızı tabordan tərxis olunduqdan sonra Cabbar Hüseynov Vedi rayonuna qayıdır.

Cabbar Hüseynov Vedidə bir il qaldıqdan sonra Naxçıvana qayıdır və həmişəlik olaraq burada özünə məskən salır.

1923-1942-ci illər ərzində o, adi fəhləlikdən Naxçıvan şəhər kommunal təsərrüfat şöbəsinin müdiri, Naxçıvan MSSR-in kommunal təsərrüfat komisarlığının tikinti idarəsinin rəisi kimi məsul vəzifələrədək yüksəlmişdir.

Qırmızı partizan və qırmızı qvardiya işlərinin mərkəzi komissiyası 14 iyul 1934-cü ildə Hüseynov Cabbar Ramazan oğlunun qırmızı partizan olması haqqında məsələyə baxaraq 10 №-li protokolla Nax. MSSR-in qırmızı partizanı adı verilməsini təsdiq etmişdir.[1]

Hüseynov Cabbar Ramazan oğlu 1978-ci ildə Naxçıvan şəhərində vəfat etmişdir.

-----------------------

1. Nax. MRDA. f.574. siy.2. iş.108. vər.4

## Hüseynov Qasım



Qasım Sadıq oğlu Hüseynov 1898-ci ildə Araz çayının sol sahilində, Ağrı dağın aydın göründüyü münbit, məhsuldar torpağa malik Sədərək kəndində dünyaya göz açmışdır. O, uşaq yaşlarından zəhmətsevər olub, kənd həyatının tələb etdiyi işlərdə çalışmışdır.

Yoxsul ailədə böyüyən Qasım uşaq yaşlarından iqtisadi çətinliklərə və haqsızlıqlara məruz qalır.

Sədərək kənd əhalisinin əksəriyyəti Kaxanovun və Savva Morozovun Arazdəyən təsərrüfatında fəhləlik edirdi.

1918-ci ilin noyabr ayında türk qoşunları geri çəkilən kimi general Doluxonovun qoşunları Sədərək kəndini yarım mühasirəyə alıb Şərura basqın edir. Daşnakların təcavüzkarlıq hərəkətləri Sədərəyin özünümüdafiə qüvvələrini birləşdirdi, düşmən geri oturduldu, kənd mühasirədən azad edildi.

1920-ci ildə daşnak hökuməti daha da quduzlaşır, Böyük Vedi, Sədərəkdən başlayıb, Şahtaxtı, Xokadək ərazini işğal edirlər.

Partizan Qasım Hüseynov öz xatirələrində yazır: "İngilis hərbçiləri ilə əlbir olan daşnak qoşunları böyük qüvvə ilə hücuma keçdi. Daşnak hakimiyyətinin işğalı altında olan Şərur və Dərələyəzə döyüşə getdik. Rind altında daşnak süvariləri ilə döyüşə girdik. 17 nəfər itki verdik. Bizim Sədərək dəstəsindən Əli Qədim oğlu, Məhərrəm Kərbəlayi İsmayıl oğlu, yetim Məhəmməd öldürüldü. Biz yenidən Rind kəndinə girdik".

1921-ci ilin yayında Dərələyəzdən sıxışdırılan daşnaklar İrəvan dövlət bankından xeyli qiymətli vəsait çıxarıb, Zəngəzura çəkilir. Naxçıvandan Gorusa qədər hücum edən hissələrə tapşırılır ki, daşnakların İrana keçməsinə yol verilməsin. Bu məqsədlə Ordubaddan Mehriyə qoşun göndərilir.[1] Demək olar

---

1. A.B.Kadışev. İntervensiya i qrojdanskaə voyna v Zakavkazii. Moskva 1960 q. str. 430.

ki, gənc döyüşçü, vzvod komandiri Qasım Hüseynov bu hərbi əməliyyatların hamısında iştirak edir.

Qırmızı partizan və qırmızı qvardiya işləri üzrə mərkəzi komissiya Qasım Hüseynovun təqdim etdiyi sənədləri nəzərdən keçirərək 25 iyun 1934-cü ildə 12 №-li protokolla ona Naxçıvan MSSR-in qırmızı partizanı adını verir.[1]

Bundan sonra Q.Hüseynov müxtəlif sahələrdə çalışır.

Bu müddətdəki xidmətlərinə görə o, 4 orden və medalla təltif edilir. 1954-cü ildən fərdi təqaüdə çıxan Qasım Hüseynov 1980-cı ildə Sədərək kəndində vəfat etmişdir.

## Hüseynov Kərbəlayı Qasım



O, Vətən və xalq işi uğrunda mübarizə aparmışdır. Xalq və Vətən uğrunda mübarizlər tarix boyu unudulmur.

Kərbəlayı Qasım Hüseynov 1878-ci ildə Naxçıvan rayonunun (Babək) Zeynəddin kəndində, yoxsul kəndli ailəsində anadan olmuşdur.

Birinci rus inqilabı ərəfəsində bütün Azərbaycanda olduğu kimi Naxçıvan ölkəsində də çoxlu kəndli çıxışları baş verirdi. Naxçıvan qəzasının Qaraçuğ, Qaraxanbəyli, Zeynəddin, Keçili, Külüs, Üstüpü, Yaycı və s. kəndlərində çıxışların sayı daha da artmışdı.

Bir xəfiyyə sənədində göstərilir ki, Puşkin küçəsində "Ülfiyyət" (dostluq) adı altında bir çayxana açılır. Buna çayxana deyil, klub desək daha doğru olar. Çünki buraya toplaşanlar monarxiya əleyhinə təbliğat aparandılar.

Çayxanadakı işlər barədə İrəvan quberniyası xəfiyyə idarəsinin rəisi polkovnik Vasilyev tərəfindən Qafqaz canişinliyi dəftərxanasına göndərilən bir məlumatda göstərilir ki, dərnəyin üzvləri öz işlərini yalnız və yalnız şifahi aparır, bütün yazılar və

---

1. Nax. MRDA. f.574. siy.2. iş.105. vər.3-4.

məktublar qəti qadağandır. Bununla bərabər dərnəyin üzvləri bir-birini şərti işarələrlə tanıyırlar, çünki yazının tapılması üzündən onlar hərbi vaxtın qanunu ilə ciddi cəzalandırıla bilərlər.

Məhz bu cəhətdən də "çayxananın" fəaliyyəti çox ciddi polis nəzarəti altına alınır. Çox ciddi polis təqibindən sonra, 1916-cı il dekabrın 19-da təşkilatın üzvlərindən 31 nəfəri həbsə alınır.

Onlar əvvəlcə Naxçıvan, sonra İrəvan quberniya həbsxanasında saxlanırlar. Kərbəlayı Qasım da tutulanlar arasında idi.

Kərbalayı Qasım Hüseynov Məmmədrza bəy Allahverdiyevin Qırmızı partizan dəstəsində Naxçıvan, Şərur, Dərələyəz qəzalarının daşnak qoşunlarından azad edilməsində fəal iştirak etmişdir.

Kərbalayı Qasım Hüseynov "Qırmızı tabor"dan tərxis olunduqdan sonra doğma kəndinə qayıdır.

O, kolxoz təsərrüfatında çalışmışdır. Kərbalayı Qasım 1941-ci ildə Zeynəddin kəndində vəfat etmişdir.

## Həsənov Heydərqulu



Heydərqulu Məşədi Rza oğlu Həsənov 1890-cı ildə Naxçıvan qəzasının Nehrəm kəndində anadan olmuşdur.

Gəncliyi çox çətin dövrə düşür. Heydərqulu Həsənov 1917-ci ildən dəmir yolunda fəhləlik etməklə ağır ehtiyaclar içərisində həyat sürür.

1918-ci ilin fevral-mart aylarında daxili asayiş tamamilə pozulur. Ermənistanda meydana gələn daşnak qoşunları Naxçıvana soxulmağa çalışır. Buna qarşı müqavimət dəstələri, daha doğrusu hər bir kənddə özünümüdafiə qüvvələri təşkil olunur.

Heydərqulu Həsənov öz xatirələrində yazır: "1918-ci ildə Andranik İran Azərbaycanının Urmu, Xoy yolu ilə bütün kəndləri yandıra-yandıra və qırğına verə-verə Culfaya keçdi. Əvvəlcə Nikolay qaçağı Süleymanı (Tivili idi) və onun 30-40 nəfərə qədər adamını silah verməк bəhanəsi ilə öz yanına çağırır və onları

öldürtdürür. Bundan sonra Əlincə çayından başlayaraq Yaycı, Camaldın, Ərəzin, Çeşməbasar, Qızılca, Kırna, Bənəniyar, Saltax, Xanağa, Xoşkeşin, Milax və s. kəndləri dağıtdı, sonra bütün qüvvəsini toplayıb Nehrəm kəndinə hücum etməyə başladı. Nehrəm kəndi üzərinə hücum edəndə təqribən iyun ayı idi.

Nehrəm camaatı Andraniki hazır vəziyyətdə qarşıladı. Bu hazırlıq işlərinə Kəblə Muxtar Hacı Cəfərəlı oğlu Adıgözəlov, Kazım Hacı Allahverdi oğlu, Mirzə Tağı Nağdəliyev başçılıq edirdilər.

Vuruşma iyun ayının 6-da, gün hələ çıxmamış başlandı və gün batana qədər davam etdi. Andranikin qoşunları çoxlu qurban bahasına kəndin qərb tərəfinə soxuldu. Lakin Nehrəm vətənpərvərləri inadla kəndi müdafiə edirdilər. Bu vuruşmadan sonra Andranik Güznüt kəndinə çəkildi. Buradan topları işə salaraq bir neçə evi məhv edir. Vuruşma 5 gün davam edir, 6-cı gün isə türk qoşunları Şahtaxtından Baş-Başıya gələrək, oradan Naxçıvan şəhər qazarmasın top atəşinə tutur və Andranik davam gətirə bilməyib qaçır".

Qırmızı Qvardiya və Qırmızı Partizan işlərinin mərkəzi komissiyası Heydərqulu Həsənovun təqdim etdiyi sənədləri nəzərdən keçirərək 13 iyun 1934-cü ildə ona Naxçıvan MSSR Qırmızı Partizanı adını vermişdir.[1]

Heydərqulu Həsənov 1980-cı ildə Nehrəm kəndində vəfat etmişdir.

## İsayev Abazər

Abazər İsa oğlu İsayev 1878-ci ilin may ayının 5-də Ordubad rayonunun Dırnıs kəndində anadan olmuşdur. Ata və anasını erkən itirən Abazər İsayev 14 yaşından fəhləlik etməyə başlayır. O, 1892-ci ildə Yelizavetopol quberniyasının Zəngəzur qəzasına gedərək mis mədənində qazmaçı işləyir.

Zaqafqaziyada və eləcə də qəzalarda etirazlar güclənirdi. 1907-ci və 1912-ci illərdə Zəngəzurda mis mədənində baş verən tətillərin fəal iştirakçılarından biri olan Abazər İsayev çar xəfiyyə idarəsi tərəfindən üç dəfə həbs edilir və ağır işgəncələrə məruz qalır.

---

1. Nax. MRDA. f.574. siy.2. iş.103. vər.2



1914-cü ilə kimi mis mədənində qazmaçı işləyən Abazər İsayev həyat şəraiti ağır olduğundan həmin il dekabr ayında işdən çıxaraq Naxçıvana gedir və orada dəmir yol deposunda ocaqçı vəzifəsinə daxil olur.[1]

Milli azadlıq hərakatı gənc Abazərə dərin təsir edir.

1917-ci ildə fevral burjua-demokratik inqilabının qələbəsindən sonra Naxçıvan və Culfa şəhərlərində, eləcə də Şahtaxtı stansiyasında fəhlə-kəndli və əsgər vəkilləri sovetləri təşkil edilir. Şahtaxtı fəhlə və əsgər sovetinin rolu və təsir dairəsi getdikcə artır və kəndli kütlələrini də bürüyür.

Naxçıvan şəhərində qırmızı qvardiya dəstəsi təşkil edilir. Həmin dəstənin üzvlərindən biri də Abazər İsayev idi.[2]

Erməni daşnaklarına qarşı mübarizə aparanların ön sıralarında Abazər İsa oğlu İsayevi də görmək olardı. O, xalqın azadlığı uğrunda silaha sarılaraq erməni daşnakları əleyhinə mübarizə aparmış, Şərur, Dərələyəz, Mehri və Qarçivanın düşmənlərdən təmizlənməsində fəal iştirak etmişdir.[3]

Qırmızı qvardiya və Qırmızı partizan işlərinin Mərkəzi komissiyası Abazər İsa oğlu İsayevin təqdim etdiyi bütün sənədləri nəzərdən keçirərək 7 iyul 1934-cü il tarixdə ona Naxçıvan MSSR Qırmızı partizanı adı verilmişdir.[4]

1935-1937-ci illərdə Naxçıvan şəhər əlillər artelinin sədri və 1937-ci ildən 1942-ci ilə kimi Naxçıvan MSSR Xalq İctimai Təminat Komissarı vəzifələrində çalışmışdır.

1942-ci ildə fərdi təqaüdə çıxan Abazər İsayev 1960-cı ildə Naxçıvan şəhərində vəfat etmişdir.

---

1. Nax. MRDA. f.613. siy.2. iş.47. vər.4-5.
2. Yenə orada. f.574. siy.1. iş.14. vər.21-24.
3. Yenə orada. siy. 2. iş.33. vər.3.
4. Yenə orada. vər. 4-5

## İsmayılov Tağı



Tağı Məşədi Mahmud oğlu İsmayılov 1887-ci ildə Şərur rayonunun Çomaxtur kəndində anadan olmuşdur. Kəndin qabaqcıl müəllimlərindən təhsil almış atası Mahmud oğlu Tağını qonşu Yengicə kəndində rus-tatar (azərbaycanlı) məktəbinə göndərir.

Burada Tağıya dərs deyən şəxsiyyəti bizə məlum olmayan bu azadfikirli müəllim yəqin ki, çar məmurlarının təqibindən uzaqlaşıb Yengicədə daldalanmış mütərəqqi fikirli maarifçilərdən biri idi. Belə bir müəllimin yetirməsi olan Tağı sonralar "Qırmızı tabor"un sıralarında vzvod komandiri kimi şöhrət qazandı.

Əsasən naxçıvanlılardan və vedibasarlılardan ibarət olan "Qırmızı tabor"un başlıca məqsədlərindən biri Şəruru daşnaklardan azad etmək idi.

1920-ci ilin avqust-noyabr aylarında gedən gərgin vuruşmalardan sonra Şərur daşnak qoşunlarından azad edildi.

Dərələyəz və Zəngəzur dağlarına çəkilmiş daşnak dəstələri tez-tez hücumları ilə Şərur əhalisini rahat buraxmırdılar. Daşnaklar 1921-ci ilin mart ayında Şərura hücuma başladılar. "Qırmızı tabor"çular 40 kilometirlik cəbhə xəttində düşməni geri oturtmuş və möhkəm əzmişdilər. Daşnakların qalıqları İstisu tərəfə çəkildi. Bu döyüşlərdə böyük qəhrəmanlıq nümunələri göstərmiş Tağı İsmayılov sonralar da müxtəlif sahələrdə əsl fədakarlıq göstərmişdir.

Naxçıvan MSSR Mərkəzi İcraiyyə Komitəsi nəzdnində qırmızı partizan işləri üzrə Mərkəzi Komissiyasının 1 iyun 1934-cü il tarixdə (protokol № 14-lə) Tağı Mahmud oğlu İsmayılova qırmızı partizan adı verilmişdir.1.

Tağı Mahmud oğlu İsmayılov 1954-cü ildə vəfat etmişdir.

---

1. Nax. MRDA. f.574. siy.2. iş.35. vər.4-5

## Kərimova (İsmayılova) Əfruz İsmayıl qızı



Əfruz İsmayıl qızı Kərimova 1897-ci ildə Şərur-Dərələyəz qəzası Şərur nahiyyəsinin Kərimbəyli kəndində anadan olub. O, sabiq Sürməli qəzasının Kərimbəyli kənd əhli, məşhur Məşədi pəhləvanın nəvəsidir.

Məşədi pəhləvanın bir neçə övladı olub. Onlardan biri də Məşədi İsmayıldır.

Məşədi İsmayıl 1917-ci ildə vəfat etdi.

Bu vaxt 20 yaşlı Əfruz Usub Hüseynəli oğlu adında şəxslə evlənir, ondan bir oğlu olur. Lakin çox çəkmədən Usub Hüseynəli oğlu vəfat edir. Ailə başsız qalır.

1918-1920-ci illərdə ailə daha ağır məhrumiyyətlərə rast gəlir. Zaqafqaziya seyminin buraxılması ilə əlaqədar olaraq yerlərdə hərc-mərclik baş verir. Azərbaycan, Ermənistan və Gürcüstan arasında tez-tez toqquşmalar olur. Bu zaman Ermənistan daşnakları eyni zamanda Şərur torpaqlarına basqın edir. Daşnak qoşunlarının basqınları zamanı Şərurun Sədərək, Kərimbəyli, Sərraclı və Dəmirçi kəndlərinə daha ağır zərbələr dəyir. Bu həmsərhəd kəndlər general Dolxanovun, Dronun, Şolkovnikovun, Qara keşiş oğlunun və başqa qarətçilərin qoşunlarının basqınlarından əzab çəkirdilər.

1920-ci ilin iyul ayında daşnak qoşunları güclü bir qüvvə ilə darısqal sahədə Sədərək-Vəli dağ boğazından hücuma keçərək Şərur torpaqlarından əhalini çıxarıb Arazın o tərəfinə, İrana qovur. Mühacirlik həyatı Əfruz İsmayıl qızının da vəziyyətini ağırlaşdırır. İrana qaçanların bir qismi-Kərimbəyli, Sərraclı, Axamət və başqa kənd mühacirləri, o cümlədən Əfruz İsmayıl qızının ailəsi Abbasqulu bəy Şadlinskinin dəstəsinə qoşulur.

1920-ci ilin oktyabr ayında Abbasqulu bəyin dəstəsi Naxçıvana qayıdır. Yaradılan "Qırmızı tabor" Abbasqulu bəyin komandanlığına verilir. Bu dəstədə Əfruz İsmayıl qızı, Ab-

basqulu bəyin arvadı Nazlı xanım və başqa qadınlar böyük fədakarlıq göstərirlər.

"Qırmızı tabor"un qərargahı və yaralılar Zeyvə-Düdəngə kəndində, Hacı Əhmədin evlərində yerləşdirilir. Həmin dəstədən olan köhnə partizan Kərimbəyli kənd əhli İsmayıl Mahmudov Əfruzu xatırlayaraq qeyd edir ki, 1920-ci ildə sərhəd zonalarında keşik çəkirdik. Abbasqulu bəyin qərargahı yerləşmiş Zeyvə-Düdəngə kəndində Əfruzu hərbi formada xidmət edən gördüm. O, yaralı əsgərlərə qulluq etmək, onlara xörək bişirib, paltar yumaqdan başqa, kəşfiyyat işlərinə də gedirdi. Əsgərlərə ilk tibbi yardım göstərmək, xörək bişirmək, paltar yumaq işində Hüseyn bəyin arvadı Gülarə xanım Vəkilova Əfruzun ən yaxın köməkçisi idi.

Bir döyüşdən sonra yaralılar içərisində Ələsgər Kərimov adında əsgər hərbi tibb məntəqəsinə gətirilir. Burada Əfruz şəfqət bacısı kimi böyük qayğı ilə Ələsgərə qulluq göstərir, onun yaralarını sağaldır, nəhayət, hər iki mərd taborçu ailə həyatı qururlar.

Ələsgər Kərimov 1891-ci ildə Şərur-Dərələyəz qəzasının Hortun kəndində anadan olub.

Kərimov oktyabrın sonlarında Abbasqulu bəyin başçılıq etdiyi "Qırmızı tabor"a təyin olunur. Bu zaman Dərələyəz əməliyyatında böyük şücaət göstərir. Daşnak qiyamçıları darmadağın edilir. Dərələyəz əməliyyatı başa çatdırıldıqdan sonra hərbi hissələr, o cümlədən "Qırmızı tabor" Zəngəzurda düşməni susdurmaq üçün yeni istiqamətdə mübarizə aparır. 1921-ci ilin yayında daşnakların üsyanı yatırılır. Zəngəzurda sakitlik bərpa edilir. Hərbi hissələr, o cümlədən "Qırmızı tabor" da buraxılır. Əfruz isə Ələsgərlə dinc təsərrüfat həyatına keçirlər.

Arxiv sənədlərinə əsasən "Partizan Əfruz" adlı ilk məqalə 1962- ci ildə yazılmışdı. Sonra isə Əfruz haqqında poema meydana gəlib. Poema şair Müzəffər Nəsirli tərəfindən yazılıb, Naxçıvan MSSR-in şair və nasirlərinin əsərlərindən ibarət almanaxda dərc olunub.

Vətənin mərd qızı, Əfruz İsmayıl qızı Kərimova 1944-cü ildə 47 yaşında, Şərur rayonunun Keşdaz kəndində vəfat etmişdir.

## Kərimov Ələsgər



Ələsgər Mustafa oğlu Kərimov 1891-ci ildə Şərur-Dərələyəz qəzasının Hortun kəndində yoxsul kəndli ailəsində anadan olmuşdur.

Atasına kömək etmək məqsədilə 24 yaşına çatanda Bakı şəhərinə gedir. Orada Səlimovların neft mədənində fəhlə işləməyə başlayır. Suraxanıda Ələsgər neft fəhlələrinin mübarizə məktəbindən çox şey öyrənir və Bakının keşməkeşli günlərinin şahidi olur.

Naxçıvana gələn Ələsgər Kərimov oktyabrın sonlarında Abbasqulu bəyin başçılıq etdiyi "Qırmızı tabor"a təyin olunur.

1920-ci ilin sentyabr-oktyabr aylarında Şərur-Dərələyəz qəzalarının daşnaklardan təmizlənməsi üçün "Qırmızı tabor" hücuma keçir.

1920-ci ilin payızından 1921-ci ilin yayınadək onlar "Qırmızı tabor"un bütün hərbi əməliyyatlarının fəal iştirakçısı olmuşlar.

Qırmızı qvardiya və qırmızı partizanları yoxlamaq üçün ayrılmış komissiya Ələsgər Kərimovun qızıl ordu və partizan dəstələrində fəal iştirakını nəzərə alaraq onun qırmızı partizan olduğunu təsdiq etmişdir.

1922-ci ildə tabordan azad olunan Ələsgər Kərimov dinc quruculuq işləri ilə məşğul olur.

2 iyul 1930-cu il tarixdə protokol № 1 ilə Ələsgər Kərimova Naxçıvan MSSR-in "Qırmızı partizan"ı adı verilmişdir.[1]

Vətəndaş müharibəsi, partizanlıq həyatı başa çatdıqdan sonra Ələsgər Kərimov təşkilat - təsərrüfat işlərində çalışır. Ələsgər Kərimov 1941-ci ildə Böyük Vətən müharibəsinə getmiş, ağır yaralanmışdır.

I-ci dərəcəli Böyük Vətən Müharibəsi əlili kimi təqaüdə çıxan Ələsgər Kərimov 1971-ci ildə Şərur rayonunun Düdəngə kəndində vəfat etmişdir.

---

1. Nax. MRDA. f.574. siy.2. iş. 1-2. vər.3-4.

## Məmmədəli Mehdiyev



Naxçıvanda erməni daşnaklarına qarşı mübarizə aparan mərd mübarizlərdən biri də Məmmədəli Mehdiyevdir.

Məmmədəli Məmmədqulu oğlu Mehdiyev 1895-ci ildə Naxçıvan qəzasının Aşağı Uzunoba kəndində anadan olmuşdur. O, ilk təhsilini Naxçıvan şəhərindəki rus-tatar (azərbaycanlı) məktəbində almışdır.

1919-cu ildə Məmmədəli daşnaklar tərəfindən tutulur. H.Mehdiyev öz xatirələrində yazır: "Daşnakların əmri ilə bir zabit və bir neçə əsgər gəlib məni həbsxanadan çıxarıb Şıxmahmud kəndinin kənarındakı təpəyə güllələməyə aparırdılar. Yolda onlardan xilas olmağım bir möcüzə idi".[1]

Sonralar M.Mehdiyev A. Şadlinskinin rəhbərliyi ilə təşkil olunmuş "Qırmızı tabor"a üzv yazılır. O, həmyerlisi M.Allahverdiyevin dəstəsində Naxçıvan, Şərur, Dərələyəz qəzalarının daşnak qoşunlarından azad edilməsində fəal iştirak etmişdir.

Qırmızı partizan M.Mehdiyev xatirələrində yazır: "Başbaşıda daşnakların möhkəmlənmiş səngərləri var idi. Onlar İngilis hərbi sursatı ilə təchiz edilmişdilər. Böyük vuruşma başlandı. Daşnaklar inadla müqavimət göstərirdilər, daşnakların müqaviməti qırıldı. Həmin polku bütünlüklə əsir aldıq. Polkun adı "Üçüncü erməni daşnak polku".

Məmmədəli Mehdiyev "Qırmızı tabor"dan tərxis olunduqdan sonra doğma kəndlərinə qayıdır. O, müxtəlif vəzifələrdə işləmişdir.

M. Mehdiyev ədliyyə orqanlarında işləyən zaman əvvəlcə 2 illik qiyabi hüquq məktəbini, sonra isə Azərbaycan Dövlət Universitetinin hüquq fakültəsini bitirmişdir.

---

1. Nax. MRDA. f.574. siy.2. iş.75. vər.9-10.

Qırmızı qvardiya və qırmızı partizan işlərinə baxan Mərkəzi komissiya Məmmədəli Mehdiyevin təqdim etdiyi sənədləri nəzərdən keçirərək 31 may 1934-cü il tarixdə ona "Qırmızı partizan" adını vermişdir.[1]

1954-cü ildən fərdi təqaüdə çıxan M. Mehdiyev 1976-cı ildə Naxçıvan şəhərində vəfat etmişdir.

## Mirheydərzadə Mirbağır



Mirbağır Mirhedərzadə 1877-ci ildə Ordubad rayonunun Nürküt kəndində anadan olmuşdur. Sonralar gənc Mirheydərzadə çətin vəziyyətə görə öz kəndini, ata-baba yurdunu buraxıb Naxçıvan şəhərinə köçməyə məcbur olur.

Atası Mirbağırı din xadimi hazırlamaq məqsədi ilə 1887-ci ildə Naxçıvan şəhər mədrəsəsinə qoyur. Mirbağır 1896-cı ildə həmin mədrəsəni qurtarır, lakin maddi vəziyyət imkan vermədiyindən ali təhsil almağa gedə bilmir. Nəhayət, dərzi Məşədi Məhərrəmin maddi müavinəti və təkidi ilə Mirbağır Təbriz ruhani məktəbinə göndərilir.

1899-cu ildə təhsili başa vuran Mirheydərzadə vətəni Naxçıvana qayıdır. Lakin münasib iş tapa bilmədiyindən Tiflisə gedir. Tiflisin inqilabi əhval-ruhiyyəli adamları ilə tanış olan Mirbağır inqilabçı demokratlara meyl edir. Bunu eşidən Şeyxül-İslam 1904-cü ildə Mirheydərzadəni ruhanilik işindən uzaqlaşdırır.

1907-ci il 28 avqust tarixdə Mirheydərzadə təqsirləndirilərək Metex həbsxanasına salınır. Mirbağıra qarşı düzəldilən xəfiyyə fitnəsi baş tutmur, iki aydan sonra, 2 oktyabrda o həbsdən buraxılır, elə bu zamandan da o, dini fəaliyyətindən əl çəkir.

1918-ci ilin iyul ayında daşnaklar Culfadan keçib Gilançay

---

1. Nax. MRDA. f.574. siy.2. iş.75. vər.4-6.

və Əlincəçay boyu kəndləri talayıb əhalisini dərbədər edərək Naxçıvan şəhərinə gedən yolda Nehrəm kəndinə hücum edirlər. Nehrəmin ağır dəqiqələrində Mirheydərzadə atlara xeyli miqdarda güllə, əl qumbarası yükləyib, gözə görünmədən kəndin müdafiəçilərinə çatdırır və müdafiəçiləri qələbəyə çağırır.

Mirheydərzadənin 1918-1919-cu illərdə İngilis-Amerikan müdaxiləçilərinə qarşı mübarizədə də böyük fəaliyyəti olur.

Naxçıvan sərhədləri boyunca Arpa, Xaçik, Paşalı və Mehriyədək ərazidə qiyamçı daşnakların hücumu, Nijde, Dro və başqalarının Gorus-Qafan-Mehri arasındakı quldur dəstələrinin özbaşınalığı 1921-ci ilin yazından davam edirdi. Belə bir mənzərə Naxçıvanın vəziyyətini daha da ağırlaşdırır, təchizatını çətinləşdirir. Çox çətin şəraitdə fəaliyyət göstərən Mirheydərzadə sonralar bir çox vəzifələrdə çalışır.

19 may 1934-cü ildə 2 №-li protokol ilə erməni daşnaklarına qarşı döyüşlərdə göstərdiyi şücaətə görə ona Naxçıvan MSSR-in qırmızı partizanı adı verilmişdir.[1]

1956-cı ildə 79 yaşında Naxçıvan şəhərində vəfat etmişdir.

## Məmmədov Əliqulu



Məmmədov Əliqulu Cəbrayıl oğlu 1895-ci ildə Naxçıvan qəzasının Nehrəm kəndində anadan olmuşdur. O zaman imkanı olmadığından Əliqulu Məmmədov da mükəmməl təhsil ala bilməmişdi.

Uşaqlıq və ilk gənclik illərini Nehrəmdə keçirən Əliqulu Məmmədov bir çox haqsızlıqların şahidi olur.

1920-ci ilin payızında "Qırmızı tabor"a üzv yazılan Əliqulu Məmmədov qorxmaz komandir A.Şadlinskinin rəhbərliyi altında Naxçıvan, Şərur, Dərələyəzin, Ordubadın, Meğrinin, Karçivanın və s. yerlərin daşnaklardan

---

1. Nax. MRDA. f.574. siy.2. iş.63. vər.3-4.

təmizlənməsində böyük şücaət göstərir, düşmənlərə qarşı apardığı ölüm-dirim mübarizəsindən qalibiyyətlə çıxır. Naxçıvan qəzasının daşnaklardan azad olunmasında göstərdiyi şücaətə görə komandanlıq tərəfindən 5000 manat pul ilə mükafatlandırılır.[1]

Əliqulu Məmmədov "Qırmızı tabor"dan tərxis olunaraq 1925-ci ilə kimi Naxçıvan dəmir yolunda, milis orqanında işləmişdir.

Əliqulu Məmmədov sonralar təsərrüfatda çalışmaq üçün doğma Nehrəm kəndinə gəlir. O 1925-1932-ci illərdə Nehrəm kolxozunun və kənd sovetinin sədri, 1933-1936-cı illərdə Zeynəddin kənd kolxozunun sədri, 1936-1941-ci illərdə Sirab kənd sovetinin sədri və 1941-1950-ci illərdə Güznüt kənd kolxozunun sədri işləmişdir.

28 may 1934-cü il tarixdə protokol №3 ilə ona Naxçıvan MSSR qırmızı partizanı adının verilməsi təsdiq etmişdir.[2]

1950-ci ildə təqaüdə çıxan Əliqulu Məmmədov 1965-ci ildə vəfat etmişdir.

## Məmmədov Cəlal



Atalar sözüdür: "İgid ölər adı qalar". Doğrudan da, elə adamlar var ki, onlar dünyadan köçəndən sonra da yaşayırlar. Ömür-günlərini mənalı keçirdiklərinə görə belələrini nə xalq unudur, nə də tarix.

Cəlal Sadıq oğlu Məmmədov 1901-ci il iyul ayının 7-də Şərur qəzasının Təzəkənd kəndində anadan olmuşdur. Gəncliyi çox çətin dövrə təsadüf edir.

19 yaşlı Cəlal doğma kəndlərindən Naxçıvana gələrkən Abbasqulu bəy Şadlinskinin təşkil etdiyi "Qırmızı tabor"a üzv yazılır. O, gənc yaşlarından silaha sarılaraq

---

1. Nax. MRDA. f.574. siy.2. iş.62. vər.4-5
2. Yenə orada. vər.5.

Abbasqulu bəy Şadlinskinin taborunda və həmyerlisi İbrahim Fərzəliyevin rotasında daşnaklara qarşı mübarizə aparmışdır.

Şərur 1920-ci il dekabr ayının 2-də daşnaklardan təmizləndi. "Qırmızı tabor"a Dərələyəz cəbhəsi tapşırıldı. Bu vuruşmada Cəlal Məmmədov, Ələkbər Sadıqov, Qasım Hüseynov, Nəcəf Əliyev, Zeynalabdin Həsənov, Ələsgər Kərimov və başqaları xüsusi ilə fərqləndilər.

Daşnaklar Dərələyəzdə məğlub olduqdan sonra Qafan-Mehri və Qarçevan istiqamətlərində toplanır. İndi başlıca məsələ Araz kənarını möhkəmləndirib, daşnak qalıqlarının xaricə qaçmasına yol verməmək idi. Bu tapşırığı yerinə yetirmək üçün başqa hissələr kimi Cəlal Məmmədovun xidmət etdiyi dördüncü rotanın əsgərləri də Qarçivan istiqamətinə göndərilir. Burada qızğın döyüşlər gedir, düşmənin qüvvəsi sarsılır, daşnak liderləri xaricə qaçırlar.

Cəlal Məmmədov "Qırmızı tabor"un dördüncü rotasının tərkibində Naxçıvan, Şərur, Dərələyəz, Qəmərli, Meğri, Qarçevan istiqamətlərində daşnaklara qarşı fəal mübarizə apardığından komandanlığın bir neçə dəfə təşəkkürünü və pul mükafatını alır.

Dinc quruculuq illərində Cəlal Məmmədov bir sıra vəzifələrdə çalışır.

1942-ci ildə C.Məmmədov döyüşən orduya çağrılır.

"Şərq qapısı" qəzetinin 2 sentyabr 1943-cü il tarixli nömrəsində 416-cı diviziyanın Sambek yaxınlığında apardığı vuruşma haqqında dərc edilmiş məqalədə yazılmışdı: Sambek yaxınlığında gedən mübarizənin 4 ayı ərzində diviziyanın 56 usta atıcısı 1017 faşist qırdı. Bu usta atıcılar igidlik göstərməkdə bir-biri ilə yarışırdılar. B.Baloğlan Məmmədov 57, Cəlal Məmmədov 48, Mirzə Allahverdiyev 43, İsmayıl Abdullayev 42 faşist məhv etmişdi.[1]

416-cı Taqanroq diviziyası Mozdokdan başlamış Berlinədək böyük bir döyüş yolu keçmişdi. Lakin müharibənin qurtarmasına az qalmış (1944-cü ildə) Cəlal Məmmədov döyüş tapşırığını yerinə yetirərkən qəhrəmancasına həlak olmuşdu.

---

1. "Şərq qapısı" qəzeti, 2 sentyabr 1943-cü il

## Məmmədov Hüseynqulu



Hüseynqulu Abbasqulu oğlu Məmmədov 1892-ci il may ayının 22-də Şərur qəzasının Şahtaxtı kəndində anadan olmuşdur. Kənddə əhalinin güzəranı olduqca ağır idi.

Gənc yaşlarından öz cəsurluğu ilə seçilən Hüseynqulu daşnaklarla mübarizədə əsl qəhrəmanlıqlar göstərmişdir.[1]

Bu əməliyyatlarda iştirak edən Hüseynqulu Məmmədov özünəməxsus fəaliyyət göstərir. Dərələyəz və Zəngəzur mahallarında, Naxçıvanın Tirkeş, Cəhri və Qaraçuğ kəndlərində daşnak qalıqları məhv edilir. "Qırmızı tabor"un üzvləri tərxis olunur. Hüseynqulu Məmmədov da dinc təsərrüfat quruculuğuna keçir.

Qırmızı qvardiya partizan işlərinin mərkəzi komissiyası 3 iyul 1930-cu ildə ona Naxçıvan MSSR Qırmızı partizanı adını vermişdi.

1954-cü ildən təqaüdə çıxan Hüseynqulu Məmmədov 1965-ci ildə Bakı şəhərində vəfat etmişdir.

## Məmmədov Nifti



Nifti Məmməd oğlu Məmmədov 1899-cu ildə Naxçıvan (Babək-Kəngərli) rayonunun Sust kəndində anadan olmuşdur. O, uşaqlıq illərini həmin kənddə keçirmişdi.

Nifti Məmmədov öz xatirələrində yazır: "Mənim 14 yaşım var idi. Ehtiyac içərisində yaşayan ailəmizə az da olsa maddi köməklik lazım gəldiyindən atam məni Naxçıvan şəhərində Nağı adlı bir dərzi yanında şagird qoydu".

---

1. Nax. MRDA. f.574. siy.2. iş.115. vər.2-3

"Qırmızı tabor" yaradılanda Nifti Məmmədov könüllü olaraq tabora üzv yazılır. O, 1920-ci ilin sentyabr ayından 1921-ci ilin mart ayına qədər taborçular sırasında Şərur və başqa yerlərin daşnaklardan azad edilməsində fəal iştirak edir.

"Qırmızı tabor"dan tərxis olunandan sonra o, Naxçıvan (Babək) rayonunun Zeynəddin sahəsində milis işçisi işləyir.

Nifti Məmmədov 1926-cı ildə Bakıda bir illik hüquq məktəbini bitirir və Naxçıvana qayıdaraq Naxçıvan və Şərur rayonlarında xalq məhkəməsinin sədri və Naxçıvan MSSR Ali məhkəməsinin sədri işləmişdir.

Naxçıvan MSSR Mərkəzi İcraiyyə Komitəsi tərəfindən tapança ilə mükafatlandırılmış və 1934-cü ildə Naxçıvan MSSR-in "Qırmızı partizan"ı adı verilmişdir.[1]

Sonralar bir çox rəhbər vəzifələrdə çalışmışdır. O, 1984-cü ildə Naxçıvan şəhərində vəfat etmişdir.

## Mirzəliyev Hacı



Mirzəliyev Hacı Rza oğlu 1894-cü ildə Naxçıvan (Babək) rayonunun Nehrəm kəndində anadan olmuşdur. Hacı Mirzəliyev həmkəndliləri İmamqulu Allahverdiyev, Əliqulu Məmmədov, Heydərqulu Həsənov və başqaları kimi 1918-ci ilin iyununda Andranik Ozanyanın Nehrəm kəndinə hücumu zamanı Kəlbə Muxtar Cəfərzadənin rəhbərlik etdiyi Nehrəm özünümüdafiə dəstəsində vuruşaraq erməni daşnaklarının kəndə girmələrinin qarşısının alınmasında fəal iştirak etmişdir.

Sonralar A.Şadlinskinin rəhbərliyi ilə təşkil olunmuş "Qırmızı tabor"un sıralarına yazılan Hacı Mirzəliyev Naxçıvan, Cəhri, Qaraçuğ, Tırkeş, Bulqan, Ordubad və Əbrəqunusun ermənilərdən təmizlənməsində əsl qəhrəmanlıq göstərmişdir.

---

1. Nax. MRDA. f.574. siy.2. iş.67. vər.3-4

Məhz bu xidmətlərinə görə Hacı Mirzəliyevə 1934-cü ildə Naxçıvan MSSR-in qırmızı partizanı fəxri adı verilmişdir.[1] O nəyə görə və nə uğrunda mübarizə apardığını yaxşı başa düşür və hər yerdə adamları düşmənlərə qarşı mübarizəyə ruhlandırırdı.

1921-ci ilin yayında "Qırmızı tabor"un döyüşçüləri tərxis olunur. Tərxis olunanlar arasında Hacı Mirzəliyev də var idi. O, tabordan tərxis olunduqdan sonra müxtəlif sahələrdə çalışır.

Mirzəliyev Hacı Rza oğlu 1944-cü ilin aprel ayında Nehrəm kəndində vəfat etmişdir.

## Novruzov Novruzəli



Novruzəli Süleyman oğlu Novruzov 1886-cı ildə Naxçıvan qəzasının Cəhri kəndində anadan olmuşdur.

Ağır həyat tərzi keçirənlərdən biri də Novruzəli Novruzov idi.

Daşnak generalı Şelkovnikova və onun əlaltılarına qarşı ümumi hücuma başlamaq üçün hazırlıq işləri aparılır. Duz mədəni, Əznəbürd sahələrindəki dağ keçidlərinin öyrənilməsi bir neçə nəfərin iştirakı ilə Novruzəliyə tapşırılır. O, bu işin öhdəsindən layiqincə gəlir. O, eyni zamanda Şərur, Dərələyəz, Mehri və eləcə də başqa yerlərin daşnaklardan təmizlənməsində fəal iştirak etmişdir.

Novruzəli Novruzov "Qırmızı tabor"dan tərxis edildikdən sonra dinc quruculuq işlərinə başlayır.

Qırmızı partizan işlərinin Mərkəzi komissiyası 7 iyul 1934-cü il tarixdə Novruzov Novruzəli Süleyman oğlunun təqdim etdiyi sənədləri nəzərdən keçirərək ona Naxçıvan MSSR-in Qırmızı partizanı adını vermişdir.[2]

Novruzəli Novruzov 1960-cı ildə vəfat etmişdir.

---

1. Nax. MRDA. f.574. siy.2. iş.72. vər.2-4.
2. Nax. MRDA. f.574. siy.2. iş.79. vər.3-4

## Rüstəmov Əbdüləzim



Rüstəmov Mirzə Əbdüləzim Talıb oğlu 1889-cu ildə Yelizavetpol quberniyasının Zəngəzur qəzasının Şəki kəndində anadan olmuş, ibtidai təhsilini molla məktəbində almışdır. Əbdüləzim hələ kiçik ikən atası Talıb vəfat edir. Müstəqil yaşamaq və təhsilini davam etdirmək imkanı olmayan Əbdüləzim Rüstəmov Naxçıvandakı bacısı Nazlı xanımın əri Qurbanəli Şərifov tərəfindən Naxçıvana gətirilərək 1900-cu ildə buradakı şəhər məktəbinə qəbul etdirilir.

1906-cı ildə Naxçıvan şəhərindəki iki dərəcəli məktəbi qurtaran Əbdüləzim Rüstəmov Qurbanəli Şərifovun köməyi ilə xüsusi müəllimlə çalışaraq ibtidai məktəb müəllimliyi adı almaq üçün imtahan verir. Müəllimlik adı alan Əbdüləzim Rüstəmov qəza maarif müfəttişliyi tərəfindən 1907-ci ildə Cəhri kənd rus-tatar məktəbinə müəllim göndərilir. Beş il Cəhri kənd məktəbində müəllimlik edən Əbdüləzim 1911-ci ildə Ordubad nahiyəsinin Yaycı kənd məktəbinə müdir təyin olunur. Oktyabr ayına kimi burada işlədikdən sonra Əbdüləzim Zəngəzur qəzasında öz doğma yurdu olan Şəki kəndinə dəyişilərək orada birsinifli məktəbdə müəllimlik etmişdir.[1]

Birinci dünya müharibəsindən sonra vəziyyət daha da ağırlaşır. Bu zaman Şəki kənd məktəbi bağlanır. Əbdüləzim müəllim 1918-ci ildə öz qohum-əqrabası ilə Naxçıvan şəhərinə köçür. Mirzə Əbdüləzim yerli idarə tərəfindən Naxçıvan şəhər məktəbinə müəllim təyin edilir, eyni zamanda mühacirlər komitəsində işə götürülür.[2]

Naxçıvan ölkə mühacirlər şurası tərəfindən 1919-cu ildə Əbdüləzim Rüstəmova verilən bir vəsiqədə yazılır: "Möhtərəm

---

1. Nax. MRDA. f.1. siy.4. iş.1446. vər.6-8.
2. Nax. MRDA. f.582. siy.1. iş.102. vər.4.

Əbdüləzim Rüstəmzadə. müəyyən təlimata əsasən siz yerlərdə mühacirlər komitəsi təşkil etmək üçün müvəkkil təyin edilirsiz. Yerli komitələr bir nəfər yerli əhalidən, üçü isə mühacirlərdən seçilirlər. Təşkil olunmuş komitə ilə birlikdə təcili surətdə ehtiyacı olan mühacirlərin siyahısını tutub şuraya təqdim etməlisiniz. Şura vəzifənizi ifa etməyinizə əmin olur".[1]

Mühacirlərin yerləşdirilməsi, təchizatı qarşıda duran çox ciddi məsələ sayılırdı.

Naxçıvan inqilab komitəsinin 1920-ci il 25 sentyabr tarixli iclasında inqilab komitəsinin katibi Mirzə Bağır Əliyev belə bir təklif irəli sürür: "Əbdüləzim Rüstəmov maarif komissarı təyin edilsin və ona tapşırılsın ki, tezliklə məktəbləri açsın".[2]

İnqilab komitəsinin tapşırığını əldə rəhbər tutan Ə. Rüstəmov ciddiyyətlə işə girişir, köhnə müəllimləri hesabata alır, məktəb binalarını nəzərdən keçirir.

Maarif komissarı tərəfindən aparılan yoxlamadan aşkar edilir ki, inqilabdan əvvəl 41 bir-iki sinifli məktəbdə dərs deyən 101 müəllim, təqribən 2000 nəfər məktəblidən, əsasən heç bir əsərəlamət qalmamışdır. Buna görə təcili surətdə qısa müddətli kurslar açıb ibtidai məktəb müəllimi hazırlamaq lazım idi.

Köhnə müəllimlərdən Həsən Qazıyev, Tağıbəy Səfiyev, Həsən Səfərli, Rəhimbəy Kazımbəyov, Həsən Kazımzadə, İbrahim Lətifov, Hüseyn Vəlibəyov, İlyas bəy Mahmudbəyov və başqaları xalq maarifində işə cəlb edilirlər. Mircəfər Mirişli, Lətif Hüseynzadə, Asəf Ağakişiyev, Ramazan Əliyev, Əhməd Rəsulov və başqaları müəllim hazırlayan kursa cəlb edilir.

30-cu illərin faciəsini heç vaxt unutmaq olmaz, 30-40-cı illərdə Azərbaycan xalqının görkəmli oğullarını cismən məhv etmək üçün hər vasitədən istifadə edilir, böhtanlar atılırdı. Naxçıvanın mərd oğullarından A. Əliyarov, Ə. Fətullayev, H. Rəhimov, C. Cəfərov, R. Nəcəfov, Ə. Rüstəmov və bir çox başqalarına böhtanlar atıldı. Bunların bəziləri xalq düşmənləri kimi güllələndi, Sibirə göndərildi, bəziləri isə həbsxanalarda çürüdü. Tutulanlardan tək-tək adam geri qayıtdı. Qayıdanlardan

---

1. Nax. MRDA. f.582. siy.1. iş.102. vər. 1-8.
2. Yenə orada. f.63. siy.1. iş.1. vər.7-8.

biri də Əbdüləzim Rüstəmov idi.

Qarşımızdakı bir sənədə nəzər yetirək. Bu, Əbdüləzim Rüstəmovun həbs olunması haqqında Naxçıvan MSSR Ali Məhkəməsinin 21 dekabr 1941-ci il tarixli 121 №-li hökmüdür.[1]

Hökmdə yazılır: "Azərbaycan SSR-i adından Naxçıvan MSSR Baş Məhkəməsinin iclasında işə baxılaraq məlum oldu ki, Naxçıvan şəhərində yaşayan Rüstəmov Əbdüləzim Talıb oğlu müəllimlər arasında mütamadi olaraq aşağıdakı əksinqilabçı təbliğat aparmışdır:

1. 1936-cı ilin noyabr ayında Əbdüləzim Rüstəmov milli əksinqilabçı təbliğat aparmışdır. Təsdiq olunur işindəki vərəqlər. 26, 28, 32, 47 v. məhkəmə prosesində verilən ifadələr.

2. Əbdüləzim Rüstəmov mütamadi olaraq gənc sovet kadrlarına bilik verən mənbələrə qarşı əksinqilabçı təbliğat aparmışdır. Təsdiq olunur: 26, 29, 32, 51, 53, 54, 57, 59, 60, 64 №-li vərəqələr.

3. Əbdüləzim Rüstəmov 1938-1939-cu illərdə mütamadi olaraq çarizm şəraitində olan yaşayışı təriфləmiş, sovet hökuməti şəraitində olan yaşayışı əksinqilabçı cümlələri ilə pisləmişdir. Bununla birlikdə sovet hökumətinə qarşı həqiqətən əksinqilabi təbliğat aparmışdır. Təsdiq olunur: işindəki 26, 28, 29, 30, 47, 48, 50, 51 və s. vərəqlərlə.

4. Əbdüləzim Rüstəmov 1939-cu ilin yanvarında Sovet dövlətinin müdafiə iqtidarına qarşı əksinqilabçı təbliğat aparmışdır. Təsdiq olunur işindəki 51, 53, 86, 88 və s. vərəqələrlə.

Beləliklə Əbdüləzim Rüstəmovun cinayət hərəkəti sübuta yetirilmiş hesab edilməklə hərəkəti cinayət məcəlləsinin 72-ci maddəsinin 1-ci hissəsinə aid edilir. Bunlara əsasən cinayət məcəlləsinin 316, 317 maddələrini əldə rəhbər tutaraq məhkəmə hökm edir: Rüstəmov Əbdüləzim Talıb oğlu, 54 yaşında, orta-ali savadlı, sənəti müəllim, evli, 8 baş ailəsi, əvvəllər məhkum olunmayıb, bitərəf, 1919-cu ildə ÜİKP sıralarından xaric edilib, milli müsavat komitəsinin üzvü olub, əksinqilabi təbliğat aparması sübut olunduğundan azadlıqdan məhrum edilsin. Azərbaycan SSR cinayət məcəlləsinin 72-ci maddəsinin 1-ci

---

1. Nax. MRDA. f.236. siy. 4. iş.19. vər.1-6

hissəsi ilə 8 (səkkiz) il müddətinə, seçki hüququndan, 36-cı maddə ilə 4 il müddətinə məhrum edilsin.

Cinayət məcəlləsinin 32-ci maddəsinə əsasən həbsdə yatdığı müddət 21 iyun 1941-ci ildən hesab edilsin. Həbs qəti tədbiri qüvvədə saxlanılsın. Hökm qətidir, narazı tərəf 5 günə kimi Azərbaycan SSR Ali Məhkəməsinə şikayət verə bilər.

Ə. Rüstəmov Azərbaycan Ali Məhkəməsinə buna qarşı qaldırılmış düzgün olmayan cinayət işi, eləcə də hökmün ləğv olunması haqqında xahiş ərizəsi yazdı. Bəs nəticəsi? Nəticəsini aşağıdakı sənəddə oxuyuruq: "Azərbaycan SSR üzrə Ali Məhkəməsinin cinayət işləri üzrə məhkəmə komissiyası sədri Aydəmirov, üzvlər: Aydınov, Şəfəzadə, vəkil: Amidi Məryam. 14 fevral 1942-ci il. Məruzəçi: Aydınov qeyd edir ki, Naxçıvan MSSR Baş Məhkəməsinin birinci dərəcəli cinayət işləri üzrə məhkəmə kollegiyası 31 dekabr 1941-ci il bağlı məhkəmə iclasında Rüstəmov Əbdüləzim Talıb oğlunun... Azərbaycan SSR cinayət məcəlləsinin 72-ci maddəsinin 1-ci hissəsi ilə müqəssir hesab olunması haqqındakı cinayət işinə baxaraq Ə. Rüstəmovu Azərbaycan SSR cinayət məcəlləsinin 72-ci maddəsinin 1-ci hissəsi ilə müqəssir bilib onu 8 il müddətinə azadlıqdan və cinayət məcəlləsinin 36-cı maddəsi ilə 4 il müddətinə seçki hüququndan məhrum etmişdir. Müttəhim hökmdən narazı qalıb şikayət ərizəsi verərək hökmün ləğv edilməsini xahiş edib.

Azərbaycan Ali məhkəməsinin cinayət işləri üzrə məhkəmə kollegiyası verilmiş ərizə ilə bağlı cinayət işini yoxlayıb və müəyyən edib ki, müttəhimə istinad edilmiş cinayət üzrə Naxçıvan MSSR Ali Məhkəməsinin hökmü Ə. Rüstəmovun cinayət işindəki sənədlər əsasında düz qurulmuşdur. Hökmün ləğvinə əsas yoxdur.

Yuxarıdakılara əsasən Azərbaycan SSR Ali məhkəməsinin cinayət işləri üzrə məhkəmə kollegiyası qərara alır:

1. Azərbaycan SSR cinayət məcəlləsinin 400, 401 maddələri üzrə Naxçıvan MSSR Ali Məhkəməsinin hökmünü qüvvədə saxlamaq. Şikayəti biəncam buraxmaq".

Sənədlərdən məlum olur ki, Ə. Rüstəmov bir neçə il günahsız həbsxanada yatmışdı. Nəhayət ki, günahsız olduğunu sübut edən Ə. Rüstəmov həbsxanadan azad edilmiş və yenidən ömrünün sonunadək Naxçıvan şəhər məktəblərində müəllimlik etmişdir.

17 iyun 1930-cu il 7 №-li protokol ilə Ə. Rüstəmova Naxçıvan MSSR-in qırmızı partizanı adı verilmişdir.[1]

Əbdüləzim Rüstəmov 1953-cü ildə vəfat etmişdir.

## Sədiyarov Həşim



Sədiyarov Həşim Aslan oğlu 1891-ci ildə İrəvan quberniyasının Böyük-Vedi rayonunun Kolanı kəndində fəhlə ailəsində anadan olmuşdur.

Həşim Sadiyarov 1918-ci ildən 1920-ci ilə qədər Abbasqulu bəy Şadlinskinin rəhbərliyi ilə daşnaklara qarşı amansız mübarizədə iştirak etmişdir.

O, Naxçıvana gəldikdən sonra İbrahim Fərzəliyev, Qasım Hüseynov və Nəcəf Əliyevlə birlikdə Abbasqulu bəy Şadlinskinin rəhbərliyi ilə təşkil olunmuş qırmızı taborun əsgərləri sırasında daşnaklara qarşı mübarizəyə qoşulur. O, Qarabağlar, Əznəbürd, Xok, Şərur və başqa yerlərin düşmənlərdən təmizlənməsində yaxından iştirak edərək, özünü fəal və cəsur döyüşçü kimi göstərir.

İrəvan qəzasının Gecəzur kəndində daşnaklara qarşı döyüşlərdə yaralanır.

Sadiyarov Həşim Aslan oğlu ordudan tərxis olunduqdan sonra yenicə məskən saldığı Nehrəm kəndinə gəlir.

Qırmızı qvardiya və qırmızı partizan işlərinin mərkəzi komissiyası Sədiyarov Həşim Aslan oğlunun təqdim etdiyi sənədləri nəzərdən keçirərək 27 may 1934-cü ildə ona Naxçıvan MSSR-in qırmızı partizanı adı verilməsini təsdiq etmişdir.1. O, 1966-cı ildə vəfat etmişdir.

---

1. Nax. MRDA. f.574. siy.2. iş.2. vər.17-19.

## Salayev Yusif



Yusif Saleh oğlu Salayev 1885-ci ildə Naxçıvan şəhərində yoxsul bir ailədə anadan olmuşdur. Az yaşlarından dəmir yolunda fəhləlik etməyə başlamışdır.

Naxçıvan zəhmətkeşləri bu qədim diyarı daşnaklardan qorumaq üçün könüllü olaraq qırmızı qvardiya, qırmızı partizan dəstələri təşkil edərək düşmənlə döyüşə girirlər.

Yusif Salayevin rəhbərlik etdiyi takımın (dəstə) fəal iştirakçısı, Naxçıvan şəhərində yaşamış mərhum Qasım Tağıyev xatirələrinin birində yazır:

"Naxçıvanı erməni daşnaklarından təmizləmək üçün fəhlə, muzdur və yoxsul kəndli gənclərindən ibarət qırmızı qvardiya yaradıldı. Yusif Salayev, Miseyib Nərimanov, Hümbət Məmmədov, Ələsgər Qəmbərov, Nehrəmli Mirəli Seyidov, Ələsgər Məmmədov, Muxtar Həsənov və başqaları ilə birlikdə mən də Yusifin təşkil etdiyi dəstəyə könüllü olaraq daxil oldum.

1920-ci ilin oktyabr, noyabr aylarında Yusif Salayevin dəstəsi, rota komandiri İbrahim Fərzəliyevin rəhbərliyi ilə Xok-Qarabağlar, Sust istiqamətində daşnaklarla vuruşur.

1922-ci ildə hərbi xidmətdən tərxis olunan Yusif Salayev yenidən dəmir yoluna işə girir. 1930-cu ildən isə şəhər idarələrində müxtəlif işlərdə çalışır.

Qırmızı partizan və qırımızı qvardiya işləri üzrə mərkəzi komissiya Yusif Saleh oğlu Salayevin təqdim etdiyi sənədləri nəzərdən keçirərək 23 sentyabr 1934-cü ildə ona Naxçıvanın qırmızı partizanı adını vermişdir.1. O, 1943-cü ildə Naxçıvan şəhərində vəfat etmişdir.

---

1. Nax. MRDA. f.574. siy.2. iş.91. vər.3-4

## Sadıqov Ələkbər



Mübarizənin alovları içərisində şöhrət qazanmış Ələkbər Sadıq oğlu Sadıqovun da adı xalqımızın mərd oğulları arasında böyük hörmətlə çəkilir.

Ələkbər Sadıq oğlu Sadıqov 1888-ci ildə Şərur qəzasının Sədərək kəndində dünyaya göz açmışdır. Yoxsul kəndli ailəsində böyüyən Ələkbər uşaq yaşlarında iqtisadi çətinliklərlə üzləşir.

Xarici müdaxilə nəticəsində ölkədə hərc-mərclik, talançılıq gücləndi. Vedibasar, Şərur və Zəngibasar ərazilərində qarşıdurmanı aradan qaldırmaq, daşnak quldurlarının qarşısını almaq üçün Vedidə Abbasqulu bəy Şadlinskinin, Şərur qəzasının Sədərək kəndində isə Şahverdi oğlu Həsənin başçılığı altında silahlı partizan dəstələri meydana gəlir ki, həmin dəstədə Ələkbər Sadıqov da vuruşurdu.

1918-ci ilin ortalarında daşnak qoşunları böyük qüvə ilə hücuma keçir. Böyük-Vedidə müvəffəqiyyətsizliyə uğrayan daşnak qoşunları Şərura can atırlar. Şərurda onların ilk qarşısını kəsən Sədərək partizanları olur. Kəndin bütün əhalisi düşmənə qarşı müdafiyəyə qalxır. Özünümüdafiə dəstələri təşkil edilir. Üç gün şiddətli vuruşma gedir. Ələkbərgil özlərindən qat-qat güclü düşmənə qarşı rəşadətlə vuruşsalar da, düşmənin ağır təyziqi altında dağlara çəkilməli olurlar. Düşmənin atlı ordusu kəndə girərək ələ keçən partizanları, o cümlədən kənd özünümüdafiə dəstəsinin rəhbəri olan Şükür Abdulla oğlunu və Rza Zamanovu camaatın gözü qarşısında ağır işgəncələr ilə öldürürlər. Üç gündən sonra Sədərəklilər Şərurun kəndlərindən və Naxçıvandan köməyə gəlmiş partizanlarla birləşib düşmən ordusunu Arazdəyənə qədər qovurlar.

---

1. Nax. MRDA. f.574. siy.2. iş. 87. vər.3-4.

Lakin 1919-cu ildə düşmən yeni qüvvə toplayaraq Şərur-Dərələyəz istiqamətndə hücuma keçir, yerli əhalini Şahtaxtı kəndinə qədər sıxışdırır.

Partizan Qasım Hüseynov həmin illəri xatırlayaraq yazır: "İngilis hərbçiləri ilə əlbir olan daşnak qoşunları böyük qüvvə ilə hücuma keçir. Həsən Şahverdi oğlu başda olmaqla mütəşəkkil surətdə kəndi tərk etdik. İzdihamlı mühacir axını Şahtaxtı kəndində Abbasqulu bəy Şadlinskinin dəstəsi ilə birləşərək İranın Xoy şəhərinə getdik".[1]

1920-ci ilin yayında düşmən hücumu və amansızlığı nəticəsində Vedibasar, Zəngibasar və Şərur kəndlərinin əhalisi öz doğma yurd-yuvalarını tərk etməyə məcbur oldular.

Şərur dekabr ayının 2-də daşnaklardan təmizləndi. "Qırmızı tabor"a Dərələyəz cəbhəsi tapşırıldı. Bu vuruşmada 3-cü rotanın komandiri Ələkbər Sadıqov, Cəlal Məmmədov, Qasım Hüseynov, Nəcəf Əliyev, Zeynalabdin Həsənov, Ələsgər Kərimov və başqaları xüsusi ilə fərqləndilər.

Dərələyəzdə məharətlə vuruşub düşmənin üstün qüvvələrini darmadağın edənlərdən 19 nəfər mübariz döyüşçü mükafatlandırıldı, onların arasında Ələkbər Sadıqov da var idi.[2]

Daşnaklar Qafan-Meğri və Karçevan istiqamətlərində toplanır. İndi başlıca məsələ Araz kənarını möhkəmləndirib, daşnak qalıqlarının xaricə qaçmasına yol verməmək idi. Bu tapşırığı yerinə yetirmək üçün başqa hissələr kimi Ələkbər Sadıqovun başçılıq etdiyi 3-cü rota Karçevan istiqamətinə göndərilir. Burada qızğın döyüşlər gedir. Düşmənin qüvvəsi sarsılır.

Ölkədə sakitlik yarandıqdan sonra 1921-ci ilin axırlarında partizan dəstələri tərxis edilir. Ələkbər Sadıqov "Qırmızı tabor"dan tərxis olunduqdan sonra doğma Sədərək kəndinə qayıdır.

1 iyul 1934-cü il tarixdə Ə.Sadıqova Naxçıvan MSSR-in "Qırmızı partizan"ı adı verilmişdir.[3]

O, 1974-cü ildə vəfat etmişdir.

---

1. Nax. MRDA. f.582. siy.1. iş.48. vər.259.
2. Nax. MRDA. f.582. siy.1. iş.48. vər.253; f.574. siy.2. iş.90. vər.4-5
3. Yenə orada. vər. 3-4.

## Rəsulov Bayram Xamo oğlu



Bayram Xamo oğlu Rəsulov 1899-cu ildə İrəvan quberniyasının Novruzlu kəndində anadan olub. 1919-cu ildə A. Şadlinskinin təşkil etdiyi Vedi taborunda, sonralar "Qırmızı tabor"da vzvod komandiri olmuş, ermənilərə qarşı bir çox döyüşlərdə iştirak etmiş, Dərələyəzin ermənilərdən azad edilməsində yaralanmışdır.

1922-ci ilə kimi qulluq etdikdən sonra ordudan tərxis olunaraq 1922-1934-cü illərdə Naxçıvan şəhər polis şöbəsində işləmişdir.

15 iyun 1934-cü ildə protokol № 4 ilə ona Naxçıvan MSSR-in "Qırmızı partizan"ı adı verilmişdir.[1] 1934-cü ildən sonralar əmək fəaliyyəti və ölümü haqda məlumat yoxdur.

## Abdullayev Mehdi Abbas oğlu



Mehdi Abbas oğlu Abdullayev 1900-cu ildə İrəvan qəzasının Kədrli kəndində anadan olub. 1920-1922-ci illərdə A. Şadlinskinin komandir olduğu "Qırmızı tabor"da, İbrahim Fərzəliyevin rəhbərlik etdiyi takımda ermənilərə qarşı vuruşub. 1922-ci ildən sonra Naxçıvanda, Əliabad kəndində yaşamış və kolxozda işləmişdir.

13 iyun 1934-cü ildə protokol № 9-la ona Naxçıvan MSSR-in "Qırmızı partizanı" adı verilib.[2]

---

1. Nax. MRDA. f.574. siy.2. iş.83. vər.5-6.
2. Yenə orada. iş.82/84. vər.6-7.

## Səfərov Mustafa Xavər oğlu



Mustafa Xavər oğlu Səfərov 1890-cı ildə Vedibasarın Çimən kəndində anadan olub.

1920-1921-ci illər "Qırmızı tabor"da, İbrahim Fərzəliyevin takımında qulluq edib, Naxçıvanın erməni daşnaklarından təmizlənməsində iştirak edib. Milis sistemində işləyib. 1934-cü ildən bu yana məlumat yoxdur.

13 iyun 1934-cü ildə protokol № 9-la ona Naxçıvan MSSR-in "Qırmızı partizanı" adı verilib.[1]

## Allahverdiyev Ərrəhman Mehralı oğlu



Ərrəhman Mehralı oğlu Allahverdiyev 1898-ci ildə Sürməlik qəzasının Mələkli kəndində anadan olub. 1920-ci ildən 1922-ci ilə kimi "Qırmızı tabor"da erməni daşnaklarına qarşı vuruşub. 1922-ci ildə ordudan tərxis olunduqdan sonra bir müddət Naxçıvan Xalq Səhiyyə Komissarlığında, dəmir yolunda və 1929-cu ildən Naxçıvan və Şahbuz Xalq Məhkəmələrində işləmişdir.

25 iyun 1934-cü ildə protokol № 12 ilə ona Naxçıvan MSSR-in "Qırmızı partizanı" adı verilib.[2]

---

1. Nax. MRDA. f.574. siy.2. iş.86/67. vər.5-6
2. Nax. MRDA. f.574. siy 2. iş.3/1. vər.3-4.

## Qəmbərov Teymur Oruc oğlu



Teymur Oruc oğlu Qəmbərov 1897-ci ildə İrəvan Quberniyasının Vedi kəndində anadan olub. A. Şadlinskinin qırmızı taborunda 1920-1921-ci illərdə ermənilərə qarşı vuruşub, 1923-cü ildən Naxçıvan islah əmək evində milis vəzifəsində ömrünün axırına kimi işləmişdir.

Ordudan tərxis olunduqdan sonra Naxçıvanda qalıb, Naxçıvan (Babək) rayonunun Hacıvar kəndində yaşayıb.

7 iyul 1934-cü ildə protokol № 7-ilə ona Naxçıvan MSSR-in "Qırmızı partizanı" adı verilib.[1]

## Əliyev Ağa Əli oğlu



Ağa Əli oğlu Əliyev 1896-cı ildə İrəvan quberniyasının Qəmərli kəndində anadan olub. 1918-ci ildə A. Şadlinskinin Vedi taboruna yazılmış, sonralar 1921-ci il də daxil olmaqla Seyfulla Süleymanovun dəstəsində ermənilərə qarşı vuruşmuşdur. 1921-ci ildə ordudan tərxis olunduqdan sonra Naxçıvan savadsızlar cəmiyyətinin müdiri vəzifəsində işləyib.

28 iyun 1934-cü il tarixdə protokol № 13 ilə ona Naxçıvan MSSR-in "Qırmızı partizanı" adı verilib.[2]

---

1. Nax. MRDA. f.574. siy 2. iş. 25/56. vər.4-5.
2. Nax. MRDA. f.574. siy.2. iş.41. vər.3-4.

## Həsənzadə Adil Qəmərli



Həsənzadə Adil Qəmərli 1897-ci ildə İrəvan quberniyasının Qəmərli kəndində anadan olmuşdur. 1919-1920-ci illərdə A.Şadlinskinin rəhbərlik etdiyi qırmızı partizan dəstəsində (Vedi və Qırmızı taborda) erməni daşnaklarına qarşı vuruşmuşdur. 1930-cu ilə kimi Naxçıvanda, 1930-cu ildən sonra Gəncə və Bakıda müxtəlif təşkilatlarda işləmişdir. 5 iyun 1930-cu il tarixdə 1 №-li protokol ilə ona Naxçıvan MSSR-in qırmızı partizanı adı verilmişdir.[1]

## Abbasov Süleyman Mahmud oğlu



Süleyman Mahmud oğlu Abbasov 1898-ci ildə Şərur (Sədərək) rayonunun Sədərək kəndində anadan olub. 1918-ci ildə Həsən Şahverdiyevin "Sədərək tabor" unda və 1920-1921-ci illərdə A. Şadlinskinin "Qırmızı tabor"unda Çanaxçıdan başlayaraq Dərələyəz və Karçevanın erməni daşnaklarından təmizlənməsində iştirak edib. "Qırmızı tabor"dan tərxis olunandan sonra ömrünün axırına kimi Şərur rayonunda milis (polis) vəzifəsində işləmişdir. 7 iyul 1934-cü ildə 15№-li protokol ilə ona Naxçıvan MSSR-in qırmızı partizanı adı verilmişdir.[2] 1968-ci ilə vəfat etmişdir.

---

1. Nax. MRDA. f.574. siy.2. iş.10. vər.6-8.
2. Nax. MRDA. f.574. siy.2. iş.8/12. vər.3-4.

## Allahverdiyev İmamqulu Xudaverdi oğlu



İmamqulu Xudaverdi oğlu Allahverdiyev 1894-cü ildə Naxçıvan (Babək) rayonunun Nehrəm kəndində anadan olub. 1917-1918-ci illərdə Gəncədə yaşamış və işləmişdir. 1918-ci ilin axırlarında öz doğma kəndi Nehrəmə qayıtmış, həmin ilin iyununda Andranikin Nehrəm kəndinə hücumunun qarşısının alınmasında iştirak etmişdir. "Nehrəm tabor"unun döyüşçüsü kimi, 1920-ci ildə isə A. Şadlinskinin yaratdığı "Qırmızı tabor"un takım komandiri kimi erməni daşnaklarına qarşı vuruşmuşdur. 16 may 1934-cü il 1 №-li protokol ilə ona Naxçıvan MSSR-in qırmızı partizanı adı verilmişdir.[1]

## Seyidov Mirəli Seyidəli oğlu



Mirəli Seyidəli oğlu Seyidov 1895-ci ildə Naxçıvan (Babək) rayonunun Nehrəm kəndində anadan olub. 1920-ci ildən 1922-ci ilin iyul ayına kimi "Qırmızı tabor"da Naxçıvandan Ermənistana qədər ermənilərə qarşı vuruşmuşdur. 25 iyun 1934-cü ildə 12№-li protokol ilə ona Naxçıvan MSSR-in qırmızı partizanı adı verilmişdir.[2]

---

1. Nax. MRDA. f.574. siy.2. iş.7. vər.2-3.
1. Nax. MRDA. f.574. siy.2. iş.92. vər.1-2.

## Məmmədov Yusif Məmməd oğlu



Yusif Məmməd oğlu Məmmədov 1890-cı ildə Naxçıvan şəhərində anadan olmuşdur. 1920-1921-ci illərdə Hüseyn Əliyevin dəstəsində erməni daşnaklarına qarşı vuruşmuşdur. 1921-ci ilin axırlarından hüquq mühafizə orqanlarında, Naxçıvan şəhər Milis idarəsində çalışmışdır. 10 iyun 1934-cü ildə protokl № 8 ilə ona Naxçıvan MSSR-in qırmızı partizanı adı verilmişdir.[1]

## Mirzəxanov Hüseyn Qasım oğlu



Hüseyn Qasım oğlu Mirzəxanov 1900-cu ildə Ermənistanın Vedibasar rayonunun Qaradağlı kəndində anadan olub. 1920-1921-ci illərdə A. Şadlinskinin "Qırmızı tabor"unda erməni daşnaklarına qarşı vuruşub. "Qırmızı tabor"dan tərxis olunduqdan sonra Naxçıvan (Babək) rayonunun Hacıvar kəndində yaşayaraq Naxçıvan milis idarəsində fəaliyyətə başlamış və uzun illər milis işləmişdir. 15 iyun 1934-cü ildə 11 №-li protokol ilə ona Naxçıvan MSSR-in qırmızı partizanı adı verilmişdir.[2]

---

1. Nax. MRDA. f.574. siy.2. iş.76/97. vər.3-4.
2.Nax. MRDA. f.574. siy.2. iş.20/22. vər.6-7.

## Allahverdiyev Allahverdi Əli oğlu



Allahverdi Əli oğlu Allahverdiyev 1988-ci ildə Naxçıvan (Babək) rayonunun Bulqan kəndində anadan olmuşdur. 1920-1921-ci illərdə qırmızı partizan dəstəsində ermənilərə qarşı vuruşmuşdur. 1922-1934-cü illərdə kənd mağaza müdiri, Naxçıvan rayon XDS İcraiyyə Komitəsində təşkilatçı, rayon dövlət sığortasının müdiri, hərbi stolun müdiri işləmişdir. 10 iyun 1934-cü ildə 8№-li protokol ilə ona Naxçıvan MSSR-in qırmızı partizanı adı verilmişdir.[1]

## Allahverdiyev Umud Allahverdi oğlu

Umud Allahverdi oğlu Allahverdiyev 1890-cı ildə Naxçıvan şəhərində anadan olmuşdur. 1920-1921-ci illərdə "Qırmızı tabor"da ermənilərə qarşı vuruşub. Sonralar ömrünün axırına kimi Naxçıvan sənət artelində və kolxozunda işləmişdir. 31 may 1934-cü ildə 5 №-li protokol ilə ona Naxçıvan MSSR-in qırmızı partizanı adı verilmişdir.[2]

## Mehdiyev (Hacıyev) Mehdi Adıgözəl oğlu

Mehdi Adıgözəl oğlu Mehdiyev 1895-ci ildə Karyakin rayonunun Qarakollu kəndində anadan olub. 22 dekabr 1934-cü ildə 17 №-li protokol ilə ona Naxçıvan MSSR-in qırmızı partizanı adı verilmişdir.[3]

---------------------

1. Nax. MRDA. f.574. siy.2. iş.65/64. vər.4-5.
2. Yenə orada. iş.11. vər.5-6.
3. Yenə orada. iş. 5. vər. 2-3.

## Bağırov Yusif Mehdi oğlu



Yusif Mehdi oğlu Bağırov 1890-cı ildə Naxçıvan şəhərində anadan olub. 1919-cu ilin axırlarından başlayaraq ermənilərə qarşı vuruşub. 1920-ci ildə isə "Qırmızı tabor"a yazılaraq Naxçıvandan Şirazlıya qədər gedən döyüşlərdə iştirak edib. 1922-ci ildən isə ömrünün axırına kimi Naxçıvan şəhər kolxozunda işləyib. 23 sentyabr 1934-cü ildə ona Naxçıvan MSSR-in qırmızı partizanı adı verilmişdir.[1]

## Bağırov Allahverdi Qurban oğlu

Allahverdi Qurban oğlu Bağırov 1892-ci ildə Naxçıvan (Babək) rayonunun Nehrəm kəndində anadan olub. 1920-ci ildə qırmızı taborun sıravi döyüşçüsü kimi İmamqulu Allahverdiyevin dəstəsində Naxçıvandan Dərələyəzə qədər döyüşlərdə iştirak edib. 14 iyun 1934-cü ildə 10№-li protokol ilə ona Naxçıvan MSSR-in qırmızı partizanı adı verilmişdir.[2]

## Allahverdiyev Məmmədrza Hüseyn oğlu



Məmmədrza Hüseyn oğlu Allahverdiyev 1878-ci ildə Naxçıvan (Babək) rayonunun Məmmədrza-Dizə kəndində anadan olub. 1920-1921-ci illərdə "Qırmızı tabor"a üzv yazılaraq ermənilərə qarşı vuruşub. 7 iyul 1930-cu ildə 3№-li protokol ilə ona Naxçıvan MSSR-in qırmızı partizanı adı verilmişdir.[3]

---

1. Nax. MRDA. f.574. siy.2. iş.78. vər. 5-6.
2. Yenə orada. iş.21/25. vər.3-4.
3. Yenə orada. iş.1/113. vər.6-7.

## Əliyev Kəlbəlayi Oruc Salman oğlu



Kəlbəlayi Oruc Salman oğlu Əliyev 1867-ci ildə Naxçıvan şəhərində anadan olub. 1919-1921-ci illərdə "Qırmızı tabor"da erməni daşnaklarına qarşı vuruşub. 1921-ci ildə ordudan tərxis olunduqdan sonra ömrünün sonuna kimi Naxçıvan sənət artelində işləyib. 7 iyun 1934-cü ildə 7 №-li protokol ilə ona Naxçıvan MSSR-in qırmızı partizanı adı verilmişdir.[1]

## Cəfərov M.Nəcəf Hüseyn oğlu



M.Nəcəf Hüseyn oğlu Cəfərov 1888-ci ildə Naxçıvan (Babək) rayonunun Təzə kəndində anadan olub. 1920-ci ildən qırmızı taborda, Hüseyn Əliyevin dəstəsində erməni daşnaklarına qarşı vuruşub. Sonralar ömrünün sonuna kimi kolxozda işləyib və 19 may 1934-cü il tarixdə 2 №-li protokolla ona Naxçıvan MSSR-in qırmızı partizanı adı verilib.[2]

---

1. Nax. MRDA. f.574. siy.2. iş.54. vər.2-4.
2. Yenə orada. iş.88. vər.1-3.

## Salmanov Səfər Cabbar oğlu



Səfər Cabbar oğlu Səfərov 1888-ci ildə Naxçıvan şəhərində anadan olub. 1919-1920-ci illərdə qırmızı partizan Hüseyn Əliyevin dəstəsində Naxçıvandan Ermənistana kimi döyüşlərdə iştirak edib. 26 iyun 1934-cü il tarixli 13 №-li protokolla ona Naxçıvan MSSR-in qırmızı partizanı adı verilib.[1]

## Abdullayev Əli Abdulla oğlu

Əli Abdulla oğlu Abdullayev 1876-cı ildə Naxçıvan şəhərində anadan olub. 1920-1921-ci illərdə qırmızı taborda ermənilərə qarşı vuruşub. 6 iyun 1930-cu ildə ona Naxçıvan MSSR-in qırmızı partizanı adı verilmişdir.[2] Ömrünün axırına kimi kolxozda işləyib.

## Abdullayev Əli Rza oğlu



Əli Rza oğlu Abdullayev 1895-ci ildə İrəvan qəzasının Təzə kəndində anadan olub. 1920-1922-ci illərdə İ. Fərzəliyevin dəstəsində Naxçıvandan Ermənistana kimi ərazilərin erməni daşnaklarından təmizlənməsində iştirak edib. 1923-cü ildən milisdə işləyib. Naxçıvan (Babək) rayonunun Tumbul kəndində yaşayıb. 20 iyun 1934-cü ildə protokl № 16 ilə ona Naxçıvan MSSR-in qırmızı partizanı adı verilmişdir.[3]

---

1. Nax. MRDA. f.574. siy.2. iş.89. vər.6-7.
2. Yenə orada. iş.4. vər.3-4.
3. Yenə orada. iş.6. vər.1-2.

## Abbasov Rəcəbəli Abbas oğlu

Rəcəbəli Abbas oğlu Abbasov 1875-ci ildə Naxçıvan şəhərində anadan olub. 1920-1921-ci illərdə qırmızı taborda ermənilərə qarşı vuruşub. 7 iyun 1934-cü il tarixdə 7№-li protokol ilə ona Naxçıvan MSSR-in qırmızı partizanı adı verilmişdir.[2]

## Məmiyev Ziyad Rüstəm oğlu



Ziyad Rüstəm oğlu Məmiyev 1900-cu ildə Zəngəzur qəzasının Qarakilsə kəndində anadan olmuşdur. 1920-1921-ci illərdə Zəngəzur qəzasında, qırmızı partizan dəstəsində erməni daşnaklarına qarşı vuruşmuşdur. 1922-1934-cü illərdə müxtəlif vəzifələrdə işləmişdir. 1 iyul 1934-cü ildə 14 №-li protokol ilə ona Naxçıvan MSSR-in qırmızı partizanı adı verilmişdir.[3]

## Məmmədov Gülməmməd Vəli oğlu



Gülməmməd Vəli oğlu Məmmədov 1898-ci ildə Şərur qəzasının Yaycı kəndində anadan olmuşdur. 1920-1921-ci illərdə "Qırmızı tabor"-da Dərələyəzin erməni daşnaklarından azad edilməsində fəal iştirak etmişdir.

1922-ci ildən 1930-cu ilə kimi Yaycı kənd sovetinin sədri, 1930-cu ildən isə ömrünün axırına kimi Şərur rayon Milis şöbəsində milis (polis) vəzifəsində işləmişdir. 25 iyun

---

1. Nax. MRDA. f.574. siy.2. iş.13. vər.3-4.
2. Yenə orada. iş.73. vər.7-8.

1934-cü ildə12 №-li protokol ilə ona Naxçıvan MSSR-in qırmızı partizanı adı verilmişdir.[1]

## Məmmədov Həbib Süleyman oğlu



Həbib Süleyman oğlu Məmmədov 1898-ci ildə Qozulca kəndində anadan olmuşdur. 1918-ci ildən Şərur rayonunun Mahmud kəndində yaşamışdır. 1920-ci ilə "Qırmızı tabor"un sıralarında ermənilərə qarşı vuruşmuşdur. 7 iyul 1934-cü ildə 15№-li protokol ilə ona Naxçıvan MSSR-in qırmızı partizanı adı verilmişdir.[2]

## Məhərrəmov Məmmədtağı Məhi oğlu



Məmmədtağı Məhi oğlu Məhərrəmov 1895-ci ildə Naxçıvan şəhərində anadan olmuşdur. 1919-cu ildə A. Şadlinskinin rəhbərlik etdiyi "Vedi taboru"nda, 1920-ci ildən isə "Qırmızı tabor"da, Hüseyn Əliyevin dəstəsində bölgələrin erməni daşnaklarından təmizlənməsində iştirak etmişdir. 1932-ci ildə Naxçıvan MSSR Səhiyyə Komissarlığında işləmişdir. 25 may 1934-cü ildə 3 №-li protokol ilə ona Naxçıvan MSSR-in qırmızı partizanı adı verilmişdir.[3]

---

1. Nax. MRDA. f.574. siy.2. iş.61. vər.3-4.
2. Yenə orada. iş.66/81. vər.3-4.
3. Nax. MRDA. f.574. siy.2. iş.69. vər.2-3.

## Mahmudbəyov Cəlal Rza oğlu

Cəlal Rza oğlu Mahmudbəyov 1898-ci ildə Böyük-Vedi kəndində anadan olmuşdur. 1919-1921-ci illərdə A. Şadlinskinin rəhbərlik etdiyi "Vedi taboru" və "Qırmızı tabor"da ermənilərə qarşı döyüşmüş, Şərur-Dərələyəz qəzalarının erməni daşnaklarından azad edilməsində iştirak etmişdir. 5 iyun 1930-cu ildə 1 №-li protokol ilə ona Naxçıvan MSSR-in qırmızı partizanı adı verilmişdir.[1]

## Mahmudov Məhəmməd Qəhrəman oğlu

Məhəmməd Qəhrəman oğlu Mahmudov 1898-ci ildə Şərur rayonunun Şahtaxtı kəndində anadan olmuşdur. 1919-cu ilə kimi Gəncədə olmuş, 1919-cu ildə Naxçıvana qayıtmış və 1920-ci ildə "Qırmızı tabor"da ermənilərə qarşı vuruşmuşdur. 12 may 1934-cü ildə 2-li protokol ilə ona Naxçıvan MSSR-in qırmızı partizanı adı verilmişdir.[2]

## Mustafayev Cəfər Sunqulu oğlu



Cəfər Sunqulu oğlu Mustafayev 1881-c ildə Naxçıvan (Babək) rayonunun Bulqan kəndində anadan olmuşdur. 1920-ci ildə "Qırmızı tabor"da ermənilərə qarşı vuruşmuşdur. 23 iyun 1934-cü ildə 18 №-li protokol ilə ona Naxçıvan MSSR-in qırmızı partizanı adı verilmişdir.[3]

---

1. Nax. MRDA. f.574. siy.2. iş.74. vər.7.
2. Yenə orada. iş.64. vər.3-4.
3. Nax. MRDA. f.574. siy.2 iş.70. vər.4-5.

## Murtuzayev Məmməd Həsən oğlu



Məmməd Həsən oğlu Murtuzayev 1901-ci ildə Naxçıvan (Babək) rayonunun Qparaçuğ kəndində anadan olmuşdur. 1920-1921-ci illərdə "Qırmızı tabor"da, Məmmədrza Allahverdiyevin dəstəsində erməni daşnaklarına qarşı fəal iştirak etmişdir. 15 iyun 1934-cü ildə 11№-li protokol ilə ona Naxçıvan MSSR-in qırmızı partizanı adı verilmişdir.[1]

## Əliyev İsrafil Məmmədbağır oğlu



İsrafil Məmmədbağır oğlu Əliyev 1900-cu ildə Naxçıvan (Babək) rayonunun Bulqan kəndində anadan olmuşdur. 1920-ci ildə "Qırmızı tabor"da erməni daşnaklarına qarşı vuruşmuşdur. 2 iyun 1934-cü ildə 1 №-li protokol ilə ona Naxçıvan MSSR-in qırmızı partizanı adı verilmişdir.[2]

---

1. Nax. MRDA. f.574. siy.2 iş.77. vər. 5-6.
2. Nax. MRDA. f.574. siy.2. iş.40. vər.3-4.

## Əliyev Fərrux Əli oğlu



Fərrux Əli oğlu Əliyev 1898-ci ildə Ordubad rayonunun Düylün kəndində anadan olmuşdur. 1920-ci ildən 1920-ilin axırına kimi "Qırmızı tabor"da bölgələrin erməni daşnaklarından təmizlənməsində fəal iştirak etmişdir. 23 sentyabr 1934-cü ildə 16 №-li protokol ilə ona Naxçıvan MSSR-in qırmızı partizanı adı verilmişdir.[1]

## Əliyev Ağalar Məmmədqulu oğlu

Ağalar Məmmədqulu oğlu Əliyev 1903-cü ildə Naxçıvan (Babək) rayonunun Zeynəddin kəndində anadan olmuşdur. 1920-ci ildən 1921-ci ilin axırına kimi "Qırmızı tabor"da erməni daşnaklarına qarşı vuruşmuşdur. 28 may 1934-cü ildə 4 №-li protokol ilə ona Naxçıvan MSSR-in qırmızı partizanı adı verilmişdir.[2]

## Əliyev Həsən Əlizahid oğlu



Həsən Əlizahid oğlu Əliyev 1899-cu ildə Naxçıvan şəhərində anadan olmuşdur. 1920-1921-ci illərdə "Qırmızı tabor"da erməni daşnaklarına qarşı vuruşmuşdur. Sonralar Naxçıvan Su təsərrüfat idarəsində çalışmışdır. 23 sentyabr 1934-cü ildə 16 №-li protokol ilə ona Naxçıvan MSSR-in qırmızı partizanı adı verilmişdir.[3]

---

1. Nax. MRDA. f.574. siy.2. iş. 42. vər.4-5.
2. Nax. MRDA. f.574. siy.2. iş.48. vər.3-4.
3. Yenə orada. iş.46. vər.3-4.

## Əliyev Məhərrəm Səfər oğlu

Məhərrəm Səfər oğlu Əliyev 1883-cü ildə Şərur (Sədərək) rayonunun Sədərək kəndində anadan olmuşdur. 1920-ci ildən 1921-ci ilin axırına kimi A. Şadlinskinin rəhbərlik etdiyi "Qırmızı tabor"da erməni daşnaklarına qarşı vuruşmuşdur. 1 iyun 1934-cü ildə 14 №-li protokol ilə ona Naxçıvan MSSR-in qırmızı partizanı adı verilmişdir.[1]

## Əliyev Kaso Davud oğlu



Kaso Davud oğlu Əliyev 1898-ci ildə Şərur rayonunun Daşarx kəndində anadan olmuşdur. 1920-1921-ci illərdə "Qırmızı tabor"da erməni daşnaklarına qarşı vuruşmuşdur. 31 may 1934-cü ildə 5 №-li protokol ilə ona Naxçıvan MSSR-in qırmızı partizanı adı verilmişdir.[2]

## Əkbərov Məmmədhəsən Əhməd oğlu



Məmmədhəsən Əhməd oğlu Əkbərov 1894-cü ildə Şərur rayonunun Kərki kəndində anadan olmuşdur. 1920-1921-ci illərdə "Qırmızı tabor"da erməni daşnaklarına qarşı vuruşmuşdur. 7 iyul 1934-cü ildə 15 №-li protokol ilə ona Naxçıvan MSSR-in qırmızı partizanı adı verilmişdir.[3]

---

1. Nax. MRDA. f.574. siy. 2. iş.44. vər.4-5.
2. Nax. MRDA. f.574. siy.2. iş.37. vər.11-12.
3. Nax. MRDA. f.574. siy.2. iş.37. vər.11-12.

## Əkbərov Əbil Qulam oğlu



Əbil Qulam oğlu Əkbərov 1898-ci ildə Naxçıvan şəhərində anadan olmuşdur. 1920-1921-ci illərdə "Qırmızı tabor"da, Hüseyn Əliyevin dəstəsində erməni daşnaklarına qarşı vuruşmuşdur. 10 iyun 1934-cü ildə 8 №-li protokol ilə ona Naxçıvan MSSR-in qırmızı partizanı adı verilmişdir.[1]

## Əhməd Abdulla oğlu



Əhməd Abdulla oğlu 1880-ci ildə Türkiyə Cumhuriyyətinin İstanbul şəhərində anadan olmuşdur. 1918-ci ildə Şərur rayonunun Yengicə kəndinə gələrək orada yaşamışdır. 1918-1920-ci illərdə "Qırmızı tabor"da erməni daşnaklarına qarşı vuruşmuşdur. 7 iyul 1934-cü ildə 15 №-li protokol ilə ona Naxçıvan MSSR-in qırmızı partizanı adı verilmişdir.[2]

## Əliyev Bəhlul Əli oğlu

Bəhlul Əli oğlu Əliyev 1896-cı ildə Naxçıvan şəhərində anadan olmuşdur. 1920-1921-ci illərdə "Qırmızı tabor"da, Hüseyn Əliyevin dəstəsində erməni daşnaklarına qarşı vuruşmuşdur.

---

1. Nax. MRDA. f.574. siy.2. iş.45. vər.3-4.
2. Nax. MRDA. f.574. siy.2. iş.56. vər.5-6.

31 may 1934-cü ildə 5 №-li protokol ilə ona Naxçıvan MSSR-in qırmızı partizanı adı verilmişdir.[1]

## Əliyev Heydər Həsən oğlu



Heydər Həsən oğlu Əliyev 1898-ci ildə Naxçıvan şəhərində anadan olmuş, 1920-1921-ci illərdə "Qırmızı tabor"da, Hüseyn Əliyevin dəstəsində erməni daşnaklarına qarşı vuruşmuşdur. 7 iyun 1934-cü ildə 7 №-li protokol ilə ona Naxçıvan MSSR-in qırmızı partizanı adı verilmişdir.[2]

## Babayev Mahmud Baba oğlu



Mahmud Baba oğlu Babayev 1882-ci ildə Naxçıvan şəhərində anadan olmuşdur. 1920-1921-ci illərdə "Qırmızı tabor"da erməni daşnaklarına qarşı vuruşmuşdur. 7 iyul 1934-cü ildə 15 №-li protokol ilə ona Naxçıvan MSSR-in qırmızı partizanı adı verilmişdir.[3]

---

1. Nax. MRDA. f.574. siy.2. iş.51. vər.2-3.
2. Yenə orada. iş.103. vər.13.
3. Yenə orada. iş.23. vər. 5-6.

### Bağırov Kəlbəlayi Yusif Kəlbəlayi Hüseynqulu oğlu



Kəlbəlayi Yusif Kəlbəlayi Hüseynqulu oğlu Bağırov 1886-cı ildə Naxçıvan (Babək) rayonunun Nehrəm kəndində anadan olmuşdur. 1920-ci ildə "Qırmızı tabor"da erməni daşnaklarına qarşı vuruşmuşdur. 15 iyun 1934-cü ildə 11 №-li protokol ilə ona Naxçıvan MSSR-in qırmızı partizanı adı verilmişdir.[1]

### Bağırov İsgəndər Ələsgər oğlu



İsgəndər Ələsgər oğlu Bağırov 1880-cı ildə Şahbuz rayonunun Qışlaq kəndində anadan olmuşdur. 1920-1921-ci illərdə "Qırmızı tabor"-da Bahadur Vəlibəyovun rəhbərlik etdiyi dəstədə erməni daşnaklarına qarşı vuruşmuşdur. 1921-1930-cü illərdə Şahbuz rayon Milis şöbəsinin rəisi işləmişdir. 16 may 1934-cü ildə 1 №-li protokol ilə ona Naxçıvan MSSR-in qırmızı partizanı adı verilmişdir.[2]

---

1. Nax. MRDA. f.574. siy.2. iş.19. vər.4-5.
2. Yenə orada. iş.18. vər.3-4.

## Qasımov Əbülhəsən Muxtar oğlu



Əbülhəsən Muxtar oğlu Qasımov 1898-ci ildə Şərur rayonunun Sədərək kəndində anadan olmuşdur. 1920-1921-ci illərdə "Qırmızı tabor"da

Sadiqovun rəhbərlik etdiyi dəstədə erməni daşnaklarına qarşı vuruşmuşdur. 16 iyun 1934-ci il də 14 №-li protokol ilə ona Naxçıvan MSSR-in qırmızı partizanı adı verilmişdir.[1]

## Qasımov Məmmədhəsən Məmmədhüseyn oğlu



Məmmədhəsən Məmmədhüseyn oğlu Qasımov 1889-cu ildə Əbrəqunus (Culfa) rayonunun Xoşkeşin kəndində anadan olmuşdur. 1920-1921-ci illərdə "Qırmızı tabor"da, İbrahim Fərzəliyevin dəstəsində erməni daşnaklarına qarşı vuruşmuşdur. 1 iyul 1934-cü ildə 14 №-li protokol ilə ona Naxçıvan MSSR-in qırmızı partizanı adı verilmişdir.[2]

---

1. Nax. MRDA. f.574. siy.2. iş.29. vər.4-5.
2. Yenə orada. iş.26. vər.1-2.

## Qaybalıyev Əziz Məhəmməd oğlu



Əziz Məhəmməd oğlu Qaybalıyev 1893-cü ildə Şərur rayonunun Sədərək kəndində anadan olmuşdur. 1920-1921-ci illərdə "Qırmızı tabor"da İbrahim Fərzəliyevin dəstəsində erməni daşnaklarına qarşı vuruşmuşdur. 1 iyul 1934-cü ildə 14 №-li protokol ilə ona Naxçıvan MSSR-in qırmızı partizanı adı verilmişdir.[1]

## Quliyev Behbud Məmmədqulu oğlu



Behbud Məmmədqulu oğlu Quliyev 1900-cu ildə Naxçıvan (Babək) rayonunun Bulqan kəndində anadan olmuşdur. 1920-1921-ci illərdə erməni daşnaklarına qarşı vuruşmuşdur. 30 iyun 1934-cü il tarixdə 1 №-li protokol ilə ona Naxçıvan MSSR-in qırmızı partizanı adı verilmişdir.[2]

## Qədimov Vəli Nəcəf oğlu

Vəli Nəcəf oğlu Qədimov 1895-ci ildə Şərur rayonunun Sədərək kəndində anadan olub. 1920-1921-ci illərdə "Qırmızı tabor"da erməni daşnaklarına qarşı vuruşmuşdur. Sonrakı illərdə kolxozda işləmişdir. 1 iyul 1934-cü ildə 14 №-li protokol ilə ona Naxçıvan MSSR-in qırmızı partizanı adı verilmişdir.[3]

---

1. Nax. MRDA. f.574. siy.2. iş.27. vər.4-5.
2. Yenə orada. iş.28. vər.2-3.
3. Yenə orada. iş.30. vər.2-4.

## Kərimov Cabbar Mahmud oğlu



Cabbar Mahmud oğlu Kərimov 1891-ci ildə Naxçıvan şəhərində anadan olmuşdur. 1920-1921-ci illərdə "Qırmızı tabor"da erməni daşnaklarına qarşı vuruşmuşdur. 23 sentyabr 1934-ci ildə 16 №-li protokol ilə ona Naxçıvan MSSR-in qırmızı partizanı adı verilmişdir.[1]

## Kəngərli Məmməd Əli oğlu

Məmməd Əli oğlu Kəngərli 1901-ci ildə Naxçıvan şəhərində anadan olmuşdur. 1920-ci ildə "Qırmızı tabor"da erməni daşnaklarına qarşı vuruşmuşdur. 1930-cu ildə 15 №-li şəhadətnamə ilə ona Naxçıvan MSSR-in qırmızı partizanı adı verilmişdir.[2]

## İbrahimov İbrahim İsmayıl oğlu



İbrahim İsmayıl oğlu İbrahimov 1898-ci ildə Naxçıvan (Babək) rayonunun Tumbul kəndində anadan olmuşdur. 1920-1921-ci illərdə erməni daşnaklarına qarşı vuruşmuşdur. 3 iyun 1934-cü il tarixdə 1 №-li protokol ilə ona Naxçıvan MSSR-in qırmızı partizanı adı verilmişdir.[3]

---

1. Nax. MRDA. f.574. siy.2. iş.58. vər.5-7.
2. Yenə orada. iş.60. vər.4.
3. Nax. MRDA. f.574. siy.2. iş.34. vər.1-2.

## İsmayılov Qurban Bayraməli oğlu



Qurban Bayraməli oğlu İsmayılov 1890-cı ildə Naxçıvan (Babək) rayonunun Nehrəm kəndində anadan olmuşdur. 1920-1921-ci illərdə "Qırmızı tabor"da erməni daşnaklarına qarşı vuruşmuşdur. 28 iyun 1934-cü ildə 13 №-li protokol ilə ona Naxçıvan MSSR-in qırmızı partizanı adı verilmişdir.2.

## Orucov Səfəralı Qurbanəli oğlu



Səfəralı Qurbanəli oğlu Orucov 1898-ci ildə Şərur rayonunun Dəmirçi kəndində anadan olmuşdur. 1920-1921-ci illərdə "Qırmızı tabor"da İbrahim Fərzəliyevin dəstəsində erməni daşnaklarına qarşı vuruşmuşdur. 7 iyun 1934-cü ildə 15 №-li protokol ilə ona Naxçıvan MSSR-in qırmızı partizanı adı verilmişdir.[3]

-----------------------

1. Nax. MRDA. f.574. siy.
2. Yenə orada. iş.32. vər.1-3.
3. Yenə orada. iş.81. vər.4-5.

## Həsənov Zeynalabdin Həsən oğlu



Zeynalabdin Həsən oğlu Həsənov 1903-cü ildə Şərur rayonunun Sədərək kəndində anadan olub. 1920-1921-ci illərdə A. Şadlinskinin rəhbərlik etdiyi "Qırmızı tabor"da erməni daşnaklarına qarşı vuruşmuşdur. 1 iyul 1934-cü ildə 14 №-li protokol ilə ona Naxçıvan MSSR-in qırmızı partizanı adı verilmişdir.[1]

## Xəlilov Əkbər Məhəmməd oğlu



Əkbər Məhəmməd oğlu Xəlilov 1892-ci ildə Naxçıvan şəhərində anadan olmuşdur. 1920-1921-ci illərdə "Qırmızı partizan" dəstəsində erməni daşnaklarına qarşı vuruşmuşdur. 13 iyun 1934-il tarixdə 9 №-li protokol ilə ona Naxçıvan MSSR-in qırmızı partizanı adı verilmişdir.[2]

---

1. Nax. MRDA. f.574. siy.2. iş.106. vər.5-6.
2. Yenə orada. iş.97. vər.3-4.

## Xudaverdiyev Hacı İbrahim oğlu



Hacı İbrahim oğlu Xudaverdiyev 1900-cu ildə Naxçıvan şəhərində anadan olmuşdur. 1920-1921-ci illərdə "Qırmızı tabor"da erməni daşnaklarına qarşı vuruşmuşdur. 14 iyun 1934-cu ildə 10 №-li protokol ilə ona Naxçıvan MSSR-in qırmızı partizanı adı verilmişdir.[1]

## Cəfərov Allahverdi Fərəc oğlu



Allahverdi Fərəc oğlu Cəfərov 1900-cu ildə Şərur rayonunun Sədərək kəndində anadan olmuşdur. 1920-1921-ci illərdə "Qırmızı tabor"-da İbrahim Fərzəliyevin dəstəsində erməni daşnaklarına qarşı vuruşmuşdur. Sonralar isə ömrünün axırına kimi kolxozda işləyib. 4 iyun 1934-cü ildə 6 №-li protokol ilə ona Naxçıvan MSSR-in qırmızı partizanı adı verilmişdir.2.

---

1. Nax. MRDA. f.574. siy.2. iş.98. vər.3-6.
2. Yenə orada. iş.109. vər.4-5.

## Tarverdiyev MiseyibTarıverdi oğlu



Miseyib Tarverdi oğlu Tarverdiyev 1890-cü ildə Şərur rayonunun Sədərək kəndində anadan olub. 1920-1921-ci illərdə erməni daşnaklarına qarşı vuruşmuşdur. 1 iyun 1934-cü ildə 14 №-li protokol ilə ona Naxçıvan MSSR-in qırmızı partizanı adı verilmişdir.[1]

## Rəhimov Məmmədəli Rəhim oğlu



Məmmədəli Rəhim oğlu Rəhimov 1880-cü ildə Naxçıvan şəhərində anadan olub. 1917-1920-ci illərdə "Qırmızı partizan" dəstəsində erməni daşnaklarına qarşı vuruşmuşdur. 7 iyun 1934-cü ildə 7 №-li protokol ilə ona Naxçıvan MSSR-in qırmızı partizanı adı verilmişdir.[2]

---------------------

1. Nax. MRDA. f.574. siy.2. iş.99. vər.3-4.
2. Yenə orada. iş.84. vər.3-4.

## Fərəcov Fərəc Abdulla oğlu



Fərəc Abdulla oğlu Fərəcov 1894-cü ildə Şərur rayonunun Düdəngə kəndində anadan olub. 1920-1921-ci illərdə "Qırmızı tabor"da erməni daşnaklarına qarşı vuruşmuşdur. 5 iyun 1930-cu ildə 5 №-li protokol ilə ona Naxçıvan MSSR-in qırmızı partizanı adı verilmişdir.[1]

## Nəcəfov Təhməz Əsəd oğlu

Təhməz Əsəd oğlu Nəcəfov 1902-ci ildə Ordubad rayonunun Üstupü kəndində anadan olub. 1920-ci ildə "Qırmızı tabor"da, Hüseyn Əliyevin dəstəsində erməni daşnaklarına qarşı vuruşmuşdur. 25 iyun 1934-cü ildə 12 №-li protokol ilə ona Naxçıvan MSSR-in qırmızı partizanı adı verilmişdir.[2]

## Şahverdiyev Həsən Vəli oğlu



Həsən Vəli oğlu Şahverdiyev 1883-cü ilə Şərur rayonunun Sədərək kəndində anadan olub. Sədərək özünümüdafiə dəstəsinin rəhbəri kimi 1920-1921-ci illərdə A.Şadlinskinin rəhbərliyi ilə yaranan "Qırmızı tabor"da erməni daşnaklarına qarşı vuruşmuşdur. Naxçıvanın, Şərurun daşnaklardan təmizlənməsində fəal iştirak edib. 23 sentyabr 1934-cü ildə 16 №-li protokol ilə ona Naxçıvan MSSR-in

---

1. Nax. MRDA. f.574. siy.2. iş.95. vər.5-6.
2. Yenə orada. iş.80. vər.3-4.

qırmızı partizanı adı verilmişdir.[1]

## Şirinov Cəfərqulu Məhərrəm oğlu



Cəfərqulu Məhərrəm oğlu Şirinov 1895-ci ildə Naxçıvan (Babək) rayonunun Cəhri kəndində anadan olub. 1920-1921-ci illərdə "Qırmızı tabor"da erməni daşnaklarına qarşı vuruşmuşdur. 28 iyun 1934-cü ildə 13 №-li protokol ilə ona Naxçıvan MSSR-in qırmızı partizanı adı verilmişdir.[2]

## Şeyxov Cabbar Rzaqulu oğlu



Cabbar Rzaqulu oğlu Şeyxov 1890-cı ildə Naxçıvan şəhərində anadan olub. 1920-1921-ci illərdə "Qırmızı tabor"da erməni daşnaklarına qarşı vuruşmuşdur. 7 iyul 1934-cü ildə 15 №-li protokol ilə ona Naxçıvan MSSR-in qırmızı partizanı adı verilmişdir.[3]

---

1. Nax. MRDA. f.574. siy.2. iş.113. vər.2-3.
2. Nax. MRDA. f.574. siy.2. iş.112. vər.5-6.
3. Yenə orada. iş.111. vər.2-3.

## Hüseynov Qasım Abdulla oğlu



Hüseynov Qasım Abdulla oğlu 1898-ci ildə Sədərək kəndində anadan olmuşdur. 1920-1921-ci illərdə A.Şadlinskinin "Qırmızı tabor"unda vzvod komandiri kimi Dərələyəz, Çanaxçı, Mehri, Karçivanın erməni daşnaklarından azad edilməsində yaxından iştirak etmişdir.

1 iyul 1934-cü ildə 14 №-li protokol ilə ona Naxçıvan MSSR-in qırmızı partizanı adı verilmişdir.[1]

---

1. Nax. MRDA. f.574. siy.2. iş.105. vər.3-4.

# QIRMIZI TABORÇULARDAN 1930-CU İLDƏ QIRMIZI PARTİZAN ADI ALANLARIN SİYAHISI

| Adı, soyadı, atasının adı | Rayon, kənd sakini | Ad aldığı gün, ay, il | Protokol |
|---|---|---|---|
| 1. Cəlilov Mövsüm | Şərur, Qıvraq | 2-3 iyun 1930 | Pr №-1 |
| 2. Orucov Məmmədxan Abbasqulu oğlu | Şərur | 2-3 iyun 1930 | Pr №-1 |
| 3. Həsənov İsmayıl Məmməd oğlu | Şərur-Şahtaxtı | 2-3 iyun 1930 | Pr №-1 |
| 4. Quliyev İmamqulu | Babək, Bulqan | 2-3 iyun 1930 | Pr №-1 |
| 5. Quliyev Mehdi | Babək, Bulqan | 2-3 iyun 1930 | Pr №-1 |
| 6. Kazımov Fərman | Babək, Bulqan | 2-3 iyun 1930 | Pr №-1 |
| 7. Babayev Cəfər Kazım oğlu | Naxçıvan şəhəri | 2-3 iyun 1930 | Pr №-1 |
| 8. Əliyev Həbib | Babək, Qaraxanbəyli | 2-3 iyun 1930 | Pr №-1 |
| 9. Sayılov Əsgər | yaşadığı yer göstərilməyib | 2-3 iyun 1930 | Pr №-1 |
| 10. Paşayev Mehdi | Babək, Tumbul | 2-3 iyun 1930 | Pr №-1 |
| 11. Camalov Rza | Babək, Tumbul | 2-3 iyun 1930 | Pr №-1 |
| 12. Əliyev Əliqulu | Naxçıvan şəhəri | 2-3 iyun 1930 | Pr №-1 |
| 13. Cəfərov Hüseyn | Naxçıvan şəhəri | 2-3 iyun 1930 | Pr №-1 |
| 14. Süleymanov İslam | Naxçıvan şəhəri | 2-3 iyun 1930 | Pr №-1 |
| 15. Qəhrəmanov Muxtar | Şərur, Qıvraq | 2-3 iyun 1930 | Pr №-1 |
| 16. Seyidov Qasım | Şərur, Qıvraq | 2-3 iyun 1930 | Pr №-1 |
| 17. Hüseynov Mehdi | Şərur, Qıvraq | 2-3 iyun 1930 | Pr №-1 |
| 18. Əhmədov İsa | Babək, Bulqan | 2-3 iyun 1930 | Pr №-1 |
| 19. Süleymanov Cəfərqulu | Naxçıvan | 2-3 iyun 1930 | Pr №-1 |
| 20. Quliyev Musa | Naxçıvan şəhəri | 2-3 iyun 1930 | Pr №-1 |
| 21. Məmmədov Feyzulla | Şərur, Qıvraq şəhəri | 2-3 iyun 1930 | Pr №-1 |
| 22. Əliyev Əmirqulu Yusif oğlu | Naxçıvan şəhəri | 2-3 iyun 1930 | Pr №-1 |
| 23. Mahmudov İsgəndər | Naxçıvan şəhəri | 2-3 iyun 1930 | Pr №-1 |
| 24. Bayramov Abazər | Naxçıvan şəhəri | 2-3 iyun 1930 | Pr №-1 |
| 25. Məmmədov Novruz | Şərur, Düdəngə | 4-5 iyun 1930 | Pr №-2 |
| 26. Məmmədov Zal | Şərur, Düdəngə | 4-5 iyun 1930 | Pr №-2 |
| 27. Həmzə Məmmədrza oğlu | Şərur, Düdəngə | 4-5 iyun 1930 | Pr №-2 |
| 28. Zülfəli Ələsgər oğlu | Şərur, Düdəngə | 4-5 iyun 1930 | Pr №-2 |
| 29. Aloş Abbas oğlu | Ordubad, Parağa | 4-5 iyun 1930 | Pr №-2 |
| 30. Əli Kərbəlayi Hüseyn oğlu | Şərur, Zeyvə | 4-5 iyun 1930 | Pr №-2 |
| 31. Məşədi Məmməd Kərbəlayi Zöhrab oğlu | Şərur, Düdəngə | 4-5 iyun 1930 | Pr №-2 |

| | | | |
|---|---|---|---|
| 32. Cavad Məmməd oğlu | Şərur, Düdəngə | 4-5 iyun 1930 | Pr №-2 |
| 33. Müseyib Kərbəlayi Cəfər oğ | Şərur, Zeyvə | 4-5 iyun 1930 | Pr №-2 |
| 34. Musa Əbdül oğlu | Şərur, Düdəngə | 4-5 iyun 1930 | Pr №-2 |
| 35. İbrahimxəlil Şeyxəli oğlu | Şərur, Düdəngə | 4-5 iyun 1930 | Pr №-2 |
| 36. Nəcəfəli Kərbəlayi Abbas oğ | Şərur, Zeyvə | 4-5 iyun 1930 | Pr №-2 |
| 37. Əli Cəlal oğlu | Şərur, Düdəngə | 4-5 iyun 1930 | Pr №-2 |
| 38. Məşədi Səfər Qafar oğlu | Şərur, Düdəngə | 4-5 iyun 1930 | Pr №-2 |
| 39. Qaziyev Həsən Əhməd oğ. | Şərur-Şahmaxu | 4-5 iyun 1930 | Pr №-2 |
| 40. Nəcəf Allahverdi oğlu ölümündən sonra | Şərur, Zeyvə | 4-5 iyun 1930 | Pr №-2 |
| 41. Mahmudov Həsən ölümündən sonra | Baş Noraşen | 4-5 iyun 1930 | Pr №-2 |
| 42. Salman Nağı oğlu ölümündən sonra | Şərur-Sarxanlı | 4-5 iyun 1930 | Pr №-2 |
| 43. Mehbalı Mahmudov | Şərur, Mahmudkənd | 4-5 iyun 1930 | Pr №-2 |
| 44. Əsgərov Mir Həmzə | Şərur, Baş Noraşen | 4-5 iyun 1930 | Pr №-2 |
| 45. Abbasov Qəmbər | Ulya Noraşen | 4-5 iyun 1930 | Pr №-2 |
| 46. Qəmbər Məmməd oğlu | Ulya Noraşen | 4-5 iyun 1930 | Pr №-2 |
| 47 Xəlil İbrahim oğlu | Şərur, Zeyvə | 4-5 iyun 1930 | Pr №-2 |
| 48. Bəxtiyar Məmmədbağır oğ | Şərur, Düdəngə | 4-5 iyun 1930 | Pr №-2 |
| 49. Əyyub Mahmud oğlu | Şərur, Düdəngə | 4-5 iyun 1930 | Pr №-2 |
| 50. Aslan Musa oğlu | Şərur | 4-5 iyun 1930 | Pr №-2 |
| 51. Fərəc Əsədulla oğlu | Şərur, Düdəngə | 4-5 iyun 1930 | Pr №-2 |
| 52. Əliəşrəf Sərxanbəyli | Şərur, Zeyvə | 4-5 iyun 1930 | Pr №-2 |
| 53. Əsədulla Fərəc oğlu | Şərur, Düdəngə | 4-5 iyun 1930 | Pr №-2 |
| 54. Əli Qədimov | Şərur, Sədərək | 4-5 iyun 1930 | Pr №-2 |
| 55. İbrahim Əliməmməd oğlu | Şərur, Qıvraq | 4-5 iyun 1930 | Pr №-2 |
| 56. Məhərrəm Kərbəlayi İsmayıl oğlu | Şərur, Sədərək | 4-5 iyun 1930 | Pr №-2 |
| 57. Xəlil Kərbəlayi oğlu | Şərur, Sədərək | 4-5 iyun 1930 | Pr №-2 |
| 58. Cəlal Mir İsmayıl oğlu | Şərur, Sədərək | 4-5 iyun 1930 | Pr №-2 |
| 59. Abbas Kərbəlayi Məmməd oğlu | Şərur, Sədərək | 4-5 iyun 1930 | Pr №-2 |
| 60. Məmməd Əbdül oğlu | Şərur, Sədərək | 4-5 iyun 1930 | Pr №-2. |
| 61. Süleyman Yarəli oğlu | Şərur, Sədərək | 4-5 iyun 1930 | Pr №-2 |
| 62. Ağahüseyn Kərbəlayi Ələkbər oğlu | Şərur, Sədərək | 4-5 iyun 1930 | Pr №-2 |
| 63. Əli Həsən oğlu | Şərur, Qıvraq | 4-5 iyun 1930 | Pr №-2 |
| 64. Süleyman Salman oğlu | Şərur, Qıvraq | 4-5 iyun 1930 | Pr №-2 |
| 65. Dadaş Cavad oğlu | Şərur, Qıvraq | 4-5 iyun 1930 | Pr №-2 |
| 66. Yaqub Cavad oğlu | Şərur, Qıvraq | 4-5 iyun 1930 | Pr №-2 |
| 67. Tağı Mahmud oğlu | Şərur, Qıvraq | 4-5 iyun 1930 | Pr №-2 |
| 68. Həsənəli Cavad oğlu | Şərur, Qıvraq | 4-5 iyun 1930 | Pr №-2 |

| | | | |
|---|---|---|---|
| 69. Allahqulu Əsəd oğlu | Şərur, Qıvraq | 4-5 iyun 1930 | Pr №-2 |
| 70. Əhməd Mir Nifəli oğlu | Şərur, Qıvraq | 4-5 iyun 1930 | Pr №-2 |
| 71. Əziz Qəmbərəli oğlu | Şərur, Sədərək | 4-5 iyun 1930 | Pr №-2 |
| 72. Həsənov Zeynalabdin | Şərur, Sədərək | 4-5 iyun 1930 | Pr №-2 |
| 73. Cahangir Mir Ağalar oğ. | Şərur, Qıvraq | 4-5 iyun 1930 | Pr №-2 |
| 74. Mustafa Kərbəlayi Abdulla oğlu | Şərur, Qıvraq | 4-5 iyun 1930 | Pr №-2 |
| 75. İmaməli Kərbəlayi Abbas oğlu | Şərur, Qıvraq | 4-5 iyun 1930 | Pr №-2 |
| 76. Hüseyn Abbas oğlu | Şərur, Qıvraq | 4-5 iyun 1930 | Pr №-2 |
| 77. Abbas Məmməd oğlu | Şərur, Qıvraq | 4-5 iyun 1930 | Pr №-2 |
| 78. Hüseyn Nəsrulla oğlu | Şərur, Dərvişlər | 4-5 iyun 1930 | Pr №-2 |
| 79. Rəsulov Budaq | Şərur, Şahtaxtı | 4-5 iyun 1930 | Pr №-2 |
| 80. Rüstəmov Hüseyn | Şərur (Kəngərli), Şaxtaxtı | 4-5 iyun 1930 | Pr №-2 |
| 81. İsrafil Abdulla oğlu | Şərur (Kəngərli), Şahtaxtı | 4-5 iyun 1930 | Pr №-2 |
| 82. Qazıyev Abdulla | Şərur (Kəngərli), Şahtaxtı | 4-5 iyun 1930 | Pr №-2 |
| 83. Mahmudbəyov Cəlal | Şərur | 4-5 iyun 1930 | Pr №-2 |
| 84. Ramazanov Qasım | Şərur, Çərçiboğan | 4-5 iyun 1930 | Pr №-2 |
| 85. Mahmudbəyov Fərrux | Babək, Tumbul | 7 iyun 1930 | Pr №-3 |
| 86. Nərimanbəyov Müseyib | Naxçıvan şəhəri | 7 iyun 1930 | Pr №-3 |
| 87. Rzayev İsmayıl | Vedibasar | 7 iyun 1930 | Pr №-3 |
| 88. Rəsulov Bayram | Naxçıvan şəhəri | 7 iyun 1930 | Pr №-3 |
| 89. Nağıyev Həzrətqulu | Naxçıvan şəhəri | 7 iyun 1930 | Pr №-3 |
| 90. Abdullayev Xanlar | Vedibasar | 7 iyun 1930 | Pr №-3 |
| 91. Salmanov Cabbar | Naxçıvan şəhəri | 7 iyun 1930 | Pr №-3 |
| 92. Cəfərov Əhməd | Şərur, Sədərək | 7 iyun 1930 | Pr №-3 |
| 93. Nağıyev Mirzə | Babək, Bulqan | 7 iyun 1930 | Pr №-3 |
| 94. Mehdiyev Muxtar Kazım oğ. | Babək, Nehrəm | 7 iyun 1930 | Pr №-3 |
| 95. Baxşəliyev Səbzəm Əlioğ. | Babək, Zeynəddin | 7 iyun 1930 | Pr №-3 |
| 96. Hüseynov Məmmədbağır | Babək, Vayxır | 7 iyun 1930 | Pr №-3 |
| 97. Rəsulov Rəsul Muxtar oğ. | Babək, Bulqan | 7 iyun 1930 | Pr №-3 |
| 98. Əliyev Mehdiqulu | Babək, Zeynəddin | 7 iyun 1930 | Pr №-3 |
| 99. Məhəmməd Əhməd oğlu | Şərur (Kəngərli), Şahtaxtı | 7 iyun 1930 | Pr №-3 |
| 100. Hüseynov Əbil Abbas oğ. | Şərur (Kəngərli), Qıvraq | 7 iyun 1930 | Pr №-3 |
| 101. Hacıyev Qəhrəman Həmzə oğ. | Babək, Hacıvar | 7 iyun 1930 | Pr №-3 |
| 102. Xudaverdiyev Xudaverdi | Şərur (Kəngərli), Qıvraq | 7 iyun 1930 | Pr №-3 |

| | | | |
|---|---|---|---|
| 103. Cavadov Əmir Paşa oğ. | Şərur, Parçı | 7 iyun 1930 | Pr №-3 |
| 104. Muradov Cəlal Əkbər oğ. | Şərur | 7 iyun 1930 | Pr №-3 |
| 105. Əkbərov Əkbər | Şərur, Parçı | 7 iyun 1930 | Pr №-3 |
| 106. Qəhrəmanov Heydər | Şərur (Kəngərli), Qıvraq | 7 iyun 1930 | Pr №-3 |
| 107. Əsgərov İsmayıl | Babək, Təzəkənd | 7 iyun 1930 | Pr №-3 |
| 108. Həmzəzadə Şamil | Şərur (Kəngərli), Qıvraq | 7 iyun 1930 | Pr №-3 |
| 109. Əliyev Qurban Əli oğlu | Şərur, Keçməs | 7 iyun 1930 | Pr №-3 |
| 110. Rzayev Xəlil | Babək, Cəhri | 7 iyun 1930 | Pr №-3 |
| 111. Salmanov Nəcəf | Şərur, Xanlıqlar | 7 iyun 1930 | Pr №-3 |
| 112. Məhərrəmov Muqa Məhərrəm | yaşadığı yer göstərilməyib | 7 iyun 1930 | Pr №-3 |
| 113. Əfəndiyev Hacı | Babək, Şıxmahmud | 7 iyun 1930 | Pr №-3 |
| 114. Allahverdiyev Nuru | Babək, Nərimanabad | 7 iyun 1930 | Pr №-3 |
| 115. Abbas Tağı oğlu | Babək, Sirab | 7 iyun 1930 | Pr №-3 |
| 116. Musa Məmmədhüseyn oğ. | Babək, Sirab | 7 iyun 1930 | Pr №-3 |
| 117. Abbas Rzaqulu oğlu | Babək, Nərimanabad | 7 iyun 1930 | Pr №-3 |
| 118. Novruzəli İsmayıl oğlu | Babək, Nərimanabad | 7 iyun 1930 | Pr №-3 |
| 119. Rəhim Məmmədəli oğlu | Babək, Nərimanabad | 7 iyun 1930 | Pr №-3 |
| 120. Həmzə Hüseyn oğlu | Babək, Qaraqala | 7 iyun 1930 | Pr №-3 |
| 121. İsa Həzi oğlu | Babək, Qaraqala | 7 iyun 1930 | Pr №-3 |
| 122. Həbib İsmayıl oğlu | Babək, Qaraqala | 7 iyun 1930 | Pr №-3 |
| 123. Rzaqulu Novruz oğlu | Babək, Kültəpə | 7 iyun 1930 | Pr №-3 |
| 124. Bayraməli Abbas oğlu | Babək, Məzrə | 7 iyun 1930 | Pr №-3 |
| 125. Nuftalızadə Hüseyn | Naxçıvan şəhəri | 7 iyun 1930 | Pr №-3 |
| 126. İman Baxşəli oğlu | Babək, Təzəkənd | 7 iyun 1930 | Pr №-3 |
| 127. Heydər Əhməd oğlu | Babək, Təzəkənd | 7 iyun 1930 | Pr №-3 |
| 128. Şeyxəli Nəcəf oğlu | Babək, Təzəkənd | 7 iyun 1930 | Pr №-3 |
| 129. Tağı Zeynalabdin oğlu | Babək, Təzəkənd | 7 iyun 1930 | Pr №-3 |
| 130. Salman Musa oğlu | Şərur, Şahtaxtı | 7 iyun 1930 | Pr №-3 |
| 131. Seyidov Mirmuxtar Mustafa oğlu | Şərur, Şahtaxtı | 7 iyun 1930 | Pr №-3 |
| 132. Həbib Əşrəf oğlu | Babək, Vayxır | 7 iyun 1930 | Pr №-3 |
| 133. Cəlal Səfərəli oğlu | Şərur (Kəngərli), Keşdaz | 7 iyun 1930 | Pr №-3 |
| 134. Camalov Tağı | Şərur (Kəngərli), Qıvraq | 7 iyun 1930 | Pr №-3 |
| 135. Yunis Rəcəb oğlu | Naxçıvan şəhəri | 7 iyun 1930 | Pr №-3 |
| 136. Hüseyn Tarıverdi oğlu | Naxçıvan şəhəri | 7 iyun 1930 | Pr №-3 |
| 137. Hüseyn Həbib oğlu | Şərur, Sədərək | 7 iyun 1930 | Pr №-3 |
| 138. Həbib Kərbəlayi İsmayıl oğlu | Şərur, Sədərək | 7 iyun 1930 | Pr №-3 |

| | | | |
|---|---|---|---|
| 139. Qasımov Əbülhəsən | Şərur, Sədərək | 10 iyun 1930 | Pr №-4 |
| 140. Məhəmməd Kərbəlayi Abdulla oğlu | Şərur, Sədərək | 10 iyun 1930 | Pr №-4 |
| 141. Ələsgər Kərbəlayi İbrahim oğlu | Şərur, Sədərək | 10 iyun 1930 | Pr №-4 |
| 142. Nəcəfov Panah | Şərur, Sədərək | 10 iyun 1930 | Pr №-4 |
| 143. Məstəliyev Qasım | Şərur, Sədərək | 10 iyun 1930 | Pr №-4 |
| 144. Oruc Cəlal oğlu | Şərur, Sədərək | 10 iyun 1930 | Pr №-4 |
| 145. Səfərəliyev Məhərrəm | Şərur, Sədərək | 10 iyun 1930 | Pr №-4 |
| 146. Ələkbərov Süleyman | Naxçıvan şəhəri | 10 iyun 1930 | Pr №-4 |
| 147. Məhəmməd Cavad oğlu | Şərur, Axaməd | 10 iyun 1930 | Pr №-4 |
| 148. Rüstəm Şeyxəli oğlu | Babək, Sirab | 10 iyun 1930 | Pr №-4 |
| 149. Cümşüd Qulam oğlu | Babək, Qaraqala | 12 iyun 1930 | Pr №-5 |
| 150. Rüstəm Qafar oğlu | Babək, Qaraqala | 10 iyun 1930 | Pr №-4 |
| 151. Mehdi Rəhim oğlu | Babək, Qaraqala | 12 iyun 1930 | Pr №-5 |
| 152. Xudat Əkbər oğlu | Şərur, Tumaslı | 12 iyun 1930 | Pr №-5 |
| 153. Mehdiyev Kərim | Babək, Sirab | 12 iyun 1930 | Pr №-5 |
| 154. Babayev Adəm | Naxçıvan şəhəri | 12 iyun 1930 | Pr №-5 |
| 155. Bağırov Kərbəlayi Yusif | Babək, Qaraqala | 12 iyun 1930 | Pr №-5 |
| 156. Musayev Ağa | Babək, Kültəpə | 12 iyun 1930 | Pr №-5 |
| 157. Cəfərov İsmayıl | Babək, Qaraqala | 12 iyun 1930 | Pr №-5 |
| 158. Rəhim Məmməd oğlu | Babək, Məzrə | 12 iyun 1930 | Pr №-5 |
| 159. Məmmədov Rza Həsən oğ. | Naxçıvan şəhəri | 12 iyun 1930 | Pr №-5 |
| 160. Kərbəlayi Musa Fətulla oğ. | Şərur (Kəngərli) | 14 iyun 1930 | Pr №-6 |
| 161. Həsən Ələkbər oğlu | Şərur (Kəngərli) | 14 iyun 1930 | Pr №-6 |
| 162. Tağı Məmməd oğlu | Babək, Qaraqala | 14 iyun 1930 | Pr №-6 |
| 163. Məhəmməd İsgəndər oğ. | Şərur (Kəngərli) | 14 iyun 1930 | Pr №-6 |
| 164. Həsənəli Əkbər oğlu | Şərur, Vərməziyar | 14 iyun 1930 | Pr №-6 |
| 165. Qurban Ələkbər oğlu | Şərur, Vərməziyar | 14 iyun 1930 | Pr №-6 |
| 166. Məşədi Əli | Şərur (Kəngərli), | 14 iyun 1930 | Pr №-6 |
| Məmmədrağı oğlu | Qıvraq | 14 iyun 1930 | Pr №-6 |
| 167. Cəfər Həbib oğlu | Şərur, Xok | | |
| 168. Məhərrəmov Məmmədrağı | Naxçıvan şəhəri | 14 iyun 1930 | Pr №-6 |
| 169. Ələkbər Hacı Həsən oğ. | Şərur, Sədərək | 14 iyun 1930 | Pr №-6 |
| 170. Vəli Qədim oğlu | Şərur, Sədərək | 17 iyun 1930 | Pr №-7 |
| 171. Ələsgər Mir Sadıx oğlu | Şərur, Sədərək | 17 iyun 1930 | Pr №-7 |
| 172. Səfərəli Orucəli oğlu | Şərur, Sədərək | 17 iyun 1930 | Pr №-7 |
| 173. Həsən Kərbəlayi İbrahim oğlu | Şərur, Dəmirçi | 17 iyun 1930 | Pr №-7 |
| 174. Qəmbər Məhəmməd oğ. | Ulya Norəşən | 17 iyun 1930 | Pr №-7 |
| 175. Məmməd Sadıx Kazım oğ. | Babək, Uzunoba | 17 iyun 1930 | Pr №-7 |
| 176. Abdulla Gülməmməd oğ. | Babək, Cəhri | 17 iyun 1930 | Pr №-7 |
| 177. Kərbəlayi Kərim Ağalar oğ. | Babək, Qahab | 17 iyun 1930 | Pr №-7 |

| | | | |
|---|---|---|---|
| 178. Mirzəli Pirqulu oğlu | Babək, Cəhri | 17 iyun 1930 | Pr №-7 |
| 179. Kərbəlayi Baxşəli Tağı oğ. | Babək, Sirab | 17 iyun 1930 | Pr №-7 |
| 180. Allahverdiyev Qoca | Babək, Alagöz, Məzrə | 17 iyun 1930 | Pr №-7 |
| | | 17 iyun 1930 | Pr №-7 |
| 181. Kərbəlayi Fərəli xan İbrahim oğlu | Nərimanabad | 17 iyun 1930 | Pr №-7 |
| 182. Sultanov Mirəli | Babək, Cəhri | 17 iyun 1930 | Pr №-7 |
| 183. Orucov Teymur | Babək, Qahab | 17 iyun 1930 | Pr №-7 |
| 184. Məmmədov Dünyamalı | Babək, Alagöz, Məzrə | 17 iyun 1930 | Pr №-7 |
| 185. Abbasov Süleyman | Noraşen | 17 iyun 1930 | Pr №-7 |
| 186. Cəfər Ramazan oğlu | Babək, Bulqan | 17 iyun 1930 | Pr №-7 |

# ERMƏNİ VƏHŞİLİYİ SƏNƏDLƏRİN DİLİ İLƏ

## NAZİRLƏR KABİNETİNİN SƏDRİNƏ

*İrəvan quberniyasının müsəlman nümayəndələri tərəfindən.*

## ƏRİZƏ

1917-ci ilin dekabr ayından 1918-ci ilin iyun ayınadək İrəvan quberniyasında erməni silahlı qüvvələri tərəfindən 200-dən artıq müsəlman kəndi yandırılmış, əhalisinin bir hissəsi öldürülmüş, bir hissəsi isə dağlara qaçıb, orada soyuqdan və aclıqdan ölmüşdür.

Bu insanlar öz hökümətlərini seçmişdilər və özlərini Azərbaycanın tərkib hissəsi hesab edirdilər. Hal - hazırda erməni silahlı qüvvələri müsəlmanlar yaşayan Erivan, Eçmiədzin, Sürməli qəzalarının bir hissəsini işğal ediblər. Bu ərazilərdə yaşayan müsəlman əhalisinin bir hissəsi öldürülüb, bir hissəsi isə dağlara qaçıb. Zorla təmizlənmiş ərazilərə isə Türkiyədən qaçmış ermənilər yerləşir. İrəvan quberniyasının müsəlmanlar yaşayan hissəsi Azərbaycanın ayrılmaz hissəsi olduğundan, biz, aşağıda imza edənlər respublika hökümətindən onun fiziki varlığını qorumaq üçün qəti tədbirlər görməyi xahiş edirik. Bizim fikrimizcə, ən yaxşı vasitə ermənilərə qarşı aktiv silahlı hərəkatdır. Lakin bu qeyri - mümkün olduğundan Erivan quberniyasındakı müsəlmanların vəziyyətinə yerli ingilis rəhbərliyinin diqqətini cəlb etmək lazımdır. Sülh konfransı keçirilənədək Erivan qəzasının Kəmərli kəndinə, Şərur qəzasının Şərur kəndinə, Sürməli qəzasının İqdır kəndinə, Naxçıvan şəhərinə ingilis qoşunları yeridilməlidir.

Bundan başqa müsəlmanlara qarşı törədilən vəhşilikləri, yüz milyonlara çatan maddi zərəri müəyyən etmək üçün Erivan quberniyasına müttəfiq dövlətlərin nümayəndələri göndərilməlidir.

**Teymur bəy Makinski**

| | |
|---|---|
| *Yeni Araz - Türk hökümətinin nümayəndələri:* | *R.B.İsmayılov, Paşa bəy Bayrambəyov, M.Məhərrəmov, A.Sultanov, V.Tahirov və A.Şeyx - ül İslamov* |

***4 yanvar 1919-cu il***

---

*NMRDA. 314 - 5 - 74.*

*20 mart 1919 - cu il*
*Bakı Xarici İşlər Nazirinə*
*bu gün mən Təbrizdən belə*
*bir teleqram almışam:*

Tehran Azərbaycan sədrliyinə yeddi gün içərisində gedən ağır döyüş nəticəsində düşmən məğlub olmuş və geri çəkilmişdir nöqtə Ola bilər ki, təkrar hücuma keçsin nöqtə Qaçqınlar çox ağır vəziyyətdədirlər, ərzaq çatışmaması davam edir təcili tədbirlər zəruridir Müfəssəl məlumat poçta ilə nöqtə Salman Ordubadi .

*Diplomatik nümayəndə* *(imza)*

*Azərbaycan Respublikasının*
*Nazirlər Sovetinin sədri*

*3 aprel 1919 - cu il*
*№ 2700*

*Tiflisdəki İttifaq qüvvələrinin*
*komandanı general Tomsona*

Erivan quberniyasının müsəlman əhalisi nümayəndələrinin xahişini nəzərə alaraq hökümət qərar qəbul etmişdir ki, ermənilərlə toqquşma zamanı zərər çəkən müsəlmanların qaçqınlarına və ziyan dəyənlərə bir milyon manat vəsait buraxılsın. Onların vəziyyəti o qədər çətindir ki, heç bilmirsən necə izah edəsən.

Ayrılmış bir milyon manat vəsaiti və qaçqınların vəziyyəti ilə tanış olmaq və gələcək tədbirlər üçün hökümət qərar qəbul edibdir ki, Naxçıvan, Şərur, Sürməli, Vedibasar, Millistan rayonlarına T.B.Makinski , R.B.İzmayılov və həkim Qənizadədən ibarət nümayəndə göndərir.

Hökümət nümayəndələri ilə birlikdə geri qayıtmalıdırlar, adları çəkilən rayonların müsəlman əhalisinin nümayəndələri: Bağır Rzayev, Məhərrəm Əliyev, Əli Əşrəfov, Kazımov Hüseyn Hüseyn Cavid, Əsəd Manafov, Bəhrəm xan və Əziz xan Naxçıvanski - Bakıya gəlirlər ki, müsəlman qaçqınlarının vəziyyəti barədə höküməti məlumatlandırsınlar və onlara kömək haqqında hökümət qarşısında məsələ qaldırsınlar.

Yuxarıdakıları Sizə çatdırmaqla xahiş edirəm ki, Siz alicənablar Allah xətrinə kömək edəsiniz, sərəncam verilsin ki:

1) Yuxarıda qeyd olunan rayonlara nümayəndələrin getməsinə və

qayıtmasına maneçilik törətməsinlər (gediş - gəliş maneəsiz olsun);

2) Əgər mümkündürsə nümayəndə üzvlərinə yolda müşaiət etmək üçün mühafizəçilər təyin olunsun;

3) Və eləcə də nümayəndə üzvlərinə yerlərdə lazımi köməklik etmək üçün həmin rayonların ingilis hakimiyyət nümayəndəsinə müvafiq məktub yazılıb verilsin.

Fürsətdən istifadə edərək xahiş edirəm mənim Sizə olan dərin ehtiramıma və səmimi hörmətimə inanasınız.

*Nazir Sədr - Xoyski.*

---

NMRDA. 314 - 5 - 71.

**Erivandan 16 may 1919-cu ildə 1291 №-li alınmış şifrələnmiş teleqram Gəncədən mayın 16-da göndərilib, poçtla alınıb**

**Yoldaş xarici işlər nazirinə.**

İngilis generalı Milinin Naxçıvana səfəri gözlənilir və bununla əlaqədar mayın üçündə Ermənistan elan edib ki, Ermənistan ittifaq qüvvələrinin razılığı ilə Qarsda olduğu kimi Naxçıvanı tutacaq. Həmin elanda həmçinin qoşunlara və ermənis-tan xalqına müsəlmanların bərabərhüquqlu olması haqqında müraciəti var. Bizim zabitlər ingilislərin əmri ilə Naxçıvanı tərk etdilər.

***Diplomatik nümayəndə Təkinski.***

---

NMRDA. 314 - 5 - 74.

**Tiflisdən teleqram 4199 / 5, 101, 26 / 6, 16 / 30.**
**28 iyun 1919-cu ildə alınıb.**

**Xarici İşlər Nazirliyi**
**28 iyun 1919-cu il.**
**№ 1891**

**B A K I**

**Azərbaycan Respublikasının baş nazirinə.**

Naxçıvandan, Şərurdan, Ordubaddan alınmış məlumatlara görə erməni hökuməti tərəfindən müsəlman xadimləri həbs olunmağa başlanıb, addımbaşı müsəlmanlar yoxlanılır, malları müsadirə olunur. Ermənistan hökümətinin bü cür çıxışları hə-

min rayonlarda xalqın narazılığına səbəb olur. Ermənistan hökümətinin nizamla qüvvələri tərəfindən Naxçıvandan altı verst aralı olan Buman kəndi atəşə tutulub. Əhali, erməni qoşunlarının qarətindən qorxaraq, açıq hava altında yaşayır. Bu hadisələr barəsində sizə məlumat verərək sizdən xahiş edirəm erməni hökümətinə etirazınızı bildirəsiniz, həmçinin ingilis komandanlığının nəzərinə çatdırasınız ki, erməni hökümətinin düzgün olmayan hərəkətlərinə qarşı qəti tədbirlər görsünlər. Bir həftə belə yubanmaq müsəlman kəndlərinin məhvinə səbəb olacaq.

**Erivan quberniyası müsəlmanlarının yurddaşlığının sədri Şeyxov**

Əslinə uyğundur.

NMRDA. 314 - 5 - 74.

**Vedibasar, Şərur, Ordubad, Naxçıvan rayonları müsəlmanlarının yurddaşlığının rəyasət heyəti.**

16 iyun 1919 - cu il.

**Parlamentin sədri cənablarına.**

Vedibasar, Şərur, Naxçıvan, Ordubad rayonlarının əhalisinin böyük hissəsini müsəlmanlar təşkil edir və qeyri-müsəlman əhalisinin sayı cuzidir. Bu rayonlarla Ermənistan raspublikası arasında sərhəd kimi Şirazlı müəyyən edilib. Ölkədə kənar qüvvələrin qarışmasına səbəb olan heç bir qanunsuzluq olmayıb. Ermənilərin fitnələrinə uyaraq, bizə məlum olmayan səbəblərdən ingilis komandanlığı bu rayonları bizə qarşı düşmənçilik münasibəti bəsləyən və rəhbərləri öz qarşılarına bizləri tamamilə məhv etmək məqsədi qoymuş ermənilərə verdi. Bu hal bizim hüquqlarımızın və fiziki varlığımızın tamamilə pozulması və heçə sayılması aktıdır, ədalət prinsiplərinə və xalqların öz müqəddəratını təyin etmə şüarına ziddir.

Bu rayonların ermənilərə verilməsi faktı kim tərəfindən olursa olsun ermənilərin müsəlmanlara olan münasibətinə şərik olduğunu göstərir.

Bu rayonların əhalisinin xahişini və Müsəlman Naxçıvan Milli Şurasının müsəlmanların soyqırımına olan etirazını nəzərə

alaraq, Vedibasar, Şərur, Naxçıvan, Ordubad rayonlarının müsəlmanlarının yurddaşlığı erməni bandalarının bu rayonlara soxulmasına qəti etirazını bildirir və oradan çıxmasını tələb edir.

Biz inanırıq ki, ingilis komandanlığı müvəqqəti olaraq itirdiyimiz hüquqlarımızı bizə qaytaracaq.

*Vedibasar, Şərur, Ordubad, Naxçıvan rayonları müsəlmanlarının yurddaşlığının rəyasət heyəti*

---

NMRDA. 314 - 5 - 7.

**Tiflisdən teleqram**

4199 / 5,101,26 / 6,16/ 30.

Teleqram alınıb 28 iyun 1919 - cu ildə.

Daxil olma № 1891

**BAKI**

Azərbaycan Respublikasının Baş Nazirinə

Alınan məlumatlara görə Naxçıvanda, Şərurda, Ordubadda erməni hökuməti tərəfindən müsəlman xadimlərinin həbs olunması artıq başlanmışdır. Hər addımda müsəlmanların evlərini axtarır, bəhanə-sıxışdırma edir, əmlaklarını müsadirə edirdilər. Erməni hökümətinin belə çıxışı həmin rayonlarda əhali arasında qanun-qaydaların açıqcasına pozulmasına səbəb olur, həm də erməni hökümətinin nizami ordusu tərəfindən müsəlman kəndləri Naxçıvandan altı verst uzaqda olan Bulqan kəndi də atəşə tutulmuşdur. 1 verst = 400 metr.

Erməni qoşunlarının qırğınından çıxaraq əhali panikaya düşmüş açıq havaya toplaşmışlar.

Yuxarıda qeyd olunanları Sizə məruzə edərək xahiş edirəm ki, erməni hökümətinə bizim etirazımızı elan edəsiniz, eləcə də İngilis komandanlığına çatdırasınız ki, erməni hökümətinin bu qəti heç bir qanuna sığmayan hərəkətinin qarşısını almaq üçün ciddi tədbir görsün. Əgər bu bir həftə belə yubadılsa onda bu müsəlman kəndlərinin dağıdılmasının əsas səbəbi olacaqdır.

*Erivan quberniyası Şeyxov.*

---

NMRDA. 314 - 5 - 74.

## ŞİFRƏLƏNMİŞ TELEQRAM

8 iyul 1919-cu ildə göndərilib. № 1999

**E R İ V A N**

Azərbaycanın diplomatik nümayəndəsi Təkinskiyə.

İndi Tiflisdən iki teleqram alınıb. Birincisi: Hadisə yerindən gəlmiş şahidlər erməni qoşunlarının Vedibasar rayonunda törətdikləri vəhşiliklərdən danışırlar. Müsəlman sərnişinlər qatarlardan endirilib, onların taleləri isə məlum deyil. Məsələn, Kəmərli stansiyasından 4 nəfər endirilib. Xalq narazıdır və istintaq aparılmasını tələb edir. Əli Səbri Qasımov .

İkincisi: Erməni hökümətinin Şərur - Naxçıvanda represiyaları başlayıb. Heç bir ittiham təqdim edilmədən Mirzəli bəy Bəktaşov, Hüseyn Ağa Novruzov, Cəfər bəy Erivanski, Teymur Həsən Kazımov Naxçıvandan Aleksandropola aparılıblar. Xahiş edirik onların şərtsiz azad edilməsi üçün tədbirlər görəsiniz. Əli Səbri .

Xahiş edirik faktları yoxlayasınız və əgər onlar təsdiqlənərsə erməni hökümətinin arzusunda olduğu dostluq münasibətlərinin bərqərar olmasına xətər gətirən bu faktların qarşısının alınması üçün erməni höküməti qarşısında qəti addımlar atasınız.

*Xarici İşlər Naziri.*

---

NMRDA. 314 - 5 - 71.

**Tiflisdən gəlib - Şifr teleqram. 901, 206, 8, 22 / 15**

Teleqram alınıb 1919 - cu il 9 iyulda. № 2031

**B A K I**

Xarici İşlər Nazirinə

Naxçıvanlı Hacı Mehdi Bağırov iyulun 7-də mənə çatdırdı ki; ingilislər Naxçıvanda elan ediblər ki, onların icazəsi olmadan axtarış aparmağa və eləcə də əhalidən silah almağa heç kəsin hüququ yoxdur nöqtə Buna baxmayaraq erməni höküməti qoşun göndərib ki Vedibasar rayonunu tərksilah etsin nöqtə Böyük - Vedi kəndi üç gün müddətində atəşə tutulmuşdur nöqtə Qonşu müsəlman kəndlərinin köməyi ilə erməni qo-

şunları geri oturulmuşdur nöqtə Kəndləri dağıtmaq üçün hökümət qoşunla birlikdə Dro yollayır nöqtə Siz məsləhət görürsünüzmü bu barədə mən ari ilə (yəqin Kori) danışım № 2785.

*Diplomatik Nümayəndənin müavini Vəkilov.*

---

NMRDA. 314 - 5 - 74.

**Azərbaycan Respublikasının Cənubi-Qərb Azərbaycanının General - Qubernatorluğu**

10 yanvar 1920-ci il.
№ 184
Naxçıvan şəhəri

Sülh Konferensiyasının sədri Əlahəzrət Amerika polkovniki cənab Şelliyə

Bu surətə əlavə olunan Ordubad Mahalının rəisinin məlumatından görünür ki, Zəngəzur Mahalının erməniləri yenə də onların arasında və ya qonşuluqlarında yaşayan köməksiz müsəlmanları məhv etmək işləri üzrə öz vəhşiliklərini davam etdirirlər.

Bu qeyri insani münasibətlərin və qırğının nəticəsində həmin dağıdılmış kəndlərin qaçqınları Naxçıvan rayonuna gedirdilər. Onlar gördükləri bütün qırğınları və digər vəhşilikləri danışaraq ümumi atmosferi gərginləşdirir və yerli müsəlmanları ermənilərə qarşı həyəcanlandırırlar.

Bu məlumata həmçinin Zəngəzur mahalının komissarının ultimatum münasibətinin surətini də əlavə edirəm. Xahiş edirəm əlahəzrət Qaskelin qarşısında ermənilərin deyilən vəhşi hərəkətlərinə qarşı tədbirlər görülsün. Əks halda bu hərəkətlər həm bizim və həm də onlar üçün faciəli nəticə verər. Hər iki millətin daimi düşmənçiliyinə səbəb olar.

*Cənubi - Qərbi Azərbaycanın*
*general qubernatoru*
*Dəftərxana rəisi: A.Mamedov.*

---

NMRDA. 314 - 5 - 12.

*Azərbaycan Respublikası* | *Ermənistan Respublikasının*
*Xarici işlər nazirliyi* | *Xarici işlər nazirliyinə.*

22 yanvar 1920-ci il. №301.

Hökumətimiz tərəfindən mənə məlumat çatıb ki, yanvarın 19-da erməni hökumətinin qoşunları Zəngəzurdan Şuşa qəzası istiqamətində hücum əməliyyatları aparıblar, 9 kənd dağıdılıb.

Bu hadisələrə qəti etirazımı bildirirəm və sizi məlum edirəm ki, Azərbaycan və Ermənistan hökumətləri tərəfindən 28 noyabr 1919 - cu il tarixli sülh müqaviləsi bağlandıqdan sonra və son vaxtlaradək Zəngəzur qəzasında erməni ordusu tərəfindən 40 kənd dağıdılıb.

Bir daha ermənistan respublikası hökumətinin bu cür hərəkətlərin qətiyyətlə qınayırıq və ermənistan ordusunun bu cür aqressiv hərəkətlərinin dayandırılmasını tələb edirik. Dinc müsəlman əhaliyə qarşı hərbi əməliyyatlar dayandırılmazsa hökumətim öz vətəndaşlarını qorumaq üçün qəti addımlar atacaq. Bu zaman baş verə biləcək hadisələrin məsulliyətini Ermənistan hökuməti daşıyacaq.

*Xarici İşlər Nazirliyi.*

---

NMRDA. 314 - 5 - 72.

**Erivandan şifrələnmiş teleqram 01896, 244, 25/6, 15.55**

**BAKI**

27 iyun 1919

Sədr - nazirinə

Surəti xarici işlər nazirinə

Dünən yanıma ermənilərin törətdikləri vəhşiliklərdən şikayətçi bir qrup müsəlman gəlmişdi. Müsəlmanların vəziyyəti günü - gündən pisləşir. Qoy Azərbaycan lazım olarsa Gürcüstanla birgə bütün bu zorakılıqların qarşısının alınması, kəndlilərin öz kəndlərinə qayıtınası və hökümət tərəfindən icarəyə verilmiş torpaqların müsəlmanlara qaytarılması barədə ultimatum versin. Qoy, Azərbaycan bütün dünya qarşısında öz etirazını bildirsin. Hər bir zorakılıq aktı barəsində əlimdə faktlarım var. Bunları iyun ayının 30-da Xatisova göndərəcəyəm, məktubda göstərəcəyəm.

*Diplomatik nümayəndə Təkinski.*

---

NMRDA. 314 - 5 - 74; ARDA. 970 - 1 - 54.

**Cəbrayıldan Bakıya, Parlamentə göndərilən teleqramın surəti**

№ 160 23.01.1920-ci il

Birbaşa müraciətdən üzr istəyirəm. 19 şəhərdən ermənilər Xocakənddən Qaladarəsi boyunca hücuma keçiblər. Onların artileriya və pulemyotları ilə Fərəcan, Qonyal, Qoçamusaxlı və Əliqulu Uşağı kəndləri məhv edilib. 8 kənd yanır, tüstü bulud kimidir. Mən Zəngəzura 300 silahlı adam göndərdim. Lakin bu, dəryada damcıdır. Xahiş edirəm qəti tədbirlər görün, bizim qüvvələrlə onları saxlamaq mümkün deyil.

*Cəbrayıl qəza 3-cü sahənin pristavı*

NMRDA. 314 - 5 - 72.

**Cəbrayıldan Bakıya, Parlamentin sədrinə teleqramın surəti**

№ 184 24.01.1920-ci il

Əvvəlki teleqramlarıma əlavə olaraq Zəngəzurdakı hərbi əməliyyatlar yerindən məlumat verirəm. Ermənilər Cəbrayıl qəzasının sərhəddində, Axara çayının boyunca toplanırlar. Ermənilərin qüvvələri çox böyükdür. Qarabağı xilas etmək lazımdır. Ermənilərin qurbanları saysız - hesabsızdır.

Parlamentin üzvü Cəlil Sultanov

NMRDA. 314 - 5 - 72.

**Cəbrayıldan Bakıya, Parlamentə teleqram**

23 yanvar 1920-ci il № 186

Qətlə yetirilmiş Zəngəzur müsəlmanlarının ah- nalələri dağlar, dərələr arasında qaldı, heç yerə çatmadı. Onların köməyinə heç kəs gəlmədi. Qadınların döşləri kəsilmiş, uşaqların başları kəsilmiş, qanlı bədənləri yerdə qalıb. Ermənilərin əlinə düşən gözəl qızlar zorlanıb. Zəngəzur kəndində müqavimət göstərmək üçün çox az kişi var, kənardan da kömək gəlməsinə heç bir ümid yoxdur. Erməni qüvvələrinin sayı 10 mindən çoxdur və daimi Ararat tərəfindən yeni qüvvələr gəlir. Onların 10-dan çox topu

və 60-a yaxın pulemyotu var. Topların səsi Cəbrayıla kimi gəlib çatır. On minlərlə qaçqın Cəbrayıl qəzasında məskunlaşıb. Dördüncü gündür ki, hökümətdən heç bir kömək gəlmir. Müsəlmançılıq bundadırmı? Azərbaycandakı bütün müsəlmanlara müraciət edirik və vəhşicəsinə öldürülmüş uşaqlara dərindən kədərləndiyimizi bildiririk. Onların ruhları rahatlıq tapsa da sizə müraciət edərək: Kömək edin deyirlər. Ermənilər Zəngəzuru dağıtdıqdan sonra öz qüvvələrini Cəbrayıla, Şuşaya, Cavanşirə doğru yönəltməyi planlaşdırırlar. Beləliklə, onlar bu qəzaların erməniləri ilə birləşərək bizi Naxçıvandan ayıracaqlar. Əgər hökümət qəti tədbirlər görməsə, müsəlmanların işi bitdi.

*Müəllim Hüseyn Axundzadə və 3-cü*
*Cəbrayıl qəzasının əhalisi*

---

NMRDA. 314 - 5 - 72.

**Ordubaddan Naxçıvan general qubernatoruna**

Teleqram № 11 06.01.20-ci il

Zəngəzur qəzasının erməni kəndlərində, həmçinin Karcevan kəndində ermənilərin yanında çoban işləyən çoxlu sayda müsəlman yaşayırdı. Üç gün bundan əvvəl ermənilər bütün müsəlmanları bir yerə yığıb, qadın və uşaqları vəhşicəsinə qətlə yetiriblər. Müsəlmanlardan ikisi qaçıb, 100 nəfərdən çoxu qətlə yetirilib.

*Qəza rəisi Tahirov*

---

NMRDA. 314 - 5 - 72.

**Cəbrayıldan Bakıya, Parlamentin sədrinə göndərilən teleqramın surəti**

№ 240/107, 21 yanvar 1920 - ci il

Zəngəzur qəzası dördüncü gündür ki, erməni bandalarının nizami qoşunları ilə birlikdə artileriya və pulemyot atəşinə məruz qalır. Cəbhə xətti Qubadlıdan Xocavəndə 50 km uzunluğundadır. Qurbanlar çoxdur. Əhali panika içərisində qaçır. Xahiş edirəm çoxlu miqdarda qoşun və patron göndərmək haqqında təcili tədbirlər görəsiniz. Bədbəxt əhali adından siz-

dən xahiş edirəm, kağız üzərindəki etirazlarınızı bir kənara qoyub fəal hərəkətlərə keçin. Azərbaycanın ən gözəl güşəsini məhv olmaqdan xilas edin. Zəngəzurdan sonra növbə Qarabağındır. Bu itkilərə görə türk xalqı və Azərbaycan qarşısında siz cavabdehsiniz.

*Parlamentin üzvü Cəlil Sultanov*

---

NMRDA. 314 - 5 - 74.

TELEQRAM

Cəbrayıldan, № 151 Bakı, Parlament

22.01.1920 - ci il

19 səhər. Zəngəzur kəndinin erməni hissələri bütün cəbhə boyunca Maqandan Qala dərəsinə kimi top və pulemyotlarla müsəlmanlara atəş açıb. 6 kənd məhv edilib, 9-u yanır. Ermənilər müsəlmanları amansızcasına qətlə yetirir, qadın, uşaq demədən. Müsəlmanların onlara qarşı çıxmağa qüvvələri yoxdur və ancaq mülklərini ermənilərə qoyub qaçmaqla canlarını qurtarırlar.

Bu hadisələr haqqında hökumət qəti tədbirlər görməlidir.

*Cəbrayıl kənd məktəbinin baxıçısı Axundov.*

---

NMRDA. 314 - 5 - 74.

**Erivandan verilən şifr teleqram. 01499, 277, 20, 16, 30**

Teleqram alınıb 21 iyun 1919-cu il tarixdə

Məxaric № 1790

Təcili

BAKI

Xarici işlər nazirinə.

Sizin 1695 nömrəli teleqramınıza cavab verirəm. Naxçıvan, Şərur, Vedibasar, Şahtaxtı rayonlarını ermənilərin hərbi hissələri tutublar - zəbt ediblər. Naxçıvanın Milli şurası xahiş edir ki, ittifaq Komandanlığına çatdırılsın ki, Ermənistan hakimiyyəti ingilis generalları Devinin və Xatisovun vədlərinə görə burada axtarış aparmağa başlamış və silahları, mebelləri, dirəkləri, taxta - şalbanları və başqa predmetləri zəbt edib, zorakılıqla daşıyıb apa-

rırlar. Milli Şura xahiş edir ki, İttifaq komandanlığı bu qanunsuz və tam pozğun hərəkətləri dayandırsın. Culfa ermənilərin əlindədir. Siz Naxçıvan şurasının bu xahişinin yerinə yetirilməsinə imkan tapa bilərsinizmi? Ordubad erməniləri hələ öz ərazilərinə buraxmır. Bu barədə ordubadlılar on bir gün bundan əvvəl öz fikirlərini ermənilərə açıqcasına bildiriblər. Müsəlman hərbi hissələri buraxılıb. Üç yüz nəfərdən ibarət ancaq çətəçi vardır. № 184

*Diplomatik nümayəndə Təkinski*

---

NMRDA. 314 - 5 -74.

Teleqramın təsdiq olunması

Ənzəli

**Azərbaycan Konsulunun müavinləri Xəlilov və Rəcəbliyə**

Xarici işlər nazirinə təcili çatdırın ki, mən bu gün Naxçıvandan bu teleqramı almışam.

Tehran. Azərbaycanın nəzərinə, martın on doqquzunda ermənilərin nizamlı qoşunları bizim üzərimizə üç tərəfdən çox güclü hücuma başlamışlar. Birinci Böyük Vedi, ikinci Tivi kəndi, üçüncüsü Ordubad tərəfdən. Xahiş edirəm bu barədə vəziyyəti çatdırasınız bizim hökümətimizə .

№ 125, 20 mart — General qubernator Cəmlinski
№ 49 — Diplomatik nümayəndə Ziyatxan

Əsli ilə düzdür. İmza.

---

NMRDA. 314 - 5 - 74.

**Erivandan şifrələnmiş teleqram**

Alınıb 4 may 1919

**Gəncədən 16 may 1919 - cu ildə göndərilib, Qazaxda alınıb.**

**BAKI**

Sədr - nazirə.
Surəti Xarici işlər nazirinə.

İkisində Naxçıvana erməni polkları hücum edib, ona görə də Ermənistana təzyiq göstərmək lazımdır. Bizim polklarımızın dərhal Ermənistan sərhəddində yerləşdirilmələrini məqsə-

dəuyğun hesab edirəm. Naxçıvan rayonunun əhalisi müqavimət göstərməyə hazırdır. Lakin ingilislərin Ermənistanın lehinə olaraq hadisələrə qarışmasından ehtiyat edir. Mayın 2-də general Devi Erivandan Naxçıvana yola düşüb. Dilicanda natamam tərkibli 4 - cü alay dayanıb.

*Diplomatik nümayəndə Təkinski*

---

NMRDA. 314 - 5 - 74.

**Şifrələnmiş teleqram 27 iyun 1919-cu ildə № 1767 ilə göndərilib**

**ERİVAN**

**Azərbaycan diplomatik nümayəndəsi Təkinskiyə**

№ 184

Naxçıvan və Ordubad rayonlarındakı müsəlmanların maraqlarını müdafiə etmək üçün əlinizdən gələni edin. İyulun 16-da Sizə Ermənistanın notasına şifrələnmiş cavab göndərilib. Müsəlmanlara qarşı törədilən hər hansı bir vəhşilik aktı haqqında bizə məlumat verin.

*Xarici işlər nazirinin müavini*

---

NMRDA. 314 - 5 -74.

**Erivandan şifrələnmiş teleqram 011090, 279, 20/12, 15, 1.**

22 dekabr 1919 - cu ildə alınıb № 203

**BAKI**

Xarici İşlər Nazirinə.

Dünən Naxçıvan qubernatorunun məktubunu aldım və bir hissəsini sizin nəzərinizə çatdırıram, xahiş edirəm görülən tədbirlər haqqında Naxçıvana məlumat vermək üçün mənə bildirəsiniz.

İran hər cür yalanlarla Naxçıvan diyarından qaçqınları cəlb etməyə çalışır. Əgər altmış minə yaxın qaçqın İrana keçərsə, onda ermənilər buranı işğal edib, Zəngəzurla birləşəcəklər. Yüzlərlə qaçqın soyuqdan və acından ölür. Etibarlı mənbələrdən mənə məlumdur ki, ingilislər həmin yerlərdə əhalini qaçırdaraq, ermənilərin gəlişi üçün əlverişli şərait yaradırlar. Əgər hökümətiniz bu diyarı özündə saxlamaq istəyirsə, onda qaçqınları

saxlamaq üçün təcili olaraq insan və pul göndərilməlidir.

№ 1852 *Sədr müavini Mirbabayev*

NMRDA. 314 - 5 -72.

**Şifrələnmiş teleqram 0518, 229, 10/5, 11, 15**
**Dilicandan alınıb 25/5**
**BAKI**

Sədr - nazirinə,
Surəti Xarici İşlər Nazirinə.

Şaiyələrə görə əgər Ermənistan Qarabağın Azərbaycanın olduğunu tanısa, onda ingilislər Şərur - Naxçıvan rayonunu Ermənistana verəcəklər. Bu şaiyələri ermənilər buraxır. Mənim fikrimcə, Qars Ermənistana kifayətdir və əhalisi tamamilə müsəlmanlar olan Şərur - Naxçıvanı onlara vermək olmaz, çünki buranın əhalisi də Ermənistanın müsəlman əhalisi kimi acınacaqlı vəziyyətə düşəcək. Müsəlmanların acınacaqlı vəziyyəti barədə sübutlarım var. Bunu hərtərəfli şəkildə Tiflisdə Müttəfiq komandanlığa izah etmək və onlarla daim əlaqədə olmaq lazımdır. Əks halda bizim diplomatiyamız uduzacaq.

№ 93 *Diplomatik nümayəndə Təkinski*

NMRDA. 314 - 5 - 71.

**Şifr teleqram göndərilib.**
**17 iyun 1919 - cu il tarixdə**
**Məxaric № 1695**
**EREVAN**

**Azərbaycan Diplomatik nümayəndəsi Təkinskiyə**

Naxçıvan, Şərur, Vedibasar, Şahtaxtı və Ordubad rayonlarında mövcud vəziyyət barədə təcili xəbər verin. Culfa kimin əlindədir? Vedibasar ölkə komitəsinin rəhbərləri, Xəlilovun, Hacılarov və Abbasəli ağa Şabanskinin azad olunmasına təsirli kömək edin.

№ 1695 **Xarici İşlər Naziri əvəzi - imza**
**Şifr edən M.Vəzirov**

NMRDA. 314 - 5 - 74; ARDA. 970 - 1 - 54.

## DAŞNAKSÜTYUN YENİ BİR AVANTÜRASI

Heç kəsin ağlına belə gəlməzdi ki, daşnakların Gürcüstan sərhədlərində başlatdıqları avantüra eyni vaxtda İrəvan quberniyasının müsəlman hissələrində də başlamışdır. Mən heç vaxt daşnaklara inanmasam da, şəxsən buna da inanmırdım. Lakin müsəlman həmyerlilər birliyinin üzvü N.N.Jordanyianın yanında olarkən biz öyrəndik ki, Gürcüstanla sülh müqaviləsi bağlayarkən, Ermənistan nümayəndələri bildiriblər ki, İrəvan quberniyasında öz qoşunlarını demoblizasiya edə bilməzlər, çünki orada müsəlmanların üsyanı baş verir. Bundan sonra bizim şübhəmiz qalmır ki, orda avantüra başlanıb və Şərur - Dərələyəz - Naxçıvanın acınacaqlı vəziyyətdə olması haqda şaiyələr həqiqətə uyğundur.

Həqiqətən də ingilis əsgər və zabitlərinin müşaiyəti ilə Naxçıvandan gəlmiş Bəhrəm Xan Naxçıvanski, hansının ki, düzlüyünə heç kim şübhə etmir, İrəvan və Şərur - Dərələyəz qəzalarında ermənilərlə müsəlmanlar arasında baş verən toqquşmaları tam aydınlığı ilə izah edir. Bəhrəm Xan Naxçıvanski bir ildən artıqdır ki, mərkəzdən ayrılmış və öz taleyinə buraxılmış Şərur və Naxçıvan qəzalarının müsəlman bölgələrinin xarici işlər komissarı kimi yerli hökumət tərəfindən Azərbaycan Respublikasının nümayəndəsi ilə birlikdə ingilis ali komandanlığı ilə danışıqlar aparmaq üçün səlahiyyətləndirilib, çünki Şərur - Dərələyəz və Naxçıvan qəzaları Azərbaycanın ayrılmaz hissəsidir. Buradan aydındır ki, Ermənistan nümayəndələrinin bildirdiyi kimi, Şərur və Naxçıvanda baş verənlər üsyan yox, planlı surətdə öz ərazilərinin və siyasi hüquqlarının müdafiəsidir və ermənilərin müsəlmanların hüququna təcavüzü Vedibasarda qanlı toqquşmalara səbəb olmuşdur.

Erməni qoşunları müsəlmanlar yaşayan ərazilərə hücum edərək Vedibasarın 7 kəndində məskunlaşmış müsəlman qaçqınlarını qırıblar, sonra Şərura doğru istiqamət alıblar. Məlumatlar hökumətə çatandan sonra Naxçıvanda ermənilərin gələcək hücumlarının qarşısını almaq üçün əmr verilmişdir. Bunun üçün Qurd Qapısında yerli müsəlmanlardan ibarət qoşunlar yerləşdirilmişdir. Eyni zamanda erməni komandanlığı ilə danışıqlara başlanmışdır, lakin bu danışıqlar heç bir nəticə

vermədiyindən hər iki tərəf hərbi hərəkatlara başlamışdır. Bu toqquşmalarda müsəlmanlar itki verərək hər şeyi qoyub özlərini xilas etmək üçün qaçmağa başlamışlar. Döyüşlərə Məşədi Ələsgər Qasizadə başçılıq edirdi, hansı ki, öz dəstəsindən əvvəl əhalini də dalınca apararaq İrana qaçmışdır. Qaçqınlar İranda kürdlər tərəfindən qarət edilsələr də, onların taleyi Vedibasarda qalmış və erməni hökumətinə tabe olduqdan sonra qətlə yetirilmiş əhalinin taleyindən yaxşı oldu.

Əhali təslim olduqdan sonra onu qətlə yetirmək elə bir cinayətdir ki, bu daşnaksütün partiyasına qarşı hansının ki, siyasəti nəticəsində erməni və müsəlman zəhmətkeşləri qırılır, ümumi narazılığa səbəb olmalıdır.

Şərurluların məğlubiyyəti haqqında xəbərlər Naxçıvana çatdıqda oradan polkovnik Kəlbəli xan Naxçıvanskinin başçılığı altında erməni qoşunlarına qarşı böyük bir dəstə yaradılır. Eyni zamanda hökumət gələcək qarşıdurmaların qarşısını almaq üçün mənəvi kömək üçün Təbrizdəki Vəliəhdə müraciət edib, o da Tehranla əlaqəyə girərək döyüşən tərəflər arasında qarşıdurmanın qarşısını almaq üçün nümayəndə göndərib.

Polkovnik Kəlbəlixan hökumətdən aldığı tapşırıqlar əsasında erməni hissələrinin komandanlığına tapşırır ki, Təbrizdən nümayəndə gələnədək döyüşlər dayandırılsın, lakin onu dinləməyərək onlar hücuma keçirlər.

Beləliklə, polkovnik Kəlbəli xan döyüşə girmək məcburiyyəti ilə öz dəstəsinə hücuma keçmək əmri verir və Zeyvə kəndindəki döyüşdə düşməni məğlub edir.

Bu zaman Bakıdan general Tomson tərəfindən göndərilmiş Çippon yetişir (mən Bakıda olarkən bunu Tomsondan şəxsən xahiş etmişəm), o, da danışıqlar yolu ilə toqquşmaları dayandırır.

Erməni qoşunları Yaycı kəndini, müsəlman qoşunları İrəvan qəzasının Arazədəyən stansiyasını işğal edirlər.

İrəvan quberniyasında faktiki vəziyyət belədir. Biz orada daşnaksütün avantürası ilə qarşı qarşıyayıq, hansı ki, bir çox müsəlmanın və ermənininin həyatına başa gəlib.

Bu qurbanların qarşısında mən və mənim həmkarlarım daşnaksütün partiyasına öz etirazımızı bildiririk.

Biz, müsəlman sosial - demokratlar daşnaksütyun partiyası-

nın bu cür çıxışlarına etirazımızı bildiririk və inanırıq ki, həqiqət və tarix bizim tərəfimizdədir.

*Azərbaycan parlamentinin üzvü K.Camalbəyov*

NMRDA. 314 - 5 - 33;

## AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR SOVETİNİN SƏDRİNƏ

*İrəvan qəzasının Vedibasar və*
*Məllistan rayonunun müvəkkili*
*Məhərrəm Əliyev tərəfindən*

## Ə R İ Z Ə

Bağlanmış sülh müqaviləsinin şərtlərinə görə türklər Qafqazdan çəkilərkən Erevanı da tərk etməyə başladılar. Müsəlmanların vəziyyəti kəskin pisləşdi, çünki aydın oldu ki, onların qırğını başlayır. Türklər Erevan quberniyasını tərk etdikdən sonra orada yaşayan müsəlmanları tabe etmək üçün oraya polkovnik Doluxanovun komandanlıq etdiyi güclü silahlı dəstə göndərildi. O, müsəlmanlara müraciət edərək onları tabe olmağa çağırdı və söz verdi ki, Erevan quberniyasını tutduqdan sonra orada qayda - qanun və müsəlmanlarla dostluq münasibəti yaradacaq.

Biz, Vedibasar rayonunun müsəlmanları polkovnikin sözlərinə inanaraq, onun dəstəsini Dəvəli kəndinə buraxdıq.

Polkovnik Doluxanov müsəlmanlara verdiyi sözü tutmadı, onun dəstəsində olan Artur adlı şəxs silahlı hissələri ilə Seyidkətanlı, Xaraba - Kətanlı, Şəharab kəndlərində yaşayan müsəlmanları qırdı. Həmin qırğının vəhşiliklərini ifadə etmək belə mümkün deyil, qoca, qadın və uşaqların meyidləri üzərində insafsızcasına istehza olunurdu, qarınları kəsilirdi, gözləri oyulurdu, meyidlər yandırılırdı. Həmin kəndlərdə məskunlaşmış qaçqınlar da vəhşicəsinə qətlə yetirilirdi. Polkovnik Doluxanov yanına gələn nümayəndələrə söz vermişdi ki, bu qırğının qarşısı alınacaq, lakin sözünün üstündə durmadı. Şərur istiqamətində irəliləyən Doluxanova müsəlmanlar tərəfindən ağır zərbə edildi və o, Dəvəli kəndinə geri çəkilməyə məcbur oldu. Təqribən bu vaxtlarda Qaraqac, Qadılı, Yuxarı Qarabağlar, Ağasıbəyli,

Dəhnəz və Səhablı kəndlərinə özlərini Banlı və Sasunlu adlandıran erməni dəstələri gəldi. Bu kəndlərin əhalisini qətlə yetirməzdən əvvəl bir neçə yüz qız və qadın həmin dəstə tərəfindən əsir götürüldü, hansılar ki, indiyə qədər onların əlindədir. Ermənistan palatasının qarşısında həmin qadınların azad etdirilməsini tələb etmək üçün Erevana nümayəndələr göndərilmişdir. Parlament tərəfindən qadınları qaytarmaq sözü verilmişdir. Lakin onlar azad olunmadı. Məndə olan məlumatlara görə ermənilər onları Yenibəyazit qəzasına göndərmək istəyirlər, lakin çoxlu miqdarda qar yağdığından və yollar bağlandığından Yenibəyazit qəzası ilə əlaqə saxlanıla bilmədi və plan baş tutmadı. Müsəlmanlar qadınların ermənilərin əlində olmasına dözə bilmirdilər. Vedibasarlılar ingilislərdən qadınları azad etmələri barədə yalvarırdılar. Lakin bu cəhdlər də nəticə vermədi.

Yanvar ayının sonlarında döyüşən tərəflər arasında ingilis generalı Ginonun vasitəçilik etməsi ilə müəyyən şərtlər əsasında barışıq əldə edildi. General Ginon bəyan etdi ki, yeni döyüş əməliyyatlarının başlanması müttəfiq dövlətlərə qarşı düşmənçilik aktı kimi qəbul ediləcək.

Ginonun bəyanatından 8-10 gün keçəndən sonra erməni nizami qoşunları Dəvəli kəndindən 1-1,5 verst məsafədə olan Avşar kəndinə hücum etdilər. Həmin kənddə əhalinin bir qismi evlərindəcə öldürülmüş, bir qismi isə qaçaraq canlarını qurtarmışlar. Avşar hadisələrindən sonra zirehli maşınlar və arteleriya ilə Avşar kəndi və bir sıra başqa kəndlər: Xalis, Çatqıran, Şirazlı, Taralak kəndləri bombardman edildi. Həmçinin bizim Böyük Vedi kəndi də hücuma məruz qaldı, lakin ermənilər geri oturduldu. Bombardman altı gün davam etdi və ingilis polkovniki hal-hazırda Naxçıvanın general- qubernatoru olan Lauxin tərəfindən dayandırılıb.

Polkovnik mənim tərəfimdən döyüş əməliyyatları yerinə gətirilmişdir və dağıdılmış kəndləri və daşınılmış əmlakı şəxsən görmüşdür. Lauxin həmçinin Avşar kəndindən yuxarıda qoyulmuş və Böyük Vediyə istiqamətlənmiş topları və zirehli maşınları da gördü. Erməni hökümətini qoşunları Davalı kəndindən çıxarmağa məcbur etmək üçün general döyüş bölgəsindən birbaşa Erevana getdi.

Lauxinin Erevana getdiyi günün ertəsi ermənilər Böyük Ve-

dini mühasirəyə aldılar və bombardmana başladılar.

Mən dərhal bu haqda Naxçıvan müsəlman drujinasının komandiri Kalbalı xana xəbər verdim, o isə öz növbəsində ultimatum verərək ermənilləri hücumu dayandırmağa məcbur etdi. Ermənilər isə atəşi dayandıraraq adı çəkilən kəndləri talan etməyə başladılar.

Məni bura göndərən Milistanın Vedibasar rayonunun müsəlmanları mənim vasitəmlə Azərbaycan hökumətindən xahiş edirlər.

1. Növbəti qan tökülməsinin qarşısını almaq üçün erməni hökuməti qarşısında erməni əsgərlərinin qaçırdıqları qadınları azad etmək üçün qəti tədbirlər görmək.

2. Xüsusi fərman verərək Vedibasar rayonunu və Erevan qəzasının Millistanını Azərbaycanın ayrılmaz hissəsi elan etmək.

3. Avşar, Xəliş, Çatqıran, Şirazlı, Xalar, Şahablı, Qadılı, Qaraağac, Yuxarı Qarabağlar, Dəhnaz, Keşişdağ, Xaraba Kotanlı, Seyid Kotanlı və Şəhərab kəndlərinin sakinlərinə dəymiş zərəri ödəmək üçün erməni hökuməti qarşısında qəti tədbirlər görmək.

*Bakı şəhəri, 10 mart 1919-cu il*

*Əliyev M.*

---

NMRDA. 314 - 5 -71.

29. III. 1920

## ƏZİZ FİRUZ BƏY

Novruz bayramının birinci günündə 21 mart səhər saat 10 - da Kərb. Tağı Yusifov Culfadan mənə zəng edib və aşağıdakı pis xəbəri verib. 10.000 nəfərdən artıq erməni silahlı qüvvələri qəflətən Düylün, Vənənd, Vələver, Xanağa, Bəysar, Ağrı və Dizə kəndlərinə hücum ediblər. Bu kəndləri işğal ediblər, tamamilə yandırıblar, indi Ordubada doğru irəliləyirlər və Naxçıvandan Ədib bəyin rəhbərliyi ilə 800 əsgər ordubadlıların köməyinə gedib, indi onlar Aza kəndində Ordubadın yolunu kəsmiş erməni qüvvələri ilə döyüşürlər. Ordubad təhlükədədir. Ordubadla telefon əlaqəsi kəsilib, yalnız Azadan atəş səsləri gəlir. Mən bu haqda Tehrana Azərbaycan missiyasına aşağıdakı mətnli teleqram göndərmişəm: Bakı sədr-nazirə, etibarlı mənbələrdən xəbər

verirlər ki, 10.000 nəfərdən artıq erməni qüvvələri müsəlman Düylün, Vənənd, Vələver, Xanağa, Dizə, Ağrı, Bəysar kəndlərini işğal edib, əhalisini tamam məhv etdikdən sonra Ordubada hücum ediblər və Ordubadı da həmin təhlükə gözləyir. Ordubadı və müsəlman əhalisinin namusunu qurtarın. Əsgərxanov .

Təəssüf ki, teleqraf işləmədiyindən teleqramı göndərə bilmədim. Bundan sonra general-qubernatorun vəzifəsini icra edən Sərdar İntizara müraciət edərək xahiş etdim ki, ordubadlılara kömək etmək üçün əlindən gələn tədbirləri görsün. Sərdar bu yaxınlarda Təbrizdə Təbriz qoşunlarının baş komandanı vəzifəsinə təyin edilib, lakin Tehrandan təyin olunmuş general-qubernator gəlmədiyindən müvəqqəti olaraq onun vəzifələrini icra edir. Çox fəal və qətiyyətçi siyasətçidir. Təhsilini Almaniyada alıb, alman və fransız dillərində yaxşı danışır. Bayramın 3-cü günü Ordubad məsələsinə görə mən onun evində oldum. Bayram münasibəti ilə orada bir neçə baş molla və yüksək rütbəli şəxslər vardır, söhbətlər erməni vəhşilikləri haqqındaydı. Sərdar deyirdi ki, əsaslı tədbirlər görmək lazımdır, nə qədər ki, bu diyarın statusu təyin olunmayıb bu hadisələr davam edəcək. Bu zaman baş mollalardan biri (Mirzə Sadıx ağa) dedi ki, İranla birləşmək lazımdır. Bu zaman mən dedim ki, cənab Sərdar, inanın ki, əgər ordubadlılara uşaqlarımızı, qocalarımızı öldürmüş ermənilərə, yoxsa İrana birləşmək təklif olunsa biz düşmənlərimiz olan ermənilərə birləşməyi üstün hesab edirik. Bunun səbəbini isə siz özünüzdə axtarın.

Bilmirəm, siz bizə göstərdiyiniz hansı yardımlara görə bu hüququ bizə verirsiniz. Çünki birinci siz öz vətəndaşlarınızı müdafiə edə bilmirsiniz, bunun Səmaşet və Urşix hadisələri göstərdi. İkinci də ki, bu qanunsuzluqlar bizdə müvəqqətidir, gec-tez onlar aradan qaldırılacaq və biz müvəqqəti qanunsuzluqdan ötəri həyatımızı birdəfəlik məhv edə bilmərik. Sonra o dedi ki, əgər sizin həmvətənləriniz bizə birləşmək istəmirlərsə, onda biz sizə heç bir kömək edə bilmərik. Sənə Ordubaddan son teleqramın surətini göndərirəm. İndi Ordubad kəndləri ermənilərdən təmizlənib. Həm müsəlmanlar, həm də ermənilər tərəfindən böyük itkilər var. Ordubadda bir sıra ev dağıdılıb. Ordubadlılar şəhəri çox yaxşı qoruyurdular, buna görə də ermənilər şəhərə

daxil ola bilmədilər. Ordubadda ölü yoxdur, yalnız yaralı var.

Rzayev, Qəniyev də yaralanıb. Düylün, Vələver, Vənənd, Peskar, Berine, Unus, Xanağa, Dizə, Ağrı, Gənzə, Ənaba, Əylis, Varapert, Kilit və Kotam kəndləri yandırılıb. Kalbalıxan və Ədib bəy Çənnəbə hücum etməyə hazırlaşırlar. Xəlil bəy Vedidə başçılıq edir. Çalış ki, Azərbaycan buğda və azuqə almaq üçün ordubadlılara pul ötürsün. Bu kəndlərin bütün azuqəsini ermənilər aparıb, həmçinin çalış ki, Azərbaycan tezliklə Təbrizə öz səfirini təyin etsin.

Ermənilər çalışır ki, İran polisi məni həbs etsin. Dünən erməni qadınla evlənmiş polis rəisi Şvedes məni yanına çağırıb, lakin mən yubandığımdan onu idarədə tapa bilmədim. Öpürəm. Zeynəb Gülsülə xanıma salamını göndərir. Səhman. İdarə edən şəxslərə çatdırın ki, İran məmurları Naxçıvanın İrana birləşməsi arzusundadırlar. Teleqramlara və faytonlara 25 tümən (15.000 manat) öz cibimdən xərcləmişəm, halbuki mənim də vəziyyətim yaxşı deyil. Ordubaddakı evim çox güman ki, top atəşindən zədələnib. Məktubları mənə bu adresə yaz. Təbriz. Təbriz dəmiryol idarəsi Salman bəy Əsgərxanov.

---

NMRDA. 314 - 5 - 71.

**Azərbaycan Respublikası**
**Cənubi - Qərbi Azərbaycanın**
**General Qubernatorluğu**
**31 dekabr 1919 - cu il.**
**№ 3087**
**Naxçıvan şəhəri.**

SURƏTİ
**Zəngəzur Mahalının Cənab**
**General Komissarı**

Sizin 27 dekabr 1919 - cu il tarixli 980 №-li münasibətinizə cavab olaraq bildirirəm ki, bizim hərbi hissələr yalnız o zaman fəaliyyət göstərir ki, onlar sizin hərbi hissələrin hücumlarına cavab verməyə məruz qalırlar və bu hücumlardan özlərini qoruyurlar. Bizim hissələr tərəfindən bilərəkdən aktiv və hücum xarakterli hərəkətlər olmayıb. Sərhəddə ən kiçik belə anlaşılmazlıqların qarşısını almaq tədbirləri haqda mən tərəfdən uzun müddətdir ki, ciddi əmr verilmişdir.

Bu əmr Sülh konfransının nümayəndələrindən, amerikan zabitlərindən bildiriş və bizim hökümətin Azərbaycan və Ermənistan Respublikaları arasında bütün mübahisəli məsələlərin sülh yolu ilə həll olunması haqda qərarından sonra üçüncü dəfə təkrar olunub.

Noyabr ayının axırıncı günlərindən başlayaraq Ovçu Şabadin rayonunun zəbt edilmiş kəndlərindən və Kidi dərəsinin 25 müsəlman kəndlərinin qaçqınları bizim rayona keçib. 400 - 500 nəfərlik dəstə təşkil edərək erməni və müsəlman kəndlərinə hücumlar təşkil edirlər. Onlar Əliçahay cəmiyyətinin üç müsəlman kəndinə zərər vurublar, Araqlı və Bist kəndlərinə onların hücumlarının qarşısı alınıb və alınmaqdadır. Axırıncı var - dövlətini itirmiş, ac, millətindən asılı olmayaraq bütün insanlara dərin nifrət hissi bəsləyən bu dəstəni tamamilə məhv etmək böyük çətinliklərlə müşahidə olunur. Eyni zamanda yerli hökümət üçün bu, ona görə çətindir ki, hər gün onların sayı artır, belə ki, onlara Sürməlik və Eçmiədzin mahallarından qaçan ac qaçqınlar da qoşulur.

Yuxarıda deyilənlərə görə Sizin rayonda 7 müsəlman kəndinin dağıdılması haqda göndərdiyiniz ultimatum məni çox təəccübləndirir, belə ki, bu iş nə məna və nə şərtlərinə görə ümumiyyətlə ədalət qanunlarına uyğun gəlmir.

Düşünün ki, əgər Siz və biz itaətkarlıq göstərən köməksiz dinc əhalini qarət və talan etsək nəticəsi nə ola bilər və nəyin naminə bu vəhşiliklər törənməlidir. Bizim Xanlıqlar kəndində 4000 və Təzəkənddə 2000, digər kəndlərdə yaşayan çox saylı ermənilər biz tərəfdən hər cür tədbirlərlə qorunub, həmçinin deyilən dəstənin qarətçilik hərəkətlərinin qarşısını almaq üçün bütün tədbirlər görülür, Sizi əmin edirəm ki, mən şəxsən bütün qüvvə və bacarığımı Oxci rayonunun qaçqınlarından təşkil olunmuş həmin dəstənin qarətedici fəaliyyətlərinin qarşısını almağa sərf edəcəyəm və Ermənistanda yaşayanların həyatını qorumaq üçün bütün tədbirləri görəcəyəm.

***Cənubi - Qərbi Azərbaycanın General Qubernatoru.***

Əsli ilə düzdür: (imza)

---

NMRDA. 314 - 5.

## ORDUBAD HADİSƏLƏRİ HAQDA

Novruz bayramının birinci günü, 21 martda səhər saat 10-da 10.000 nəfərdən artıq erməni silahlı qüvvələri qəflətən Düylün, Vənənd, Vələver, Xanağa, Beksar, Ağrı və Dizə kəndlərinə hücum edərək, həmin kəndləri tutaraq onları yandırmış və indi Ordudada hücum edir. Naxçıvandan ordubadlıların köməyinə Ədib bəyin komandanlığı altında 800 adam göndərilib ki, onlar Ordubad yolunu kəsən Aza kəndi yanında erməni qüvvələri ilə vuruşurlar. Ordubadı böyük təhlükə gözləyir. Ordubadla telefon əlaqəsi kəsilib və indi Aza tərəfindən top atəşi səsləri gəlməkdədir. Dəqiq mənbələrdən xəbər verirlər ki, 10.000 adamdan çox erməni qüvvələri Düylün, Vənənd, Vələver, Xanağa, Dizə, Ağrı və digər kəndləri tutaraq məhv etmiş və insanları doğramışlar. Ordubada hücum edirlər. Ordubadın da taleyi göstərilən kəndlər kimi olacağı təhlükəsi var. İndi Ordubad və dağılmış kəndlər ermənilərdən təmizlənib. Həm müsəlmanlar, həm də ermənilər tərəfindən böyük itkilər var. Ordubadda bir neçə ev dağıdılıb. Ermənilər şəhərə girə bilməyiblər, ordubadlılar yaxşı müdafiə olunurlar və ermənilərə böyük itki vurublar. Ordubadda ölən yoxdur, yaralılar var, o cümlədən Qəniyev, Rzayev də yaralanıb. Aşağıdakı kəndlər yandırılıb. Düylün, Vənənd, Vələver, Deksar, Unus, Xanağa, Dizə, Ağrı, Gənzə, Anabad, Əylis, Varapert, Kilit və Kotam.

---

***Borba qəzeti, 15 aprel 1920-ci il, №83.***

**Şifrələnmiş teleqram**
**Göndərilib 3 may 1919**
**№ S/35**

## TİFLİS

Diplomatik Missiya, Xarici işlər naziri Cəfərova.

Təkinskidən aldığınız teleqramın mətni: General Milnin Naxçıvana səfəri gözlənilir, bununla əlaqədar Ermənistan 3 mayda bəyan edəcək ki, Ermənistan da Qarsda olduğu kimi İttifaq Missiyasının razılığı ilə Naxçıvanı zəbt edəcək. Bu bəyanatda həmçinin müsəlmanların eyni hüquqlu olmaları barədə

ermәni xalqına vә ordusuna müraciәt dә var. Bizim zabitlәr ingilislәrin әmri ilә Naxçıvanı tәrk edib . Hesab edirәm ki, bu barәdә etirazınızı bildirmәlisiniz.

*Xarici işlәr nazirinin müavini.*

---

NMRDA. 314 - 5 - 74.

**Erevandan şifrәlәnmiş teleqram. 01499, 277:20, 16, 30 Alınıb. 21 iyun 1919**

**T ә c i l i**

**B A K I**

**Xarici İşlәr Nazirinә**

1695 №-li teleqramınıza cavab Naxçıvan - Şәrur, Vedibasar, Şahtaxtı rayonları ermәni qoşunlarının әlindәdir, idarә ermәnilәrin әlindәdir. Naxçıvan Milli Şurası İttifaq komandanlığına bildirmәyimi xahiş edir ki, Ermәnistan hökumәti general Devi vә Xatisovun verdiyi sözlәrә әmәl etmәyәrәk, axtarışlar aparır, mebel, silah, taxta vә s. әşyaları musadirә edir vә ittifaq komandanlığından xahiş edir ki, bu cür qanunsuz hәrәkәtlәrin qarşısı alınsın. Culfa ermәnilәrin әlindәdir. Naxçıvan Şurasının xahişini yerinә yetirmәyimi mümkün hesab edәrsinizmi? Ordubad hәlә ermәnilәri buraxmır. Bu haqda Ordubadlılar 2 gün bundan әvvәl açıq şәkildә ermәnilәrә bildiriblәr. Müsәlman qoşunları buraxılıb. № 184

***Diplomatik nümayәndә Tәkinski.***

---

NMRDA. 314 - 5 - 74.

**Şifrәlәnmiş teleqram, göndәrilib 8 iyul 1919**
**Mәxaric № 1999**

**E R İ V A N**

Azәrbaycanın Diplomatik nümayәndәsi Tәkinskiyә
Bu saat Tiflisdәn iki teleqram alınmışdır

Birinci:

Bu barәdә Vedibasarda gedәn qanlı vuruşmaları öz gözlәri ilә görәn çox mötәbәr, inamlı adamlar gәlmişdir. Nağıl edirlәr ki,

erməni cəllad ekspedisiyasının burada etdikləri dəhşətlər nələr gətirir. Hazırda döyüş davam etdirilir. Belə hallar da olubdur ki, qatarlardan müsəlman sərnişinlərini çıxarıblar, ancaq onların taleyi hələ bəlli deyil. Məsələn, Qəmərli dəmiryol stansiyasında dörd nəfəri bu məqsədlə çıxarıblar. Xalqın hiddətlənən vicdanı tələb edir ki, Əli Səbri Qasımovun haqqında istintaq addımı atılsın və ona qarşı qaldırılan cinayət işi dayandırılsın .

İkinci:

Şərur - Naxçıvan tərəfdə ermənilər repressiyaya başlamış və kütləvi surətdə həbslər başlamışdır. Heç bir müqəssirlik elan edilmədən belə təsirli şəxslərdən Mirzalı Bəy Bektasovu, Hüseyn Ağa Novruzovu və Cəfər Bəy Erivanskini, Teymur Həsən Kazımovu Naxçıvandan Aleksandropola aparmışlar. Hər iki xalqın mənafeyi naminə xahiş edirik avantüraya, fırıldağa cəlb olunan Əli Səbri Qasımovun qəti azad olunması haqqında tədbir görəsiniz .

Xahiş edirəm, faktları yoxlayasınız və təsadüfən təsdiq etmək üçün Ermənistan hökuməti qarşısında təsirli addımlar atasınız ki, gələcəkdə bu faktlar bir də təkrar olunmasın və göstərmək lazımdır ki, onların etdikləri bu hərəkətlər hər iki xalqın mehriban qonşu münasibətlərinin qurulmasına və möhkəmlənməsinə kömək etməz. Məgər Ermənistan hökuməti bunumu gözləyirmiş?..

*Xarici işlər naziri /imza/*

---

NMRDA. 314 - 5 - 74.

**Erevandan şifrələnmiş teleqram, verilib. 1919-cu il mayın 29-da Teleqram alınıb: 30 may 1919-cu il tarixdə Daxil olma № 1511.**

**Xarici İşlər Nazirinə.**

105 nömrəli Azərbaycan qəzetində belə bir yazı dərc olunmuşdur ki, Naxçıvan əhalisi erməni qoşunlarını mehribanlıqla qarşılamışlar.

Şərur - Naxçıvan rayonları ancaq ingilislərin tələbinə tabe olmuşdur. Kalbalıxan Naxçıvanski Xatisovun (ingilis generalı) dəvətinə gəlmədi, ərz elədi ki, o Ermənistanı tanımır. Xan ancaq ingilis generalı Devinin dəvətinə gəldi və burada general

ona bildirdi ki, rayon Ermənistana birləşir. Xan cavab verdi ki, o ancaq ingilislərin tələbi ilə hesablaşır. Müsəlmanlar erməniləri baykot edirlər və inzibati yerləri zəbt etmək haqqında təklif edilən dəvəti rədd edirlər. № 30

*Diplomatik nümayəndə Təkinski.*

Düzdür /imza/

---

NMRDA. 314 - 5 - 74.

**Tiflisdən teleqram 4199/5, 101, 25/6, 16/30.**
**Teleqram alınıb 28 iyunda**

**Xarici İşlər Nazirliyi, 28 iyun 1919-cu il**
**Daxil olma № 1891**

**B A K I**

**Azərbaycan Respublikasının Baş Nazirinə**

Alınan məlumatlara görə Naxçıvanda, Şərurda, Ordubadda erməni hökuməti tərəfindən müsəlman xadimlərinin həbs olunması artıq başlanmışdır. Hər addımda müsəlmanların evləri axtarılır bəhanə sıxışma edir, əmlaklarını müsadirə edirlər. Erməni hökümətinin belənçi çıxışı həmin rayonlarda əhali arasında qanun - qaydalarının açıqcasına pozulmasına səbəb olur, həm də erməni hökümətinin nizami ordusu tərəfindən müsəlman kəndləri Naxçıvandan altı verst uzaqla olan Bulqan kəndi də atəşə tutulmuşdur.

Bir verst = 400 metr

Erməni qoşunlarının qırğınından çıxaraq əhali panikaya düşmüş, açıq havaya toplanmışlar.

Yuxarıda qeyd olunanları Sizə məruzə edərək xahiş edirəm ki, erməni hökümətinə bizim ehtirazımızı elan edəsiniz, eləcə də ingilis komandanlığına çatdırasınız ki, erməni hökümətinin bu qəti heç bir qanuna sığmayan əyinti hərəkətinin qarşısını almaq üçün ciddi tədbir görsün. Əgər bu bir həftə belə yubadılsa, onda bu, müsəlman kəndlərinin dağıdılmasının əsas səbəbi olacaqdır.

*Erevan quberniyası Şeyxov.*

---

NMRDA. 314 - 5 - 71.

Ermənistan Respublikasının Xarici İşlər Nazirinə.
Surəti: Astraxandan Moskvaya Çiçerinə
Surəti: Ermənistanın Gürcüstandakı Diplomatik Nümayəndəsi Baxradyana, Tiflis.
Surəti: Tiflis, Gürcüstandakı RSFSR - nin Səlahiyyətli Nümayəndəsi Kirova.

Alınmış məlumata görə Ermənistan hərbi hissələri Zəngibasarı darmadağın edəndən və onu müsəlman kəndlilərindən təmizlədikdən sonra Naxçıvan - Şərur rayonuna hücum ediblər. Digər tərəfdən indi alınan məlumata görə nizami erməni hərbi hissələri Qazax mahalında da hücuma keçiblər və səhər saat dörddə beş iyul tarixdə Qaraqışlaq kəndini zəbt ediblər.

Ermənistan hökümətinin belə təcavüzkar hərəkətləri 2 iyulda Qazax şəhərində Azərbaycan və Ermənistan Respublikası arasında bütün mübahisəli məsələləri sülh yolu ilə həll etmək barədə əldə olunan razılığa kökündən ziddir.

Mənim hökümətim Sovet Azərbaycanına qarşı bütün bu hadisələrə açıq hərbi hərəkət kimi baxmaya bilməz və tələb edirik ki, erməni hərbi hissələri tərəfindən olan bütün hücumlar təcili dayandırılsın.

Əks halda mənim hökumətim ikisi iyulda baş verən razılaşmanı dayandıracaq və sonrakı hərəkətlərində özünü sərbəst hiss edəcək.

***Tiflis 6 iyul 1920 - ci il № 38.***

***ASSR Xarici işlər üzrə Xalq Komissarı və Fövqaladə Səlahiyyətli nümayəndə Hüseynov.***

---

NMRDA. 314 - 5 - 12.

**İrəvan quberniyasında müsəlman qaçqınlarının vəziyyəti**

Hazırda Bakıya İrəvandan Vedi-Basar və Şərur-Naxçıvanda müsəlman qaçqınlarının vəziyyətini xarakterizə edən məktub alınıb. Məktubun məzmunu belədir: "Ermənilər tərəfindən İrəvan, Sürməli, Eçmiədzin qəzalarının müsəlman kəndlərinin vəhşicə-

sinə dağıdılması nəticəsində, həmin qəzalardan Vedibasar və Şərur-Naxçıvana çoxlu sayda qaçqın axışıb. Tibbi və maddi yardımın olmaması nəticəsində köhnə və yeni qaçqınların vəziyyətini təsvir etmək belə mümkün deyil. Aclıq, xəstəlik və sanitar şəraitin olmaması onlara pis təsir edir. Hər gün yüzlərlə qaçqın ölür. Analar çarəsizlikdən öz övladlarını əzabla acından ölməkdən qurtarmaq üçün onları boğub öldürür ya da qayadan atırlar. Atalar sevdiyi insanların acından ölməsini görməmək üçün öz ailələrini atıb, uzaqlara qaçırlar". Məktubun müəllifinin yeməksiz, paltarsız, ayaqqabısız, köməksiz qalmış, yanmış kəndlərin palçıqlı küçələrində dolanan solğun bənizli, arıq, cır-cındır içində olan qocaların, uşaqların və qadınların çəkdiyi əzabları təsvir etməyə gücü çatmır. Vedibasardan Ordubadadək hal-hazırda olan qaçqınların sayı 70000-ə yaxındır, və əgər pis bir zamanda maddi yardım gəlməzsə, onların 99%-i ölümə məhkumdur. Təcili olaraq çörək, dərman və pul yardımı göstərmək lazımdır.

Məktuba 1919-cu ilin son iki ayında ermənilər tərəfindən dağıdılmış müsəlman kəndlərinin siyahısı əlavə edilib:

Eçmiədzin qəzasında: Hacılar, Molladursun, Tors, Qaraqumlu, Ağca-Qala, Kirannı, Qaramlı, Yayarlı, Patrınc, Ucan, Kovş, Avan, Qarağalar, Mağda, Diyan, Talış Ağarak, Bağcaçıx, Karvansara, Yaşıl, Yuxarı Ağca-Qala, Aşağı Ağca-Qala, Yuxarı Qaraqommaz, Aşağı Qaraqommaz, Yeşnək, Mehriban, Çıxacı, İrind, Talın, Pir Maqax, Pir Tikan, Aralıx, Ağancı, Quludərviş, Quytul, Yerqov, Qaşa-Bulaq, Kətanlı, Pərsi, Ənirsaq, Umu, Kiçik-kənd, Naçrəvan, Təkiyə, Parnı, Zeynal-bulağı, Zeyvə, Qulu-bəy, Qulu-bəy-2, Ağca-Ark, Kərim Ark, Canfida, İqdalı, Urmudlu, Molla-Bədəl, Küzuvand, Türkmənli, Kolanlı, Səfiabad, Kəmərli, Qarğabazar, Yuxarı Qarhun, Aşağı Qarhun.

Sürməli qəzasında: Yaycı, Oba, Küllük, Axməmməd, Qasımcan, Arpakirli, Quz Ovudan, Sarı çoban, Ağavər, Sürməli, Qazançı, Nəcəfəli, Amarat, Mələklü, İğdır Mava, Sultan Abad, Ar Hacı-1, Ar Hacı-2, Ar Hacı-3, Qaraqoyunlu, Zülfüqar, Hüseyn kəndi, Səfər Qulu, Şiracı, Heyğalı, Xaraba Əlican, Bayat, Hacılar, Cənnət Abad, Aşağı Dizə, Yuxarı Dizə, Həsən xan, Qıraş bağ, Öküzlü, Qızıl Zakir, Kurbaklı, Dərə kəndi, Parpı, Təpə başı.

Erivan qəzasında: Zəngibasarınkılardan başqa hamısı dağıdılıb.

NMRDA. 314 - 5 - 71.

**Ermənistan Respublikası Xarici İşlər Nazirinə.**

1918-ci ilin yanvar ayından Erivan quberniyasına türklərin gəlişinədək, həmin quberniyada üç yüzdən artıq kənd dağıdılıb, həmin kəndlərin əhalisinin əksəriyyəti öldürülüb. Türklərin gedişi və Müttəfiq Dövlətlər qoşunlarının Qafqaza gəlişi ilə Azərbaycan xalqı ümid edirdi ki, Erməni hökümətı sülh və sakitliyin bərqərar olunması naminə müsəlman qırğınının qarşısını alacaq. Lakin türklər Erivan quberniyasını tərk etdikdən sonra 1918-ci ilin dekabrında Sasun polku tərəfindən Erivan qəzasının Qarağac və Vediçay kənd icmaları silahsızlandırılıb, Qadılı, Şahablı, Qarağac, Dəhnəz, Qarabağlar, Ağası-bəyli və s. kəndləri dağıdılıb, əhalisi isə tamamilə məhv edilib. Milli Dərəsi rayonunun da bir sıra kəndlərinin müsəlmanlarının aqibəti belə olub. Həmin vaxtda erməni qoşunları Yenibəyazit qəzasının Basarkeçər rayonunu mühasirəyə alıb, Qızıl - Van, Subatan, Zağalı, Şahab və s. kəndlərdə müsəlmanları qırıblar, uşaqları təndirlərdə yandırıblar. Adı çəkilən rayonların, həmçinin Eçmiədzin və Sürməli qəzalarının müsəlmanlarını qırdıqdan sonra Ermənistanın xarici işlər naziri Tiqranyan 1919-cu ilin fevralın 2-də Parisə erməni deleqasiyasının adına Zaqafqaziya müsəlmanları tərəfindən erməni xalqını gözləyən təhlükə barəsində teleqram göndərib, deleqasiya isə Tiqranyanın teleqramı əsasında memorandum hazırlayıb və həmin memorandum fransız jurnalı De Deba da çap olunub. Azərbaycan hökümətı dəfələrlə törədilən vəhşiliklərə etirazını bildirib və öz notalarında Ermənistandakı müsəlmanların ağır vəziyyətini qeyd edib, lakin Ermənistan hökümətı müsəlmanların vəziyyətini yaxşılaşdırmaq üçün heç bir tədbir görməyib, bununla yanaşı bəyan edib ki, Ermənistan hökümətı üçün ağ və qara sümüklü insan yoxdur, həmin bəyanatı 6 avqust 1919-cu il 3092 №-li notasında da edib. Həmin nota təqdim olunan gün erməni inzibati idarəsi erməni milisinin iştirakı ilə Eçmiədzin, Yenibəyazit, Sürməli, Erivan qəzalarının müsəlmanlarını qırmağa başlayıb. Ölümdən qurtaranlar və Müsəlman Milli Şurası xəbər verdilər ki, avqustun 17-dən Eçmiədzin qəzasının Canfida kəndinə yerli komissarın başçılıq etdiyi milis daxil olub, qadınları, kişiləri və

uşaqları ayıraraq bütün əmlaklarını qarət edib, Kərim-Arx kəndinin müsəlmanlarından aldıqları dəvələrlə aparıblar. Qarəti qurtardıqdan sonra milislər kişiləri Araz çayına apararaq orada öldürüblər. Canfida kəndindən sonra erməni milisi Kərim-Arx kəndinə yollanıb, buradakı müsəlmanların da aqibəti eyni olub. 17 avqustdan 31 avqustadək olan qısa müddət ərzində Erməni inzibati idarəsi tərəfindən Eçmiədzin, Sürməli, Erivan və Yenibəyazit qəzalarının 50-yə yaxın kəndi dağıdılıb. Bu cür vəhşiliklər Ermənistan parlamentinin üzvü olan sosialist-inqilabı partiyasının nümayəndələrini Ermənistan parlamentinə aşağıdakı məzmunlu sorğunu verməyə məcbur etdi: Parlamentin sədri cənablarına. Xahiş edirik daxili işlər naziri cənablarına aşağıdakı sorğunu verəsiniz. Cənab Nazirə məlumdurmu ki, son üç həftə ərzində Ermənistanın ərazisində Erivan, Eçmiədzin, Sürməli qəzalarında bir sıra tatar kəndi, o cümlədən Polşakənd, Təkərli, Qorux-Günə, Ulamik, Ərzəkənd cəmiyyətinin Ağaverən, Dələlər, Purnus, Əlibəy, Eçmiədzin qəzasının Canfida, Kərim-Arx Ağcar, İqdalı, Qarhun, Kelan və Aralıx kəndləri və bir sıra başqa kəndlərdən tatarlar təmizlənib, onlar qarət olunub və öldürülüb. Yerli inzibati orqanlar nəinki bunlara mane olmayıb, hətta özləri də bu hadisələrdə iştirak edib. Bu hadisələr qarət və hərcimərcliyə nifrətlə baxan yerli əhaliyə ağır təəssurat bağışlayıb. Yerli əhali qonşuları ilə sülh münasibətlərin bərqərar olunmasını və günahkarların layiqincə cəzalandırılmasını istəyir. Əgər bütün bunlar daxili işlər nazirinə məlumdursa, onda nə üçün o bu qanunsuzluqların və vəhşiliklərin qarşısını almır. Ermənistan parlamentinin sosial-inqilabçılar fraksiyası. Sürməli, Eçmiədzin, Yenibəyazit və Erivan qəzalarında Azərbaycan xalqının mütəmadi olaraq Ermənistan inzibati orqanları və Erməni qoşun hissələri tərəfindən qırılması bütün Azərbaycan xalqının müddətinin günügündən artmasına səbəb olur. Azərbaycan hökuməti törədilən vəhşiliklərə dərindən narazıdır və Erməni hakimiyyətini baş verə biləcək hadisələrdən cavabdeh tutaraq qəti etirazını bildirir, əmindir ki, Erivan quberniyasındakı müsəlmanlara qarşı törədilən vəhşiliklərə qarşı qəti tədbirlər görüləcək.

***Azərbaycan Respublikası Xarici İşlər Naziri.***

---

NMRDA. 314 - 5 - 71.

# MÜNDƏRİCAT

*YANDI BAĞRIM, DÖNDÜ KÖZƏ*..............................*3*

*MÜQƏDDİMƏ* ..........................................................*6*

Soyqırım ........................................................8

Abbasqulu bəy Şadlinski və silahdaşları .......................72

Erməni vəhşiliyi sənədlərin dili ilə ............................155

*Mündəricat* ........................................................*185*

**Fəxrəddin Cəfərov.**
**Erməni vəhşiliyi.**
Bakı. "Nurlan". 2009.

| | |
|---|---|
| **Nəşriyyatın direktoru:** | ***Nadir Məmmədli*** |
| **Nəşriyyat redaktoru:** | ***Natiq Abbasov*** |
| **Kompüterdə yığdı:** | ***Aysel Cəfərova*** |
| **Kompüter tərtibçisi və texniki redaktoru:** | ***Ramin Abdullayev*** |

Kağız formatı: 60/84 1/16
Mətbəə kağızı: №1
Həcmi: 11,75 ç/v
Tirajı: 500
Qiyməti müqavilə ilə.

**Kitab "Nurlan" NPM-də**
**hazır diapozitivlərdən çap edilmişdir.**

| DÜZƏLİŞ | | |
|---|---|---|
| səh. | səf: | düz: |
| 10 | arsında | araşında |
| 21 | Qrabağlar | Qarabağlar |
| 40 | Republikası | Respublikası |
| 67 | hərəktsizliyi | hərəkətsizliyi |